AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# FOLKLOR VƏ DÖVLƏTÇİLİK DÜŞÜNCƏSİ

## II kitab

BAKI – 2017

AMEA Rəyasət Heyətinin 21 fevral 2015-ci il tarixli, 5/3 saylı qərarı ilə tövsiyə edilmiş elmi tədqiqat proqramı ("Türk xalqlarında dövlət simvol, etiket, mərasim və bayramlarının folklor baxımından genezisi") çərçivəsində nəşr olunur.

**Layihə rəhbəri:** **Muxtar KAZIMOĞLU (İMANOV)**
AMEA-nın həqiqi üzvü

**Folklor və dövlətçilik düşüncəsi. II kitab.** Bakı, Elm və təhsil, 2017, 260 səh.

folklor.az

F $\frac{4603000000}{N-098-2017}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2017

# QƏDİM TÜRK MİFOLOJİ-FOLKLOR İRSİNİN ARAŞDIRILMASINDA VƏ TƏBLİĞİNDƏ AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ROLU

**Ramazan Qafarlı**
ramazanqafar@yandex.ru

## THE ROLE OF AZERBAIJAN NATIONAL LEADER HEYDAR ALIYEV IN ANALYZING AND PROMOTING OF THE ANCIENT TURKIC MYTHOLOGY-FOLKLORE HERITAGE

SUMMARY

The promotion of Turkic mythology-folklore heritage and folk traditions are the basis of moral concept of Heydar Aliyev, the national leader of Azerbaijani people. He gave special attention to the development of folk art. In the article the great leader's activities, statements and his conclusions dealing with "The Book of Dede Korkut" are given. And his services in identification of the place of this epos and its historical importance are analyzed.

***Key words:*** national leader, mythology-folklore heritage, moral integrity, epos, folk creativity, ceremony, Novruz holiday.

## РОЛ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА АЗЕРБАЙДЖАНСКОГО НАРОДА ГЕЙДАР АЛИЕВА В ИЗУЧЕНИИ И ПРОПАГАНДЫ ТЮРКСКОГО МИФОЛОГИЧЕСКО-ФОЛЬКЛОРНОГО НАСЛЕДИЯ

РЕЗЮМЕ

Пропаганда тюркского мифологическо-фольклорного наследия и культура народного творчества зани-

мает особое место в концепции морального становления общенационального лидера Гейдара Алиева. Одной из великих заслуг Гейдара Алиева в сфере морального развития является возвращение нашему народу национальных ценностей.

В статье изучаются мысли и рассуждении Общенационального лидера Гейдара Алиева, связанные с эпосом «Книга-Деде Коркута». Общенациональный лидер Гейдар Алиев оценил этот памятник истории нашего народа как особый источник, формирующий моральные основы идеологии азербайджанства.

***Ключевые слова:*** Общенациональный лидер, мифологическо-фольклорная наследия, моральное становление, эпос, народное творчество, ритуаль, праздник «Новруз»

1969-cu ildən üzü bəri elə bir tarixi və mədəni əhəmiyyətli hadisə yoxdur ki, onun düzgün istiqamət almasına Heydər Əliyev dühasının az da olsa işığı düşməsin. Tanıdığımız dövlət xadimləri müasir dünya siyasəti qarşısında on-on beş ildən artıq duruş gətirə bilməyiblər, meydanı çox hallarda biabırçı şəkildə tərk edib, qazandıqları nüfuzu da əldən veriblər və bu gün ömür sürmələrinə baxmayaraq yaddaşlardan siliniblər. Belələrinin uzun siyahısı durur gözlərimiz önündə. Çünki son 40 il həm də mənim yaşıdlarımın ömür payına düşən dövrdür. Mürəkkəb, qarmaqarışıq hadisələr axınında yalnız Türk dünyasının böyük siyasətçisinin – Heydər Əliyevin xalq tərəfindən həmişə dəstəkləndiyinin və siyasət meydanından getmədiyinin şahidi olmuşuq. Heydər Əliyev on beş müxtəlif milləti zorla birləşdirib dünya hegemonluğu iddiasında olan Sovetlər birliyində parlayaraq dünyada tanınmışdır.

Keçmiş SSRİ-nin siyasi rəhbərliyi, istəsə də, istəməsə də, tarix boyu başqa xalqların övladlarının dövlət kürsülərinə qalxmasına maneçilik törədib. O ki qaldı müsəlman və türk Azərbaycanından çıxan bir şəxs olsun. Heydər Əliyevin bacarığı, hərtərəfli biliyi, natiqliyi, təşkilatçılığı, cəsarəti o qədər böyük olub ki, bütün səddləri yarıb keçib. Təsadüfi deyil ki, türk oğlunun keçmiş Sovet imperiyasında yüksək dövlət vəzifəsini tutması xəbəri dünyaya yayılanda Türkiyədə və bir çox müsəlman ölkələrində bayram keçirilib. Onun şərəfinə ziyafətlər düzəldilib. Biz onda bu şəxsiyyətin nəhəngliyini dərk etmirdik, adi bir şey kimi baxırdıq. İndinin özündə də onun gördyü işlərin tarixi qiymətini düzgün dərk etməyənlər var. Müasir dünya siyasətindən boğazdan yuxarı dəm vuranlar az qala özlərini göyün yeddinci qatında hiss edirlər və Azərbaycan adlı ölkəni dünyada tanıdan şəxsin kölgəsinə daş atmaqdan çəkinmirdilər.

Dövrün ziddiyyətlərindən baş çıxarıb zamanla ayaqlaşan tədbirlərə əl atmaq hər adama nəsib olmur. Doğrudur, bəzən bütün xalqın ayağa qalxmasından yaranan kütləvi hərəkatın önünə düşüb ad-san qazananlar tapılır. Sovet imperiyasının və ermənilərin Azərbaycana yönələn düşünülmüş xəyanətindən lərzəyə gələn yurddaşlarımızı coşğun dağ çayına bənzətmək mümkündür. Üzü aşağı böyük sürətlə gəldiyi üçün köpüklü sular qabağına çıxan quru ağac kötüklərini, daş-çınqılı, çör-çöpü ağuşuna alıb irəli aparır. Düz yerə çatanda isə qəzəbi soyuyur, durulur, gətirdiyi zir-zibil suyun üzünə çıxır. Sanki sular neçə kilometr yol qət edərək çiyinlərində daşıdıqlarının boşluğunu, əhəmiyyətsizliyini görüb xəcalət çəkir. Xalq hərəkatının kortəbii dalğasında meydana tullanan liderləri məhz təbiətin bu hadisəsi ilə müqayisə etmək olar. Çığır-bağır salıb özlərini

böyük «lider» sayanlar sabitlik yaranan kimi qına girdilər. İrəli sürdükləri məsələlərin bircəciyini də həyata keçirə bilmədilər. Ölkəni bərbad kökə salıb öz başlarını bəladan qurtarmaq üçün məhz Heydər Əliyevin böyüklüyünə, siyasi ağlına və qeyrətinə sığındılar. Həyat sübut etdi ki, əsl siyasətçi xalqın qəzəbindən faydalanıb vəzifə arzusuna düşməz. Sağlam düşüncəsi, əməlləri, qurub-yaratmağı ilə insanları özünə inandırandan sonra hansısa iddia ilə meydana girər. Yalnız dövlətçilik ənənəmizi Allah vergisi kimi qəbul edib əməllərində yaşadan Heydər Əliyevin təcrübəsini öyrənməklə müstəqil Azərbaycanı inkişaf etdirmək, irəli aparmaq mümkündür.

Bütün canlılardan fərqli olaraq Allah-taala insanlara dərin zəka, fəhm verib. Geriyə baxmaq, keçdiyi yola, gördüyü işlərə qiymət vermək, səhvlərindən nəticə çıxartmaq, nöqsanlarını aradan götürmək bacarığını bəxş edib. Biz bu bacarıqdan istifadə edərək yaşadığımız həyata, keçdiyimiz yola dönə-dönə nəzər salırıq: bu günümüzü qiymətləndirir, sabahımız, gələcəyimiz üçün yol seçirik. Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövlətinin çiçəkləndiyi günlərdə bir növ geriyə boylanır, kecilmiş yola qiymət verməyə calışırıq. Və bu zaman, təbii ki, böyük bir həyatın, tamamilə xalqa həsr edilmiş işıqlı bir ömrün mənalı illərini görür və düşünürük. Bu böyük ömrün zəhmət dolu illəri bir kino lenti kimi gözlərimiz qarşısından gəlib keçir. Bu ömrün hər ili, hər ayı, hətta hər günü və saatı da xalqımızın, ölkəmizin ömrü ilə elə qaynayıb-qarışıb, biri digərini elə tamamlayıb ki, onları bir-birindən ayırmaq mümkün deyil. Bu ömür xalq üçün yaşanıb, elin-obanın taleyi ilə qovuşub.

Tarix Türk dünyasına daim böyük şəxsiyyətlər bəxş etmişdir. XX əsr də istisna deyil. Bu əsr dünyaya iki böyük türk

dövlət başçısı, ictimai və siyasi xadimi bağışlayıb. Onlardan biri əsrimizin birinci yarısında Türkiyəni parçalanmaqdan, bir dövlət kimi məhv olmaqdan xilas edən Mustafa Kamal Paşa Atatürk, digəri isə əsrimizin ikinci yarısında meydana çıxan və Azərbaycan Respublikasını parçalanmaqdan, məhv olmaqdan xilas edən, onun müstəqilliyini qoruyub saxlayan böyük siyasətçi, diplomat, xalq tərəfindən dərin məhəbbət və səmimiyyətlə sevilən dünya şöhrətli Heydər Əliyevdir.

Cavahirləl Nehru həbsxanasından qızı İndira Qandiyə yazırdı ki, «Mustafa Kamal 600 illik Osmanlı imperiyasını yer üzündən silməyə calışanlara qarşı çıxıb külə dönmüş Türkiyəni ayağa qaldırdı». O, Hind xalqına dünya tarixində baş vermiş qlobal hadisələrə nəzər salmağı tövsiyə edərkən məhz Atatürkü nümunə götürüb ölkəni müstəmləkəçilikdən xilas etməyin yollarını göstərdi. Dünya çempionu olmuş bir şahmatçı isə müsahibələrinin birində deyirdi ki, əgər bütün ölkələrin siyasi liderlərini şahmat taxtası önünə çıxartsan, hamısı Heydər Əliyevin siyasi gedişləri qarşısında mat vəziyyətinə düşər. Yəqin ki, XX əsrin son ilində Atatürkün adını daşıyan Beynəlxalq mükafata Heydər Əliyevin layiq görülməsi təsadüfi deyildi.

Tariximiz, taleyimiz üçün sınaq günlərində xalqımıza Heydər Əliyev kimi fövqəladə istedada malik şəxsiyyət bəxş etməsini Tanrının həmin bizim xalqa böyük məhəbbətinin ifadəsi kimi qəbul etmək olar. Yaşlı nəslin yaxşı yadındadır: 1969-cu ildə Heydər Əliyev rəhbərliyə gələn kimi respublikada böyük bir canlanma baş vermişdi: elə bil yatmış bir nəhəng yuxudan oyanmışdı. Zavodlar, fabriklər tikilir, yeni iş yerləri açılırdı. Hərtərəfli qayğı ilə əhatə olunmuş mədəniyyət çiçəklənir, ədəbiyyatımız, musiqimiz dünya miqya-

sına çıxırdı. Kənd təsərrüfatı sahəsindəki inkişaf ailələrə rifah, firavanlıq gətirirdi.

Ömrüm boyu elm və təhsil sahəsində çalışdığım üçün bu sahədəki dəyişikliklər məni xüsusi sevindirdi. İnsanlarda savadlanmağa, biliyini – ixtisasını artırmağa bir stimul yaranmışdı. Tarlada, çöldə çalışan zəhmət adamları, xərüqələr göstərən əməkçilərin əksəriyyəti Kənd Təsərrüfatı İnstitutunda təhsil alırdılar. Müntəzəm olaraq hər il 100 nəfər gəncin İttifaqın böyük şəhərlərinin qabaqcıl ali məktəblərinə göndərilməsi ixtisaslı kadrlar hazırlanmasında çox müsbət rol oynayırdı.

Heydər Əliyev özünəməxsus böyük uzaqgörənliklə Azərbaycanın müstəqil olacağı günü düşünür və bunun üçün müəyyən tədbirlər həyata keçirirdi. Bu böyük şəxsiyyət riskə gedərək bir növ dövlət içərisində dövlət qururdu. Keçmiş SSRİ kimi hərbi-siyasi qüdrətə malik bir dövlətdə C.Naxçıvanski adına Hərbi Məktəb təşkil etmək əsl vətəndaşlıq qeyrətinin bəhrəsi idi. Respublikamızda hərbi mütəxəssislərin yetişdirilməsinə xidmət edəcək bu addımın atılmasında böyük maneələrlə üzləşsə də, kifayətlənməyərək bir qədər sonra Zaqafqaziya respublikaları arasında ilkin olaraq N.Tusi adına ADPU-nun «İbtidai hərbi və fiziki təlim» fakültəsinin açılmasına nail oldu. Paralel surətdə o vaxtlar Azərbaycandan SSRİ-nin müxtəlif hərbi məktəblərinə ildə 700-800, hətta bəzən 1000 nəfər göndərilir, hərbi sənətin müxtəlif sahələrinə istiqamətləndirilirdi. Bütün bu tədbirlərin nəticəsidir ki, hazırda Milli Ordumuzda yüksək hazırlıqlı zabitlər var. İndi döyüş bölgələrində düşmənlə üz-üzə dayanan yüksək rütbəli, hazırlıqlı hərbi zabitlərin əksəriyyəti bu təhsil ocaqlarının məzunlarıdır.

Elə bircə xidməti – Milli ordumuzun yaradılmasında həlledici rol oynayan bu addımı Heydər Əliyevin adının

Azərbaycan tarixinə qızıl hərflərlə yazılması üçün kifayət idi. Halbuki, o, bütün sahələrdə fenomenal dəyişikliklər etmiş, ölkənin istənilən sahəsini yüksək inkişaf yoluna istiqamətləndirmişdi.

Fransız yazıçısı Viktor Hüqo yazır ki, «Xalqın böyüklüyü onun sayı ilə ölçülmür. Buna uyğun olaraq insanın böyüklüyü də onun boyunun ucalığı ilə müəyyənləşmir. Bunun üçün ağıl, şan-şöhrət və cəsarət yeganə ölçüdür. O adam böyükdür ki, hər işində böyük nümunə göstərir». Bu mənada ümummilli liderimizin hər əməli bizim üçün örnək deyilmi?

Heydər Əliyevin mədəniyyətə, ədəbiyyata qayğısı, bu sahəni daim öz himayəsi altına alması, sənət adamlarına böyük diqqəti hamının gözü qarşısında baş vermişdi. Təsədüfi deyil ki, Sovetlər Birliyində altı-yeddi milyonluq əhalisi olan Azərbaycanda sənət adamlarından səkkiz nəfəri Sosialist Əməyi Qəhrəmanı adını almışdı. Nə qədər SSRİ xalq artisti, SSRİ dövlət mükafatı laureatı var idi. Bunların hamısı Heydər Əliyevin milli marağa söykənən şəxsi təkidi və yaxından iştirakı sayəsində olmuşdu. Danışırlar ki, ən yüksək səviyyəli görüşlərin birində SSRİ mədəniyyət naziri Demiçev yarıciddi, yarızarafat Heydər Əliyevə demişdi ki, Ukrayna boyda respublikada yalnız iki nəfər sənətçi Sosialist Əməyi Qəhrəmanı adı alıb. Azərbaycanda isə 8 nəfər bu ada layiq görülüb. Bu necə olur? Heydər Əliyev də təmkinlə cavab verib ki, bizim xalqımız istedadlı xalqdır. Siz bu adları elə-belə paylamırsınız ki? Biz təqdim edirik, siz də görürsünüz ki, doğrudan da layiqli adamlardır, mədəniyyətin inkişafında xidmətləri var, ona görə də verirsiniz.

Hər ölkənin sabahı, gələcəyi onun gəncləri ilə bağlıdır. Bu, gənclərə göstərilən qayğıdan asılıdır. Heydər Əliyevin

çoxcəhətli fəaliyyətində gəncliyə böyük qayğı və diqqət də mühüm yer tuturdu. Onun gənclərə ünvanlanmış «Sizin ən ümdə vəzifəniz vətənə, ölkəmizə, doğma torpaqlarımıza daim sədaqətli olmaqdır. Heç bir gənc bunu heç vaxt unutmamalıdır. Nə olursa-olsun, Vətənə, xalqına, ölkəsinə, dövlətinə sədaqət hər bir gənci daim yaşadacaq və ona cəmiyyətdə özünə layiq, özü istədiyi yeri tapmağa imkan verəcəkdir» sözləri bu gün də hamının üzərinə böyük məsuliyyət qoyur.

Heydər Əliyev fenomenliyini, onun Tanrıdan gələn siyasi istedadını təkcə kor olanlar görmürdülər. Hətta bizə dost olmayan xarici müxbirlər də bu istedadın işığını duyur, onu dana bilmirdilər. Rus mətbuatında getmiş bir yazıdan misal gətirmək istəyirəm. Yazının sonunda müəllif yazırdı: «Hakimiyyətə gəlmək istəyən insanlar onun təcrübəsini araşdıra və öyrənə bilərlər. Amma bunun çətin ki, təkrarı olsun. Çünki bütün başqa istedadlar kimi, siyasətçi istedadı da anadangəlmədir, fitridir». Heydər Əliyev dühası, bacarığı, istedadı və qabiliyyəti də fitri idi, Allah vergisi idi.

1970-ci ildə Azərbaycan KP MK-nın katibi kimi Heydər Əliyev bir təhsil ocağına gəlmişdi. Professor-müəllim heyəti ilə görüşdə o, başqa Sovet rəhbərlərinə xas olmayan tərzdə – təmiz Azərbaycan dilində çıxış etdi. Bugünkü nəsil üçün bu adi faktdır. Ancaq bilsəniz ki onda bu, necə böyük hadisə idi. Çünki, o günə kimi bütün rəsmi görüşlər rus dilində aparılırdı. Ana dilində danışmaq az qala qəbahət, səviyyəsizlik, böyük vəzifəli şəxslər üçün isə millətçilik təzahürü kimi qiymətləndirilirdi. Rus dilini mükəmməl bilməyənlər öz vətənlərində əməlli-başlı əziyyət çəkirdilər. Vəzifəyə aparan qapılar onların üzünə bağlı olurdu. Bax, belə bir vaxtda Heydər Əliyev səviyyəsində bir adamın azərbaycanca

nitq söyləməsi çox ciddi addım idi. Müqayisə üçün başqa bir dövlət başçısını da yada salaq – xalqı boyunduruq altında saxlamaqdan ötrü Azərbaycana göndərilən Ə.Vəzirovu. Doğma ana dilində üç sözü bir-birinə calayıb fikrini ifadə etməyi bacarmayan bu imperiya nökərinin nitqi haqqında az qala Molla Nəsrəddini üstələyən sayda lətifə danışırdılar. O bu millətin oğlu olduğunu, ancaq yüksək vəzifə kürsüsündə xatırlamışdı, lakin xalqın gözü tərəzidir, nə onun «təzə hamam»larını qəbul elədi, nə də «əkdiyi qoz ağaclarını».

Heydər Əliyevin nitqinin səlistliyi onun xalqının şifahi və yazılı ədəbiyyata vurğunluğundan irəli gəlirdi. Klassik və müasir Azərbaycan yazıçılarının əsərlərini onun sevdiyi qədər heç kəs mütaliə etmirdi.

Dünyada bütün zamanlar üçün natiqliyin ən böyük ustası Demosfen sayılır. O öz çıxışları ilə Makedoniyalı İsgəndər kimi dünya fatehini qorxuya salırdı. Heydər Əliyev ondan fərqli olaraq iki dildə böyük söz ehtiyatına malik idi, elə bir jurnalist sorğusu və problem yox idi ki, onun qarşısında aciz qalsın. Elmin, incəsənətin, ədəbiyyatın, texnikanın və istehsalın elə bir sahəsini tapmaq mümkün deyildi ki, onun barəsində ən bacarıqlı tədqiqatçı, sənətşünas və mütəxəssis kimi söz açmasın. Natiqliyinə görə Heydər Əlirzə oğlunu Siseron və Demosfenlə müqayisə etmək olar. Onun dövlət rəhbərliyindən əvvəl işlədiyi yüksək vəzifələrdə ancaq rus dili işlənirdi. Lakin həmişə xalqla – zəhmət və sənət adamları ilə təmasda olan ölkə başçısı daim ana dilinin inkişafına calışırdı. O, gülərüzlüyü, səmimiliyi, bir də saf söhbətləri ilə əbədilik yaddaşlara həkk edilib.

Heydər Əliyevin böyük demokrat idi. Televiziya verilişlərinin birində maraqlı bir hadisə lentə alınmışdı. Vətənin-

dən çox uzaqda jurnalistlərlə görüşdə tanınmış bir aparıcı Heydər Əliyev fenomeni qarşısında məğlub olduğunu görüb verilişin çox uzandığını bəhanə edir, qurtarmaq istədiyini bildirir. Bu zaman Heydər Əliyev özünə xas təbəssümünü gizlətməyərək deyir:

– Biz Azərbaycandan, böyük okeanların üstündən keçib buraya gəlmişik ki, ölkənizdəki demokratik ab-havadan udaq və sizdən öyrənək. Özünüz onu pozmağa çalışırsınız.

Aparıcı pərtliyini gizlətməyə çalışaraq söyləyir:

– Anam mənə dönə-dönə tapşırıb ki, məhşur siyasətçilərin qarşısında çox oturmayım. Onun xahişini yerinə yetirirdim.

Bu müdrik insan dünyanın ən inkişaf etmiş ölkələrində məşhur insanları heyran qoymaqla öz xalqına heykəl ucaltmırdımı?

Heydər Əliyev Vətənə həsr olunan böyük ömürdə dərin uçurumlarla da rastlaşıb. Bir vaxtlar kölgəsində daldalanıb yuxarılara quyruq bulamaqla Kremlin nökərinə çevrilənlər elə bilirdilər ki, Azərbaycan xalqını Heydər Əliyevdən, Heydər Əliyevi isə Azərbaycandan ayırmaq mümkündür. Çünki onu siyasət meydanından uzaqlaşdırmağa cəhd göstərməklə Qorbaçov kimilər Azərbaycan xalqının başına müsibətlər açmağı planlaşdırmışdır. Çirkin məqsədlərini həyata keçirmək üçün bu torpağın himayədarının – Heydər Əliyevin əl-qolunu bağlamaq lazım gəlirdi. İstəyirdi ki, Azərbaycan vətəndaşlarını öz müdrik rəhbərinə qarşı qoymaqla onu gücsüzləşdirsin. Dünya siyasətinə bələdçilik edən bir şəxs hər şeyə dözdü, parçalanmaq təhlükəsi qarşısında qalan yurdunda olmaq istədi. Bəlkə də Tanrı Azərbaycanı düşmən tapdağından xilas etmək üçün öz istəkli bəndəsini sınaqdan keçirirdi, onu bir də qaldırmaqdan ötrü endirirdi.

Azərbaycanın dirçəlişi və tərəqqisi naminə bütün bilik və bacarığını, istedad və enrjisini əsirgəməyən böyük İnsanın hakimiyyəti dövrünü mərhələlərə, illərə, aylara bölsək, görərik ki, onlardan hər biri – hər zaman kəsiyi böyük qələbələr, ölkəmizin çiçəklənməsinə, iqtisadiyyatın yüksəlməsinə səbəb olub. Onun ardıcıl, düşünülmüş, səliqə-sahmanla həyata keçirilən xarici siyasəti nəticəsində Azərbaycan Dünya Birliyində demokratik, hüquqi dövlət kimi tanınıb. Az bir müddət içərisində xüsusi nüfuza malik beynəlxalq təşkilatlara üzv qəbul olunub.

* * *

Hər bir xalqın hansı ərazidə məskunlaşdığının ilkin və ən mühüm göstəricisi arxaik mifoloji-folklor materialları və etnoqrafik daşıcıyılardır. İnsanlar coğrafi məkana, ocağa sahib olan andan orada öz izlərini adlarla (toponimlər, hidronimlər, tanrı isimləri və s.) qoyurlar. Yazı meydana gəlməmişdən qabaq Azərbaycan əhalisinin dünya haqqındakı təsəvvürləri Qobustandakı rəsmlərdə, Azıx mağarasındakı məişət əşyalarında, şifahi şəkildə formalaşan bədii yaradıcılıq nümunələrində, primitiv əmək alətlərində və məişət əşyalarında əks olunmuşdur. Qadın və kişi başlanğıcın animastik qayaüstü təsviri göstərir ki, ulu əcdad özünün meydana gəlməsini 5 min il əvvəl də ata-anaya bağlamışdır. Bu onu təsdiqləyir ki, türklərin atalar kultuna inamının tarixi kökləri çox dərin qatlardan gəlir. Deməli, hər hansı bir etnosun mifologiyası və folkloru yaşadığı ərazinin təbiəti ilə yoğrulmayıbsa, onun haqqı yoxdur ki, özünü həmin yerin köklü sakini saysın. Bu mənada türk dilli xalqların Uralətrafından, Qafqaz və Altay-

dan başlanan köç etməsi çox əski çağlardan bütün Asiyanı bürümüş və Avropanın ətəklərinədək yayılmışdır.

Heydər Əliyev çıxışlarının birində bildirirdi: «Biz fəxr edirik ki, ata-babalarımız digər xalqlarla dostluq və qardaşlığa can atmışlar». Türk tarix boyu bir əlində qılınc, digər əlində müqəddəs «Kitab» tutub, dünyanı bir bayraq altında birləşdirməyə çalışmış və qonşularını həmişə barışa, sülhə, onun gücü, qüdrəti, haqqı, ədaləti qarşısında «il olmağa» çağırmışdı. Müdriklik və sənətkarlıqla deyilmiş hər sözü öz andı bilib qorumuş, şər fikrə düşənləri isə Dədə Qorqud kimi mənəvi ucalığın kölgəsində utandırmağı bacarmışdır. Ona görə ki, «bədii söz insanların ağlına və ürəyinə daha tez yol tapır, daha dərindən nüfuz edir, onlara son dərəcə böyük təsir göstərir» (Heydər Əliyev).

Belə bir həqiqət var ki, hər hansı bir xalqı kölə vəziyyətinə salmaq üçün onun tarixini əlindən almaq lazımdır. Heydər Əliyevin böyüklüyü ondadır ki, bu həqiqəti rəhbər vəzifəyə gəldiyi gündən başa düşüb, daim diqqət mərkəzində saxlamış, doğma xalqına tətbiqinin qarşısını almağa nail olmuşdur. O, Milli Elmlər Akademiyasının əməkdaşları qarşısındakı çıxışında görkəmli elm xadimlərinə 20-30 il əvvəlki tövsiyələrini təsadüfi xatırlatmırdı: «Tarixçilərimizin xatirində olmalıdır ki, mən Azərbaycanda işləyən dövrdə – 1970-ci illərdə və 1980-ci illərin əvvəllərində dəfələrlə onlara müraciət etmişəm ki, bizim tariximiz – həm qədim tariximiz, həm orta əsrlər tariximiz, həm də son dövrlərin, yəni XVIII, XIX, XX əsrlərin tarixi istənilən səviyyədə yazılmayıb. Tarixçilərin yadındadır ki, mən alimlərlə dəfələrlə görüşmüşdüm, hər dəfə də öz narahatlığımı bildirmişdim». Bu narahatlığın əsas səbəbi ondan irəli gəlirdi ki, keçmiş sovet məkanında mənfur qonşularımız və onların mərkəzdəki havadarları rus çarizm idarəçiliyində bünövrəsi

qoyulan mənfur siyasəti (Qafqazı müsəlman türklərdən tam təmizləyib xristianlaşdırmaq, saxta «Böyük Ermənistan»ı simvolik şəkildə «bərpa etmək») incəliklə davam etdirir, Azərbaycan xalqının qədimliyini təsdiqləyən faktlara göz yumur, ya da başqa səmtə yönəldir, qəribə konsepsiyalar irəli sürərək kökümüzü Qafqazdan uzaq salmağa səy göstərir, bununla da ulu babalarımızın yaşadığı əzəli ərazilərə XII yüzillikdən sonra gəldiklərini yaddaşlara yerləşdirmək niyyəti güdürdülər. Heydər Əliyevin təkcə türkün Qafqazla əlaqələnən ilk yazılı eposunun yaranma tarixini 1300 əvvələ aparması, bunu beynəlxalq miqyasda keçirilən tədbirlərdə təsdiqləməsi göstərir ki, yüzlərlə alimin yerinə yetirə bilmədiyi mühüm problemin təməlini əsaslı formada qoymuş və Türk Dünyası Yazıçılarının III Qurultayında belə bir həqiqəti də açıqlamışdır ki, «türkdilli xalqlar qədim, çoxəsrlik tarixi boyu Avrasiya qitəsinin böyük hissəsində yaşayaraq dünya, bəşər mədəniyyətinə böyük töhfələr vermiş, onu zənginləşdirmişdir. Qədim tarix boyu türkdilli xalqların həyatı cürbəcür, bəzən xalqların varlığını təhlükə altına alan müharibələrlə, döyüşlərlə, təcavüzlərlə rastlaşmışdır. Ancaq xalqlarımızın dərin kökləri, bir-birinə mənəvi bağlılığı onları bütün bu mərhələlərdən, imtahanlardan, sınaqlardan çıxarmışdır». Ən maraqlısı odur ki, Böyük öndərin tövsiyələrində örnək kimi istinad etdiyi əsas mövzu türk xalqlarının mifoloji görüşlərlə zəngin olan tarixi qəhrəmanlıq eposları idi. O, tarixi köklərimizin yazıçılar tərəfindən işıqlandırılmasını yüksək dəyərləndirmiş, Şərqin ən möhtəşəm yazılı abidələrinin içərisindən türk xalqlarının yaratdığı əsərləri seçib diqqət mərkəzində saxlamağın, araşdırmağın və bütün dünyaya yaymağın vacibliyini nəzərə çatdıraraq bildirirmişdi ki, «Dədə Qorqud», «Manas», «Alpamış», «Ko-

roğlu» dastanları qədim dövrlərdə yaranmış, xalqlarımızın hamısına mənsub olan dahi şairlərimiz, yazıçılarımız – Nizami, Yunus İmrə, Nəsimi, Əlişir Nəvai, Füzuli, Məhdimqulu, Mirzə Fətəli, Sabir, Cəlil Məmmədquluzadə, Abay, Hüseyn Cavid və digərləri isə türkün tarixini, mənəvi dəyərlərini əks etdirən, onu dünyada tanıtdıran ölməz əsərlər meydana gətirmişlər. Bütün bunlar nəsillərdən-nəsillərə ötürülərək «xalqımızı özünəməxsus milli-mənəvi dəyərlər, o cümlədən ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, onlarda vətənpərvərlik, vətənə sədaqət hisslərini daim gücləndirmişdir» (Heydər Əliyev).

O, Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının iclasındakı yekun sözündə uzun illər ürəyini didib-parçalayan haqsızlıqlar və elmi yanlışlıqların baş alıb genişlənməsi barədə açıqlamalar vermişdi: «Hamımıza məlum olan düşmən qüvvələr həmişə sübut etməyə çalışmışdır ki, Azərbaycan xalqının zəngin tarixi olmamışdır, onun kökü yoxdur. Şübhəsiz ki, bu cəfəngiyyatdır».

Kommunist ideologiyasının hakim olduğu çağlarda belə (1981-ci ildə) Heydər Əliyevi narahat edən məsələlərdən biri Azərbaycan xalqının tarixinin bədii ədəbiyyatda əksi məsələsi olmuşdur. O, yaxşı dərk edirdi ki, millətlərin özünüdərkini unutdurmaqdan ötrü onun tarixini saxtalaşdırmaq, kökünü dərinlikdən yaxınlara gətirmək xətti yeridilir. Bu acı həqiqətin onun doğma xalqına tətbiqi ilə barışmadığını Azərbaycan yazıçılarının qurultayındakı nitqində açıq-aydın nümayiş etdirərək qələm sahiblərinin fəaliyyətindən narazı qaldığını bildirmişdir: «Açıq demək lazımdır: Azərbaycan tarixinin bir çox parlaq səhifələri bədii ədəbiyyatda layiqincə əks etdirilməmişdir».

Mənəvi dəyərlərin qorunması üçün bütün imkanları səfərbər edən dövlət başçısı Azərbaycan və ümumiyyətlə, türk-

lər haqqında formalaşan qeyri-etik və elmilikdən kənar qənaətləri alt-üst edən çoxsaylı tədbirlər həyata keçirmişdir. Onun səyi və prinsipial mövqeyi nəticəsində dünya anlamağa başlamışdır ki, «Dədə Qorqud», «Manas», «Koroğlu» kimi eposlar düzüb-qoşan xalq ancaq haqqa tapınar, şərə meyl göstərməz.

Heydər Əliyev düşmənlərimizin hiyləgərliyinə yaxşı bələd idi. Ona görə də prezidentlik fəaliyyəti dövründə çalışırdı ki, türk xalqlarının birliyinə nail olsun. Bu birliyi o, vahid türk dövlətinin qurulması şəklində deyil, məhz mənəvi dəyərlərin eyniliyini, oxşarlığını üzə çıxarıb mədəni amillər əsasında bir-birinə yaxınlaşma, milli ruhu oyadıb kökə qayıtma kimi gerçəkləşdirməyə can atırdı.

Ayrıseçkiliyin yalnız bir məsələdə qabarıq şəkildə görünməsinə isə sevinirdi – çünki türk xalqlarının hər birinin öz müstəqil dövləti yaranmışdı. Cüzi dil fərqləri istisna olunmaqla dünyada yeddi müstəqil türk dövlətinin bayrağının dalğalanmasını (Azərbaycan, Türkiyə, Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Türkmənistan və Türk Kipri) böyük qələbə sayırdı. O, türk xalqlarının mənəvi birliyindən qürurlanmaqla yanaşı onların yüksək inkişaf yolunu tutmasını arzulayaq deyirdi: «Bizim tarixi köklərimiz xalqlarımızın öz iradəsi ilə bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir və qeyd edim, mənəvi dəyərlərimizin inkişafı tarixin bütün mərhələlərində nə qədər çətinliklərlə, keçilməz yollarla rastlaşıbsa da, dayanmayıb, inkişaf edib, qalxıbdır. Amma indi isə, türkdilli xalqların müstəqil dövlətləri olduğuna görə və bizim əlimizdə böyük imkanlar yarandığına görə bu prosesləri daha da gücləndirə, daha da mütəşəkkil edə bilərik».

Türk mifik təfəkküründə ulu əcdad Oğuz dünyaya elə missiya ilə qədəm basır ki, haqqı tapdayanların dərsini versin, ədaləti, düzlüyü sevənləri isə öz qanadı altına alıb şərdən, yad təcavüzlərdən qorusun. İyirminci əsrin ikinci yarısında həmin missiyanı öz çiyinlərində ancaq bir şəxs daşıyırdı – türkün mənəvi yüksəkliyinə, müdrikliyinə və tarixi qəhrəmanlığına sığınan Heydər Əliyev!..







**«Kitab-Dədə Qorqud»un 1300 illik yubileyi münasibəti ilə Azərbaycan Respublikasının pulu və «Kitab-Dədə Qorqud»un elm aləminə bəlli olmasının 200 illiyinə həsr olunmu poçt markası.**

Siyasət aləmində Heydər Əliyevin ən böyük xidməti müstəqil Azərbaycan dövlətininin özülünü və əsas sütunlarını qurması, inkişafa, yüksəlişə istiqamətləndirməsi idi. Lakin özünün də təsdiqlədiyi kimi «müstəqil dövlət olmaq üçün xalqın gərək mentalitet səviyyəsi olsun». Bunun üçün xalqın öz kökünü bilməsi, dünyagörüşünü genişləndirməsi, mənəvi-əxlaqi dəyərlərinin qorunması, eləcə də onun adət-ənənlərinin haqqa, ədalətə, humanist ideyalara söykəndiyinin başqa ölkələrdə düzgün nümayiş etdirilməsi lazım idi. Bu işin özəyində isə folklor irsinin toplanması.ş yazıya alınıb nəşr edilməsi və araşdırılması dururdu.




**Azərbaycan Respublikasının «Kitab-Dədə Qorqud»un 1300 illik yubileyi münasibəti ilə hazırlanmış poçt markaları.**

Ümumiyyətlə, Heydər Əliyevin folklora göstərdiyi diqqəti – verdiyi mühüm qərarları, göstəriş və fərmanları nəzərdən keçirəndə adamı heyrət bürüyür. O, həmişə bu sahə ilə bağlı aparılan tədbirləri xüsusi nəzarətdə saxladığından şifahi xalq ədəbiyyatı nümunələrinin toplanması, nəşri və təbliği sahəsində böyük işlər görülmüşdür. İlk növbədə, onu vurğulamaq lazımdır ki, Milli Elmlər Akademiyasının Folk-

lor Elmi-Mədəni Mərkəzinin imkanları genişləndirilmiş və müstəqil elmi-tədqiqat instituna çevrilmişdir. Burada bir cəhətə xüsusi diqqət yetirək ki, zorla, silah gücünə dədə-baba yurdlarından didərgin salınan Qərbi Azərbaycan və Qarabağ torpağının köklü sakinlərinin folkloru damla-damla yazıya alınıb əbədiyyət qazanıb. Bu elə bir hünərdir ki, hər buraxılan 500-600 səhifəlik folklor toplusu düşmənin başına Ağrı dağı ağırlığı qədər zərbə endirib xülyalarını boşa çıxardır. Bu işlərin əhəmiyyətinin böyüklüyünü bir faktla nəzərə çatdırım. Respublikamızdan uzaqlarda (Sankt-Peterburqda) yaşayan bir neçə soydaşımızın evində qonaq olanda gördüm ki, onlar sadaladığım folklor antalogiyaları ilə bir sırada Aşıq Ələsgərin iki cildliyini, «Koroğlu» və «Dədə Qorqud» eposlarını, Molla Cumanın əsərlər toplusunu stolüstü əsərlərə çevirmişlər. Həmvətənlərimiz xalqın yaratdıqları bədii yaradıcılıq nümunələri ilə nəfəs alır, folkloru övladlarına əzbərlətməklə vətəndən uzaqda köklərini unutmamağa çalışırdılar. Bu mənada Heydər Əliyev uzaqgörənliklə dövlət xadimlərinə tövsiyə edirdi ki, «hansı hakimiyyət olursa-olsun, xalqa sədaqətlə xidmət edən, xalqın irəli getməsinə çalışan adam heç bir şeylə hesablaşmamalıdır».

Əslində tariximizin son olayları – musiqimizin beşiyi Şuşanın işğalı hamıdan çox Ümummilli liderimizi sarsıtmışdı. Eləcə də bu qədər zəngin mənəvi sərvət yaradan insanları xəyanətlə heç vaxt barışmamağa çağıran da ümummilli lider Heydər Əliyev olmuşdur. O, çıxışlarında təkrar-təkrar deyirdi: «Elə düşünməsinlər ki, Azərbaycan xalqının mənəviyyatını sarsıda bilərlər, yox! Elə güman etməsinlər ki, Şuşanın işğalı daimi ola bilər. Yox, ola bilməz!.. Biz öz torpaqlarımızın sahibi olmalıyıq... Nəyin bahasına olursa-olsun, hansı yolla

olursa-olsun, Şuşa da, Qarabağ da, işğal olunmuş bütün torpaqlarımız da azad olunacaq – Azərbaycan xalqının iradəsi ilə azad olunacaq». Bir ictimai xadim və siyasətçi, mübariz insan kimi gücünü, tükənməz enerjisini türkün qəhrəmanlıq eposlarından aldığını isə çıxışlarında bir neçə dəfə etiraf etmişdi. Uşaqlıq və gəncliyində «Koroğlu» kitabını əlindən yerə qoymadığı açıq-aydın hiss olunurdu. O, eposun xüsusiyyətləri və ideyasını şərh edərkən bir folklorşünas alim kimi ümumiləşmələr aparır, gənclərin milli ruhda yetişməsində eposun müstəsna əhəmiyyətə malikliyini vurğulayırdı. Heydər Əliyev Üzeyir Hacıbəyovun 110 illiyinə həsr olunan yığıncaqda çıxış edərkən vurğulamışdı ki, «Koroğlu» dastanı insanları həmişə qəhrəmanlığa, cəsurluğa dəvət etmişdir. Bu dastan insanlarda qəhrəmanlıq, cəsurluq və vətənpərvərlik əhval-ruhiyyəsi yaratmışdır. «Koroğlu» dastanı insanları həmişə azadlığa, azadlıq uğrunda, zülmə qarşı mübarizəyə çağırmışdır. «Koroğlu» dastanı ona görə sevilir ki, xalqın həyatı, gələcəyi üçün ən əhəmiyyətli fikirlər bu dastanda cəm olunmuşdur».

Gözlərimiz önündə baş verən hadisələr göstərirdi ki, heç bir ölkədə xalqın mənəvi sərvətinə bizdə olduğu qədər dövlətin diqqət və qayğısı nəzərə çarpmır. Ulu Öndərin fərmanı ilə «Dədə Qorqud» abidəsinin 1300 illik yubleyinin YUNESKO xətti ilə dünya miqyasında keçirilməsindən sonra ölkəmizdə bir-birinin ardınca mühüm tədbirlər həyata keçirilir.

Heydər Əliyev aforizmə çevrilən kəlamları ilə üzünü sapı özümüzdən olan baltalara tutub demişdi: «Dağıtmaq asan işdir, amma yaratmaq çox çətindir. Tarix, insanlar isə həmişə quranları, yaradanları qiymətləndirir. Dağıdanlar həmişə tarixdən silinmişlər, yaxud da tarixə mənfi rol oynamış adamlar kimi daxil olmuşlar».

Dili «ürəyin açarı» hesab edən Azərbaycan xalqı onunla qürur hissi duymalıdır ki, yeni minilliyə xalqının dilini, tarixini, mədəniyyətini, incəsənət və ədəbiyyatını fanatikcəsinə sevən, dünya siyasətinin öndəri olan böyük şəxsiyyətlə qədəm basmışdır. Heydər Əliyev yenicə müstəqillik qazanan dövləti bataqlıqdan çıxarmaqla, ayağa qaldırıb müasir sivilizasiyalı ölkələr səviyyəsinə çatdırmaqla yanaşı xalqımızın mənəvi sərvətinin qorunmasına, tarixi-mədəni abidələrinin üzə çıxarılıb bütün dünyada tanıdılmasına çalışmış, həmçinin nitq ustalığını nümayiş etdirməklə, idarə və təşkilatlarda rəsmən Azərbaycan dilinə qayğı ilə yanaşılmasına nail olub milyonların rəğbətini qazanmışdı. Onun bu sahədə gördüyü işlər həm gələcək siyasətçilərimiz, həm alim və ziyalılarımız, həm də gənclərimiz üçün örnək idi. Öz ana dilini sevən hər bir kəs bu barədə həqiqəti açıqlamağa borcludur və buna hədsiz ehtiyac vardır.

Türkün mifinə görə, yer üzünün ilk insanı Adəm ayağını torpağa basanda türk dilində danışmışdır. Ulularımız gələcək nəsillərə mifoloji görüşlərdən götürdükləri bu qənaəti həmişə örnək tək vurğulamışlar. Türkün dünyanın qədim və köklü sakini olduğunu hamıdan öncə böyük Nizami qeyd etmişdi. O, bəşəriyyətin atasının milliyyətindən danışanda bu qənaətə gəlir ki, Adəm də mənşəcə türkdur. Şairin «Sirlər xəzinəsi» poemasında oxuyuruq:

***«[Allah] Adəmi öyrətdi» [ayəsi] onun pak sifətinədir...***
***O, həm ev-eşiyini, həm də [behişt] bəzəyini tərk edərək***
***Elə bir danənin tələsinə düşdü ki,***
***O [danə] «Allah sənə şükür!» duasına da layiq deyil...***
***O, ay kimi Xətay türkü oldu,***
***Və xəta zülfünü papağının altında gizlətdi.***

Şair ayəni Qurandan götürmüşdür, lakin müsəlmanların müqəddəs kitabında yazılmamışdır ki, Adəm xəta işlətdiyinə görə yer üzünə Xətay türkü sifətində göndərilmişdir. Eləcə də bəşərin atasının Aya bənzədilməsinə də Quranda işarə edilmir. Adama elə gəlir ki, Nizami Adəm peyğəmbərdən deyil, Ay kağanın bətnində ikən Allaha tapınan Oğuzdan danışır. Ola bilsin ki, Böyük türk sərkərdəsi Şah İsmayıl da özünə bu səbəbdən «Xətai» ləqəbini götürmüşdü.

Bir fakt da heyrət doğurur: «Qayğısız Abdal» təxəllüsü ilə şerlər düzüb-qoşan türk xalq təsəvvüf ədəbiyyatının görkəmli nümayəndəsi Alaiyeli Əlaəddin Gaybi XIV yüzildə ulu soydaşı Nizaminin səsinə səs vermişdir. O, Adəm peyğəmbərin «türklüyünü əsaslandıran» bir mifi xalq dilindən götürüb nəzmə çəkmişdir. Nizaminin və Qayğısız Abdalın yaşadığı bölgələrin ağsaqqalları danışırdılar ki:

«Məlum səbəbdən həzrət Adəmin cənnətdən çıxması əmri verilir. Fəqət həzrət Adəm «bəlkə, əhv edildim» – ümidi ilə bir müddət orada qalır. Bu durumu görən Cənab-i Haqq Cəbrayıla buyurur: «Ya Cəbrayıl, get Adəmə söylə, Cənnətdən çıxsın!» Cəbrayıl vəzifəsini o dəqiqə yerinə yetirir. Lakin Həzrət Adəm cənnətdə qalmaq arzusunda və günahının bağışlanmasında yenə israrlı görünür. O zaman Cənab-i Haqq Cəbrayıla təkrar buyurur: «Ya Cəbrayıl, get Adəmə TÜRK DİLİNDƏ söylə, durmasın, cənnəti ən qısa zamanda tərk etsin!..»

Göründüyü kimi, Allah Adəmin günaha batıb adiləşəndən sonra ilahi aləmdəki deyimi anlamadığını görür və öz mələyinə göstəriş verir ki, onunla yer əhli üçün ayırdığı dildə danışsın. Bu gün Azərbaycan türklərinin gündəlik söhbətləri zamanı fikrini düzgün anlada bilməyənə, kəlmələri baş-

ayaq söyləyənə, tələffüz qaydalarına riayət etməyənə qarşı acıqlanıb belə bir cümlə işlədirlər: «Sözünü Adam dilində söyləsənə!» Yaxud «Adam kimi danışsana!..» Bu o anlamı verir ki, ulu əcdad Adamın/Adəmin cənnətdən özü ilə gətirdiyi dili – türkcəni qoyub yad sözlər işlətmə. Bizcə, bu, Nizaminin və Qayğısız Abdalın faydalandığı əsatirin əsrlərin sınağından keçərək xalq məsəlinə çevrilməklə şifahi yolla zəmanəmizə çatdırılmasıdır.

Qayğısız Abdalın «Gülüstan» əsərindəki mənzum parça:

## "GÜLÜSTAN"NIN ORİJİNAL MƏTNİ:

*Nak buyurdu Cebraile var didi,*
*Ademi cennet içinden sür didi.*

*Geldi Cebrail Ademe söyledi,*
*Haq (buyruqanı) ayan eyledi.*

*Cebrail didi:*
*«Çıgil Uçmag»dan Adem,*
*Tanrıun buyraqı budur iş bu dem.*

*Nice ki söyledi her-giz gitmedi,*
*Cebrailun sözünü işitmedi.*

*Türk Dilin Tanrı buyurdu,*
*Cebrail,*
*Türk Dilince söylegil,*
*dur git digil.*

*Türk Dilince Cebrail*
*«Hey dur» didi,*
*«Dur-gel*
*uçmaqun terkin ur» didi.*

## AZƏRBAYCAN TÜRKCƏSİNƏ ÇEVRİLMƏSİ:

*Haqq çağırıb, Cəbrayıla «get» dedi,*
*«Adəmi cənnətdən sürgün et» - dedi.*
*Cəbrayıl Adəmə çatıb söylədi,*
*Haqqın buyruğunu əyan eylədi.*

*Cəbrayıl:*
*«Cənnətdən get, - dedi, - Adəm!*
*Tanrının əmrini icra et bu dəm».*

*Nə qədər söylədi, Adəm getmədi,*
*Cəbrayılın sözün heç eşitmədi.*

*Tanrı Türk dilində dedi:*
*« - Cəbrayıl,*
*Dur, get,*
*Türk dilində söylə və sayıl».*

*Cəbrayıl tez türkcə:*
*«Adəm, get!» – dedi,*
*«Hey, dur get,*
*cənnəti tez tərk et» - dedi*.*

(*Nəzm parçası Azərbaycan türkcəsinə müəllif tərəfindən çevrilmişdir).

Əbdürrəhman Gözəl Qayğısız Abdalın məsnəvi formasında qələmə aldığı mifin şərhini belə açıqlayır: «İşte bu buyrukdan sonra Hz. Adem cennetten çıkar. Kayqusuz bu eseriyle Hz. Ademin de Türkçe ile anlaştıklarını özellikle ifade etmektedir. Yani Kayqusuz Abdal, Türkçeyi «İlk insan Hz. Adem»in de bildiğini, kendisine cennette bu dille hitab edildiğini, bu dili anladığını ve bu sebeple de cennetten çıktığını vurğulamaktadır». Öz kökünə Nizami və dilinə Qayğısız Abdal qədər vurğun olan ikinci bir sənətkarı göstərmək çətindir.

Rusiyanın Sankt-Peterburq şəhərində yerləşən ali təhsil ocaqlarının birində bu faktları söyləyəndə yerdən bir nəfər replika atmışdı: «Siz Adəmin türklüyünə inanırsınız?» Ona belə cavab vermişdik ki, yox, nəinki Adəmin türklüyünə, heç tarixən mövcudluğuna inanmıram. Ancaq böyük Nizaminin türklüyünə sizin ölkədə şübhə ilə yanaşırlar, bu faktlar qeyri-şərhsiz həmin şübhələri alt-üst edir. Adəmin türklüyünə gəlincə, bu, mifdir. Hər bir xalqın mənəvi haqqı çatır ki, ilkin arxetiplərdən öz payına düşəni götürsün.

Bu, mifin ədəbi faktora çevrilməsi və türkün böyük söz ustalarının gələcək nəsillərə verdiyi tövsiyələridir. Həmin əsərlərdə qoyulan ideya hamıdan qabaq Azərbaycan xalqının Ümummilli liderinin timsalında daha əsaslı və böyük sevgi ilə davam etdirilmişdir. Bakı şəhərində TÜRKSOY təşkilatının üzvü olan ölkələrin mədəniyyət nazirləri Daimi Şurasının 19-cu toplantısında maraqlı bir hadisə baş vermişdi. Orada cənab Heydər Əliyev çıxışında bildirmişdi ki, Leninqradda (indiki Sankt-Peterburqda) tələbəlik illəri zamanı Xakasiyadan gələn bir nəfərdən hansı millətdən olduğunu öyrənmək istəyir. Daha doğrusu, öyrənmək istəyir ki, xakaslar türk olduqlarını anlayırlar, yoxsa yox. Bu zaman bir nəfər yerdən replika verir ki,

xakaslar şamanlardırlar. Dövlət başçısı təmkini pozmadan deyir ki, «Şaman olsalar da, türklərdirlər. Türklər də şamanlardırlar». Bu, məhz türkün böyüklüyünü Nizami və Qayğısız Abdal kimi dünyaya çatdırmaq idi. Bu o demək idi ki, Sovet İttifaqı dövründə yeridilən türklüyü danmaq siyasəti hər kəsdən öncə cənab Heydər Əliyevi narahat edirdi. O, tutduğu mühüm vəzifəni itirmək təhlükəsinə baxmayaraq keçmiş SSRİ-də yaşayan türk xalqlarının öz köklərini tanımasına çalışmışdı.

Heydər Əliyev «Manas» eposunun 1000 illiyi münasibəti ilə söylədiyi çıxışında türk dillərinin tarixinə ekskursiya etdikdən sonra demişdi ki, «biz bir kökdən, bir dildən olan xalqlarıq. Ancaq əsrlərdən-əsrlərə dilimizdə müəyyən fərqlər yaranmışdır. Bir-birimizi qəlbən duyuruq, qəlbən anlayırıq, amma dilimizdə olan fərqlərə görə deyilən sözlərin bəzilərini anlaya bilmirik. Mən bu gün sözlərimi Azərbaycan dilində başladım». Bəli, Heydər Əliyev həmişə əsas sözlərini, xalqına tövsiyələrini öz ana dilində başlamışdır. Lazım gələndə, xüsusilə xalqımızın düşmənlərinin məkrli əməllərini dünyaya çatdırmaq istəyəndə isə rus dilindən faydalanmışdır.

Adamı heyrətə gətirən faktları ona görə tez-tez xatırlatmaq lazımdır ki, gənclərimiz eşidib öyrənsinlər. Çünki Ümummilli lider hər an türklərin tarixinin saxtalaşdırılması işinə son qoyulması barədə düşünmüşdür. O, xalq şairi Bəxtiyar Vahabzadənin «Özümüzü kəsən qılınc» («Göytürklər») pyesinin tamaşasına baxandan sonra teatr kollektivi ilə görüşündə maraqlı bir təşəbbüsünü yada salmışdı. Özbəkistanda Əmir Teymurun 660 illik yubileyində türkdilli dövlətlərin başçıları ilə Türk xaqanlığının 1450 illiyinin keçirilməsini müzakirə etdiyini bildirmişdi. Orxon-Yenisey abidələrinin motivləri əsasında yaranan tarixi əsərin təhlilini verən Hey-

dər Əliyev Göytürk dönəmində baş verən dəhşətli hadisələrin bu gün də davam etdiyini qeyd etmişdi.

Gültigin, Bilgə kağan kimi sərkərdələr də göytürkləri oğuz və uyğurlarla birləşməyə çağıranda ötənləri xatırlatmış, «yuxarıda göy, aşağıda yer» deyib eyni kökdən pöhrələnən soyların bir çadırda el məclisi qurmasını arzulamışdır. O vaxtdan az qala 1500 il keçməsinə baxmayaraq indi də Xəzərin sularına görə hər türk eli bir iddia ilə meydana atılır. Heydər Əliyev siyasət meydanında elə davranmağa can atmışdı ki, nə türkmənin, nə də qazağın mənafeyinə ziyan gətirilsin. Ancaq təkcə siyasi məsələlərdə deyil, ədəbi-mədəni məsələlərdə də əski abidələri, hətta söz sənətkarlarını "öz tərəfinə çəkmək" niyyətində olanlar var idi. «Füzulini təkcə «Leyli və Məcnun» poemasının müəllifi kimi yox, dünya miqyaslı filosof, böyük alim tək dünyaya tanıtmağı» qarşısına məqsəd qoyan Heydər Əliyev Azərbaycana aid mənəvi dəyərləri qeyri-şərhsiz özününküləşdirənlərə çox incə və alicənablıqla cavab vermişdi: «Burada çıxış edən natiqlər dedilər ki, ərəblər və farslar Füzulini öz şairləri sayırlar. Türkdilli xalqlar isə hesab edirlər ki, o, türkdür. Biz də deyirik ki, Füzuli türk, azərbaycanlıdır. Eyni zamanda, bunu türkmən, özbək, qazax, Türkiyədə yaşayan türklər, İraq türkmənləri də deyə bilərlər. Qoy Füzuli hamıya məxsus olsun, tarixə bəşəri şəxsiyyət kimi düşsün».

## Qaynaqlar

Axundov A. Ana dilimizə böyük qayğı // Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir – onu qoruyub saxlamalıyıq. "Elm"qəzetinin xüsusi buraxılışı, 2003, s.105-110.

Cəfərov N. Heydər Əliyev: siyasətin ziyalılığı …Və ziyalı siyasəti. Xalq qəzeti. 2009,15 iyul.

Cəfərli M. Heydər Əliyev: xalqın güvənc yeri və milli iftixarı // Heydər Əliyev və milli mənəvi dəyərlərimiz. Bakı: Səda, 2003, s.20-24.

Ədəbiyyatımız xalqımızın milli sərvətidir. Tərtib edən: A.İbrahimov. Bakı: Nağıl Evi, 2003.

Əliyev H. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı: Ozan, 1999.

Əliyev H. Xalqların dostluğu – ədəbiyyatların dostluğudur (Yazıçıların Ümumittifaq Yaradıcılıq Konfransında məruzə). ”Kommunist” qəz., 29 oktyabr, 1980.

Əliyev H. Tarixi köklərimiz bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir // H.Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı: Ozan, 1999, s.337-345.

Əliyev H. “Manas” bütün dünya sivilizasiyasının sərvətidir // Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı: Ozan, 1999, s.283-285.

Əliyev Q. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı: Qismət, 2003.

Əliyev R. Heydər Əliyev, din və mənəvi dəyərlər. Bakı: İrşad, 1998.

Hacıyev T. ”DQK-1300” – tarixi dövlət tədbiri // Heydər Əliyev və milli mənəvi dəyərlərimiz. Bakı: Səda, 2003, s.8-11.

Kərimov M. Heydər Əliyev fenomeni // Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir – onu qoruyub saxlamalıyıq. ”Elm” qəzetinin xüsusi buraxılışı, 2003, s.8-46

Qarayev Y. Bütün xalqların və dövrlərin kitabı // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. X kitab. Bakı: Səda, 2001, s.4-10.

Mehdiyev R. Heydər Əliyev haqqında xatirələr. Bakı: Mediaforum. 2011.

Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. Bakı: “Çinar” Çap Evi, 2008.

Nizami Gəncəvi. Sirlər xəzinəsi. Filoloji tərcümə prof. R.Əliyevindir. Bakı: Maarif, 1981.

Türk şiiri özel sayısı: III (Halk şiiri). Türk dili. Aylık Dil Dergisi, C. LVII, Sayı: 445-450, Ocaq-Haziran, 1989.

# HEYDƏR ƏLİYEV SİYASİ KURSU VƏ FOLKLORDA YAŞAYAN DƏYƏRLƏRİMİZ

**Ağaverdi Xəlil**
aqaverdi@yandex.ru

## HAYDAR ALIYEV’S POLITICAL COURSE AND THE VALUES LIVING IN FOLKLORE

SUMMARY

In the article the common national leader Haydar Aliyev’s political course is studied. The spiritual basis of Azerbaijan-study being the ideological basis of the independent Azerbaijan government is cleared up. The spiritual structure policy in the direction to protect the values living in folklore and folklore of Azerbaijan state are explained.

***Key words:*** Azerbaijan, Haydar Aliyev, state, folklore, value

## ПОЛИТИЧЕСКИЙ КУРС ГЕЙДАРА АЛИЕВА И ЦЕННОСТИ СУЩЕСТВУЮЩИЕ В ФОЛЬКЛОРЕ

РЕЗЮМЕ

В статье изучается политический курс общенационального лидера Гейдара Алиева. Выясняяются духовные основы идеологии азербайджанизма Азербайджанского государства. Так же объясняются политика духовного строительства Азербайджанского государства в направлении сохранить фольклора и ценностей существующие в фольклоре.

***Ключевые слова:*** Азербайджан, Гейдар Алиев, государство, фольклор, ценность.

Milli öndər Heydər Əliyevin siyasi kursu müstəqil Azərbaycan respublikasının dövlət siyasətidir. Bu siyasətin ideoloji əsası azərbaycançılıq məfkurəsi üzərində qurulub. Azərbaycançılıq məfkurəsinin tarixi XX əsrin əvvəllərindən başlanır və yeni dövrün reallıqları ilə şərtlənir. 1918-ci ilin 28 mayında qurulan Azərbaycan Cümhuriyyəti 1920-nin 28 aprelindən 1991-in 18 oktyabrınadək davam edən 70 illik Azərbaycan Sovet Respublikasından keçir və yenidən öz milli cümhuriyyət əsasına qovuşur. 70 illik sovet dövrü mövcud olan yarımmüstəqil respublika sağ əli ilə 28 may cümhuriyyətini, sol əli isə 18 oktyabr müstəqil respublikasını tutub bir-birinə birləşdirir. 1918-ci ilin 28 mayına qədər – 1828-ci ildən başlanan və 90 il davam edən müstəqilliyin itirildiyi müstəmləkə dövrü də var. Milli mənəvi dəyərlərimizin bir hissəsi bu 90 illik müstəmləkə dövründə zədələnməyə və sıradan çıxmağa başlayır. Ən önəmli institutumuz olan dövlətçilik düşüncəsi ciddi şəkildə deformasiyaya uğrayır. Cəmiyyətin sosial-mədəni strukturunda mühüm yerlərdən birini tutan bəylik institutu sıradan çıxır və onun yerində müstəqil milli düşüncədən məhrum olan lokal xarakterli dərəbəylik başlanır.

Həm milli zadəganlığımızın əski köklərə və törəyə bağlı bəylik institutu, həm də islami dəyərlərimizin daşınmasında önəmli rolu olan ruhani-mollalıq institutu ciddi şəkildə zədələnməyə məruz qalır, özünün dəyər seqmentlərindən məhrum olur. Bəylik, ədəbiyyatdakı nümunəsilə ifadə etsək, Qurbanəli bəyə qədər enir, ruhanilik Şeyx Nəsrullaha qədər tənəzzülə uğrayır. Nəticədə dəyərlər cəmiyyətin nəzərindən düşməyə başlayır. Belə mənəvi deqradasiya şəraitində müstəqil dövlətçilik düşüncəsi də ağır sarsıntılardan və sıxıntılardan keçir.

Azərbaycan XIX əsrdən mənəvi dəyərlərin ümumi balansında kəsirlə çıxır. Müstəqil dövlət olmadığı üçün dəyərlər də etibarlı şəkildə qorunmur. Yad hakimiyyət işğal etdiyi xalqın dəyərlərinin qorunmasında deyil, onların assimliyasıyasında daha çox maraqlı olur. Çünki dəyərlərin qorunması xalqın mənəvi bütövlüyünün mühafizəsi üçün olduqca önəmli faktordur. Dəyərlərini qoruyan xalq kölə olmaz. Ən ağır şəraitdə belə haqqa inancını itirməyən xalq özünün azadlıq və istiqlal haqqını müdafiə edə bilir. Müstəmləkə dövründə milli dəyərlər, sovet dövründə isə həm milli, həm də dini dəyərlər ağır sınaqlardan keçir. Cəmiyyətin inanc və iman gücü zəifləyir, milli ruh sarsıntılara məruz qalır. Dəyərlərin müdafiəsiz qaldığı və yad hakimiyyətin dağıdıcı fəaliyyəti şəraitində xalqın yaratdığı dəyərlər xalq yaradıcılığında qorunur, ora sığınır, ona pənah gətirir və yalnız öz yaşamını orda davam etdirə bilir. Beləliklə, folklor müstəqil dövlətçilik düşüncəsi də daxil olmaqla milli dəyər konseptlərini yaşatmağı da öz üzərinə götürür.

Yad idarəçilik sistemi cəmiyyəti dini dəyərlərindən uzaqlaşdıranda bizim uzun danışan mənasında işlətdiyimiz nağıl söyləyicisi – naqqalımız söylədiyi nağılını dini dəyərlərlə zənginləşdirir. "Biri vardı, biri yoxdu" mifoloji elementlə ifadə olunan giriş formulunun ardınca "Allahdan başqa kimsə yoxdu" müddəasını qoyur. Bu islamın əsas ideyası olan "La ilahə illəllah"ı, Allahın birliyi düşüncəsini xalqın içində yaşatmağa xidmət edir. Nağıl bu şəkildə dəyərləri öz nağıl mətninin çərçivəsinə yerləşdirir, onları nağıl formulları ilə çəpərləyir və yabançı təzyiqdən qoruyur.

"Allahın birliyi" əski türk düşüncəsindəki "Tanrının birliyi" ilə adekvatlıq təşkil etməkdə və monoteist düşüncəni

göstərməkdədir. “Tanrının birliyi” Tanrı istəyi ilə kağan olmuş el başçısının da birliyini cəmiyyətə təbliğ edir. Tək Tanrıda bütövləşən inanc, tək kağanla güclü dövlət qurmağa mənəvi dəstək, güc və ruh verir. Bizim milli dəyərlərimizin mənəvi əsası tək Tanrı və ya vahid Allah inancından qaynaqlanır. Folklor da ilk növbədə dəyər konseptlərinin inanc seqmentini diqqətdə saxlayır və onu özünün bütün sənət resurslarını səfərbər edərək mühafizəsini təmin edir. Bu dəyərləri folklor yaşatmasa, folklor özü də məzmunca bəsitləşər və dəyərlərdən uzaqlaşar. Türklərin dünyanın böyük bir hissəsinə hökm etdikləri zaman türk dastan qəhrəmanı böyük ideyalar uğrunda mücadilə verir. Oğuz Kağan dünyada tək Tanrı inancını yayır və bu sonrakı dövrlərdə də türk dövlətlərinin islam ideyası ilə başladıqları fütuhat hərəkatı ilə davam etdirilir. Müstəmləkə dövrünün qəhrəmanlıq dastanları belə bir ideyanı daşıya bilmir və bu dastanların qaçaq qəhrəmanı yabançı idarəçiliyə və yadelli qüvvələrə qarşı mübarizə aparır. Bizim müstəmləkə dövrünü əks etdirən, qaçaq hərəkatının epik təsvirini verən qaçaq dastanlarımızın əksəriyyəti zamanında şərait uyğun olmadığı üçün toplana bilməyib və unudulub.

Məsələyə müasir Azərbaycan reallığında baxdığımız zaman mədəni müxtəlifliyin rəngarəngliyi ilə qarşılaşırıq. Bilirik ki, multikultural dəyərlərin qorunması, yaşadılması və gələcək nəsillərə çatdırılması, cəmiyyətin gələcək inkişafının mənəvi ehtiyaclarının təmin edilməsi müasir dövrün aktual problemlərindən biridir. Dünyada gedən qloballaşma və elmi-texniki tərəqqi, mədəniyyət paradiqmalarının dinamik artımı, differensiallaşma prosesləri, dəyişmə və şəkillənmələr müasir cəmiyyətə öz təsirini göstərir. Belə təsirlər

mədəni dəyərlərin mühüm bir qismini sosial təcrübənin passiv hissəsinə doğru sıxışdırır, insanların müasir həyatında mənəvi dəyərlərin iştirakının azalmasına səbəb olur. Bu özünü dəyərlərin formalaşmasında rolu olan xalqların folklor-etnoqrafik nümunələrində də göstərir. Azərbaycan cəmiyyətinin gələcək mədəni inkişafının harmonikliyini təmin etmək üçün xalqımızın milli-mənəvi ehtiyatlarının milli mədəni inkişafın mənəvi dinamikası üçün səfərbər edilməsi Azərbaycan humanitar elmləri, o cümlədən folklorşünaslıq elmi qarşısında duran aktual məsələlərdən biridir.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün də Azərbaycan dövləti tərəfindən uğurla həyata keçirilən dövlət siyasətimiz mədəni quruculuq strategiyasının prinsiplərinə uyğun olaraq cəmiyyətin modernləşməsi prosesində milli köklərə bağlılığı və milli özünəməxsusluğun qorunmasını aktual məsələ kimi qəbul edir. Tarixi təcrübə də birmənalı şəkildə sübut edir ki, istənilən cəmiyyət ortaq milli-mənəvi və mədəni kökləri üzərində yeniləşə bilər.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycanın polietnik tərkibini gələcək mədəni inkişafın zəngin mənəvi qaynağı kimi azərbaycançılıq ideyasında aydın ifadə etmişdir: "Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir". Bu ideyanı müasir Azərbaycan cəmiyyətinin mədəni inkişaf strategiyasının əsas nüvəsi kimi təqdim edən Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev mə-

sələnin konseptual istiqamətləri ilə yanaşı onun tətbiqi yollarının araşdırılmasının zəruriliyini də ayrıca qeyd edir: "Azərbaycan millətinin formalaşması təcrübəsinin vahid, bütöv sosial-siyasi orqanizm kimi onun tərkibinə daxil olan bütün etnoslar kontekstində öyrənilməsi humanitar elmimizin qarşısında duran ən mühüm vəzifədir".

Müasir tarixi şəraitdə müstəqilliyini əldə etmiş dövlətlər qloballaşma şərtləri daxilində sosial-mədəni inkişafa və total modernləşməyə milli köklərə bağlılığı təmin etməklə nail ola bilər. Bu sırada multikultural dəyərlərin qorunması, öyrənilməsi və müasir tarixi şəraitdə cəmiyyətdə onun yerinin dəqiq müəyyənləşdirilməsi strateji əhəmiyyət daşıyan problem kimi qarşıda durur.

O cümlədən, Azərbaycan mənəvi mədəniyyətində xüsusi yeri və çəkisi olan dəyərlərin qorunması, təbliği və yaşadaraq gələcək nəsillərə itkisiz və zədəsiz çatdırılması ilə yanaşı onun sosial-mədəni, folklor-etnoqrafik, kulturoloji və s. aspektlərdə daha geniş öyrənilməsi olduqca ciddi aktuallıq kəsb edir. Həmin prosesdə AMEA Folklor İnstititu üzərinə düşən vəzifəni yerinə yetirmək istiqamətində önəmli addımlar atır və Azərbaycan mədəniyyətinin folklor-etnoqrafik qaynaqlarının araşdırılması və qorunması işinin təşkilində aktiv iştirak edir.

Azərbaycanın bölgələri ənənlərin qorunduğu və folklor nümunələrinin zəngin olduğu canlı qaynaqdır. Bu qaynaq ənənənin fasiləsizliyini və mədəniyyətin müxtəlifliyini təmin edən xüsusi folklor resurslarına malikdir. Azsaylı xalqların folklorunun səciyyəsi həm də onun etnik (türk, Qafqaz, İran, slavyan, yəhudi və b.) və dini (müsəlman, xristian, iudaist ) müxtəlifliyi ilə şərtlənir. Belə zəngin və rəngarəng folklor

arealının yaşatdığı ənənələr, qeyri-maddi mədəniyyət nümunələri indiyə qədər sistemli şəkildə toplanmamış və araşdırmalardan kənarda qalmışdır. Bu səbəblə tarixi-mədəni prosesin yenidən təhlili və müasir baxışlar daxilində azərbaycanlı şəxsiyyətinin birləşdirici xüsusiyyətini nəzərə alan, Azərbaycan milli bütövlüyünün qorunmasını əsas götürən və onu pozmağa imkan verməyən uyğun bir öyrənmə metodunu Azərbaycanda yaşayan xalqların folklorunun öyrənilməsinə tətbiqi lazımdır.

Azərbaycan folklor nümunələri XIX əsrin sonlarına doğru Rusiya İmperiyasının təşkil etdiyi ekspedisiyalarla qismən toplanmış və natamam şəkildə təqdim edilmişdir. Belə nümunələrə SMOMPK məcmuəsində rast gəlirik.

Azərbaycan dövlətinin strategiyasının əsas konsepti Azərbaycanı vahid orqanizm kimi onun tərkibinə daxil olan bütün etnoslar kontekstində öyrənilməsinə əlverişli şərait yaradır. Bu şəraitdə Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu olaraq bizim üzərimizə düşən vəzifə Azərbaycanda yaşayan bütün xalqların folklorunu öyrənməkdir. Çünki Azərbaycan folkloru Azərbaycanda yaşayan bütün xalqların vahid mənəvi dünyasını, milli-mənəvi dəyərlər sisteminin bütövlüyünü və tamlığını əks etdirir. Bütün mənəvi dəyərlər folklorda birləşir və vahid milli ideya üçün möhkəm mənəvi təməl yaradır. Bu mənada, folklorun Azərbaycanda yaşayan bütün xalqlar kontekstində öyrənilməsi milli ideyanın mənəvi əsaslarının tam və geniş şəkildə öyrənilməsi deməkdir. Bununla biz folklorda qorunan mənəvi resursları, milli mədəniyyəti kənar hücumlardan, daxili zəifləmə və dağılmadan qorumaq üçün səfərbər edə, onu ictimai həyatımızın aktiv hissəsinə daxil edə bilərik. Çünki Azər-

baycan folkloru Azərbaycan ərazisində yaşayan bütün etnosların tarixi-mədəni təcrübəsinin və yaratdığı dəyərlərin vəhdətini əks ertdirir.

İndi bizim qarşımızda duran əsas məsələlərdən biri mənəvi sağlamlığın möhkəmləndirilməsi, sosial immun sistemin gücləndirilməsi naminə Azərbaycan folklorunu onun bütün etnik-lokal xüsusiyyətləri, təzahürləri və qarşılıqlı əlaqələri ilə birlikdə öyrənmək, folklorda ifadə olunan mənəvi dəyər komponentlərinin milli vəhdət ideyasına, birliyə və bütövlüyə xidmət edən funksional imkanlarını araşdırmaq və əldə etdiyimiz nəticələrin tətbiqi imkanlarını müəyyənləşdirməkdir. Bu işi həyata keçirmək üçün yaxın və uzaq hədəflər müəyyən edilməklə Azərbaycanda yaşayan xalqların bütün nümayəndələrinin folklor-etnoqrafik resursları öyrənilməli və bu iş ardıcıl şəkildə davam etdirilməlidir.

**Qaynaqlar**

Xəlil A. Folklor və dövlətçilik. Bakı: Elm və təhsil, 2014.

Xəlil A. Türk xalqlarının mərasim folkloru və dövlətçilik / Folklor və dövlətçilik düşüncəsi. Bakı: Elm və təhsil, 2015.

Xəlil A. Heydər Əliyev və mərasim mədəniyyətimiz / Heydər Əliyev və Azərbaycan folklorşünaslığının aktual problemləri. Bakı: Nurlan, 2013.

Xəlil A. Milli ideya: Azərbaycançılıq və azərbaycanlılıq. www/folkor.az/75.htm

# MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN FOLKLORŞÜNASLIĞI: NƏZƏRİ-METODOLOJİ AXTARIŞLAR VƏ TƏDQİQAT İSTİQAMƏTLƏRİ

**Seyfəddin Rzasoy**
seyfeddin_rzasoy@mail.ru

## INDEPENDENCE PERIOD OF AZERBAIJAN FOLKLORE-STUDY: THE THEORETICAL-METHODOLOGICAL INVESTIGATIONS AND THE INVESTIGATION DIRECTIONS

SUMMARY

Independence period of Azerbaijan folklore-study surrounds the following main directions: Investigation of the regional folklore spheres; Mythology; Ashug art and activity; Gorgud-study; Koroglu-study; Novruz-study; Theoretical-methodological investigations; History of folklore-study; Folklore-literature investigations.

***Key words:*** Azerbaijan folklore, folklore study, Gorgud-study, Koroglu, Novruz

## АЗЕРБАЙДЖАНСКОЕ ФОЛЬКЛОРОВЕДЕНИЕ ПЕРИОДА НЕЗАВИСИМОСТИ: ТЕОРЕТИЧЕСКИ-МЕТОДОЛОГИЧЕСКИЕ ПОИСКИ И НАПРАВЛЕНИЯ ИССЛЕДОВАНИЯ

РЕЗЮМЕ

Азербайджанское фольклороведение, эпохи независимости, охватывает следующие направления: изучение региональной фольклорной среды, мифология, ашугское искусство и творчество, коркудоведение, короглуведение, новрузоведение, теоретически-методологические исследования, история фольклороведения, исследования по связям фольклора и литературы.

***Ключевые слова:*** Азербайджанское фольклороведение, фольклорные исследования, коркудоведение, короглуведение, новрузоведение

Müstəqillik dövrü Azərbaycan folklorşünaslığının nəzəri-metodoloji və tematik-estetik baxımdan səciyyələndirilməsi statistik baxımdan asan görünsə də, əslində, çox çətin bir mövzudur. 25 illik elmi fəaliyyətin göz qabağında olan nəticələrinin toplama, tərtib-nəşr və tədqiqat istiqamətləri üzrə qruplaşdırılması tədqiqatçıdan, sadəcə, zəhmət tələb edən məsələdir. Lakin bu, bütün hallarda məsələnin üzdə olan, görünən tərəfidir. Məsələnin görünməyən tərəfi Azərbaycanın müstəqilliyinin milli folklor və folklorşünaslıqla birbaşa bağlılığında ifadə olunur. Məhz milli dövlət müstəqilliyi Azərbaycan folkloru və folklorşünaslığını rus-sovet əsarətindən xilas edib, onu müstəqilləşdirdi. Milli şüurumuzun tarixi minilliklərin dərinliklərinə dayanan qəhrəmanlıq arxetiplərinin daşıyıcısı olan Azərbaycan folkloru bu istiqlal mücadiləsində 7-dən 70-ə bütün azərbaycanlıların canını, qanını, ruhunu bir an belə olsun tərk etmədi. Millət istiqlal savaşına Oğuz xanla, Dədə Qorqudla, Salur Qazanla, Koroğlu ilə birgə getdi. Bu mənada, müstəqillik dövrü Azərbaycan folklorşünaslığını onun əsas göstəriciləri baxımından səciyyələndirmək, əslində, Azərbaycan folklorşünaslarının son 25 ildə xalqımızın tarixi milli şüur potensiyasının aktivləşdirilməsi və milli-ideoloji quruculuq sahələrindəki çoxyönlü fəaliyyətinin araşdırılması deməkdir. Bu, bir faktdır ki, keçən dövr ərzidə milli folklorşünas kadrlarımızın bu prosesdə hansı mənəvi-elmi aktivlik dərəcəsində iştirak etməsindən, hansı mövzunu hansı intellektuallıq əmsalında araşdıra bil-

məsindən asılı olmayaraq, onların hamısının müstəqillik dövründəki fəaliyyəti folklorun milli şüur sistemindəki yerinin, rolunun müəyyənləşdirlməsinə və bununla da milli dövlət quruculuğunun ideoloji əsaslalarının möhkəmləndirilməsinə xidmət etmişdir. Bununla da, milli müstəqilliyimizin simvollarından olan Folklor İnstitutu Azərbaycan dövlət quruculuğunun çağırışlarına hay verərək, öz işini məhz müstəqil Azərbaycan dövlətinin beynəlxalq mədəni siyasətinin əsas göstəriciləri səviyyəsində qurmuşdur.

Bu gün müstəqil Azərbaycan Respublikasının beynəlxalq mədəni siyasəti, demək olar ki, bütövlükdə folklor üzərində qurulmuşdur. Folklor milli şüurun özünüifadə kodlarından biri kimi, özünün sənət və yardıcılıq mahiyyəti etibarilə yaradıcılıq ənənəsinin şifahi yaranma, yaşanma və ötürülmə sistemidir. Bu baxımdan, Azərbaycan dövlətinin beynəlxalq mədəni siyasətinin prioritet istiqamətləri olan muğam, aşıq musiqisi, Novruz bayramı, xalçaçılıq sənəti və s. bütün mahiyyəti etibarilə folklordur. Dövlətimizin bu siyasəti dünyanın siyasi reallıqlarından irəli gəlir. Vahid dil (ingilis dili), vahid din (xristianlıq), vahid antidin (masonluq), vahid mədəniyyət (Qərb-Avropa) modellərinə əsaslanan qloballaşma, əslində, milli mədəniyyətlərin məhvinə yönəlmiş dialektik prosesdir. Bu prosesdə milli varlığın, milli kimliyin, milli identifikasiya sisteminin qorunması hər bir normal milli dövlətdən bir əsas vəzifənin yerinə yetirilməsini tələb edir: xalqın milli kimliyini, milli varlığı və mədəniyyətini qoruyacaq milli immun sisteminin, yəni milli özünütəşkil və özünümüdafiə mexanizmlərinin aktivləşdirilməsi və milli dövlət quruculuğuna yönəldilməsi. Bu taleyüklü vəzifənin tarixi bazası bütövlükdə folklorun üzərində durur.

Çünki hər bir xalqın milli immun sisteminin bütün potensiyası folklorda konservasiya olunaraq milli enerjinin ehtiyatları sırasına daxil olur. Beləliklə, Azərbaycan dövləti milli varlığımızın özünüifadə kodları olan muğam sənətini, aşıq yaradıcılığını, Novruz bayramını, xalçaçılıq sənətini beynəlxalq səviyyədə aktivləşdirməklə Azərbaycan xalqının dünya mədəniyyət sitemindəki yerini ümumtürk və ümumşərq potensiyası əsasında möhkəmləndirir. Belə ki, muğam Azərbaycan xalqının dünya antopoloji-mədəni sistemindəki yerini ilahi səs kodu ilə, aşıq sənəti milli-etnik səs kodu ilə, Novruz bayramı etnokosmik davranış kodu ilə, xalçaçılıq sənəti milli rəng universumları ilə təsdiq edərək, inkarolunmaz fakta çevirmişdir. Bütün bunlar müstəqillik dövrü Azərbaycan folklorşünalığının intellektual-mənəvi potensiyasını milli dövlət quruculuğu üçün tələb olunan etnoenergetik enerjinin hasilatına yönəltmişdir. Neftçilər, geoloqlar yerin altından neft ehtyatlarını aşkarlayıb, hasil etdikləri kimi, Azərbaycan folklorşünasları da müstəqillik dövründə milli şüurun dərin qatlarından Azərbaycan xalqını bir etnos kimi dağılmaqdan, məhv olmaqdan qoruyacaq, onu ayaq üstə saxlayacaq və gələcəyə götürəcək dəyərləri, milli özünü təşkilin sxem və formullarını aşkarlayaraq üzə çıxarılmış milli identifikasiya sisteminin folklorda yaşayan ehtiyatlarının toplanması, nəşri və öyrənilməsi istiqamətində nəhəng işlərə imza atmışlar. Bütün bunların nəticəsində Azərbaycan folklorşünasları sovet dönəmində "sosializm quruculuğunun vintciyi" olan yazılı ədəbiyyatın "şifahi əcdadı", yaxud proletar ədəbiyatı statuslarında olan folkloru müstəqillik dövründə etnokosmik düşüncə modeli, etnik özünüifadə və davranış kodu kimi təsdiq edə bilmişlər.

AMEA-nın Folklor İnstitutu milli müstəqilliyimizin atributlarından biridir. Bu institut sovet epoxası ilə müstəqillik epoxası, XX əsrlə XXI əsr, II minilliklə III minillik arasında duraraq bütöv bir epoxanı öz içindən keçirdi və bununla da hər cür ideoloji eybəcərliklərdən uzaq, həqiqi elmi prinsiplərə söykənən milli folklorşünaslığın əsasını qoydu.

Müstəqillik dövrü Azərbaycan folklorşünaslığını səciyyələndirən ən ümumi cəhəti onun fəaliyyətində ənənə və müasirliyin vəhdət təşkil etməsində ifadə olunur. Ənənə özünü XX əsr Azərbaycan folklorşünaslığının bütün pozitiv təcrübəsinin davam və inkişaf etdirilməsində göstərir. Belə ki, XX əsr Azərbaycan folklorşünasları milli folklorun janrlar sistemini onun əsas kütləsində toplayıb nəşr edərək zəngin mətn korpusu yaratmışlar. Folklor İnstitutu bu baza və onun verdiyi nəzəri təcrübəni də əsas götürərək "Azərbaycan folklor antologiyası" və "Azərbaycan folkloru külliyyatı" kimi nəhəng nəşrləri həyata keçirmişdir.

XX əsr Azərbaycan folklorşünasları sovet dönəmində bu gün qiymətli sayıla biləcək tədqiqatlar aparmaqla Azərbaycan folklorşünaslığının nəzəri-metodoloji bazasını yaratmışlar. Bu istiqamətdə xüsusilə janrlar sisteminin təsvirini, Azərbaycan dastanları, nağılları və digər janlar haqqında tədqiqatları qeyd etmək istərdik. Həmin baza bu gün də müasir folklorşünaslarımız üçün nəzəri-metodoloji baza rolunu oynamaqdadır.

Lakin Azərbaycan folklorşünaslıq elmi məhz müstəqillik dövründə dünya elmi-nəzəri fikrinə sərbəst çıxış əldə edə bilmişdir. İndi Azərbaycan folklorşünaslığında vaxtilə "zərərli burjua elmi" damğası vurulmuş nəzəriyyə və metodlardan istifadə olunduğu kimi, tamamilə müasir tədqiqat

texnologiyaları əsasında da araşdırmalar aparılır. Bunun nəticəsində Azərbaycan folklorşünaslıq elmi ən müxtəlif tədqiqat istiqamətlərini əhatə edən nəhəng intellektual düşüncə sisteminə çevrilmişdir.

Müstəqillik dövrü Azərbaycan folklorşünaslığının fəaliyyətinə nəzər saldıqda, təqribi və ümumi olaraq, bu istiqamətləri görmək mümkündür:

**Regional folklor mühitlərinin öyrənilməsi:**

Folklorumuzun müxtəlif folklor mühitləri üzrə toplanması və tədqiqi müstəqillik dövrü Azərbaycan folklorşünaslığının ən böyük uğurlarındandır. Dili dialektlərsiz təsəvvür etmək mümkün olmadığı kimi, folklor da öz dialektlərinə, yəni folklor mühitlərinə malikdir. Bu sahədə aparılmış ardıcıl tədqiqatlar nəticəsində artıq sanballı nəzəri-metodoloji baza formalaşmışdır.

**Mifologiya ilə bağlı tədqiqatlar:**

Bu iş iki əsas istiqaməti əhatə edir:

1. Türk mifologiyasının sistem halında bərpasına yönəlik aşadırmalar;

2. Türk mifologiyasının ayrı-ayrı motiv və semantemlərinin bərpasına yönəlik araşdırmalar.

**Aşıq sənəti və yaradıcılığının tədqiqi:**

Aşıq yaradıcılığının öyrənilməsi milli foklorşünaslıq elmimiz üçün ənənəvi istiqamət olsa da, bu istiqamət müstəqillik dövründə tamamilə yeni məna və məzmun kəsb etdi. Aşıq sənətinin mənşəyinə dair yeni konsepsiya ortaya qoyuldu və aşığın folklor yaddaşının daşıyıcısı kimi müstəsna rolu üzə çıxarıldı.

**Qorqudşünaslıq araşdırmaları:**

Bu sahədə aparılmış tədqiqatlara dövlət qayğısı öz bəhrəsini verdi. "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubeleyinin, o cümlədən əlyazmanın tapılmasının 200 illiyinin rəsmi şəkildə qeyd olunması ilə də Azərbaycan qorqudşünaslığı artıq dünyanın sanballı qorqudşünaslıq mərkəzlərindən biri halına gəlmişdir.

**Koroğluşünaslıq araşdırmaları:**

Bu istiqamətdəki nəzəri fəaliyyət "Koroğlu" dastanının yeni variatlarının nəşrləri ilə müşayiət olunur. Dastanın istər Azərbaycan, istərsdə də ümumtürk variantlarının tədqiqi Azərbaycan "Koroğlu"sunu dünya "Koroğlu" dastanı ənənəsinin nüvəsi və mərkəzi kimi təsdiq etməyə imkan vermişdir. Məhz Azərbaycan "Koroğlu"su qərb və şərq "Koroğlu" ənənəsinin arasında körpü rolunu oynayaraq, ümumtürk və ümumşərq "Koroğlu" ənənəsinin vahid sistem halında mövcudluğunu təmin etmişdir.

**Novruzşünaslıq araşdırmaları:**

Novruz bayramı Azərbaycanın müstəqilliyinin ideoloji atributlarından biridir. Bu bayram Azərbaycan xalqının milli kimlik atributlarını özündə qoruyaraq nəsillərdən nəsillərə ötürən, milli-etnik sistemi ilahi ritmlə təzələyən milli düşüncə və davranış sistemidir. Azərbaycan folklorşünasları bu bayramın tarixi və mədəni strukturunu tədqiq etməklə yanaşı, onun milli düşüncə və ideoloji sistemdəki yerini, türk və dünya xalqlarının vəhdətinin yaranmasındakı rolunu elmi cəhətdən əsaslandırmışlar.

**Nəzəri-metodoloji araşdırmalar:**

Müstəqillik dövrü Azərbaycan folklorşünaslığında sanballı nəzəri-metodoloji tədqiqatlar meydana çıxmışdır. Bu tədqiqatlar folklorşünaslığın ən müxtəlif problemlərini əhatə edir. Buraya metodologiya problemlərindən tutmuş ayrı-ayrı janrların nəzəri strukturlarına qədər aparılmış tədqiqatlar aiddir.

**Folklorşünaslıq tarixi araşdırmaları:**

Bu istiqamətdə aparılan tədiqatların əsas məqsədi Azərbaycan folklorşünaslığının əldə etdiyi nəzəri-metodoloji təcrübənin dəyərli və mütərəqqi tərəflərinin müasir tədqiqatlarda tətbiq imkanlarının öyrənilməsdir.

**Folklor-ədəbiyyat araşdırmaları:**

Folkor etnokosmik düşüncə sistemi kimi etnik özünüifadənin müxtəlif kodlarını əhatə etsə də, sözlü folklor folkor nümunələrinin ümumi ehtiyatlarının mühüm hissəsini təşkil edir. Sovet dönəmində folklorun ümimən şifahi ədəbiyyat paradiqmasında təfsir olunması şüurlarda folklorun ümumiyyətlə şifahi ədəbiyyat olması haqqındakı təsəvvürləri ehkama çevirsə də, müasir Azərbaycan folklorşünaslığı sözlü folkorla sözün verbal ünsiyyət vasitəsi kimi istifadə olunduğu folkor arasındakı sərhədləri təyin etməyə nail olmuşdur. Bu cəhətdən müasir Azərbaycan folklorşünaslığı folklor-ədəbiyyat ikiliyini folklor-şifahi ədəbiyyat-ədəbiyyat üçlüyünə qədər genişləndirməklə müasir filoloji sistemə nəzəri harmoniya gətirməyə nail oldu.

Əlbəttə, bu sadalananlar müstəqillik dövrü Azərbacan folklorşünaslığının fəaliyyətinin ən ümumi tərəflərini əks etdirir. Konkretliyə gəlincə isə bu fəaliyyət çox geniş, məzmunlu və çoxyönlüdür.

# AZƏRBAYCAN MÜHACİRƏT FOLKLORŞÜNASLIĞI ÇAĞDAŞ ELMİ-NƏZƏRİ FİKİR KONTEKSTİNDƏ

**Almaz Həsənqızı**
gunsel_gunsel@yahoo.co.uk

## AZERBAIJANI EMIGRATION FOLKLORE STUDIES İN THE CONTEXT OF MODERN SCİENTİFİC-THEORETİCAL THOUGHT

SUMMARY

Azerbaijani emigrant folklore scholars in different countries of the world have done remarkable work in collection, conservation, publication and popularization of the folklore samples which were either banned through the Soviet censorship or were misrepresented at that time. Their scientific-theoretical researches cover all genres of vocal folk literature. Due to the fact that they were created in a liberal atmosphere far from censorship, they differ in their characteristics from the researches conducted under the soviet pressure.

It is known that, up until the end of the XX century, Azerbaijani emigration folklore studies had received hardly any attention. Not only the literary work of Ahmad Aghaoghlu, Alibay Huseynzadeh, Ahmad Jafaroghlu, Mahammad Amin Rasulzadeh, Jeyhun bay Hajibayli, Huseyn Baykara, Naghi Keykurun (Sheykhzamanli), Almas Ildirim, Salim Rafig, Abdulvahab Yurdsevar, Karim Oder, Karim Yaychili, Naghi Turabli, Yunus Lankaranli, Iren Malikoff and others were forbidden for research or learning purposes, but in most cases even referral of their names were not allowed. Only in rare

circumstances they were mentioned, however even in those instances they were either falsely misrepresented or humiliated.

Regaining independence of Azerbaijan gave vast opportunities to re-examine cultural-artistic heritage from the angles of national interest. Notwithstanding more than seven-decades-lasting Soviet ideological interference and serious censorship of the Communist Party, a necessity arises now to research spiritual heritage of our country from completely opposite point of view.

This article draws attention to the research dedicated to Azerbaijani emigration folklore studies until today.

***Key words:*** emigration folklore studies, researches, enlighteners, literature, homeland

## АЗЕРБАЙДЖАНСКАЯ ЭМИГРАНТСКАЯ ФОЛЬКЛОРИСТИКА В КОНТЕКСТЕ СОВРЕМЕННОЙ НАУЧНОЙ МЫСЛИ

РЕЗЮМЕ

Действовавшие в различных странах мира представители азербайджанской эмигрантской фольклористики проделали важную работу по сбору, сохранению и доведению до будущих поколений фольклорных материалов. Издание и распространение этих фольклорных образцов в мире ошибочно пропагандировались под влиянием советской идеологии или запрещались цензурой. Их научно-теоретические исследования охватывают все жанры устного народного творчества и в силу того, что были созданы в свободной от цензуры далекой среде, серьезно отличаются своим своеобразием созданных в тот период под влиянием советских исследований.

Известно, что азербайджанская эмигрантская фольклористика до конца XX столетия была обойдена вниманием. Произведения их создателей – Ахмеда Агаоглу, Алибека Гусейнзаде, Ахмеда Джафароглу, Махаммед Амина Расулзаде, Джейхун бека Гаджибейли, Гусейна Байкары, Наги Кейкуруна (Шейхзаманлы), Алмаса Илдырыма, Салима Рафига, Абдулвагаба Юрдсевера, Керима Одера, Керима Яйчилы, Наги Тураблы, Юнуса Ленкеранлы, Ирен Меликофф и других не разрешалось не только изучать или исследовать, но в большинстве случаев даже запрещалось произносить их имена. Только в очень редких случаях, если и говорили о них, то подвергались оскорблению или же неверно пропагандировали.

Восстановление независимости Азербайджана дала возможность для того, чтобы вновь с позиции национального интереса, обратилась к культуно-художественному наследию, и, несмотря на более чем семидесятилетнее прямое вмешательство советской идеологической системы, а также на фоне требований коммунистической партии имеющую серьезную цензуру, возникла необходимость исследования духовного наследия с совершенно противоположных позиций.

В статье обращается внимание на исследования, посвященные Азербайджанской эмигрантской фольклористике изучающееся вплоть до наших дней.

***Ключевые слова:*** эмигрантская фольклористика, исследование, просветители, литература, родина

**Giriş**

İyirminci yüzildə siyasi təqiblər üzündən doğma torpağından didərgin düşərək, qürbət ömrü sürməyə məhkum edilən Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Mirzə Bala Məmmədzadə, Əhməd Cəfəroğlu, Ceyhun bəy Hacıbəyli, Səlim Rəfiq Rəfioğlu, Nağı Keykurun, Hüseyn Baykara, Əbdülvahab Yurdsevər, Mustafa Haqqı Türkəqul, İren Melikoff və başqaları vətənindən uzaqlarda xalqının zəngin mənəvi sərvətlərinin düzgün, qərəzsiz tanıtdırılması uğrunda mübarizə aparmış, xalq ədəbiyyatının bütün janrlarını bu və ya başqa şəkildə araşdırmış, beləliklə, mühacirətdə folklorla bağlı çox zəngin tədqiqatlar yaranmışdır.

Məlumdur ki, SSRİ-nin mövcud olduğu yetmiş ildə siyasi məqsədlər uğruna ayrı-ayrı mədəniyyətlərin unutdurulması və "ruslaşdırılması" istaqmətində ciddi fəaliyyət göstərilmiş, xüsusən türkdilli xalqların öz milli kökündən qoparılması naminə bu gün də insanı dəhşətə gətirən müxtəlif vasitələrdən istifadə olunmuşdur. Belə ki, xalqın bərəkət, məhsuldarlıq, xeyirxahlıq, imkansızlara yardım, gözəllik və s. məqsədləri özündə ehtiva edən Novruz kimi müqəddəs bayramı unutdurulmağa çalışılarkən, "Oktyabr", "28 Aprel", saxta "Məhsul" bayramlarının, "komsomol" toylarının, ənənəvilikdən uzaq yas mərasimlərinin zorla xalqın məişətinə daxil olunmasına cəhd edilmiş, xalq mahnılarına, nağıllara, dastanlara senzura "əl gəzdirmiş", bəzi folklor janrlarının tədqiqinə yasaqlar qoyulmuşdu. Lakin mühacirətdə yaşayan Azərbaycan aydınları xalq ədəbiyyatı nümunələrinin araşdırılmasına azadlıq ideallarının gerçəkləşməsinin tərkib hissəsi kimi həssaslıqla yanaşmış, folklor materiallarının toplanması, nəşri və təbliğinin, daha doğrusu, milli-mənəvi sər-

vətin öyrənilməsinin vacibliyinə diqqət yetirmişlər. Təəssüf ki, siyasi-ideoloji səbəblər üzündən uzun illər Azərbaycan elmi-nəzəri fikrinin mühacirətdə yaranan tədqiqatlara diqqət yetirməsinə qadağalar qoyulmuş, nadir hallarda onlardan bəhs ediləndə isə bu, yanlış və qərəzli mahiyyət daşımışdır.

Mühacirət folklorşünaslığının elmi-nəzəri tədqiqatları bir çox hallarda həmin dövrdə sovet basqısı altında yaranan araşdırmalardan özünəməxsusluğu, obyektivliyi, metodoloji aspekti ilə ciddi şəkildə fərqlənməkdədir. Xalq ədəbiyyatının ayrı-ayrı janrları ilə bağlı sovet senzurasının yasaqladığı bir sıra məsələlərə ilk dəfə mühacirətdə diqqət yetirilmiş, bu və ya digər şəkildə münasibət bildirilmişdir.

Bundan əlavə, mühacirətdə Azərbaycanın milli-mənəvi sərvətlərinin təbliği üçün həmin ziyalılar tərəfindən folklor materialları dünyanın ayrı-ayrı ölkələrində nəşr olunmuşdur ki, bu zəngin irsin dəyərləndirilməsi xüsusi aktuallıq kəsb edir.

## Azərbaycan mühacirət folklorşünaslığı ilə bağlı araşdırmalar

Azərbaycanın öz istiqlaliyyətini bərpa etməsi ədəbi-mədəni irsimizin yenidən, milli mənafelər baxımından nəzərdən keçirilməsi üçün geniş imkanlar yaratdı və yetmiş ildən artıq sovet ideoloji sisteminin birbaşa müdaxiləsi, həmçinin kommunist partiyasının tələbləri fonunda ciddi senzuraya məruz qalan mənəvi irsin tamamilə fərqli mövqedən araşdırılması zərurəti meydana çıxdı. Beləliklə, ən çox basqılara məruz qalan mühacirət folklorşünaslığının tədqiqi zamanın tələblərindən birinə çevrildi.

Azərbaycan mühacirət folklorşünaslığı XX yüzilin son illərinə qədər sovet ideoloji sisteminin tələbləri üzündən təd-

qiqatlardan kənarda qalmış, onun yaradıcıları – Əhməd bəy Ağaoğlu, Əlibəy Hüseynzadə, Əhməd Cəfəroğlu, Məhəmməd Əmin Rəsulzadə, Ceyhun bəy Hacıbəyli, Hüseyn Baykara, Nağı Keykurun (Şeyxzamanlı), Almas İldırım, Səlim Rəfiq, Əbdülvahab Yurdsevər, Kərim Odər, Kərim Yaycılı, Nəbi Turablı, Yunus Lənkəranlı, İren Melikoff, Xavər Aslan və başqalarının nəinki araşdırmalarını öyrənmək, hətta çox vaxt adlarını belə dilə gətirmək yasaq olunmuş, yalnız nadir hallarda onlardan bəhs edilmişsə də, həmin şəxsiyyətlər ya təhqir olunmuş, ya da yanlış təbliğə məruz qalmışlar. Məhz buna görə də mühacirət folklorşünaslığı ilə bağlı araşdırmalar ilk olaraq elə didərgin ömrü yaşamağa məhkum olan ziyalıların özləri tərəfindən aparılmışdır. Belə ki, ayrılıq iztirabı ilə ömür sürən bu insanlar yalnız xalq ədəbiyyatı örnəklərinin toplama, tədqiq, nəşr və təbliğilə məşğul olmamış, eyni zamanda, istər vətəndə, istərsə də qürbətdə folklorla bağlı aparılan tədqiqatları izləmiş, bu və ya digər şəkildə münasibət bildirmişlər. Bu mənada mühacirət folklorşünaslığının ilk araşdırıcısı Əhməd Cəfəroğlu hesab edilə bilər. O, "Şərqdə və Qərbdə azəri ləhcəsi tədqiqləri" (Caferoğlu 1934:236) məqaləsində Ceyhun Hacıbəylinin "Qarabağın dialekti və folkloru (Qafqaz Azərbaycanı)" əsərindən müəyyən qədər bəhs etmişdir.

Səlim Rəfiq Rəfioğlu "Professor dr. Əhməd Cəfəroğlunun əsərlərində görülən xətalar. Bir əlavə. Bir cavab" adlı araşdırmasında Ə.Cəfəroğlunun bütün elmi yaradıcılığından, o cümlədən, folklorşünaslıq fəaliyyətindən bəhs etmişdir (Refik 1941). Lakin, qeyd etmək lazmdır ki, Səlim Rəfiqin tənqidləri bir çox hallarda elmi–nəzəri faktlarla əsaslandırılmadığından mübahisə doğurur.

Azərbaycan mühacirət folklorşünaslığının tədqiqi ilə sovet dövründə və daha sonralar Türkiyə ədəbiyyatşünasları da məşğul olmuşlar. Belə ki, Mehmet Fuad Köprülü müxtəlif tədqiqatlarında tələbəsi Ə.Cəfəroğluya istinad etmiş, onun folklorşünaslıq fəaliyyətindən bəhs etmişdir (Köprülü 1942: 3-5).

Bundan başqa, Nizaməddin Onk "Müseyib Zəyəm" (Onk 1970: 21-28), Əli Heydər Bayat "Hüseynzadə Əli bəy" (Bayat 1998), Səbahəddin Şimşir "Azərbaycanlıların Türkiyədə siyasi və kültürəl fəaliyyətləri (1920-1991)" (Şimşir 2000), "Məmməd Sadıq Aran: yaşamı və mücadiləsi" (Şimşir 2012), Ufuk Özcan "Yüz il dönəmində qərbçi bir aydın Əhməd Ağaoğlu və rol dəyişikliyi" (Özcan 2010) əsərlərində ayrı-ayrı siyasi şəxsiyyətlərin yaradıcılığı fonunda folklorşünaslıq fəaliyyətləri haqqında da müəyyən qədər təhlillər aparmışlar.

Yuxarıda qeyd olunduğu kimi, sovet hakimiyyətinin senzura sistemi mühacirət ədəbiyyatının, o cümlədən, folklorşünaslığın araşdırılmasına qoyduğu qadağalar Azərbaycanda uzun illər bu irsin tədqiqatlardan kənarda qalmasına səbəb olmuşdur. Bununla yanaşı, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, Ə.Cəfəroğlu, C.Hacıbəyli və başqalarının adları sovet dövrü Azərbaycan mətbuatında ara-sıra səslənmişdir. Lakin təəssüf ki, bu məqalələr çox vaxt onların fəaliyyətinə kölgə salmaq məqsədi daşımış, qeyri-obyektiv, sovet senzurasının tələbinə müvafiq olaraq qərəzli tənqid ruhunda yazılmışdır (Ətraflı bax: Kərimov 1974; Köçərli 1974; Mirəhmədov 1974).

XX əsrin səksəninci illərinin sonundan başlayaraq Azərbaycanda mühacirət irsinin öyrənilməsi istiqamətində müəyyən işlər görülmüşdür. Mövsüm Əliyev, Elçin, Anar, Əzizə Cəfərzadə, Abbas Abdulla qürbət ellərdə yaşayan soydaş-

larımızın taleyilə bağlı yazılarında onların yaradıcılığından, bəzi hallarda folklorşünaslıq fəaliyyətindən bəhs etmişlər.

Azərbaycan Yazıçılar Birliyi, Nizami adına Ədəbiyyat İnstitutu və Ankaradakı Azərbaycan Kültür Dərnəyinin təşkilatçılığı ilə 2-4 aprel 1991-ci ildə Bakıda keçirilən "Azərbaycan mühacirət ədəbiyyatı" beynəlxalq simpoziumu mühacirət folklorşünaslığına diqqət və marağın artmasına səbəb oldu. Həmin ildə Sovetlər Birliyinin dağılması və Azərbaycanın yenidən istiqlaliyyətinə qovuşması mühacirət folklorşünaslığının öyrənilməsi zərurətini ortaya çıxardı, bu istiqamətdə daha ciddi araşdırmaların yaranmasına təkan verdi. Həmin dövrdən başlayaraq, Azərbaycan mühacirət folklorşünaslığı ilə bağlı yaranan tədqiqatları aşağıdakı şəkildə xülasə etmək olar.

Filologiya elmləri doktoru, professor Vilayət Quliyev Azərbaycan mühacirət ədəbiyyatının bir neçə görkəmli nümayəndəsinin yaradıcılığını araşdırmış (Quliyev 2000: 336-357; Quliyev 2009:13-57; 137-145), həmçinin Əhməd bəy Ağaoğlu və Əhməd Cəfəroğlunun "Seçilmiş əsərləri"ni nəşr etdirmişdir (Ağaoğlu 2007; Cəfəroğlu 2008).

Filologiya elmləri doktoru, professor Vaqif Sultanlının M.Ə.Rəsulzadənin həyatı və ədəbi fəaliyyətilə bağlı tədqiqatlarında siyasi liderin folklorşünaslıq fəaliyyətindən bəhs edilmişdir. Bundan əlavə, müəllifin "Azərbaycan mühacirət ədəbiyyatı" əsərində vətəndən uzaqlarda yaşamaq zorunda qalan şəxsiyyətlərin ədəbi-kültüroloji irsinin təhlili zamanı folklorla bağlı məqamlara diqqət yetirilmişdir (Sultanlı 1998).

"Müasir Azərbaycan ədəbiyyatı" dərsliyinin "Azərbaycan mühacirət ədəbiyyatı" fəslində Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, Ə.Cəfəroğlunun yaradıcılığı fonunda folklorşünaslıqla bağlı məqamlar da diqqətə çatdırılmışdır.

Filologiya üzrə elmlər doktoru Abid Tahirlinin "Azərbaycan mühacirəti", "Azərbaycan mühacirət mətbuatı" əsərləri əsasən publisistik tədqiqatlar olduğundan folklorla bağlı məqamlar qismən öz əksinin tapmışdır. "Ceyhun Hacıbəyli folklor tədqiqatçısı kimi" məqaləsi isə birbaşa mühacir ziyalının bu sahədəki fəaliyyətinin aydınlaşdırılması məqsədilə yazılmışdır (Tahirli 2004: 89-93).

Mirzə Ənsərlinin "Gəncəli professor Əhməd Cəfəroğlu" adlı tədqiqatı biblioqrafik səciyyədə tərtib edilmiş, burada görkəmli Azərbaycan aliminin bütün tədqiqatlarının, o cümlədən, folklorla bağlı əsərlərinin siyahısı verilmişdir (Ənsərli 1996).

Filologiya üzrə fəlsəfə doktoru Elşən Əbülhəsənlinin "Əhməd Cəfəroğlunun ədəbiyyatşünaslıq irsi" (Əbülhəsənli 2006:43-73) monoqrafiyasının birinci fəslində alimin folklorla bağlı tədqiqatlarının müəyyən qismi təhlilə cəlb edilmişdir.

Professor Həsən Quliyevin rus dilində nəşr etdirdiyi "Azərbaycan mühacirət ədəbiyyatı" ("Эмигрантская литература Азербайджана") monoqrafiyasında Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu, Banin, A.İldırım, C.Hacıbəylinin mühacirət dövrü yaradıcılıqlarından yığcam bəhs edildiyindən onların folklorşünaslıq fəaliyyətinə yer ayrılmamış, yalnız "Qarabağın dialekti və folkloru (Qafqaz Azərbaycanı)" əsərinin adı xatırlanmışdır (Quliyev 2004).

Filologiya üzrə fəlsəfə doktoru Nikpur Cabbarlının 2001-ci ildə nəşr olunmuş "Əhməd Cəfəroğlunun ədəbiyyatşünaslıq irsi" adlı tədqiqatında Ə.Cəfəroğlunun folklorşünaslıq fəaliyyətindən müxtəsər bəhs edilmişdir (Cabbarlı 2001: 6-11).

Filologiya üzrə fəlsəfə doktoru Şəlalə Həsənovanın "Mühacirət irsimizdən səhifələr" monoqrafiyasında "Azərbaycan yurd bilgisi" dərgisindəki tədqiqatların təhlili zamanı

folklorla bağlı araşdırmalar nəzərdən keçirilsə də, ilkin mənbələrdən istifadə olunmadığından müəyyən xətalara yol verilmişdir (Həsənova 1995). Həmin tədqiqat əsasında 2014-cü ildə Ş.Həsənovanın "Mühacirət irsimizin "Yurd bilgisi" (təkrar və əlavə olunmuş nəşr)" kitabı işıq üzü görmüşdür (Həsənova 2014). Bu araşdırmada da folklorla bağlı təhlillər əvvəlkindən, demək olar ki, fərqlənmir.

Filologiya üzrə elmlər doktoru Almaz Həsənqızının "Azərbaycan mühacirət folklorşünaslığında dastançılıq məsələləri" (2002), "Aşıq yaradıcılığı mühacirət folklorşünaslığında" (2011), "Azərbaycan mərasimləri mühacirət folklorşünaslığında" (2011), "Mühacirətdə folklor janrlarının tədqiqi" (2012) monoqrafiyaları bu istiqamətdə aparılan araşdırmalar sırasına daxildir. Müəllifin "Azərbaycan mühacirət folklorşünaslığı" kitabı isə bütövlükdə mühacirətdə Azərbaycan folkloru ilə bağlı aparılan tədqiqatların sistemli şəkildə araşdırılmasına həsr edilmişdir (Həsənqızı 2016).

Azərbaycan mühacirətinin ədəbi-kulturoloji irsinin araşdırıldığı bəzi monoqrafiyalarda, yeri gəldikcə, folklorşünaslıqla bağlı bəzi məqamlara da toxunulmuşdur (Yaqublu 1991: 247-248; İbrahimli 1996: 265-272).

Filologiya üzrə fəlsəfə doktoru Gülağa Hüseynovun "Əhməd Cəfəroğlunun folklorşünaslıq irsi" adlı dissertasiya işində mühacir alimin xalq ədəbiyyatı ilə bağlı tədqiqatları nəzərdən keçirilmiş, topladığı materiallardan bəhs olunmuşdur (Hüseynov 2007).

Filologiya üzrə fəlsəfə doktoru Ülkər Əliyevanın "Azərbaycan yurd bilgisi" dərgisində folklorşünaslıq məsələləri" monoqrafiyasında xalq ədəbiyyatı ilə bağlı adı çəkilən dərgidə nəşr olunmuş bir sıra tədqiqatlar təhlilə cəlb

olunmuşdur (Əliyeva 2014).

Fəridə Hicran (Vəliyeva) adlı müəllifin "Azərbaycan mühacirət folklorşünaslığı" monoqrafiyası bu zəngin irsin tədqiqinə həsr edilsə də, mövzu tam şəkildə əhatə olunmamış, kobud səhvlərə və xətalara yol verilmişdir. Belə ki, mühacirət folklorşünaslığı yalnız M.Ə.Rəsulzadə, Ə.Cəfəroğlu, C.Hacıbəyli və B.Həqqinin fəaliyyəti haqqında müxtəsər məlumatla məhdudlaşdırılmışdır. Digər tərəfdən, monoqrafiya ilk mənbələr və fundamental tədqiqatlar əsasında deyil, mühacirətlə bağlı Azərbaycan mətbuatında verilən müsahibələr, kitablara yazılan ön sözlər əsasında qələmə alınmışdır (Hicran 2009).

2015-ci ildə AMEA Folklor İnstitutunun təşəbbüsü ilə mühacirətdə ayrı-ayrı ziyalılar tərəfindən aparılmış tədqiqatlar toplanaraq tərtib edilmiş və "Mühacirətdə folklor araşdırmaları" adlı silsilənin ilk kitabı nəşr edilmişdir (Mühacirətdə folklor araşdırmaları 2015). Həmin topluda iyirmiyə qədər müəllifin folklorla bağlı otuza yaxın məqaləsinə yer verilmişdir. Bundan əlavə, AMEA Folklor İnstitutu 01 aprel 2016-cı ildə "Ceyhun Hacıbəyli və Azərbaycan folkloru" adlı sessiya keçirmiş, ömrünün böyük hissəsini Fransada yaşamağa məcbur olan ziyalının irsi folklorşünaslıq baxımından müzakirə edilmişdir. Həmin sessiyanın materialları ayrıca kitab şəklində nəşr edilmişdir ("Ceyhun Hacıbəyli-125" 2016).

Bakıda 10-11oktyabr 2016-cı il tarixində "Azərbaycan mühacirət ədəbiyyatı: reallıqlar, problemlər, vəzifələr" mövzusunda II beynəlxalq elmi konfrans keçirilmişdir. Təəssüf ki, həmin konfransda dinlənilən iyirmi beş məruzədən yalnız biri mühacirət folklorşünaslığı ilə bağlı olmuşdur (Mirzəyeva 2016: 323-334).

Qeyd etmək lazımdır ki, AMEA Folklor İnstitutu "Türk xalqları folkloru" şöbəsində mühacirətdə aparılan tədqiqatların öyrənilıməsi və dünyanın müxtəlif ölkələrində toplanıb çap olunan materialların Azərbaycanda nəşrə hazırlanması məsələlərinə diqqət yetirilir. Belə ki, artıq mühacir alim Əhməd Cəfəroğlunun "Doğu ellərimiz ağızlarından toplamalar I (Qars, Ərzurum, Çoruh ilbaylıqlari ağızları)" kitabı nəşrə hazırlanmışdır.

**Nəticə**

Tarixi insanlığın yaşı qədər qədim zamanlara uzanan Azərbaycan əsrlər boyu kəskin əzablara, müharibələrə, inqilablara, nəhayət, parçalanmaq kimi ən ağır işgəncəyə məruz qalsa da, bu müqəddəs torpaqda məskunlaşan insanlar özlərinin haqqı olan ədaləti, istiqlalı qazanmaq yolunda mübarizədən geri çəkilməmiş, şəhid qanı ilə suvarılan yurdunun azad və bütöv olacağı gələcək günün ümidi ilə yaşamış, bu keşməkeşli illərin izlərini qoruyan böyük ağrıların, iztirabların, eyni zamanda, azadlıq arzularının ifadəsi olan zəngin bir irs yaratmışlar. Siyasi-ideoloji səbəblər üzündən qərib ellərə pənah aparsa da, vətənin dərdləri kimi istiqlal arzularını da qəlbində daim yaşadan və dünya ictimaiyyətinə çatdırmağa çalışan Azərbaycan mühacirət folklorşünaslarının yaradıcılığı müstəqilliyinə yenidən qovuşan vətənimizdə müəyyən qədər öyrənilsə də, bu zəngin irsin daha dərin təhlilə, dünyanın müxtəlif ölkələrindəki tədqiqatların öz doğma torpağımızda nəşrinə ehtiyac vardır.

Aparılan tədqiqatlar göstərir ki, Azərbaycanın ziyalı övladları dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq vətən havası ilə nəfəs almış, xalq yaradıcılığından

bəhrələnərək fəaliyyət göstərmişlər. Onların tədqiqatları çox zəngindir və baxışları mövcud araşdırmalardan əhəmiyyətli dərəcədə fərqlənir. Bu irsin Azərbaycanda nəşri əksəriyyəti vətənin yenidən müstəqilliyinə qovuşduğunu görə bilmədən ona sonsuz həsrət duyğuları ilə dünyasını dəyişmiş olan mühacir ziyalılarımızın ən böyük mənəvi haqqıdır.

**Qaynaqlar**

Ağaoğlu 2007 – Ağaoğlu Əhməd bəy. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007.

Bayat 1998 – Bayat Ali Haydar. Hüseyinzadə Ali bey. Ankara: Atatürk Kültür Mərkəzi başkanlığı yayını, 1998.

Cabbarlı 2001 – Cabbarlı Nikpur. Əhməd Cəfəroğlunun ədəbiyyatşünaslıq irsi. Bakı: Elm, 2001.

"Ceyhun Hacıbəyli-125" 2016 – "Ceyhun Hacıbəyli-125" (Ceyhun Hacıbəylinin 125 illik yubileyi ilə bağlı elmi sessiyanın (Bakı, 1 aprel, 2016) materialları. Bakı: "Elm və təhsil", 2016.

Caferoğlu 1934 – Caferoğlu Ahmet. Şarkta ve Garpta azeri tetkikleri // "Azerbaycan yurt bilgisi", İstanbul: 1934, sayı 30, s.236

Cəfəroğlu 2008 – Cəfəroğlu Əhməd. Seçilmiş əsərləri, Bakı: Mütərcim, 2008.

Əbülhəsənli 2006 – Əbülhəsənli Elşən. Əhməd Cəfəroğlunun ədəbiyyatşünaslıq irsi. Bakı: Azərnəşr, 2006.

Əliyeva 2014 – Əliyeva Ülkər. "Azərbaycan yurd bilgisi" dərgisində folklorşünaslıq məsələləri. Bakı, Elm və təhsil, 2014.

Ənsərli 1996 – Ənsərli Mirzə. Gəncəli professor Əhməd Cəfəroğlu. Bakı: Qartal, 1996.

Həsənova 1995 – Həsənova Şəlalə. Mühacirət irsimizdən səhifələr. Bakı: Maarif, 1995.

Həsənova 2014 – Həsənova Şəlalə. Mühacirət irsimizin “Yurd bilgisi”. Təkrar və əlavə olunmuş nəşr. Bakı: Letterpress, 2014.

Həsənqızı 2016 – Həsənqızı Almaz. Azərbaycan mühacirət ədəbiyyatı. Bakı: Elm və təhsil, 2016.

Hicran 2009 – Hicran (Vəliyeva) Fəridə. Azərbaycan mühacirət folklorşünaslığı. Bakı: Qartal, 2009.

Hüseynov 2007 – Hüseynov Gülağa. Əhməd Cəfəroğlunun folklorşünaslıq irsi, filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Bakı, 2007.

Quliyev 2004 – Гулиев Гасан. Эмигрантская литература Азербайджана. Баку: Нурлан, 2004.

Quliyev 2000 – Quliyev Vilayət. Tarixdə iz qoyan şəxsiyyətlər. Bakı: Ozan, 2000.

Quliyev 2009 – Quliyev Vilayət. Son illərin yazıları. Bakı: Ozan, 2009.

Kərimov 1974 – Kərimov İsmayıl. Agent kafedra arxasında / “Kommunist” qəzeti, Bakı: 24 mart 1974

Köçərli 1974 – Köçərli Firudin. Böhtançıya cavab / “Kommunist” qəzeti, Bakı: 20 mart 1974

Köprülü 1942 – Köprülü Mehmet Fuat. Azeri aşıklarından Tufarganlı Abbas // “Türk amacı” der., İstanbul: 1942, temmuz, yıl 1, sayı 1, s.3-5.

İbrahimli 1996 – İbrahimli Xaləddin. Azərbaycan siyasi mühacirəti. Bakı: Elm, 1996.

Mirəhmədov 1974 – Mirəhmədov Əziz. Burjua elminin saxtakarlığı əleyhinə (Azərbaycan ədəbi-ictimai fikri məsələ-

ləri) // "Azərbaycan kommunisti", Bakı: 1974, sayı 2, s.48-54.

Mirzəyeva 2016 – Mirzəyeva Xanım. Səlim Rəfiqin folklorşünaslıq irsində dini motivli Azərbaycan nağılları // "Azərbaycan mühacirət ədəbiyyatı: reallıqlar, problemlər, vəzifələr" II Beynəlxalq elmi konfransın materialları. Bakı: Elm və təhsil, 2016, s.323-333.

Mühacirətdə folklor araşdırmaları 2015 – Mühacirətdə folklor araşdırmaları (I kitab). Tərtib edən: A.Həsənqızı. Bakı: Elm və təhsil, 2015.

Onk 1970 – Onk Nizamettin. Müseyib Zeğem // "Azerbaycan", Ankara: 1970, yıl 18, sayı 191-196, s.21-28

Özcan 2010 – Özcan Ufuk. Yüzyıl dönemində Batıcı bir aydın Ahmet Ağaoğlu ve rol değişikliği. İstanbul: Kitabevi, 2010.

Refik 1941 – Refik Selim. Professör Dr. Ahmet Caferoğlunun eserlerinde görünen hatalar. Bir ilave. Bir cevap. Bursa: Emek basımevi, 1941.

Sultanlı 1998 – Sultanlı Vaqif. Azərbaycan mühacirət ədəbiyyatı. Bakı: 1998.

Şimşir 2000 – Şimşir Sebahattin. Azerbaycanlıların Türkiyedeki siyasi ve kültürel faaliyetleri (1920-1991). Ankara: Azerbeycan Kültür Derneği yayınları №49, 2000.

Şimşir 2012 – Şimşir Sebahattin, Mehmet Sadık Aran: yaşamı ve mücadelesi. İstanbul: Eren, 2012.

Tahirli 2004 – Tahirli Abid. Ceyhun Hacıbəyli folklor tədqiqatçısı kimi // "Dədə Qorqud", Bakı: 2004, sayı 4 (13), s.89-93

Yaqublu 1991 – Yaqublu Nəsiman. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991.

# MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN FOLKLORŞÜNASLIĞINDA CƏNUBİ AZƏRBAYCAN FOLKLORU MƏSƏLƏLƏRİ

**Mətanət Abbasova**
abbasova_metanet@rambler.ru

## SOUTHERN AZERBAIJAN FOLKLORE PROBLEMS IN AZERBAIJAN FOLKLORE-STUDY DURING THE INDEPENDENCE PERIOD

SUMMARY

Though developing in different social-political situation and places the rich Azerbaijan culture divided into North and South during about two centuries has protected the folklore memory. The different folklore examples saved in folklore thought and mind have not been collected systematically in South sphere for many years and these examples being the main part of Azerbaijan folklore have been out of the investigations. The investigation of the South folklore in our folklore-study in details was not realized, because of the Soviet political regime. In the article the problems such as collecting, publishing, investigation of the Southern folklore in folklore-study during the Soviet union and Azerbaijan independence period are investigated.

***Key words:*** South, folklore, independence, collecting, publishing, investigation, problem

## ВОПРОСЫ ФОЛЬКЛОРА ЮЖНОГО АЗЕРБАЙДЖАНА В ФОЛЬКЛОРИСТИКЕ ЗА ПЕРИОД НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА


РЕЗЮМЕ

На протяжении, приблизительно, двух веков разделенный на Север и Юг богатая культура Азербайджана, несмотря на свое развитие на различных общественно-политических формациях каждая из них сберег в памяти присущий ему фольклор. Долгое время в Южной среде годами в сознании и в мышлении оттачивались и сохранились различные фольклорные образцы, они были собраны по системе и эти образцы составили основную часть Азербайджанского фольклора, которые остались вне поле зрения исследователей. Широкое изучение в нашей фольклористике фольклора Южного Азербайджана, а также его изучение под натиском Советского политического режима со временем был привлечен к исследованию. В данной статье исследуется проблема собирания, издания, а также вопросы исследования в фольклористике фольклора Южного Азербайджана во времена Советского Союза и в период независимости Азербайджана.



***Ключевые слова:*** фольклор Южного Азербайджана, фольклор, независимость, собирание, издание, исследование, проблема.


Qədim tarixə malik Azərbaycan xalqının milli dövlətçilik idealları tarix boyu həmişə öndə olmuş və ən mükəmməl ideologiyalardan birinə çevrilmişdir. Azərbaycan dövlətçiliyinin bərpası, qorunub saxlanması bu istiqamətdə zamanla müxtəlif ictimai-siyasi hadisələr, mübarizə şərai-

tində mümkün olmuşdur. Məlumdur ki, 1920-ci ildə Azərbaycan xalq cümhuriyyətinin süqutu ölkəni sovet ideoloji basqıları qarşısında qoymuş, milli-mənəvi mədəniyyət ideoloji nəzarət üzərində saxlanmış və ən əsası tarix boyu ikiyə parçalanan Şimallı, Cənublu Azərbaycanın bütövlüyü, milli ruhu təhdid olunmuşdur. Sözsüz ki, bu siyasi, ideoloji basqılar qarşısında Azərbaycan mədəniyyəti, xüsusilə folklor ədəbiyyatı öz inkişafının daha ziddiyyətli və mürəkkəb mərhələsini keçmişdir.

Qeyd edək ki, Azərbaycan mədəniyyəti tarixin bu dönəmində iki müxtəlif məkanda – Şimal və Cənub siyasi-coğrafi məkanında inkişaf etsə də eyni xalqın milli-mənəvi düşüncə, təfəkkür bütövlüyünü qoruyub saxlamışdır. Müxtəlif ictimai-siyasi şəraitdə olmasına baxmayaraq bütün dövrlərdə Azərbaycan folkloru ümumtürk etnokulturoloji özəlliyini əks etdirmişdir. Şimalda Sovet siyasi rejimi, Cənubda Pəhləvi rejimi, heç şübhəsiz xalqın mədəniyyətinə ideoloji baxımdan öz təsirini göstərmişdir. Siyasi rejimlər Azərbaycan xalqının mənəviyyatı və taleyi üçün nə qədər təhlükəli olsa belə, xalq min illərdən gələn özəl dəyərlərə, ilkinliyə, soy-kökə bağlılığını yaşatmışdır. Bunun ifadəsi kimi istər Şimali, istərsə də Cənubi Azərbaycanda xalqın milli-mənəvi oyanışı nəticə etibarilə onun yaradıcılıq enerjisini daha çox folklor üzərində kökləmiş, məhz şifahi ədəbiyyat xalq ruhunun özünüifadəsinə çevrilmişdir.

Ümumi Azərbaycan folklorunun Cənub şifahi xalq sənəti istiqamətində toplama, nəşr və tədqiqinin aparılması sözsüz ki, istər Sovetlər birliyi, istərsə də müstəqillik dövründə müəyyən çətinliklərlə bağlı həyata keçirilmişdir.

Qeyd edək ki, məlum siyasi-ideoloji problemlərə baxmayaraq, Cənubi Azərbaycan folklorunun toplanması və nəşri Sovetlər Birliyi dövründə də Azərbaycan ziyalıları, alimlərinin diqqət mərkəzində saxlanılmışdır. Cənubda toplama işinin aparılmasındakı qadağalar, dövlətlərarası siyasi gərginlik şəraitində folklor örnəklərinin bir araya gətirilməsi əsasən əlyazma mətnləri, eləcə də cənublu soydaşlarla şəxsi görüşlər zamanı əldə edilmiş, bu materialların nəşri məsələsi də Sovetlər birliyi dövründə mövcud ideoloji düşüncə baxımından mümkünsüz olmuşdur. Lakin ümummilli lider Heydər Əliyevin güclü siyasi iradəsi sayəsində diplomatik şəkildə bu proqram həyata keçirilmişdir. İlk dəfə olaraq Cənubi Azərbaycan folkloru nümunələrinin sistemli şəkildə bir arada nəşri məsələsi AMEA Nizami adına Ədəbiyyat İnstitutunun təşəbbüsü sayəsində mümkün olmuşdur. İnstitutun Cənubi Azərbaycan ədəbi mühiti ilə bağlı hazırladığı "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası" 4 cildlik topluda yazılı nümunələrlə yanaşı, müxtəlif folklor örnəklərinə də geniş yer verilmişdir (CAƏA 1981).

AMEA Ədəbiyyat İnstitutunun Cənub folkloru ilə bağlı məlum tarixi xidməti ardıcıl şəkildə ayrı-ayrı alim, mütəxəssislərin bu sahəyə olan marağını da artırmışdır. Belə ki, mərhum folklorşünas alim professor Bəhlul Abdulla 1986-cı ildə yazıçı Mirzə İbrahimovun təşəbbüsü ilə Təbrizdə çap olunmuş kitab və məcmuələrdən topladığı folklor örnəklərini "Arazam, Kürə bəndəm" başlığı altında nəşr etdirir (Abdullayev 1986: 7).

Davamlı şəkildə cənublu soydaşımız Əhməd Azərlu tərəfindən toplanıb tərtib olunan atalar sözləri 1994-cü ildə yenə də prof. B.Abdullanın ön sözü ilə "Təbrizdən dörd dəf-

tər" adı altında işıq üzü görür (TDD 1994). Kitabda verilən məlumatlara görə, Əhməd Azərlu bu nümunələri vaxtilə ana babası Hacı Məhəmməd Cəfərzadə Batumçının tapşırığı ilə hələ kiçik yaşlarından toplamağa başlamış, 1941-ci ildə babası vəfat etdikdən sonra da toplama işi ilə müntəzəm məşğul olmuşdur. Cənubi Azərbaycanın şəhər və kəndlərindən toplanan bu folklor nümunələri daha çox Qaradağ mahalından əldə edilmişdir.

Azərbaycan folklor mədəniyyətinin Cənub şifahi ədəbiyyat ənənələri əsasında araşdırılması, tədqiqi müstəqillik dövründə daha çox aktuallıq qazanmış və həm də siyasi xarakter daşımışdır. Məlumdur ki, XX əsrin sonlarında Sovetlər Birliyinin dağılması ilə Azərbaycan yenidən tarixi müstəqilliyinə qovuşur, bu ərəfədə müstəqil dövlət olaraq daha çox təhdid və təzyiqlərlə qarşı-qarşıya gəlir. Güclənməkdə olan erməni təxribatının növbəti zərbəsi bilavasitə Azərbaycan mədəniyyəti, xüsusilə folkloru üzərində aparılır. Nəticədə xalqın milli mənlik ruhunu özündə yaşadan Azərbaycan folklorunun mövcud şəraitdə daha köklü, ümumi Azərbaycan folklor mədəniyyəti əsasında öyrənilməsi məsələsini aktuallaşdırır. Digər bir tərəfdən, işğal olunan bölgələrimizdən toplanılıb araşdırılan şifahi ədəbiyyat nümunələrinin bərpaya ehtiyacı olan bir çox sujet, motiv, obrazlarının tamamlanması üçün zəngin mənbə olaraq gündəmə gəlir.

Kiçik həcmli folklor janrlarından fərqli olaraq Cənubi Azərbaycan folklorunun dastançılıq ənənələri bu dövrdə el aşıqlarımızın repertuarları da daxil olmaqla toplama və nəşr işində daha geniş yer alır. Cənub aşıq mühütləri – Urmiya, Qaradağ-Təbriz, Qaşqay, Savə, Sulduz, Zəncan, Xorasan və bu mühitlərin məlum dastan söyləmə üslubları, havaları

arasında müxtəliflik, fərqlər zəngin xəzinənin öyrənilməsinə daha çox maraq yaradırdı. Professor Məhərrəm Qasımlının“Aşıq sənəti” adlı monoqrafiyasında xüsusi olaraq Cənub aşıq mühitləri (Urmiya, Zəncan, Savə, Qaşqay) tədqiq olunmuş, müqayisələr aparılmışdır (Qasımlı 1996: 50).

Cənubi Azərbaycan aşıqlarının arxivlərimizdə qorunan onlarca dastan variantlarına baxmayaraq, nümunələrin nəşri və tədqiqatlarda yer alması da məhz müstəqillik dövründə həyata keçirilir. Müşahidələr göstərir ki, Güney Azərbaycan aşıqlarının repertuarında bu və ya digər dastanlardan fərqli olaraq “Koroğlu” dastanına xüsusilə geniş yer verilmişdir. Cənub folklor nümunələrinin zamanla toplanması ilə məşğulkən Əli Kəmali bu işdə “Koroğlu” dastanının müxtəlif variantlarının əldə olunmasına çalışmışdır. Toplanan nümunələrin çap etdirilməsinə imkan olmadığından folklor örnəkləri uzun zaman Əli Kəmalinin arxivində saxlanmışdır. 1991-ci ildə Tehranda olarkən Folklor İnstitutunun əməkdaşı folklorşünas Əli Şamil toplayıcıdan bu nümunələrin əldə edilməsinə nail olmuş və dastanın Təbriz variantları 2009-cu ildə Folklor İnstitutu tərəfindən nəşr olunmuşdur (Koroğlu 2009).

Müstəqillik dövrü Cənubi Azərbaycan folklorunun sistemli şəkildə toplanma, nəşr və tədqiqi məsələlərinin bir arada elmi istiqamətdə öyrənilməsi sözsüz ki, AMEA-nın Folklor İnstitutu tərəfindən həyata keçirilmişdir. İnstitutun nəzdində yaradılan “Cənubi Azərbaycan folkloru” şöbəsi Güney folklorunun qaynaqları, təşəkkül, inkişaf qanunauyğunluqlarının nəzəri və təcrübi əsaslarını müəyyənləşdirərək mətnlərin toplanması, tərtibi, transliterasiyası və nəşri məsələlərini bir arada planlaşdırmaqla tarixi bir ilkə imza atmış oldu. Folklor İnstitutu rəhbərliyinin təşəbbüsü ilə Güney

folkloruna dair 6 kitab işıq üzü görmüş, əlavə 2 cildi isə hazırlanaraq çapa təqdim edilmişdir. İlk cilddə güneyli həmkarımız Məmmədəli Qövsü Fərzanənin uzun illər Cənubda topladığı folklor materialları professor İsrafil Abbaslının elmi redaktorluğu ilə hazırlanıb nəşr olunmuş, II cild Məmmədəli Qövsi Fərzanə və Behruz Həqqinin toplama materialları əsasında tərtib olunaraq çap edilmişdir (GAF 2013).

Növbəti III cilddə Səməd Behrəngi və Bəhruz Dehqaninin uzun illər xalq arasından topladıqları müxtəlif nağıllar orijinaldan transliterasiya olunaraq kitab şəklində hazırlanmışdır (GAF 2014).

Bölgə materiallarının toplanılması işində Güney mətbuatından əldə olunan nümunələr də ayrıca yer tutur. Məlumdur ki, xalq illərlə öz mənəvi ünsiyyətinin daha çox mətbuat vasitəsilə həyata keçirmiş və mətbuat bunun üçün əsas vasitə olmuşdur. Siyasi-ictimai problemlərin sırasında burada milli-mənəvi məsələlər də mətbuatın güzgüsündən kənarda qalmamışdır. Bu baxımdan Güney mətbuat orqanları sırasında ənənəvi olaraq "Varlıq" dərgisinin də xüsusi rolu olmuşdur. Məlumdur ki, doktor Cavad Heyətin redaktorluğu, onun aparıcı əməkdaşlarının – H.Nitqi, M.Fərzanə, S.S.Niya, Q.Beqdili və b. səyi ilə 1979-cu ilin aprelində ilk nömrəsi işıq özü görmüşdür. Elmi-ədəbi toplu olaraq jurnal öz səhifələrində klassik irs, türkologiya, çağdaş ədəbiyyat məsələləri ilə yanaşı, Azərbaycan folkloru nümunələri, onların toplama variantlarının nəşri, tədqiqini də işıqlandırmışdır. Doktor Cavad Heyət ixtisasca həkim olmasına baxmayaraq, Azərbaycan ədəbiyyatı, folkloruna xüsusi maraq göstərmiş, bir çox araşdırmalarını məhz bu istiqamətdə aparmışdır: "Azərbaycan ədəbiyyatına bir nəzər" (Tehran, 1980,

1990; Bakı, 1993); “Azərbaycan şifahi xalq ədəbiyyatı” (Tehran, 1948; Bakı, 1989); “Dədə Qorqud kitabı”, “Ölməz söz xəzinəmizdən incilər” (“Varlıq” dərgisi, 1981) və s.

“Varlıq” dərgisi ilə yanaşı, folklor örnəklərinin toplanması, eləcə də Güney folkloru ilə bağlı aparılan araşdırmaların öyrənilməsində “Xudafərin”, “El bilimi” dərgilərinin də ayrıca yeri vardır. Folklor örnəklərinin toplanması, nəşri və tədqiqində “Varlıq” jurnalının tarixi fəaliyyətinin araşdırılması bu baxımdan ayrıca tədqiqat işi olaraq öyrənilmişdir.

Güney Azərbaycan folklorunun IV və V cildləri “Xudafərin” jurnalının təsisçisi doktor Hüseyn Şərqidərəcək və əməkdaşlarının topladıqları materiallar, Cənub folkloruna aid kitablardan transliterasiyalar əsasında hazırlanaraq dərc olunmuşdur (GAF 2015).

Qeyd edək ki, folklor nümunələrinin xalq arasından toplanması işinin surətləndirilməsi istiqamətində İnstitut tərəfindən konkret bölgə materialları Təbriz folklor örnəkləri də işlənib hazırlanmışdır (TFÖ 2013). Çapa təqdim olunan son iki cilddə isə Güney folklorundan dastan yaradıcılığına geniş yer verilmiş, Cənub aşıqlarının repertuarından seçilən bir çox dastan mətnləri canlı ifalardan dinlənilərək yazıya alınmışdır (GAF 2016).

Əlavə olaraq qeyd edək ki, folklor araşdırmalarının istiqaməti müasir şəraitdə daha çox elmi, elmi-publisistik məqalələr üzərindən aparılır. Məsələn, Ə.Şamilin “Urmiya aşıqları”  (“Ozan” qəzeti, 1992, 31 iyul, say 10); “Savəli Tilim xan” (“Ozan” qəzeti 28 may, say 8); “Əli Kamalinin toplayıçılıq və araşdırışılıq fəaliyyəti” (Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, IX kitab, 2000, s.220-226); S.R.Bayatın “Zəncan folklor mühitində bayatılar” (Azərbaycan şifahi

xalq ədəbiyyatına dair tədqiqlər, XXI kitab, Bakı, 2006, s.95); M.Kazımoğlunun "Güney Azərbaycandan "Koroğlu" töhfəsi" ("Dədə Qorqud", Bakı, 2010, II, s.151-155) və s.

Bu gün Güney mədəniyyətinin – memarlıq, xalçaçılıq, klassik və müasir ədəbiyyat, mətbuat tarixi, dramaturgiyasının öyrənilməsi müxtəlif monoqrafik tədqiqatlarda yer almasına baxmayaraq, folklorla bağlı daha ciddi tədqiqatların aparılması hələ də öz həllini gözləyir. Güney folklorunun Azərbaycanda təbliğ və tədqiqinin aparılması istiqamətində zəruri şəraitin yaradılmasına baxmayaraq, İranla Azərbaycan arasında bu sahədə işgüzar əlaqələrin qurulmaması nəticə etibarilə Güney folklorunun yerindəcə toplama və araşdırılması işində böyük çətinliklər yaradır. Hal-hazırda bu problem Güneydə ayrı-ayrı vaxtlarda nəşr olunan folklor ədəbiyyatlarından uyğun materialların transliterasiyası, müxtəlif dərgilərdən ("Xudafərin", "Varlıq", "El dili və ədəbiyyatı") toplanan nümunələr, güneyli həmkarlarımızın bilavasitə təqdim etdikləri örnəklər, eləcə də, az sayda da olsa, söyləyicilərlə birbaşa söhbətlər əsasında aradan qaldırılır.

Güney folklorunun zəngin ümumtürk tarixi qaynağının öyrənilməsi imkan verir ki, bu gün milli folklor normativliyinin kulturoloji, regional xüsusiyyətlərdə qorunması və inkişaf perspektivliyi, onun etnik-estetik bütövlüyü müəyyən olunsun. Bu baxımdan Güney Azərbaycan folklorunun toplanılması, onun zəngin irsinin üzə çıxarılması görüləcək işlərimizin davamlılığı və məsuliyyətinə daha çox bağlıdır.

Yekun olaraq bir daha vurğulamaq istərdik ki, müstəqillik dövrü Azərbaycan folklorşünaslığında Arazın o tayında 30-35 milyonluq cənublu soydaşlarımızın milli-mənəvi irsi gündəmə gətirilməklə ümumazərbaycan folkloru-

nun bərpası, öyrənilməsi işi tarixi bir hadisəyə çevrildi. Gəlin unutmayaq ki, folklor yaddaşı, folklor irsinin bütövlüyü bu gün həm də azərbaycançılıq, Azərbaycan dövlətçiliyinin əsasında dayanan milli özünüdərkin tarixi-bədii qaynağı kimi əvəzsiz və təkrarolunmazdır.

**Qaynaqlar**


Abdullayev 1986 – B.Abdullayev Arazam, Kürə bəndəm. Bakı: Yazıçı, 1986.

CAƏA 1981 – Cənubi Azərbaycan ədəbiyyatı antologiyası, I cild (şeirlər, nəsr, dramaturgiya, folklor). Bakı: Elm, 1981.

CAƏA 1983 – Cənubi Azərbaycan ədəbiyyatı antologiyası, II cild. Bakı: Elm, 1983.

GAF 2013 – Güney Azərbaycan folkloru, I kitab. Toplayanı: M.Fərzanə, redaktoru: prof. İ.Abbaslı, tərtibat: S.Abbaslı. Bakı: Elm və təhsil, 2013.

GAF 2014 – Güney Azərbaycan folkloru, II kitab. Toplayanlar: B.Həqqi, M.Fərzanə. Tərtib edən və ön sözün müəllifi: fil.ü.f.d. S.Abbaslı. Bakı: Elm və təhsil, 2014.

GAF 2014 – Güney Azərbaycan folkloru. III kitab. Elmi redaktoru: fil.ü.f.d. M.M.Abbasova. Bakı: Elm və təhsil, 2014.

GAF 2015 – Güney Azərbaycan folkloru, IV kitab. Tərtib edənlər: H.Şərqidərəcək, M.Abbasova. Bakı: Elm və təhsil, 2015.

GAF 2015 a – Güney Azərbaycan folkloru, V kitab. Tərtib edənlər: M.Abbasova. Bakı, Elm və təhsil, 2015.

GAF 2016 – Güney Azərbaycan folkloru, VI kitab. Tərtib edənlər: M.Abbasova, B.Ələkbəroğlu. Bakı: Elm və təhsil, 2016.

GAF 2016 a – Güney Azərbaycan folkloru, VII kitab. M.Abbasova, B.Ələkbəroğlu. Bakı: Elm və təhsil, 2016.

Koroğlu 2009 – "Koroğlu" dastanı (Əli Kamali arxivindəki variantlar). Hazırlayan: Ə.Şamil. Bakı: Nurlan, 2009.

Qasımlı 1996 – M.Qasımlı. Aşıq sənəti. Bakı: Ozan, 1996.

Məryəm 2011 – S.Məryəm. Cənubi Azərbaycan folklorunun toplanması, nəşri və tədqiqində "Varlıq " jurnalının rolu. Filologiya üzrə fəlsəfə doktoru dissertasiyası. Bakı: 2011.

TFÖ 2013 – Təbriz folklor örnəkləri. Toplayıcılar: K.Abbasi, Ə.Fərəhməndi, Ə.Bərazəndə, M.Əlipur Müqəddəm. Bakı: Nurlan, 2013.

TDD 1994 – Təbrizdən dörd dəftər. Bakı: Azərnəşr, 1994.

# ÇAĞDAŞ ŞEİRİMİZDƏ İSTİQLAL DÜŞÜNCƏSİ VƏ ONUN FOLKLOR QAYNAQLARI

**Nizami Muradoğlu**
nizamimurad@gmail.com

## THE INDEPENDENCE THOUGHT IN OUR MODERN POEM AND ITS FOLKLORE SOURCES

SUMMARY

The reflection of our independence is observed by the new period in modern Azerbaijan literature. In this period the writers appeal to the historical and epic heroes of Azerbaijan mostly. Being remembered the heroes of ‘Dada Gorgud” and “Koroglu” the martyrdom and bellicosity are considered as a basis factor. Especially the stage of martyrdom shows itself obviously in poetry which is the prompt genre of the literary. In this article the poems dedicated to the independence fight and the stage of martyrdom in literary activities of our poets during 25 years period, have been investigated and their folklore sources have been shown.

***Key words:*** Azerbaijan, poetry, heroism, bellicosity, martyrdom, poem, folklore, history.

## ИДЕЯ НЕЗАВИСИМОСТИ В СОВРЕМЕННОМ СТИХОТВОРЕНИИ И ЕГО ФОЛЬКЛОРНЫЕ ИСТОЧНИКИ

РЕЗЮМЕ

Отражение нашей государственной независимости в современной азербайджанской литературе наблюю-дается на новом этапе. Писатели на этом этапе все боль-

ше обращаются к истории и эпическим героям азербайджанского народа. Героизм, борьба за справедливость выдвигается вперед с воспоминаниями о героях «Деде Коркут», «Кероглы». Эпоха героизма за справедливость ярко выражается в поэзии, являвшейся гибким жанром литературы. В этой статье указывались на фольклорные источники, исследовавшись проанализированы борьба за независимость в творчестве наших поэтов в течении двадцати пятилетнего периода и стихи посвященные борьбе, эпохе героизма за справедливость.

**Ключевые слова**: Азербайджан, поэзия, героизм, борьба за справедливость, стихотворение, фольклор, история

**Giriş**

Bu günlərdə Azərbaycan dövlətinin müstəqillik qazanmasının 25-ci ildönümü qeyd edildi. 1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında “Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı”nın qəbul edilməsi ilə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu. Azərbaycan xalqının müstəqillik qazanması onun tarixi ədaləti müəyyən dərəcədə bərpa etməsinin bir hissəsi və halal haqqıdır. Lakin Azərbaycanın müstəqilliyini istəməyən qüvvələr hər tərəfdən hücuma keçib bu azadlığı onun əlindən almaq istəyirdilər. 1990-cı ilin 20 yanvarında törədilən qırğın, erməni daşnaklarının Dağlıq Qarabağdakı fəaliyyətləri bu məqsədə xidmət edirdi. 1993-cü ildə yenidən müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalan Azərbaycan xalqı təkidlə Ulu Öndər Heydər Əliyevi ikinci dəfə hakimiyyətə gətirdi. Heydər Əliyevin gərgin fəaliyyəti

nəticəsində Azərbaycanın dövlət müstəqilliyi qorunub saxlanıldı. Lakin iki yüz illik bir əsarətdən qurtulmaq yolunda atılan bu addımlar eyni zamanda böyük faciələrlə, kütləvi insan itkisi, çoxlu şəhidlərimizin və qazilərimizin müqəddəs torpaqlarımızın üzərinə tökülən qızıl qanlarının bahasına başa gəldi. Bütün bu hadisələr ədəbiyyatda yeni bir mərhələnin başlanmasına vəsilə oldu. Bu, özünü daha çox tarixə, Azərbaycan xalqının tarixi və epik qəhrəmanlarına müraciətdə göstərməyə başladı. Bu zaman "Dədə Qorqud", "Koroğlu" qəhrəmanları xatırlandı, şəhidlik, mübarizlik önə çəkildi. Xüsusilə ədəbiyyatın çevik janrı olan poeziyada şəhidlik mərhələsi özünü bariz şəkildə göstərdi və bu tendensiya indi də davam edir.

Əjdər Olun "İstiqlal" şeiri bu dövrdə yaranan poeziya nümunələri içərisində örnək olaraq xalqımızın öz dövlət müstəqilliyi yolunda apardığı mübarizəni, bu yolda tökülmüş qanları, milli arzu və istəklərimizi əks etdirir:

Deyirəm həm yaxına, həm uzağa, həm özümə,
Verməərəm əldən onu, diqqət elə son sözümə.
Amma ortaq edərəm Zənganıma, Təbrizimə,
Adlasın qoy Arazı sürgün olan İstiqlal!
Dayağım, Ərkim olan, görküm olan İstiqlal!

Vurnuxur düşmənimiz, lal kimidi, kar kimidi,
Seçmir üç rəngini də bayrağımı, kor kimidi.
Şanlıdır keçmişimiz, 20 Yanvar kimidi.
Ey Şəhid oğlu Şəhid, ey dirimiz İstiqlal!
Qəhrəmanlıq işimiz, iksirimiz İstiqlal!

(Ol 2011:.38)

Şeirdə Təbriz, Zəngan, Ərk qalasının, 20 Yanvar faciəsinin adları çəkilir. Bu adların hər birinin alt qatındakı məna mübarizələrlə dolu bir tarixdir. Təkcə onu demək kifayətdir ki, Elxanilərin hakimiyyəti dövründə tikilən (1338-1345) Ərk qalası Təbrizdə Səttar xanın, Bağır xanın və digər mücahidlərin sığındıqları qaladır. Məhz xalqımızın uzun mübarizələrdən sonra müəyyən qədər bərpa edə bildiyi dövlət müstəqilliyi məşrutə inqilabından, 20 Yanvar faciəsindən keçir. Bu istiqlalın qazanılmasında bütün mücahidlərin bu və ya digər dərəcədə haqqı vardır.

Təbii ki, respublikamızın azad və hürr olmaq yolunda canlarını fəda edən övladlarının adları şərəf salnaməsinə qızıl hərflərlə yazılmış, insanların yaddaşına köçmüş, onlar haqqında şeirlər, nəğmələr yazılmış və bu gün də yazılmaqdadır:

Dilimdə ağıdı, gözümdə yaşdı,
Bütün ölümlərdən ölümü başdı.
Dindirməyin məni, kədərim daşdı,
Durna qatarından qopdu şəhidlər.

(Ağahüseynqızı 2015: 98)

Mübarizə, istiqlal itkisiz başa gəlmir. Hər bir vətəndaşın, hər bir əsgərin itkisi göz yaşı, kədər gətirir, dilimizdə ağıya, bayatıya dönür:

İlin mübarək oğul,
Ayın mübarək oğul.
Şəhidliyin mübarək,
Toyun mübarək oğul!

(Naxçıvan folkloru)

Şəhidliyin təməlində Vətən sevgisi, Elinə, Yurduna sahib çıxmaq amalı və Dədə-babalarımızın mərdlik, mübarizlik aşılayan nəsihətləri, analarımızın, gəlinlərimizin, qızlarımızın qeyrəti və şərəfi, ustadlarımızın gəncliyə tövsiyyələri əsas yer tutur. Şəhidlik müasir Azərbaycan ədəbiyyatının əsas mövzusu olaraq 1990-cı ilin yanvar faciəsinin acı nəticəsi kimi meydana çıxmışdır. Məlum olduğu kimi, 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə mənfur sovet ordusunun böyük bir hissəsi azadlıq mübarizlərinin, əliyalın dinc Bakı sakinlərinin üzərinə hücum edərək Azərbaycanın haqq səsini batırmağa çalışdı. O gecə Azərbaycan xalqı tarixdə ən ağır günlərindən birini yaşadı. Yanvar faciəsində 137 nəfər öldürüldü, 700-ə yaxın insan yaralandı, 800-dən çox adam qanunsuz olaraq həbs edildi. Adamlar xüsusi amansızlıqla öldürümüşdülər. Belə ki, Y.Meyeroviçə 21, D.Xanməmmədova 10-dan çox, R.Rüstəmova 23 güllə vurmuşdular. Xəstəxanalar, "təcili yardım" maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşdür. Həlak olanların arasında yetkinlik yaşına çatmayanlar, qadınlar, qocalar, şikəstlər də var idi.

20 Yanvar faciəsində həlak olan insanlar öz ölümləri ilə əbədiyyət qazandılar.

Bu dövrdən başlayaraq Azərbaycan poeziyasında şəhidlik müqəddəs bir amal uğrunda həyata keçirilən missiya kimi baş mövzuya çevrildi. Bu mövzuda yazılan əsərləri iki yerə ayırmaq olar:

1. 20 Yanvar faciəsi ilə bağlı yazılan əsərlər
2. Qarabağ savaşı ilə bağlı yazılan əsərlər

Qeyd edək ki, müstəqillik dövründə istər 20 yanvar şəhidlərinə, istərsə də ondan sonra Qarabağ uğrunda gedən savaşda həlak olan igidlərimiz haqqında poemalar, şeirlər

yazılıb və yazılmaqdadır. Onlardan bir neçəsini burada xatırlatmaq istəyirik.

## Müstəqillik dövrü Azərbaycan şeirində şəhidlik

1990-cı ilin 19-dan 20-nə keçən yanvar gecəsi baş verən hadisələr insan ağlına gəlməyəcək dərəcədə vəhşiliklə, qansızlıqla həyata keçirilmişdi. Sovet əsgərləri insanları, binaları, maşınları, qarşılarına çıxan hər şeyi güllələyir, ağır tankların tırtılları altında əzib keçirdilər.

Ramiz Məmmədzadənin "O gecə" poeması 20 yanvar faciəsini tez bir zamanda xalqımıza çatdıran o dövrün ən populyar əsərlərindən oldu. Poema kiçik bir kaitabça şəklində 1991-ci ilin əvvəllərində 100000 (yüz min) tirajla çap edilib yayıldı.

Nə qara, nə müdhiş gecəymiş, Allah!
Biz hardan biləydik necəymiş, Allah!
Qapqara güllələr, odlar, silahlar
Axıb tökülübmüş gül şəhərimə.
O gecə fəryadlar, amanlar, ahlar...
Od vurdu bir qara yel şəhərimə.
(Məmmədzadə 1991: 3).

O qara, müdhiş gecənin gətirdiyi fəlakətlər heç zaman unudulmadı, unudulmayacaq da. İnsan ləyaqətini alçaldan, bəşəriyyətin tarixinə qara ləkə kimi həkk olunan o gecənin dəhşətlərinin təsvir edilməsi Azərbaycan poeziyasının üzərinə böyük məsuliyyət qoydu. "O qara gecə" ifadəsi ilə şair folklorumuzda olan qara rəngin nüvəsində bir qara kabusun

gizləndiyinə işarət edirdi. O faciənin rəngi qara olmasaydı, şair gecəni romantik bir şəkildə, deyək ki, aylı gecə kimi təsvir edərdi. Lakin o gecənin rəngi qara olduğu kimi gətirdiyi fəlakət də qaraydı, qara bayraqlar ilə müşayiət olunurdu. Təsadüfü deyildir ki, bu gün də şairlərimiz o gecənin dəhşətlərinin təsiri altında şəhidlik zirvəsinin bədii obrazını elə qara rəngdə yaratmağa çalışırlar.

İlyas Tapdığın "Bir şəhiddir ürəyim" şeirində o müdhiş gecənin dəhşətləri təsvir edilmişdir:

Unudula bilərmi o gecəki səhnələr?
Bağlanmışdı Bakının qolları əsir kimi;
Tankların tırtılında od püskürdü sinələr,
Cəsədlər yastılandı qanlı bir həsir kimi.
Yağının qəsdi buydu – susdursun haqq deyəni,
Mərhəmət qına girdi, mərmi həddini aşdı.
(Tapdıq 1999: 40).

O gecənin təsviri Həsən Valehin "Qanlı yanvar" şeirində də öz bədii ifadəsini tapmışdır. O müdhiş gecə sanki yerlərin matəminə göylər də ağlayırdı:

O gecə qan rəngli bulud göründü,
Azadlıq yolunda işıqlar söndü,
Bir anda hər tərəf zülmətə döndü, –
Bakımız başına qara bağladı,
Yerlər ağı dedi, göylər ağladı.
(Həsən 2001: 46).

Şairlərimiz bir-birinin ardınca Azərbaycanın haqq səsini, harayını, ağrısını, acısını özünəxas ifadələrlə poeziya-

mıza gətirdilər. 1990-cı ilin 19-dan 20-nə keçən şənbə gecəsində Bakıda törədilən vəhşət və dəhşətin acıları unudulmayıbdır. O gecə Azərbaycanın haqq səsini boğmağa çalışanların zülmünün, qəddarlığının üstündən haqqa yol açan, körpü salan soydaşlarımız mənəviyyat dünyamızın tarixləşdirdiyi Şəhidlik zirvəsini fəth etdilər. O gecə ucalan ana fəryadları ərşi titrədirdi. Haqq bayrağını başı üstünə qaldırıb tankların qarşısına çıxanlar öz şücaətləri, hünərləri ilə düşmənin bağrını dəlirdi. Qanlı 20 Yanvar faciəsi ürəklərimizi ağrıtdı, xəyal dünyamızı tar-mar etdi.

20 yanvar gecəsində şəhid olanların əksəriyyəti Bakının dağüstü parkında dəfn edildi. Bakıda Sovet hökumətinin qurulmasında xüsusi fəaliyyəti olmuş S.M.Kirovun heykəlinin yerində şəhidlərə abidə ucaldıldı. Yan-yana dəfn edilmiş şəhid qəbirlərinin yerləşdiyi məkana "Şəhidlər Xiyabanı" adı verildi. Bu məkan müqəddəs and yerinə çevrildi. Milyonlarla insan şəhidlər xiyabanını ziyarət etdi və bu ziyarət ənənəyə çevrildi. Şəhidlər xiyabanını ziyarət edən Bakı kəndlərinin əhalisi həyətyanı sahələrində yetişdirdikləri qırmızı qərənfillər ilə şəhidlər xiyabanını, şəhidlərin qanı axmış hər küçəni, səkini, 20 Yanvar metrostansiyasının ətrafını bəzədilər.

O şənbə gecəsində əliyalın, silahsız ölümün üstünə gedən Vətən övladlarının amansızcasına güllələbaran edilməsi ürəkləri sızladır, yandırırdı. Xalq şairi Qabil 20 Yanvar şəhidlərinə yas tutur, mərsiyə oxuyurdu:

Gecəni atəş ilə qırmızı qan eylədilər,
Xalqımı-millətimi güllələbaran eylədilər.
(Qabil 2004: 110).

Qabilin 2004-cü ildə “Şərq-Qərb” nəşriyyatı tərəfindən buraxılmış seçilmiş əsərlərinə yazdığı ön sözdə akademik Bəkir Nəbiyev “Mərsiyə” şeirinin üzərində xüsusi dayanaraq vurğulayırdı: “Bu şeirin təkcə adı yox, özü də çağdaş poeziyamızda nəşr olunmuş ilk mərsiyə idi. Ədəbiyyatımızın çox zəngin janrlarından olan mərsiyəmizin tarixində bəlkə də ilk dəfə idi ki, günahsız həmvətənlərimizin kütləvi qırğınını təşkil edib, bu faciəni imperiyada yaşayan başqa millətlərə “nümunə” göstərənlərə ümumxalq nifrəti elan olunurdu (Qabil 2004: 5).

Azərbaycanın gözü o gün Şəhidlər xiyabanına dikilmişdi. Milyonlarla insan bu yerə axışır, bu dərdi, kədəri bölüşməyə çalışırdı.

Şəhid qəbirləri... səpələnir qar,
Qızıl qərənfillər tutub hər yanı.
Səkilər boyunca gur izdiham var,
Bir nisgil alovu yaxır insanı.
(Razi 1996: 136).

Hüseyn Razinin “Şəhid qəbirləri” şeirindən nümunə gətirdiyimiz bu parçada o vaxtkı mənzərə tam dolğunluğu ilə gözlərimiz qarşısında canlanır. Burada xalqın düşüncə tərzinin elementləri özünü göstərir. Adətən həyatdan nakam, cavan getmiş insanların qəbirlərinin üstünə al qırmızı, yaşıl rəngli gül-çiçək dəstələri qoyulur, başdaşına qırmızı lent bağlayırlar. Şəhid qəbirlərinin üstünə qırmızı qərənfillərin düzülməsi bu ənənənin davamı kimi anlaşılır. Belə ümumi mənzərəni əks etdirən şeirlərlə yanaşı, ayrı-ayrı 20 Yanvar şəhidlərinə də şeirlər həsr edilir, hər bir şəhidin fərdi qəhrəmanlıqları təsvir

edilirdi. Asif Asimanın "Səndən danışır" şeiri 20 Yanvar şəhidi Babayev Rahim Vaqif oğluna ithaf edilmişdir:

Qəlbini tərk etmədi, zərrətək Vətən andın,
Eşqinin atəşinə, oduna arxalandın.
Yağı düşmən önündə, həmişə sərt dayandın,
Mərdliklə sinə gərdin, hər çətinə, ay Rahim!
(Asif 1997: 48).

Hidayətin "Qələmini qanına batıran şair" adlı şeiri də o günlərin acı, eyni zamanda qürurverici ovqatından yarandı. Bu könül nəğməsi də 20 Yanvarda şəhid olmuş Ülvi Bünyadzadəyə həsr olunubdur:

Sağlığında gəlmədin...
Bilmədim bir şair var –
Qələmini qanına batırıb yazar.
Düzər misralarını
"Azad Azərbaycan!" adlı arzuların dağına.
(Hidayət 2002: 155).

Böyük Vətən müharibəsində şəhid olan əsgərlərimiz öz qanları ilə səngər divarlarına son sözlərini yazırdılar. Kinofilmlərdə yer alan bu cür hallar xalq yaradıcılığında "qanla qazanılmış azadlıq" ifadəsi kimi formalaşmışdır. Şair bu məzmunlu ifadələrdən bəhrələnərək "qələmini qanına batırıb yazar" obrazlı deyimi ilə şair şəhidin şücaətini vəsf etmişdir.

Yaxud Sabir Rüstəmxanlı "Ölümün görüşünə gedən qız" şeiri ilə gənc ömrünü Azərbaycanın azadlığı yolunda fəda etmiş Vətən qızının mətin iradəsini gözlərimiz qarşısında

sərgiləyir. Rüstəmxanlı güllənin gənc bir qızın sinəsindən dəyib al qanına qəltan etməsini tamam başqa tərzdə – bədii cəhətdən mükəmməl olan yeni bir obrazda göstərməyə nail olubdur. Bu günə qədər yaxasına əl dəyməmiş bakirə qızın döşlərinin arasından dəyən güllə yarasından axan qırmızı qan orada açılan qızıl gülləri xatırladır. Şəhid olmuş qızın üzündə bir səadət nuru görünür, çünki azadlıq axtaran qızın bu yolda şəhid olması ona xoşbəxtliyi qədər əzizdir:

Heç kimin açmadığı yaxanı güllələr açıb,
Qönçə döşlərinin arasında açılıb qızıl güllər.
Ancaq üzün xoşbəxtdi...
Yarıyumulu gözün
öz əhdinə yetəntək
yenə duyğulu, gülər...
Açmısan öz sinəni yurdun azadlığına,
Süngünün öpüşünə,
güllənin dodağına!
(Rüstəmxanlı 2004: 195)

Həsrətin “Vətən oğullar” şeirində şəhid olan oğulların hər birinin Vətənə çevrilməsindən söhbət açılır. Qeyrətə, namusa and içib, azadlıq eşqiylə döyünən ürəklərini 20 Yanvar gecəsində məşələ döndərən, haqq işi uğrunda ölümün gözünün içinə dik baxan şəhidlər bir ölməzlik qazandılar:

Axdı şəhidlərin günahsız qanı,
Bu xəbər bürüdü Azərbaycanı.
Azadlıq yolunda şirin canını
Vətənə verdilər Vətən oğullar.
(Həsrət 1993: 113).

Müəllifin “Oxuma, bülbül, oxuma” şeirində bahar çağı Şəhidlər xiyabanında oxuyan bülbülə ünvanlanmış bir giley var. Bülbül şəhid məzarlarının üstünə və ətrafına düzülmüş qırmızı qərənfilləri görüb oxuyur. Adətən bülbül güllü-çiçəkli yerlərdə cuşa gəlib oxuyar. Xalq ədəbiyyatında da bülbülün gülə olan eşqi “bülbül gülü sevər, insan – vətənini” (Atalar sözü 1985: 159) kimi deyimlərlə sabitləşib və həmişə “oxu, bülbülüm, oxu” deyə müraciət olunubdur.

Şəhidlər xiyabanında oxuyan bülbülün nəğməsi isə kədər-dərd gətirir:

Od yurdu od içindədir,
İçimizi kədər didir,
Bu çiçəklər yasa gedir,
Oxuma, bülbül, oxuma.
(Həsrət 1993: 113).

20 Yanvar faciəsi xalqımızın azadlıq yolunda atdığı ən böyük addım olsa da, ilk günlər bu faciənin sarsıdıcı təsirindən qurtula bilməyən şeirimizdə bir qədər də ümidsizlik yaradırdı. O zaman qan rəngli qırmızı qərənfillərin harayı, anaların göz yaşları bir-birinə qarışmışdı. Bu harayı ürəyinin süzgəcindən keçirən Məmməd Aslan nalə çəkir, sanki mərsiyəxana çevrilir, yas saxlayırdı:

Bu qara yazılara,
Bu körpə quzulara,
Quruyan arzulara,
Ağla, qərənfil, ağla!
(Aslan 2006: 88).

Müasirlərindən fərqli olaraq Məmməd Araz poeziyası öz cəsarətiylə meydana atıldı. Fiziki cəhətdən zəif, ruhən sağlam və güclü olan şair göz yaşlarının içində soydaşlarını dəyanətli, mərd, mübariz, qürurlu olmağa səslədi:

Bu torpağın son qurbanı mən olsam,
Öz odumda yanıb külə tən olsam,
Eldən ötən güllələrə dən olsam,
Ata millət, oğul deyib ağlama,
Ağlamağın yeri deyil, ağlama!
(Araz 2010: 591).

Şəhidlərin hünəri bir şərəf, qeyrət mücəssəməsinə çevrilərək yeni nəsillərə şərəf salnaməsi kimi əvəzsiz irs qoyubdur. And yerimiz olan Şəhidlər xiyabanı bu gün Azərbaycan xalqının qürur yeri, güvənc məbədidir. Torpağa dəfn edilən şəhidlərin cismidir, onların əziz xatirəsi könüllərdə yaşayır. 20 Yanvar gecəsində Şəhidlik zirvəsinə gedənləri Nüsrət Kəsəmənli belə xarakterizə edirdi:

Bakı qanlı paltarını geyirdi.
Qanlı köynəyinə bürünənlər
Şəhidlik zirvəsinə gedirdi.
(Kəsəmənli 2004: 27).

Xalqımız zaman-zaman yadelli işğalçılara qarşı vuruşubdur. Döyüşlərdə qazanılmış ənənəvi rituallar var. O rituallardan biri də "qanlı köynək" ifadəsi ilə əlaqəlidir. Kitabi-Dədə Qorquddan belə gələn "qanlı köynək"(KDQ 1988: 156) ifadəsi ilə şəhidin yeri, məqamı bilinməkdədir. Təbii ki, qanlı köynək geyib vuruşa getmək şəhidliyi könüllü olaraq

qazanmaqdır. Ancaq unutmaq olmaz ki, bu qanlı köynəyin arxasında şəhidlərin qanına bulanmış bayrağımız dayanır. Hər şəhidin qanlı köynəyi bayrağımızın al rəngini bir az da qatılaşdırır, insanlara azadlıq, Vətənimizə müstəqillik bəxş edir. O qanlı köynəyə bürünənləri analar ağlayırdı. Şəhid anaları adı ilə tanınan Azərbaycanın bu mərd, dözümlü qadınları Vətənin azadlığı yolunda öz canlarından da keçməyə hazır idilər. Anaların göstərdiyi səbat, iradə dünyaya görk olunası örnəklərdir. Dərdi ilə ucalan, dərdi ilə qürur heykəlinə çevrilən analar haqqında şeirlər yazılırdı. Fikrət Qocanın "şəhid anaları" şeirində deyilir:

Dərd daş atar, ayna sınar,
Sınar evin sonası da,
Dönər şəhid anasına
Dünyaya gələr analar.
(Qoca 2015: 76)

Ayna sınması bədbəxtlik, "bəxtin bağlanması" (Xalqımızın deyimləri 1986: 170) əlaməti sayılır. Gəlin köçəndə ona verilən bəxt aynasını möhkəm-möhkəm qoruyarlar ki, nəyəsə dəyib sınmasın. Amma bu anaların bəxt aynasını düşmən güllələri sındırıbdır. Şeirdə ifadə olunan bu fikirdə bəxt aynası sınan qadınların şəhid anası kimi doğulması bir ümid işığı kimi diqqəti cəlb edir. Lakin, çox təəssüf ki, bəzən şəhid anaları bəzi məmurların qapısının arxasında qalır, dərdini deyə bilmir, müşkülünü həll edə bilmir. Xalqımızın içərisinə sızmış bu cür nadanlar şəhid anasının yerini bilmir, onu düzgün qiymətləndirə bilmirlər.

Bəxtiyar Vahabzadənin "Şəhid anası" şeirinin məğzi bu cür nadanlara qarşı ibrət dərsi vermək məqsədi daşıyır. Müşkülünü həll etmək istəyən Şəhid anası bir məmurun qapısını döyür:

"Şəhid anasıyam!" - zənn edir ana
Dərdin carəsidir bu iki kəlmə.
Əslində, millətin bağrından kecən
Qılınc yarasıdır bu iki kəlmə. –
Şəhid anasıyam, eşidin məni...
O susdu, dayandı, gozləri doldu.
Könüllər dağlayan iki kəlməni
Bağlı qapılara açar bildi o.
(Vahabzadə 2004: 142)

Amma o qapı açılmadı, Şəhid anasının dərdini başa düşmək istəməyən məmur şəhid qanlarının üstündə rahat kreslosuna əyləşib fırlandı, əyləndi və o uca, saçları ağarmış ananın şəhid oğlunun məzarında ruhu od tutub yandı:

Şəhidi şəhidlik mərtəbəsindən
Endirir ananın giley-güzarı.
Bizdən komək uman dərdli səsindən
Alışıb yanmazmı şəhid məzarı?
Ana qapılarda dilənir bu gün,
Oğul şəhid olmuş, yoxsa, bununçün?
(Vahabzadə 2004: 143)

Şairin məntiqli sualı insanı düşünməyə məcbur edir. Axı bu vətən bizim hamımızındır. Bu torpaq şəhid qanları ilə ona görə suvarılır ki, analarımız, bacılarımız, qızlarımız qapı

arxasında qalmasın, Vətənin dərdinə şərik olduqları kimi sevincini də bölüşə bilsinlər. Təbii ki, Şəhid anasının əlindən öpən, ağ saçlarının qarşısında baş əyən igidlərimiz də var və nə yaxşı ki, belələri daha çoxdur.

Şəhidlik məqamını düzgün qiymətləndirmək lazımdır. Şəhidlər sadə insanlar kimi olmurlar, onlar dünyaya gələndə xüsusi missiya ilə gəlirlər. Dünyadan köçəndə də öz ömürlərini xalqının, vətəninin ömrünə calayırlar. Onlar Şəhidlik məqamı ilə birlikdə bir əbədilik də qazanırlar. Şair özü də "Yurd yad əlində" şeirində bu həqiqəti etiraf edir:

Ədalət bizdədir... bizimdir zəfər,
Daim guvənmişik biz həqiqətə.
Vətənin yolunda ölən şəhidlər
Ölmür, qovuşurlar əbədiyyətə.
(Vahabzadə 2004: 137)

Bütün bunlarla bərabər şair haray çəkir, ulularımıza üz tutur, hamını bir olmağa çağırır, Vətən uğrunda mübarizəyə səsləyir. Mübarizəyə çağırış ruhunda yazılmış şeirlərdən biri də Nahid Hacızadənin "Qalx" şeiridir. Mübariz Tağıyevin ifasında mahnı kimi televiziya ekranlarında tez-tez səsləndirilən bu əsərdə xalqımızın gələcək mübarizəsinin ümid işığını görürük. Şeirin bədii yükü milləti elliklə mübarizəyə çağırış ruhundadır:

Qalx, qalx, ulu torpaq!
Qalx, qalx, ulu bayraq!
Qalx, qalx, sən ey mərd xalq!
Yer titrəsin məhvərindən!
(Hacızadə 2012: 8)

Xalq şairi Xəlil Rza "Oğluma sözüm" şeirində nəsihətamiz sözləri ilə oğlu Təbrizi gəncliyin ilk çağlarından mübarizələrə hazırlayırdı. Şair düşünürdü ki, nə vaxtsa ikiyə bölünmüş Azərbaycan birləşərsə, o zaman Xəlil Rza ölmüş olsa belə, yenidən dirilib dünyaya gələr:

Anan – Tomris, dədən – Qorqud, baban – Sabir, özün kimsən,
Dərə içrə qalan dağlı, düşün: endin hara hardan?
Vətən – şanım, Xəzər – qanım, Araz – canım, burax, yanım,
Bu yanğında, bu məşəllə işıqlansın, sökülsün dan.
Ölər bir gün Xəlil Rza, gələr bir də bu dünyaya,
Qucaqlaşsa Bakı – Təbriz, əl üzsə macəralardan .
(Xəlil 1993: 366).

Atasının alqışıyla uğurlanan, "uğurun urvatlı olsun" nəsihətini uşaqlıqdan qulağında sırğa edən Təbriz Xəlilbəyli Vətənin dar günündə mübarizə meydanına atıldı. 27 yaşlı Təbriz Xəlilbəyli 1991-ci ildə könüllü olaraq cəbhəyə yola düşdü. Dağlıq Qarabağın Xromort və Naxçıvanik kəndləri uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərib 31 yanvar 1992-ci ildə həlak oldu. Həyatın keşməkeşləri ilə üz-üzə qalan şair Xəlil Rza Ulutürkün müsibəti qələm yoldaşlarını da sarsıtdı. İlyas Tapdıq "Gəldi" şeirinin epiqrafında "Şair qardaşım Xəlil Rza Ulutürkün oğlu Təbrizin igidliklə həlak olduğu günə" sözlərini yazdı. Yas yerinə dərd ilə, qəm ilə gəldi, qəlbində bir ana Təbrizin dərdi varıydı, bir bala Təbrizin də dərdi üstünə gəldi. Bu dərd Xəlil Rza Ulutürkün olmadı, millətin dərdi oldu:

Sənin qollarını bağalamaq üçün,
İblislər yüz dəfə qəsdinə gəldi.
Qəlbindən od aldı, alışdı izin,
Sürünür arxanca qəm dizin-dizin.
Dərdi az idimi ana Təbrizin –
Bala Təbriz dərdi üstünə gəldi?!
(Tapdıq 2000: 143)

Xəlil Rza Ulutürk ömrü boyu Azərbaycanın baş şəhəri Təbrizin həsrəti ilə yaşamışdı. Bu sevginin təsiri ilə də oğlunun adını Təbriz qoymuşdu. Bala Təbrizdən Ana Təbrizin iyini alırdı, onunla sevinirdi, onunla qürur duyurdu. Onu da zalım düşmən çox gördü şairə. Amma sınmadı, əyilmədi şair. Ömrü Azərbaycanın azadlığı yolunda mübarizələrdə keçən, Lefertova həbsxanasında zindan həyatı yaşayan, böyük amallar şairi Xəlil Rzanın yaradıcılığında oğlunun ölümündən sonra da şəhidlik mövzusu davam etdi. "Məzarlar xonça-xonça, məzarlar gül sərgisi, Şəhidlər xiyabanı, bəlkə, çiçək dənizi" – deyən şair 1992-ci ildə ona verilən Xalq Şairi adını "Təbrizimin qan bahası" adlandırdı:

Söykəyib arxamı mərmər divara,
Sakit dayanmışam, əlimdə dəstək.
Baxın gözlərimdən axan yaşlara,
Deyirəm: - Balamın qan bahasıdır
Başıma qoyulan bu qızıl çələng.
(Xəlil 1993: 46.)

Şair vaxtında verilməyən mükafatdan incik qalsa da, Vətən uğrunda mübarizəsindən bir an da olsun geri çəkilmədi. Qardaşının təzəcə dünyaya gələn körpə oğluna həsr

etdiyi şeirində də qəhrəmanlıq ənənəsini davam etdirməyi tövsiyyə etdi:

Qardaşımın körpəsi, Fərid balam, ər balam,
Sabahkı döyüşlərə bu gündən əsgər balam!
Nəsil zəncirimizi iyirmi birinci əsrə,
Aparacaq qüdrətim, daş səngərim, tunc qalam!
(Xəlil 1993: 39.)

Şəhidlik qeyrət və hünər simvoludur. Seçmə adamların taleyinə yazılan şəhidlik qisməti islam dininin yayıldığı ölkələrdə Həzrəti Hüseyn əleyhisalamın məqamına yaxınlaşmaq kimi dəyərləndirilir. Həzrəti Məhəmməd peyğəmbərin (s.s) nəvəsi, Həzrəti Əlinin (s.s) oğlu Həzrəti Hüseynlə (s.s) başlayan şəhidlik anlayışı Azərbaycanın müstəqillik yolunda mübarizəsi zamanı bütün xarakterik xüsusyyətləri və keyfiyyətləri ilə aşkara çıxdı. Adilikdən çox-çox uzaq olan, yüksəklik, alilik və əbədilik məqamı kimi qiymətləndirilən şəhidlik böyük klassik şairimiz Füzulinin əsərlərindən qırmızı xətlə keçərək müasir şairlərimizin şeirlərində davam etməkdədir.

Ümümi şəkildə "Şəhidlər" başlığı ilə yüzlərlə şeirlər yazılıbdır. Onlardan bir neçəsindən qısa bəndlər verməklə bu dərdin miqyasını göstərək:

**Pirim Pirimov**

**Şəhidlər!**

Siz ey Vətən yolunda şirin canından keçib,
İgidliyi, mərdliyi özünə amal seçib,

Ömrün bahar çağında həyatdan erkən köçüb,
Ölümüylə bu yurdu, torpağı yaşadanlar,
Yaşayan hər ömürdə qanınız, canınız var!
Səs verdiniz Vətənin harayına, səsinə,
Yüksəldiniz müqəddəs şəhidlik zirvəsinə.

**Dursun Musayeva:**

**Şəhidlər**

Bu vətən, bu torpaq mənimdi deyib
Üstündə vüqarla gəzdi şəhidlər.
Əyninə qanından bir köynək geyib
Düşmənin yolunu kəsdi şəhidlər.

Şəhid övladlarının məzarları başında yol gözləyən analar haqqında yazılan yüzlərlə şeirlərdə mərdlik, mübarizlik mücəssəməsi olan Azərbaycan qadınının mükəmməl obrazı yaradılıbdır. İlham İdrisoğlunun "Şəhid anası" şeirində oğlunun şəklini əlində tutub "müharibəyə yox!" – deyən ananın obrazı insanlığa çağırış kimi səslənir:

Titrək əllərinlə alıb şəklini
Ah çəkib ağlama, şəhid anası!
Dizlərin üstünə əyib belini
Sellər tək çağlama, şəhid anası!

Mirvarid Dilbazinin "Ağlama gəlinim, qızım, ağlama" şeirində Azərbaycan qadınının dərddən güclü olduğu, əyilməz olduğu bir daha təsdiqlənir:

Ağlama, kamanım, sazım, ağlama!
Sil bu göz yaşını, gözüm, ağlama!
Gəlinim, ağlama, qızım, ağlama!
Dərddən güclüləri dərd əyə bilməz!
(Dilbazi 2004: 11).

Oqtay Zəngilanlı isə "Şəhidlər ölməzlərdir, ölməzi ağlamazlar" şeiri ilə sanki analara bir təsəlli, təskinlik vermək istəyir.

Şəhidlər şərəf-qeyrət, ucalıq zirvəsidir,
Şəhidlər azadlığın od-şimşək zərrəsidir,
Şəhidlər tarixləşən istiqlal türbəsidir.
Şəhidlər şimşək kimi, buludlar saxlamazlar.
Şəhidlər ölməzlərdir, ölməzi ağlamazlar.
(Zəngilanlı 2013: 34).

Şirinxanım Kərimbəyli Şadiman "Şəhidlər Xiyabanı" şeiri ilə xiyaban adı verilmiş bu qəbirstanlığı "dünyanın qəm adası" adlandırır. İnanır ki, haqq işi qalib gələcək, Allah zülm edənləri cəzasına çatdıracaqdır:

Əsarətinə üsyan dünyanın qəm adası,
Nakam olmuş canların şəhid ruhlar odası,
Zəncirləri qırılmış Vətənin qan-qadası,
Şəhidlər Xiyabanı.

Gözü yaşlı analar saçın yolur ah ilə,
Məmləkət üsyan edir qul olmuş sabah ilə,
Allah necə barışır bu suç, bu günah ilə?!..
Şəhidlər Xiyabanı.
(Hatəmi 2005:159)

Hüseyn Hatəminin "Şəhidlər xiyabanında" şeirində insanın keçirdiyi hisslərin, daxili təlatümün "lal fəryadlar"ı dilə gəlir. Şəhidlərin sanki canlanan şəkillərində dünyaya, insana sevgi, bəşəriyyətə xoş günlər, azadlıq arzuları əks olunubdur.

Şəkillər boylanır məzarlar boyu,
Sanki daşların da baxışları var.
Səssiz lal fəryadlar ürəyi oyur,
Burda sükutun da göz yaşları var.

(Hatəmi 2005:159)

Alxan Kamalın "Şəhidlər xiyabanı" şeirində bu müqəddəs məkanın and yerinə çevrilməsi poetik əksini tapıbdır:

Dağılmaz hünərimdir,
Balamdan da şirindir.
Müqəddəs and yerimdir
Şəhidlər xiyabanı!

(Kamal 2003: 194)

Musa Aslanxanlı "Hər şəhid bir addım"... şeirində şəhidliyə tamamilə ayrı bir mövqedən yanaşır. Şairə elə gəlir ki, Vətən uğrunda hər şəhid olan Vətəni qələbəyə bir addım yaxınlaşdırır. İtirilmiş yurdlar şəhidlərlə geri qaytarıla bilər, vətənsiz ər, igid olmaz. Hər şəhid qələbə sarvanı olsa da, sonuncu tam qələbə qazandıracaq şəhiddən hələ xəbər yoxdur:

Hər şəhid bir addım-yurda qayıdış.
Vətənlə qalxınar ərlər, igidlər.

Hər şəhid qələbə sarvanı ancaq,
Sonuncu gülllədən hələ yox xəbər.
(Aslanxanlı 2005: 141).

Musa Ələkbərlinin Azərbaycan jurnalının 2011-ci il tarixli birinci sayında Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimova həsr edilmiş "Mübarizlik dərsi" poeması çap edilmişdir. Poemada Mübarizin keçdiyi həyat yolu, hərbi xidmətdə olduğu zaman erməni hərbi birliyinə hücum edib qazandığı zəfərdən söhbət açılır.

Mübariz İbrahimov 1988-ci ilin fevral ayının 7-də Biləsuvar rayonunun Əliabad kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra hərbi xidmətə çağrılmış, 2007-ci ildə hərbi xidmətini çavuş rütbəsində başa vurub mülki işlərdə çalışmışdır. Qəlbi vətən eşqi ilə döyünən, erməni işğalçılarının Azərbaycan xalqına qarşı apardığı məkrli işğalçılıq siyasətini sindirə bilməyən Mübariz yenidən hərbi xidmətə qayıtmağı qərar alır. 2009-cu ilin avqust ayında gizir rütbəsində hərbi xidmətini davam etdirir, bir müddətdən sonra öz arzusu ilə cəbhə bölğəsinə dəyişilir. Cəbhənin təmas xəttində atəşkəs tez-tez ermənilər tərəfindən pozulur, dinc əhaliyə atəş açılır, insanlar həlak olurdu. Erməni ordusunun yaramaz hərəkətlərini gördükcə Mübarizin ürəyindən qara qanlar axır, günahsız yerə həlak olan insanların qisasını almaq haqqında fikirləşirdi. 18 iyun 2010-cu il tarixdə Mübariz qəti qərar qəbul etdi. Gecə saat 23:30 radələrində Mübariz düşmən tərəfindən minalanmış təqribən bir kilometrlik sahəni keçib Ermənistan Silahlı Qüvvələrinin yerləşdiyi qərargaha hücum edir. Çoxlu sayda erməni əsgər və zabitini gözlənilməz həmlə ilə məhv edən Mübariz ermənilərin silah anbarını ələ keçirib

düşmənin öz silahı ilə özünə qarşı döyüşür. Təqribən beş saatlıq döyüş nəticəsində düşmən ağır itkilərə məruz qalır, səhərə yaxın igid gizirimiz qəhrəmancasına həlak olur. Ermənilər Mübariz İbrahimovun meyitini 141 gün saxladılar. Azərbaycan hökümətinin təkidləri nəticəsində, nəhayət, Mübariz İbrahimovun meyidi 6 noyabr 2010-cu ildə Azərbaycan tərəfinə qaytarıldı və Bakı şəhərində II Fəxri Xiyabanda dəfn edildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Mübariz Ağakərim oğlu İbrahimova Azərbaycanın Milli Qəhrəmanı (ölümündən sonra) adı verildi.

Mübariz İbrahimovun cəsurluğu, igidliyi, qəhrəmanlığı heç vaxt unudulmayacaqdır. Onun bənzərsiz cəsarəti sözlə ifadəsi çətin olan bir qəhrəmanlıqdır, onun həlak olması faktı özünü dərk edərək, şüurlu şəkildə həyata keçirilmiş, döyüşdə cəngavərlik nümunəsi göstərən müqəddəs ölüm aksiyasıdır. Son döyüşə gedərkən yazdığı məktubun hər sətrində ürəyinin çırpıntıları hiss edilən Mübarizin əzəməti, qəhrəmanlığı bütün dünyaya duyurulacaq bir igidliyin bariz nümunəsidir: Mübariz yazırdı: "Canım, atam və anam. Məndən sarı darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam – ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu etməliyəm. Allah böyükdür. Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin".

Maarif Köçkünün "Mübariz cəsarəti" poeması da Mübariz İbrahimova həsr edilmişdir. Şair burada Mübarizi sön-

məz bir günəşə bənzədərək, onun əbədi olaraq Azərbaycan xalqının taleyində yaşayacağını bildirir:

Sönməz bir günəşdi, qəlbimizdədi,
Deмərik dünyadan köçdü Mübariz.
(Köçkün 2011: 17).

Mübariz İbrahimov haqqında onlarla kitab yazılıb və yazılmaqdadır. Onlardan bir neçəsinin adını burada çəkməklə kifayətlənmək istəyirik:

1. Hünər simfoniyası – Balayar Sadiq.
2. Turan Mübarizi – Yəhya Yusif Canıyar.
3. Ölüm son deyil... və yaxud əbədiyyət nəğməsi – Baxşeyiş Abbasoğlu.
4. Milli Qəhrəman Mübariz İbrahimov – Mustafa Çəmənli.
5. Milli qəhrəmanım, vətən qürurum – Rəhilə Elçin

Rəhilə Elçin onun haqqında böyük hərflərlə yazıbdı: VƏTƏNİMİN FƏXRİ, VƏTƏN UĞURUM, MİLLİ QÜRURUM, MİLLİ QƏHRƏMANIM, MÜBARİZ OĞLUM!!! (Rəhilə 2010: 96).

Mübariz İbrahimov haqqında onlarla şeir yazılıbdır. Bu şeirlərdə Mübarizin igidliyi bir örnək olaraq dəyərləndirilibdir. Belə şeirlərdən nümunələrə baxaq.

**Rusif Hüseynov:**

**Vətən oğlu**

Vətən mənə oğul desə, nə dərdim,
Məmməd Araz zirvəsindən budur iz.

Şəhid oldun baş əymədin düşmənə,
Vətən sənə oğul dedi, Mübariz.

**Yusif:**

Bir oğul yetişdi ana vətəndə,
Ürəklərdə qaldi gözdən itəndə.
Şəhid olmaq üçün getdi gedəndə,
Haqsızlığa sinə gərdi Mübariz .

**Elmar Şahmar:**

Xalqın şərəfli adı – İbrahimov Mübariz,
Azərbaycan övladı – İbrahimov Mübariz.

**Yeganə Mirzəməmmədova:**

Hara baxırıqsa əksin görünür,
Adın çəkiləndə qəlblər döyünür,
Qəhrəmanlığınla Vətən öyünür,
Salmısan qəlblərdə silinməyən iz –
Xalqımın sevimli oğlu Mübarız!

Mübariz İbrahimov haqqında bu qədər şeirin yazılması təsadüfü deyildir. Əvvəla, o, misilsiz bir qəhrəmanlıq göstərmişdir. İkincisi isə xalqın istəyini, arzusunu özündən başqa kimsə olduğu kimi duya bilməz. Torpaq eli, obası, yurdu, əhalisi, şəhidləri ilə Vətənə çevrilir. Mübariz də şəhidliyi ilə Vətəni bir boy da ucaltdı.

Ramiz Qusarçaylının "Bu qurban olduğum Vətən" şeirində şəhidlik bütünlükdə Vətənə aid edilir. El içində söz

var, deyərlər: "Vətənə qurban olum". Bu ifadə min illərlə sınaqlardan çıxmış, döyüşlərdə bərkimiş, yurd yerləri uğrunda aparılan mübarizələrin nəticəsində sabitləşmiş bir deyim tərzinə çevrilibdir. İfadə özlüyündə hər bir azərbaycanlıda vətənpərvərlik eşqinin, mübarizlik duyğusunun yaranmasında stimulverici gücə malikdir. Belə olduğu təqdirdə Vətənin yadlar tərəfindən işğalı qəbuledilməzdir. Lakin bu işğal faktdır. Şairin qənaətinə görə, "Qarabağ" döyüşlərində biz "2" alıb sinifdə qaldıq. Ona görə də əlimizdən saldığımız şüşə qab kimi Vətən parçalandı, dağıldı, yad ayaqlar altında tapdalanıb viranəyə çevrildi:

Oğul-oğul çiçəkləndi,
Şəhid-şəhid ləçəkləndi,
Xocalıda çiliklətndi
Əlimdən saldığım Vətən...
Gedir, yad əldə can gedir,
Can-can Azərbaycan gedir.
Gör kimlərə qurban gedir
Bu qurban olduğum Vətən...
(Qusarçaylı 2015: 201).

Tapdaqlar altında qalan Vətəndə insanlar təkcə döyüşərək şəhid olmadılar. Silahsız, əliyalın bu insanların çoxu özü özünə qəsd elədi. Xüsusən də, qadın və qızlarımızın böyük bir hissəsi düşmən əlinə keçməsinlər deyə özlərini dağdan, daşdan atıb intihar etdi, zəhər içib həlak oldular. Naçar atalar öz qızlarını güllələdilər. Ramiz Qusarçaylının "Namus" şeiri məhz "Mühasirə zamanı ermənilərin əlinə keçməsin deyə yeganə qızını güllələyən naçar atanın dilindən" yazılıbdır:

Əl saxla, xain balası,
Qoy namusumu basdırım.
Gözümün ağı, qarası,
Bircə qızımı basdırım.
(Qusarçaylı 2015: 191).

Qadın şairlərin şeirlərində şəhid analarının ümumiləşmiş obrazına rast gəlirik. Bu obraz dünya mədəniyyətinə sülh çağırışı ilə müraciət edən, silah dəllallarının, neofaşizmə yuvarlanan siyasi xuntaların bütün bəşəriyyət üçün bəla olduğunu xatırlatmaqdadır. Nəzakətin "Haqqa qovuşduran şəhid zirvəsi" şeirində şəhid anasının göyləri lərzəyə gətirən naləsi, şəhid oğlunun məzarı başında layla deməsi bədii boyalarla təsvir edilmişdir:

Göyləri titrədir ahı-naləsi.
Ana layla deyir qəbir daşına.
Hər gün qucaqlayıb soyuq məzarı,
Sanki gəlib keçir beşik başına.
(Nəzakət 2011: 74).

Vaxtsız oğul itirən anaların dedikləri bayatılar, ağılar, laylalar xalq ədəbiyyatında yüzlərlədir. Bəzən analar bu sitəmi fələyin qəsdi kimi qiymətləndirib öz dərdləri ilə şikayət ediblər:

Eləmi, üyüm, fələk,
Sızıldar üyüm, fələk.
Çəkdin sinəm üstünə
Çal-çarpaz düyün, fələk.
(Xalqımızın deyimləri 1986: 80).

Sona Vəliyevanın şeirində isə tək qalmış şəhid balası ağlayır. Valideynlərini itirmiş şəhid balasının fəryadı müəllifin içini göynədir, özü də ana olan şairə şəhid balasına toxtaqlıq vermək istəyir:

Ağlama, içim göynədi,
Yer məhvərindən titrədi.
Tanrı da taxtında təkdi,
Ağlama, şəhid balası.
(Vəliyeva 2010: 30).

Gülnar Hüseynova "Gözlərdəki yaş ağladı" şeirində Xocalı faciəsini xatırlayır. Şairə bu dərdin ağırlığından nəinki gözlərin, hətta gözlərdəki yaşın ağladığını obrazlı şəkildə təsvir etmişdir:

Başqa dərdlər yalan oldu.
Bu dərd əldən salan oldu.
Xocalılar talan oldu,
Gözlərdəki yaş ağladı.

...xoş növrağın devirdilər.
Külünü yelə verdilər.
Xarabaya çevirdilər,
Dözmədi bayquş ağladı.
(Hüseynova 2011: 157).

Şairə "dözmədi bayquş ağladı" ifadəsi ilə "Nuşirəvan və bayquşların söhbəti"ni yada salır. Dahi Nizami Gəncəvinin də xalq yaradıcılığından istifadə edərək ədəbiyyata

gətirdiyi bayquş məsələsini şairə bu günümüzə transfer etməklə erməni işğalçılarının qəddarlıq və dağıdıcılıqlarını göstərməyə çalışmışdır. Belə ki, Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərinin "Nuşirəvan və bayquşların söhbəti" hissəsində bayquşlardan biri digərindən qızına cehizlik olaraq bir neçə viranə ev istəyir, digər bayquş isə Nuşirəvan padişah durduqca yüzlərlə evin dağıdılıb viranəyə çevriləcəyini deyirdi. Gülnar Hüseynovanın şeirində isə dünyaya "əxlaq dərsi" keçən, ağızdolusu humanizm ideallarından danışan sovet birliyinin "humanizmi" nəticəsində yerlə yeksan edilmiş Xocalı şəhərinin faciəsinə, hətta, bayquşlar ağlayır. Burada bir neçə şəhiddən danışmaq mümkün deyil, bu şəhər bütünlüklə şəhadətə çatdırılmış və vəhşicəsinə qoca, cavan, uşaq, qadın, bütünlüklə şəhər qətl-qarət edilmişdir.

Sara Selcanın şeirində isə şəhid olmuş bir oğlandan danışılır və belə bir ideya vurğulanır: "Şəhid olmasaydı o oğlan" azad və xoşbəxt olardı, qarımış qızlardan biri az olardı, anasının saçı ağarmaz, atasının beli bükülməzdi":

Şəhid olmasaydı o oğlan,
O qarımış qızın sevgilisi ola bilərdi.
Şəhid olmasaydı o oğlan,
Nə anasının saçı ağarardı,
Nə atasının beli bükülərdi.
Bacısının üzü gülərdi,
Şəhid olmasaydı o oğlan.
Kəndin ən hündür yerində
　　Evi olardı,
　　Məzarı olmazdı.

(Selcan 2011: 159).

Daha sonra şairənin məntiqli qənaəti təəccüb doğursa da, razılaşmaya bilmirsən. İnsanlar dünyaya gələndə müxtəlif missiyalarla doğulurlar. O oğlan da beləcə, üzündə şəhidlik nuru ilə doğulmuşdu:

... O oğlan şəhid olmaya bilməzdi;
Uşaq vaxtı görmüşdüm
O oğlanı,
O oğlanın üzündəki ilahi təbəssümə
Şəhidlik yaraşırdı.
(Selcan 2011: 159).

Şəhidlik böyük, mübarək bir nemətdir. Bu nemət hamıya qismət olmur. Çünki şəhidlik mübarizlik, qəhrəmanlıqdır. Ağacəfər Həsənlinin şeirində bu nemət “bir qaşıq qanından” qorxmayan cəsur insanlara nəsib olur:

Hamı ölüm qorxusunu
Keçirir şirin canından.
Hamı qorxur Allahından,
Hamı bir qaşıq qanından.
(Həsənli 2013: 36).

Və qorxmayanlar, qəlbində sevgisi olanlar şəhidliyə yüksələ bilirlər. Şəhidliyin sevgisi adi sevgi deyil, pəncərədən daş şəklində, gözdən yaş şəklində gəlib insanın tənhalığında ona yetişir:

Bu sevgi
Pəncərədən daş şəklində,

Gözdən axan yaş şəklində.
Məni saxlayıb təklikdə
Baxır bu sevgi, bu sevgi.
(Həsənli 2013: 33).

Şəhidliyə gedən yolda Şövkət Zərin Horovlu "Ömrünü qəm üstə dəmə qoyub varla yoxun arasında ağrısını bilmədən gedər-gəlməzi Qarabağda yerə dəyən arxasıza" çevrilir, dərdinin "qaraçuxasını" oyada bilmir ki, bilmir.

Ömür qəm üstə dəmlənir
Söykənəkliyəm bir qəmə,
Ağrısını heç kim bilməz.
Varla yoxun arasında,
Bir yol durur: gedər-gəlməz.
Qarabağda yerə dəydi,
Minilliyimin arxası.
Ha daşlayıram oyanmır
Bu dərdimin qaraçuxası.
(Horovlu 2013: 157).

Qaraçuxa xalq yaradıcılığında vacib elementərdən biri hesab edilir. Çuxa qədim geyim formasıdır. Qaraçuxa geyilməsi şərdən, bəladan qorunmaq anlamında müəyyən zamanlarda icra edilən oyun kimi də başa düşülür. İlahiyyatçı Rauf Cəbrayılovun "Həftə içi" qəzetində dərc edilmiş "Mələklər Allahın sadiq qullarıdır" məqaləsində Qaraçuxa haqqında yazır:

"El arasında insanın "qaraçuxa" anlayışı məhz bu mələklərə şamil oluna bilər. Çünki, "qaraçuxam yatıb" deyimi xalqımızda çox qədimlərdən mövcuddur. Bəzi insanlar işlə-

rinin çox vaxt düz gətirmədiyini, başlarına tez-tez gözlənilməz qəzalar gəldiyindən və başqa çətinliklərin səbəbi kimi “qaraçuxa”larından şikayətlənirlər. Əslində, insanın “qaraçuxası” Allahın izni ilə onu qoruyan bu “həfəzə” mələkləridir. Yuxarıdakı ayədə Allah açıq-aşkar buyurur ki, “hər hansı bir insan Allaha qarşı tövrünü, münasibətini dəyişdirmədikcə, Allah da onun əhvalını dəyişdirməz”. Bu o deməkdir ki, bir insan əgər davamlı surətdə işlərinin düz getmədiyindən və başqa çətinliklərdən şikayətlənirsə, öz əməllərinə nəzər salmalı, Allaha, Onun əmrlərinə qarşı daha hörmətlə yanaşmalı və haqq yolunu tutmalıdır. Çünki, bu qoruyucu mələklər yalnız Allahın iradəsi ilə qorumağa mükəlləf olunduğu insandan qəza və bəlaları sovuşdura bilər. Əks halda etdiyimiz hər pis əməl bu mələklərdə ikrah hissi oyadır və onlar da Allah əmri ilə bizə qarşı tövrlərini dəyişdirir və laqeyd olurlar. Bu ilahi yardım Allahın bizə olan bir lütfüdür və mələklərə iman gətirməyimizin nə qədər önəmli olduğunun bariz nümunəsidir.

Qurani-Kərimin yuxarıda göstərdiyimiz ayəsində insanı öndən və arxadan təqib edib onu qoruyan mələklər haqqında soruşanlara imam Məhəmməd Baqir (ə) belə cavab vermişdir: “Allahın əmri ilə onu quyuya düşməkdən, ya başına divar uçmaqdan və ziyandan qoruyurlar. Ancaq elə ki, əcəli çatdı, onu əcəli ilə tək qoyub müqəddəratına doğru qovurlar. Bu təqib edənlər, insanı gecələr qoruyan iki mələkdən və gündüzlər mühafizə edən iki mələkdən ibarətdir. Bu işi də növbə ilə görürlər... (Biharul-Ənvar, cild 59, hədis 16)” (Cəbrayılov 2015: 4-5).

Şövkət Zərin Horovlunu “Qarabağ dərdinin qaraçuxasının oyanmaması” narahat edir. 28 ildir düyünə düşən Qa-

rabağ dərdinin hər il qeyd edilən "ad günü" də şairin "Qeyrət əsir düşüb, Qarabağdadır" şeirindən göründüyü kimi, müəllifi narahat edən məsələlərdəndir. Müəllifin "Ekranda növbəti Şuşa günü qeyd edilirdi" epiqrafının ardınca səhərə qədər ürəyi yanır, üşüdür, qızdırmalı hallar keçirir. Şuşa dərdi sinəsinə çəkilən dağa dönür, Qarabağ günahkar kimi çarmıxa çəkilir.

Yenə qeyd edilir bir işğal günü,
Ürək səhərəcən yandı bu gecə.
İçimdən millənən alovun dili
Məni "Kərəmi"də çaldı bu gecə.
Qəribliyin qarı üstümə yağdı,
Ruhumu titrədib məkdi Qarabağ.
Şuşa sinəsinə çəkilən dağdı.
Çarmıxa çəkilib təkdi Qarabağ.
(Horovlu 2008: 98).

Əbülfəz Naxçıvanlı "Şuşa çağırır" şeirində hər gecə dərd əlindən pozulan yuxusundan danışır. Şairi narahat edən Vətən dərdidir, Qarabağ dərdidir. "Çarmıxa çəkilmiş Qarabağın" cənnət guşəsi qarı düşmənin ayaqları altında tapdandıqca sanki Şuşa dil açıb şairi köməyə çağırır:

Gözüm ocaq, közlə dolub,
Qoymur gedəm huşa məni.
Ürək yaman sözlə dolub,
Hey çağırır Şuşa məni.
(Naxçıvanlı 2008: 62).

Əşrəf Veysəllinin “Tamaşa dərdim” şeirində də Şuşa dərdindən danışılır. Şair bu dərdin ictimailəşmiş formasının təkcə cəmiyyəti narahat etdiyindən yox, habelə təbiətdə də hər daş, böcək, ney, qamış da bu dərddən nəsibini alıbdı. Şair bütün bu ümumiləşdirmələrdən sonra nağıllardan gələn bir motiv ilə dərdini əlaqələndirir və divin canı şüşədə olduğu kimi özünün da canının Şuşada olduğunu qeyd edir. Şair həmçinin burada “şüşə” və “Şuşa” sözlərinin səslənməsindəki bənzərlikdən yararlanaraq allistrasiya qafiyələnmə yaratmışdır:

Bəllidir hər daşa da,
Böcəyə də, quşa da.
Qan ağlayan neyə də.
Quyuda qamışa da;
Məmura da. Bəyə də,
Adi vətəndaşa da-
Divin canı şüşədə,
Mənim canım Şuşada:
Ay mənim Şuşa dərdim,
Ah, mənim Şuşa dərdim!
(Veysəlli 2005: 158).

İsa Sevər “Qarabağ şikəstəsi”şeirində “keçmə namərd körpüsündən, qoy aparsın sel səni” (Atalar sözü 1985: 431) atalar sözünün yaranmasını “Türkmənçaydan” rus körpüsü ilə keçməsi ilə əlaqələndiribdir. Məlum olduğu kimi, 1813-cü ildə Rusiya-İran müharibəsi nəticəsində Azərbaycanın şimalı işğal edilərək “Türkmənçay” müqaviləsi ilə Rusiyanın tərkibinə qatılmışdır. O zaman İranda yaşayan ermənilərin böyük çoxluğu Şimali Azərbaycanın ərazisinə, o cümlədən

Dağlıq Qarabağa köçürülmüşdür. Bu köçürülmədən sonra rus hökuməti tərəfindən ermənilərə yaradılan şərait, verilən güzəştlər Qarabağ faciəsinin təməlinə çevrilmişdir ki, nəticədə tarixi Azərbaycan torpaqları əlimizdən çıxmışdır. Şair "Qarabağ şikəstəsi" şeiri ilə eyniadlı muğamın qəminin, fəryadının bütün vilayətə aid olduğunu göstərməyə çalışır:

Külək
Kürəyimizə döysün bir az,
Sinəmiz davam gətirməz,
Sinəmizə qarışıq hava çəkmişik.
Erməniylə çörək kəsmişik,
"Türkmənçaydan"
Rus körpüsüylə keçmişik,
Sonra da
"keçmə namərd körpüsündən"
demişik...
(Sevər 2013: 115).

Fikrət Sadıq "Bu günnamə" başlığı ilə günümüzün reallıqlarını "Xocalı dördlükləri"ndə anlatmaq istəyibdir. Xocalı faciəsini "Qarabağın bağrına çəkilmiş dağ" adlandıran şair bu fəryadın dərəni-dağı sardığını qeyd etməklə dəhşətin böyüklüyünü göstərir:

Qarabağın bağrına çəkilmiş dağ – Xocalı,
Bu dərə-dağ içində dərdli torpaq – Xocalı!
Özü boyda bir ağız, ağız dolusu fəryad!
Yaz gəlib, bəri başdan sarı yarpaq – Xocalı!
(Sadıq 2008: 95).

Ələmdar Quluzadə "Keçib" şeirində vətən müharibəsində vətən övladlarının təzadlı mövqeyindən, müharibədə canından, qolundan, qıçından keçənlərlə bərabər "düşmən dəyirmanına su tökən", Xocalıdan, Laçından keçib yağıyla alver edənlərin olduğunu təəssüf hissi ilə vurğulayır:

Narı becərməyən bizə nar satır,
Dəllal tanıyıram qışda qar satır.
Oğul var qadına alt paltar satır,
Oğul var, qolundan, qıçından keçib.

Dostunu dizindən atan kişi var,
İlanla qol-boyun yatan kişi var.
Düşmənlə alveri tutan "kişi" var,
Xocalıdan keçib, Laçından keçib.
(Quluzadə 2007: 145).

Sona Vəliyevanın "Öncə can sağlığı deyən kəslərə" şeirində də bu məqam vurğulanır. Şeiri təhlil edən Sabir Rüstəmxanlı yazır ki, "Azərbaycanın parçalanması, iki yüz il davam edən ayrılıq, milli azadlıq mübarizəmiz, xalqımızın üzləşdiyi haqsızlıqlardır. Güney-Quzey ayrılığı, tarixi torpaqlarımızdan deportasiya, Qarabağın işğalı, beynəlxalq miqyas almış ədalətsizliklər, müharibənin ağrıları və bütün bunların qadınlarımız, analarımızın ürəyində açdığı yaralar Sona xanımın şeirlərindən keçən əsas xətlərdən biridir:

İçimiz boşaldı torpaqdan öncə,
Sonra can göründü Vətən yerinə.

“Öncə can sağlığı!” deyən kəslərin
Yurdu qurban getdi bədən yerinə.
(Vəliyeva 2011: 14).

Kəmaləddin Qədim “Hələ Vətən deyil Vətən deyilən” şeirində sanki Sona xanımın yuxarıdakı duyğularını davam etdirərək yazır.

Hər şeydən öndədi gödən deyilən,
Gödənin quludur bədən deyilən.
Hələ Vətən deyil Vətən deyilən,
Şuşasız adi bir torpaqdı, qardaş.
(Kəmaləddin 2007: 127).

Şuşasız Şuşa dərdi, Laçınsız Laçın dərdi şairi bitirib tükədir. Şuşasız, Laçınsız Vətəni qəbul edə bilməyən K. Qədim öz dərdini elin dərdinə, elin-yurdun dərdini öz dərdinə calayır. Yaşasa da, sanki yaşamır, xəyalət kimi sərgərdan-sərgərdan küçələri dolaşır. Necə də yaşasın şair? Vətənin bir parçası əsirlikdədirsə, şairin yaşamaq haqqı varmı?!

Əvvəldə kimdisə, nəhayət mənəm,
İnsan cilidində xəyalət mənəm.
Şuşa, Laçın boyda əyalət mənəm,
Bitib, tükənirəm hər gün, İlahi!.
(Kəmaləddin 2007: 132).

Sadaladığımız şeirlərin içərisində ümid verən, mərd oğul və qızlarımızın damarlarında qaynayan qanı əks etdirən, vətən yolunda hər an mübarizəyə hazır olanların məramını işıqlandıran yazılar da var. Belə yazılardan biri Valeh

Bahaduroğlunun "Tıncıxır" adlı şeiridir. Erməni gədalarının çaldığı havaya oynayan "xanları" qəbul etməsə də, şairin damarlarında qanının guşə gəldiyini görməmək mümkün deyil:

Gəda çalır, Xan oynayır,
Köz-köz olur can, oynayır,
Damarımda qan oynayır,
Qolumda dava tıncıxır.

(Bahaduroğlu 2013: 127)

"Damarlarında qanı oynayan", davadan ötrü tıncıxan yüzlərlə insan təbii ki, Şuşa, Laçın, Qarqar, Xaçın kimi yurd yerlərimizin itirilməsi ilə barışa bilmir, nə zamansa bu torpaqların geri qaytarılması ümidi ilə yaşayırlar. Yaşayırlar dedik, yox, bu insanlar hər an mübarizəyə, vuruşmağa getməyə hazırdılar.

Şuşadan, Laçından ötrü,
Qarqardan, Xaçından ötrü,
Keçməyə canından ötrü
Gör neçə qafa tıncıxır.

(Bahaduroğlu 2013: 127)

Yaxud Kəmaləddin Qədimin bu ruhda yazılmış "Oynayır" şeirində dünyanın seyrçi mövqeyinin anlaşılmazlığı vurğulanır. Ermənilərin qurduğu oyunun parçasına çevrilən "sülh", "demokratiya" carçılarının guya "tərəfsizlik" nümayiş etdirməsi tamamilə riyakarlıqdır:

Bu dəyişməz nə havadır,
Güldürür düşməni, yadı.
Nədir bu oyunun adı,
Hamı nazıynan oynayır?..

(Kəmaləddin 2007: 104).

Şairin təəccübü anlaşılandır. Yəni doğrudanmı dünya bir ovuc ermənin əlində aciz qalıbdır? Şair buna inanmır. Ortada bir həqiqət var ki, ermənilər dünyanın super güclərinin əlində bir alətə çevrilmiş toplum olaraq ümumən türk dünyasının əleyhinə işlədilir və müdafiə olunur. Bu səbəbdən də şairlərimizin poeziyasında artıq səbirlərin tükəndiyi, damarlarda qanın tıncıxması kimi mövqelərin ortaya çıxması təbii qarşılanmalıdır.

Sərdar Zeynalın "Vətən, döyüşə başla" şeirinə bir çağırış ruhu hakimdir. Şeirin ümumi məzmununda itirilmiş torpaqların ağrısı, qaçqın və köçkünlərin dərdi, kədəri əks olunubdur. Şairin səbri tükənib, düşmən tapdağında qalan yurdların acılı xatirələrinin əzabına bundan sonra daha qatlaşmaq istəmir. Vətəni döyüşə səsləyir, hətta, bu çağırış ona canı bahasına başa gələcəksə də, yenə də son döyüşə getmək arzusundadır. Heç olmasa bir qəbir yeri boyda yeri geri qaytarmaq, özünə məzar etmək istəyir.

Öləsiyik son anda,
Qoy həmin çağlar olsun.
Məzarımız qəbir yox,
Dərələr-dağlar olsun.
Vətən, döyüşə başla!

Vətən, döyüşə başla,
Tez-tez dəyişir halım.
Qoy döyüşüb düşməndən
Bir məzar yeri alım,
Vətən döyüşə başla!
(Sərdar 2004: 100).

**Nəticə**

İstiqlal mübarizəsi, bu yolda göstərilən igidlik və qəhrəmanlıqlar, şəhidlik mövzu baxımından müstəqillik dövrü Azərbaycan poeziyasının əsas istinad obyekti olmaqla yanaşı, milli-mənəvi düşüncənin formalaşmasında aparıcı xəttə çevrilməkdədir.

Müstəqillik dövrü Azərbaycan poeziyasının məram, məqsədinə uyğun olaraq yazılan əsərlərin mübarizlik əhval-ruhiyyəsinin nikbin bir ovqat yaratdığını və bu ovqatın gənc nəslin ideya-tərbiyəsində böyük rolunu qeyd etməliyik. Poeziyamızın uğurları oxucuların yeni əxlaqi keyfiyyətlərə sahiblənməsində, ideya-siyasi dünyagörüşünün formalaşmasında mühüm əhəmiyyət kəsb edir, onların iradəsini, duyğularını, fikirlərini ifadə edir, gənclərin vətənpərvərlik hisslərini gücləndirir, əxlaqi cəhətdən tərbiyə edir.

Ədəbiyyat və incəsənətin inkişafında əsas məsələ, milli mənafeyi qorumaq, xalqın həyatı ilə əlaqəni möhkəmlətmək, xalqın düşüncəsini məşğul edən hadisələrin bədii obrazını yaratmaqdan ibarətdir. Bu sahədə istiqlal mübarizəsi və şəhidlik mövzusu aktuallığı ilə müəllif fantaziyasının sintezindən doğulan, vətənpərvərlik hisslərini coşduran cəsarətli

bədii əsərlərin meydana çıxması tamamilə təbii bir prosesin gedişi hesab edilə bilər.

Azərbaycan poeziyasının son dövrlərdə yaranan nümunələrinin təhlili bir daha sübut edir ki, şairlərimiz yüksək sənətkarlıq göstərmək üçün müxtəlif yaradıcılıq formalarından, üslub və janrlardan istifadə edərək yaratdıqları mübarizlik əhval-ruhiyyəsinə köklənmiş əsərləri ilə Vətənimizin, xalqımızın taleyüklü problemlərinin həllində fəal iştirak edirlər.

**Qaynaqlar**


Ağahüseynqızı 2015 – Ə.Ağahüseynqızı. Payız yağışı. Bakı: “Yeni Poliqrafist” MMC, 2015

Araz 2010 – M.Araz. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2010

Asif 1997 – A.Asif. Bu da bir taledi... Bakı: Sabah, 1997

Aslan 2006 – M.Aslan. Seçilmiş əsərləri. Bakı: Avrasiya press, 2006

Aslanxanlı 2005 – M.Aslanxanlı. Hər şəhid bir addım. Azərbaycan j., 2005/2, s.141

Atalar sözü 1985 – Atalar sözü. Toplayanı: Ə.Hüseynzadə, tərtib edəni: H.Qasımzadə. Bakı: Yazıçı, 1985, 690 s.

Bahaduroğlu 2013 – V.Bahaduroğlu. Tıncıxır. Azərbaycan j., 2013/4, s.127

Cəbrayılov 2015 – R.Cəbrayılov. Mələklər Allahın qullarıdır. Həftə-içi. 11-13.04.2015, s.4-5

Dilbazi 2004 – M.Dilbazi. Seçilmiş əsərləri. Bakı: Lider, 2004

Hacızadə 2012 – A.Hacızadə. Hünər nəğməsidir şəhid məzarı / Azərbaycan qəzeti, 19 yanvar 2012

Hatəmi 2005 – Hatəmi H. Şəhidlər xiyabanında. Azərbaycan j., 2005/1, s.159

Həsən 2001 – V.Həsən. Görüşünə gəlməsəm. Bakı: Nurlan, 2001

Həsənli 2013 – A.Həsənli. Bu sevgi. Arı şanı. Azərbaycan j., 2013/4, s.33- 36

Həsrət 1993 – Həsrət. Vətən oğullar, Oxuma, bülbül, oxuma. Azərbaycan j., 1993/3-4, s. 113

Hidayət 2002 – Hidayət. Qələmini qanına batıran şair. Azərbaycan harayı. Bakı: Respublika Xatirə Kitabı Redaksiyası, 2002

Horovlu 2008 – Ş.Z.Horovlu. Qeyrət əsir düşüb Qarabağdadır. Azərbaycan j., 2008/5, s.98

Horovlu 2013 – Ş.Z.Horovlu. Şeirlər. Azərbaycan j., 2013/4, s.157

Hüseynova 2011 – G.Hüseynova. Gözlərdəki yaş ağladı. Azərbaycan j., 2011/6, s.157

Xalqımızın deyimləri 1986 – Xalqımızın deyimləri və duyumları (toplayıb yazıya alanı və tərtib edəni Mürsəl Həkimov). Bakı: Maarif, 1986

Xəlil 1993 – Xəlil Rza. Uzun sürən gənclik. Bakı: Azərnəşr, 1993

Kamal 2003 – A.Kamal. Şəhidlər xiyabanı. Ədəbi İrəvan. Bakı: Nərgiz, 2003, s.194

Kəmaləddin 2007 – Q.Kəmaləddin. Yığış gedək, günahım. Bakı: “Vektor” Nəşrlər Evi, 2007

Kəsəmənli 2004 – N.Kəsəmənli. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004

KDQ 1988 – Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988.
Köçkün 2011 – M.Köçkün. Mübariz cəsarəti. Bakı: Bəxtiyar-4, 2011
Qabil 2004 – Qabil. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004
Qoca 2015 – F.Qoca. Seçilmiş əsərləri, III c. Bakı: UniPrint, 2015
Quluzadə 2007 – Ə.Quluzadə. Keçib. Azərbaycan j., 2007/2, s.145
Qusarçaylı 2015 – R.Qusarçaylı. Bu qurban olduğum vətən / Bir uzun küçə. Nurlar, 2015
Məmmədzadə 1991 – R.Məmmədzadə. O gecə (poema). Bakı: Gənclik, 1991
Naxçıvan folkloru – Naxçıvan folklor örnəkləri (müəllifin şəxsi arxivi)
Naxçıvanlı 2008 – Ə.Naxçıvanlı. Şuşa çağırır. Azərbaycan j., 2008/3, s.62
Nəzakət 2011 – Nəzakət. Haqqa qovuşduran şəhid zirvəsi. Azərbaycan j., 2011/3, s.74
Ol 2011 – Ə.Ol. Yaşa. Bakı: Maarif, 2011
Razi 1996 – H.Razi. Gözün aydın. Bakı: Azərbaycan, 1996
Rəhilə 2010 – E.Rəhilə. Milli Qəhrəmanım,Vətən qürurum. Bakı: Araz, 2010
Rüstəmxanlı 2004 – S.Rüstəmxanlı. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004
Sadıq 2008 – F.Sadıq. Bugünnamə. Azərbaycan j., 2008/9, s. 95
Selcan 2011 – S.Selcan. Şəhid olmasaydı o oğlan. Azərbaycan j., 2011/7, s 159

Sevər 2013 – İ.Sevər. Qarabağ şikəstəsi. Azərbaycan j., 2013/5, s.115

Sərdar 2004 – Z.Sərdar. Bir ürək sevgiyəm. Bakı: Nurlan, 2004

Tapdıq 2000 – İ.Tapdıq. Gəldi. Azərbaycan j., 2000/5, s.143

Tapdıq 1999 – İ.Tapdıq. Bir şəhiddir ürəyim. Azərbaycan j.. 1999/5, s.40

Vahabzadə 2004 – B.Vahabzadə. Seçilmiş əsələri, 2 cilddə, I c. Bakı: Öndər nəşriyyatı, 2004

Veysəlli 2005 – Ə.Veysəlli. Tamaşa dərdim. Azərbaycan j., 2005/5, s.158

Vəliyeva 2010 – S.Vəliyeva. Ağlama, şəhid balası. Azərbaycan j., 2010/12, s.30

Vəliyeva 2011 – S.Vəliyeva. Arazbarı. Bakı: Qanun, 2011

Zəngilanlı 2013 – O.Zəngilanlı. Şəhidlər ölməzlərdir, ölməzi ağlamazlar. Azərbaycan j., 2013/4

# FOLKLORLA BAĞLI QANUNVERİCİLİK

**Sevda Kərimova**
sevda.aydin.k@gmail.com

## LEGISLATION ON FOLKLORE

SUMMARY

This article researches the legislation framework regarding with protection, advancement and use of folklore, which are the pitchfork of national and moral values of the Azerbaijani people.

National legislation is analyzes in comparison international norms and standarts, indicated the perspectives of development.

Special attention is paid to the fact that all these legislative acts adopted in the period of the independence of the Azerbaijan Republic.

***Key words:*** folklore, folklore samples, legislation, independence

## ЗАКОНОДАТЕЛЬСТВА ОБ ФОЛЬКЛОРЕ

РЕЗЮМЕ

В статье анализируется законодательная база, регулирующая отношения по поводу хранения, развития, исследования и использования образцов фольклора, которые являются камертоном национально-нравственных ценностей Азербайджанского народа.

Национальная законодательства исследуется в соотношении международными нормами и стандартами, указывается пути развития.

Уделяется особое внимание на то, что все эти законодательные акты приняты после развала советского союза, в период независимости Азербайджанской Республики.

***Ключевые слова*:** фольклор, образцы фольклора, законодательства, независимость.

## Giriş

Folklor bu anın, bundan əvvəlki zamanların, xalqların, yaşamın səsini toplayan, özündə saxlayan, özünə hopduran membran olmaqla yanaşı, həm də bundan sonrakı həyatın, yaşamın, anlayışların düzənini saxlayan, insanları bu həyata kökləyən kamerton rolunu oynayır. Düzgün köklənməmiş ən adi musiqi aləti həm sənətkarın istedadına, həm də orkestrın sinxron, uzlaşmış işinə xələl gətirdiyi kimi, düzgün, vahid, əsaslı anlayışlara, düşüncə və yaşam idealına və metoduna malik olmayan cəmiyyət, xalq da vahid ortama gəlib böyük hədəflərə köklənə bilməz.

Cəmiyyətin kamertonu folklordur. Milli-mənəvi, etnopsixoloji, mistik-kosmoqonik dəyər və anlayışları özündə əks etdirən, bir çox sirlərin və anlaşılmazlıqların açarı olan folklorla bağlı münasibətlərin hüquqi tənzimlənməsi, sözsüz ki, tam mənada mümkün deyildir.

Müasir folklorşünaslıq bizim adət etdiyimiz antroposentrizmin hüdudunu aşmaqda, daha geniş məna və mahiyyət ifadə etməkdədir. Folklora belə münasibət ənənəvi elmi qəliblərlə bir araya sığmır, yeni baxış, yeni metodika, yeni təfəkkür tərzi tələb edir.

Folklorun milli-mənəvi dəyərlər sisteminin formalaşmasında yerinin və rolunun artdığı, etno-psixologiyanın fəal

öyrənilməsi və dövlət idarəçiliyində tətbiqinə ciddi əhəmiyyət verildiyi indiki müstəqillik zamanında bu sahənin xüsusi önəm daşıdığı hamı tərəfindən qəbul olunan faktdır. Azərbaycan Respublikasının öz müstəqilliyini qazandıqdan sonra milli folkloruna sahib çıxmasının bariz nümunəsi kimi, əvvəla, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində 1993-cü ildə "Folklor Sarayı" yaradılmış, daha sonra 2003-cü ildə Folklor İnstitutu təsis edilmişdir.

Eləcə də müasir dünyaya inteqrasiya prosesində bizim bir xalq, cəmiyyət kimi dünya mədəniyyət süfrəsinə verə biləcəyimiz, dünya mədəni mühitini bəzəyəcək ən önəmli hədiyyəmiz, xidmətimiz, payımız, min illərlə yaşatdığımız, yaratdığımız folklor nümunələrimizdir. Müstəqillik dövründə Azərbaycan muğamı, Azərbaycan aşıq sənəti, Novruz bayramı, ənənəvi Azərbaycan xalçaçılıq sənəti, tar və onun ifaçılıq sənəti, Azərbaycan Respublikasında çovqan ənənəvi Qarabağ atüstü oyunu, ənənəvi kəlağayı sənəti və simvolizmi, qadın ipək baş örtüklərinin hazırlanması və istifadə olunması, Lahıcın misgərlik sənətinin YUNESKO tərəfindən bəşəriyyətin yaradıcı şah əsərləri sırasına daxil edilməsi bunun gözəl nümunəsidir.

## Müasir dövrümüzdə folklorun qorunması məsələsi

Yüksək elmi təfəkkürə, özünəməxsus dünyabaxışa, mənəvi dəyərə və həyat idealına malik olan xalqımızın yaratdığı gözəl nümunələr, ortaya qoyduğu folklor sərvəti digər xalqlar, dövlətlər üçün cəlbedicidir, cəlbedici olubdur. Ondan bəhrələnmək, öz həyatlarında istifadə etməklə kifayətlənməyib onu özününküləşdirməyə də cəhd ediblər. Bu

təbiidir, çünki hər kəs yaxşının onun olmasını istəyər. Ancaq əldə etdiyi bu sərvətin mahiyyətini, təyinatını, onu yaradan düşüncə və duyğunu anlamayanlar ondan həqiqi mənada istifadə edə bilməzlər.

Folklor nümunələrimizin qanunsuz istifadəsi, mənimsənilməsi, özününküləşdirilməsi cəhdlərinin qarşısını almaq yönündə dövlətimizin apardığı siyasət, bu vəzifələrin Müəllif Hüquqları Agentliyinə həvalə edilməsi çox faydalı və günümüz üçün aktualdır.

Bu gün bizim həyata keçirməli olduğumuz əsas vəzifə elmi-texniki, informasiya, sənayeləşmə və urbanizasiya dəyirmanında üyüdülərək, savadlılıq kürəsində əriyərək yox olmağa gedən folklor nümunələrimizi, milli yaddaşımızı, mənəvi dünyamızı yüksək qayğı və intellektlə toplamaq, arxivləşdirmək, gələcək nəsillərə saxlamaqdır. O nəsillərə ki, bizim görmədiyimizi görəcək, bilmədiyimizi biləcək, anlamadığımızı anlayacaqlar.

## Folklorun qorunmasının qanunvericiliklə tənzimlənməsi

Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli 2198 saylı Sərəncamı ilə təsdiq edilmiş, "Azərbaycan Respublikası Milli təhlükəsizlik konsepsiyası"nın giriş hissəsində göstərildiyi kimi, Azərbaycan xalqı daha geniş demokratik dəyərlərə qovuşmaq imkanından istifadə edərək, özünün milli dövlətçilik ənənələrinə, tarixi və mədəni irsinə söykənən müasir, demokratik, hüquqi dövlət quruculuğu yolunu seçmişdir.

Dövlətçilik ənənələrinə, tarixi və mədəni irsinə söykənən müasir dövlət hər şeydən əvvəl özünəməxsusluğunu, milli dəyər, sistem və strukturunu saxlayan, qoruyan və inkişaf etdirən, xalqın formalaşdırdığı dövlətdir.

Məhz buna görədir ki, 16 may 2003-cü ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilən "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikası Qanununun preambulasında göstərilir ki, bu Qanun Azərbaycanın mədəni irsinin tərkib hissəsi olan milli folklor nümunələrinin əqli mülkiyyətin xüsusi növü kimi hüquqi qorunması, istifadəsi və müdafiəsinin təminatı ilə əlaqədar yaranan münasibətləri tənzimləyir [AFNHQ 2003].

Qanuna görə, folklor nümunələri dedikdə, Azərbaycan xalqı, onun ayrı-ayrı fərdləri tərəfindən yaradılan və qorunub saxlanılan, Azərbaycan xalqının ənənəvi-bədii dəyərlərini, dünyagörüşünü, ümid və arzularını, bədii irsin xarakterik xüsusiyyətlərini özündə əks etdirən, şifahi şəkildə yaradılan söz sənəti nümunələri, xalq musiqisi, oyunları və rəqsləri, xalq sənətkarlığı və tətbiqi sənət nümunələri (maddi və qeyri-maddi), eləcə də, digər xalq yaradıcılığı nümunələri nəzərdə tutulur. Qanunun məzmunundan aydın olur ki, folklor nümunələri bədii xalq yaradıcılığı, xalq sənətkarlığı və tətbiqi sənət nümunələrindən ibarət olan aşağıdakı maddi və qeyri-maddi irsə aid edilən əsərlərdir:

– Bədii söz sənətinə aid olan əmək, mərasim və uşaq folkloru nümunələri, miflər, əfsanələr, rəvayətlər, nağıllar, dastanlar, lətifələr, xalq dramları, atalar sözləri, zərbi-məsəllər, tapmacalar, xalq və aşıq poeziyası nümunələri, bayatılar və başqa şifahi söz nümunələri;

– Xalq mahnıları və rəqs melodiyaları, xalq professional musiqisinə aid aşıq havaları, muğam dəsgahlar, zərb-muğamlar, təsniflər, cənglər və başqa folklor musiqisi nümunələri;

– Xalq rəqsləri, yallılar, oyunlar, mərasimlər, bayramlar və başqa hərəkətli nümunələr;

– Duyulan tətbiqi sənət və xalq sənətkarlığı nümunələri, o cümlədən, qrafik sənət – şəkillər, rəsmlər, silsilə təsvirlər, kölgə rəsmləri, döymə və oyma işləri, heykəltəraşlıq, keramika, gil məmulatı, mozaika, metal üzərində işləmə, mis və bürünc tökmə məmulatları, ipəkçilik, xalçaçılıq, misgərlik, zərgərlik, dabbaqlıq, tikmə, səbəthörmə işləri, gəbələr, butalar, geyimlər kimi folklor sənəti nümunələri, ornamentlər, naxışlar, musiqi alətləri, xarratlıq, memarlıq işləri və bu qəbildən olan başqa nümunələr.

Göründüyü kimi, hüdudsuz zamana, geniş, bütöv Azərbaycan arealına yayılmış müxtəlif çeşidli, çoxsaylı sərvət, maddi və qeyri-maddi milli irs nümunələri milli təfəkkürün, həyat tərzinin və yaradıcılıq təxəyyülünün göstəricisi kimi hüdudsuzdur, zəngindir.

Qanunda folklor nümunələrinin hüquqi qorunması sahəsində dövlət siyasətinin əsas istiqamətləri müəyyənləşmişdir. Bu Qanun müasir folklorşünaslığın çərçivəsini genişləndirməklə yanaşı, folklor nümunələrinin hüquqi qorunmasını daha mükəmməl təmin edərək gələcək qanunvericilik bazasının yaranmasına da təkan verir.

Folklor nümunələrinin hüquqi qorunması dedikdə, folklor nümunələrinin hər hansı qeyri-qanuni istifadədən və onlara zərər vuran hərəkətlərdən qorunması başa düşülməlidir.

Açığı, Qanunun bir çox müddəaları müasir milli folklorşünaslığın inkişaf səviyyəsindən öndə durur.

"Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Qanun qəbul edildikdən sonra o, bir çox digər məcəllə və qanunlarda, proqram və strategiyalarda da öz ifadəsini tapdı, onun normativ gücü artdı.

Azərbaycan Respublikası Konstitusiyasında göstərilir ki, hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır. Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır (Maddə 40. Mədəniyyət hüququ). Bundan başqa, hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz (Maddə 44. Milli mənsubiyyət hüququ) [Konstitusiya1995].

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Folklor nümunələrindən istifadə tələblərinin pozulması adlı 165-2. maddəsinə görə Folklor nümunələrindən istifadə tələblərinin pozulması, əgər bu əməllər nəticəsində xeyli miqdarda ziyan vurulmuşsa, əmlakı müsadirə olunmaqla yüz əlli manatdan beş yüz manatadək miqdarda cərimə və ya yüz altmış saatdan iki yüz qırx saatadək ictimai işlər ilə cəzalandırılır.

165-2.2. Eyni əməllər:

165-2.2.1. təkrar törədildikdə;

165-2.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə – əmlakı müsadirə olunmaqla şərti maliyyə vahidinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu maddədə "xeyli miqdar" dedikdə, min manatdan artıq olan məbləğ başa düşülür [Cinayət Məcəlləsi 1999].

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 50-2-ci, Folklor nümunələrindən istifadə tələblərinin pozulması adlı maddəsinə görə isə, Folklor nümunələrindən istifadə tələblərinin pozulmasına görə, bu, az miqdarda ziyan vurduqda - folklor nümunələrinin istifadəsinə qoyulan tələblərin pozulması ilə istehsal olunmuş və ya yayılmış folklor obyekti nüsxələri (pirat nüsxələr) müsadirə edilməklə, fiziki şəxslər on beş manatdan iyirmi beş manatadək miqdarda, vəzifəli şəxslər otuz manatdan əlli manatadək miqdarda, hüquqi şəxslər yüz manatdan yüz əlli manatadək miqdarda cərimə edilir [İnzibati Xətalar 2015].

Dövlətimizin milli təhlükəsizlik siyasətinin həyata keçirilməsində elmin rolunun artırılması, xalqımıza məxsus milli-mənəvi dəyərlərlə bağlı istiqamətlərdə bir çox məsələlərin yenidən azərbaycançılıq məfkurəsi mövqeyindən araşdırılması, milli-mənəvi dəyərlərin, Azərbaycan mədəniyyəti və tarixinin obyektiv, konseptual və kompleks şəkildə araşdırılması, ictimai və humanitar elm sahələrində keçmiş sovet metodologiyası ənənələrinin milli maraqlara uyğun yanaşmalarla əvəzlənməsi və s. kimi şərtləri folklorşünasların fəaliyyətini genişləndirmiş, məsuliyyətini artırmışdır.

## Folklorumuzun dünya kültürü içərisində qorunub saxlanması məsələsi

Müstəqil dövlət kimi Azərbaycan Respublikası milli-mənəvi dəyərlərinə sahib çıxmaq, Azərbaycanda yaşayan bütün xalqların folklor sərvətini qorumaq yönündə ardıcıl

siyasi iradə ifadə edir. Cəmiyyətimizin inkişafı, qloballaşan dünyada Azərbaycan xalqının öz layiqli yerini tutması, folklorumuzun qorunması, elmi əsaslarla öyrənilməsi bu sahədə yeni, daha güclü mənəvi və elmi bazaya malik olan normativ hüquqi aktların qəbul edilməsini aktuallaşdırır.

Folklor və onun konsentrasiya etdiyi milli-mənəvi dəyərlər sistemi azad xalq və müstəqil dövlət kimi bizim dünya sivilizasiyasına inteqrasiya prosesinə verə biləcəyimiz ən böyük töhvə, eləcə də, bu qloballaşan dünyada milli varlığımızı qoruyub saxlamaq üçün özünümüdafiə mexanizmimiz, imkan və vasitəmizdir.

Folklorun elmi əsaslandırılmış, mahiyyətinə varılmaqla təşkil olunmuş təbliği təkcə pedaqoji – psixoloji fəaliyyət olmaqla bitmir, o, dünəninə baxmaq, bu gününü qiymətləndirmək, sabahını qurmaq üçün toplumun birləşməsi, bütövləşməsi, ictimai-siyasi, milli-mənəvi proseslərdə həmmüəlliflik, həmiştirakçılıq imkanı yaratmaq deməkdir.

Folkor materialları varlığın – şəxsin, nəslin, tayfanın, xalqın, millətin, cəmiyyətin, dövlətin mövcudluğu, varlığı və mahiyyəti ilə bağlı bu və ya digər konsepsiya haqda informasiya mənbəyi olmaqla yanaşı özünün və ətraf dünyanın dərk edilməsi üçün yeni forma və metodların tapılmasına da təkan verir. Daha doğrusu, yaxşı, dərindən unudulmuş köhnələrin xatırlanmasına kömək edir.

Xüsusi olaraq qeyd edilməlidir ki, folklor təkcə milli qanunvericiliyin deyil, eyni zamanda beynəlxalq hüququn və beynəlxalq münasibətlərin də predmetinə çevrilir. YUNESKO-nun qeyri-maddi mədəni irsin qorunması ilə bağlı qəbul etdiyi sənədlər, bəşəriyyət üçün vacib olan qeyri-maddi mədəni irs sərvətlərinin qorunması istiqamətindəki

fəaliyyətləri folklor nümunələrinə diqqəti artırmış, dövlətlərin bu yöndəki işinə təkan vermişdir.

Azərbaycan Respublikası beynəlxalq səviyyədə qəbul edilmiş

- Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında 16 noyabr 1972-ci il Konvensiyası (1993);
- Müəlliflik hüququ haqqında 6 sentyabr 1952-ci il Ümumdünya Konvensiyası (1997);
- Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında 14 noyabr 1970-ci il Konvensiyası (1997);
- Beynəlxalq xüsusi hüququ unifikasiya institutunun (YUNİDRUA) oğurlanmış, yaxud qanunsuz çıxarılmış mədəni dəyərlər haqqında 1995-ci il Konvensiyası (2003);
- Qeyri-maddi mədəni irsin qorunması haqqında 17 oktyabr 2003-cü il tarixli Konvensiyası (2006);
- Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında 20 oktyabr 2005-ci il Konvensiyasına (2010) qoşulmuşdur.

Konvensiyaların əksəriyyəti müstəqillik dövründən əvvəl qəbul edilsə də, məhz müstəqillik illərində ratifikasiya edilməsi milli-mənəvi dəyərlərimizin müstəqil dövlətimiz üçün daşıdığı önəmin bariz göstəricisidir.

Eyni zamanda xatırlatmaq istərdim ki, Azərbaycanın maddi-mənəvi sərvətləri məhz müstəqillik dövründə YUNESKO-nun qərarı ilə dünya xalqlarının qeyri-maddi mədəni irsi sırasına daxil edilmişdir.

Belə ki, Azərbaycanın 7 qeyri-maddi mədəni irs nümunəsi YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, 1 irs nümunəsi Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilmişdir:

1. **"Azərbaycan Muğamı"** 7 noyabr 2003-cü il tarixində Azərbaycan muğamı YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin şah əsəri elan olunmuşdur. 2008-ci ildə Azərbaycan muğamları YUNESKO-nun Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

2. **"Azərbaycan Aşıq Sənəti"** 28 Sentyabr - 2 oktyabr 2009-cu il tarixində Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində keçirilmiş YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Hökümətlərarası Komitəsinin 4-cü Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, Azərbaycan Aşıq Sənəti YUNESKO-nun Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

3. **"Novruz"** 28 Sentyabr - 2 oktyabr 2009-cu il tarixində Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində keçirilmiş YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Hökümətlərarası Komitəsinin 4-cü Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, Novruz çoxmillətli nominasiya (Azərbaycan, Hindistan, İran, Qırğızıstan, Pakistan, Türkiyə, Özbəkistan) kimi YUNESKO-nun Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

4. **"Ənənəvi Azərbaycan Xalçaçılıq Sənəti"** 15-19 noyabr 2010-cu il tarixində Keniyanın Nayrobi şəhərində keçirilən YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Hökümətlərarası Komitəsinin 5-ci Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, YUNESKO-nun Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

5. **"Tar və Onun İfaçılıq Sənəti"** 3-7 Dekabr 2012-ci il tarixində Parisdə keçirilən YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Hökümətlərarası Komitəsinin 7-ci Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, "Tar və onun ifaçılıq sənəti" YUNESKO-nun Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

6. **"Azərbaycan Respublikasında Çovqan Ənənəvi Qarabağ Atüstü Oyunu"** 2-8 dekabr 2013-cü ildə Bakıda keçirilən YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Hökümətlərarası Komitəsinin 8-ci Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, "Azərbaycan Respublikasında Çovqan ənənəvi Qarabağ atüstü oyunu" YUNESKO-nun Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilmişdir.

7. **"Ənənəvi Kəlağayı sənəti və simvolizmi, qadın ipək baş örtüklərinin hazırlanması və istifadə olunması"** 24-28 noyabr 2014-cü il tarixində Parisdə keçirilən Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 9-cu sessiyasında YUNESKO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

8. **"Lahıcın misgərlik sənəti"** 30 noyabr – 4 dekabr 2015-ci il tarixində Namibiyada keçirilmiş Qeyri-maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 10-cu sessiyasında YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

Bundan başqa, YUNESKO-nun Ümumdünya İrsinin İlkin Siyahısına 10 abidəmiz salınmışdır. Bunlar:

1. Suraxanı, Atəşgah (1998)
2. Naxçıvan Mavzoleyi (1998)
3. Hirkan Dövlət Qoruğu (1998)

4. Binəqədi Dördüncü Dövr Fauna və Flora Ehtiyatı (1998)
5. Lökbatan Palçıq Vulkanı (1998)
6. Bakı Dağları (1998)
7. Xəzər sahili mühafizə kostruksiyaları (2001)
8. Şuşa Tarix- Memarlıq Qoruğu (2001)
9. Ordubad Tarix-Memarlıq Qoruğu (2001)
10. Şəki Xan Sarayı (2001)

Azərbaycanın iki maddi irs nümunəsi YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir: "İçəri Şəhər, Qız Qalası və Şirvanşahlar Saray Kompleksi” və "Qobustan Qaya Sənəti Mədəni Landşaftı".

Qeyd edək ki, 18-19 dekabr 2013-cü il tarixində Parisdə YUNESKO-nun Silahlı Münaqişələr Zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitəsinin 8-ci Sessiyası çərçivəsində Azərbaycanın hər iki mədəni irs nümunəsinə "gücləndirilmiş mühafizə" statusu verilmişdir [http://www.mfa.gov.az/content/556].

Bütün bunlar müstəqillik dövründə Azərbaycanın milli-mənəvi sərvətlərinin qorunması və inkişaf etdirilməsi yönündə dövlətimizin həyata keçirdiyi siyasətin nəticəsidir.

Qeyd edilməlidir ki, bugün mövcud qanunvericilik folklor nümunələrinin istifadəsi qaydalarını tənzimləsə də folklor nümunələrinin toplanması və qorunması ilə bağlı qaydaların qanunvericilik səviyyəsində tənzimlənməməsi bir çox problemlər yaradır. Folklor nümunələrini toplayan, onları sistemləşdirən və dərc edən çoxsaylı təşkilatlar və mütəxəssislər üçün ümumrespublika səviyyəli normativ hüquqi akta ehtiyac vardır.

Məlumdur ki, 2012-ci ildə Folklor İnstitutuna və onun əməkdaşlarına qarşı 400 000 manat iddialı məhkəmə işi qal-

dırılmışdır. Mütəxəssislərin, mətbuatın və hüquqşünasların uzun müddət gündəmində olmuş məsələnin məğzi bundan ibarətdir ki, folklor toplayıcısı elmi ənənəyə sadiq qalaraq söyləyicinin dediklərini olduğu kimi qeyd etmişdir. İnstitutumuzun mütəxəssislərinin və hüquqşünasların səyi ilə məhkəmə Folklor İnstitutuna qarşı yönəlmiş iddianı rədd etsə də, ictimai fikirdə və mütəxəssislər arasında bu diskussiya davam etməkdədir. Bu məsələ ilə bağlı məhkəmə presedenti olsa da, normativ tənzimləmə mexanizmi yoxdur.

## Nəticə

Nəticə olaraq qeyd etmək istəyirəm ki, müstəqillik dövründə milli dəyərlərimizin, o cümlədən folklorumuzla bağlı fəaliyyətlərin tənzimlənməsi üçün geniş qanunvericilik bazası yaradılmışdır. Bununla belə, qanunvericiliyin təkmilləşdirilməsi yönündə səylər davam etdirilməlidir.

## Qaynaqlar

Konstitusiya 1995 – Azərbaycan Respublikası Konstitusiyası. 12 noyabr 1995.

Cinayət Məcəlləsi 1999 – Azərbaycan Respublikası Cinayət Məcəlləsi. 30 dekabr 1999.

İnzibati Xətalar 2015 – Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi. 29 dekabr 2015.

AFNHQ 2003 – "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" AR Qanunu. 16 may 2003.

http://www.mfa.gov.az/content/556

# OĞUZNAMƏDƏ "ÜÇOX" VƏ ONUN ARXAİK SEMANTİKASI

**Əfzələddin Əsgər**
efzeleddinesger@gmail.ru

## UCHOKH AND ITS ARCHAIC SEMANTICS IN OGHUZNAME

SUMMARY

As is known, left military-administrative area is called *uchokh* of Oghuz state organization and epos about Oghuz, Dede Korkut Oghuznames reflect this truth. Also meaning of three-arrow was not explained till today. Researches shows us that, actually three-arrow replaces bow-arrow and two symbols are pictographic sign of birth act. It is not accidental that cosmological scheme in petroglyphs in basin of Chullud river which belongs to III Millenium BCE is described arising women, womans ancestor chain and world tree is described as bow-arrow. We know that the bow-arrow, and his substitute three arrow is symbol Umay Mother who is the patron of pregnant women and children and it lives in the beliefs of Turkic peoples of Southern Siberia till today. Symbols, which explains cosmological scheme and world order heavily used in different areas of folk culture. Such symbols expressed state attributes in the past and also today.

Bow is the symbol of power and arrow is the symbol of civil servants of Turkic state organization. But Oghuz was not the imperial state, it was confederal-type (a union of tribes) state. The right military-administrative area was ru-

ling party and left area had been dependent. Therefore right tribes is provided with bow and left tribes with arrow. The dominance of the right tribes on the left tribes is explained like that. Both characters are getting from the mythological arsenal and express cosmological order.

***Key words:*** *uchokh,* symbols, Oghuz, Umay, cosmology

**«УЧОК» В «ОГУЗНАМЕ» И ЕГО АРХАИЧЕСКАЯ СЕМАНТИКА**

РЕЗЮМЕ

Как известно левое военно-административное крыло огузской государственной организации назывался «учок» и эпос об Огуз кагане и «Книга моего Деде Коркута» отражают эту историческую истину. Наряду с этим значение «учок»а до сегодняшнего дня еще не объяснен. Исследование показало, что «учок» в действительности замещает лук и стрелу и оба символа являются пиктографическим знаком акта рождения. Не случайно, что в петроглифах, относящихся к третьему тысячелетию до нашей эры и находящихся в бассейне реки Джуллут (Монголия) космологическая схема рожающей женщины, цикл женщин-прародительниц и мировое дерево передаются в виде лука и стрелы. То что лук и стрела и замещающее их «учок» является символом или атрибутом покровительницы Умай Ана (Мать Умай) до сегодняшнего дня живут в поверьях тюркских народов южной Сибири. Отметим, что символы, обозначающие космологическую схему и мировой порядок часто встречаются в различных отраслях народной культуры. В

тюркской государственной организации лук являлся символом власти, а стрела чиновничества. Огузское государство не было империей, а являлся объединением племен конфедеративного типа. Здесь правое военно-административное крыло государства было властелином, а левое крыло зависимым. И по этому в «Огузнаме» лук как символ власти передается правым племенам, а стрела, приравненная луку левым племенам. Зависимость левых племен от правых обозначается подобным образом. Оба символа берутся из мифологического арсенала и выражают космологический порядок.

***Ключевые слова****: учок,* символ, Огуз, Умай, космология

Məlum olduğu kimi, Oğuznamədə oğuzların etnosiyasi sistemi *Buzuk* və *Uçuk* adı ilə iki siyasi-inzibati qurum kimi təqdim olunur. Həm "Oğuz kağan" dastanında, həm də bu dastanın Oğuznamə variantının Əbülqazi mətnində sözügedən siyasi-inzibati qurumların adları qeyd olunan şəkildə ifadə olunur (Kononov 1958: 49). Mətnin Z.V.Toğan tərcüməsində isə *büzük* sözü *bozoq, uçuq* sözü isə *üçoq* şəklində verilmiş və R.Şükürova da bu ənənəyə sadiq qalmışdır (Toğan 1982: 48; Rəşidəddin 1978: 61-62).

Qeyd edək ki, hərbi-inzibati sistemin birinci tərəfinin adı tarixi qaynaqlarda da, yəni VIII əsrin II yarısına aid edilən Bögü kağan abidəsində, eləcə də İbn-əl Əsir və Hafizi Abruda *buzuk* şəklində gedir (Klyaştornıy 1897: 34; Sümer 1952: 113-114; Aqacanov 1991: 186). "Oğuz kağan" dastanında Oğuz böyük oğlanlarını şərqə göndərir. Səfər zamanı onlar qızıl yay tapırlar. Oğuz qızıl yayı üç yerə parçalayıb

oğlanlarına paylayır və onların adını *buzuk* qoyur. "Oğuz kağan" dastanı yayın parçalanaraq övladlar arasında bölünməsi ilə *buzuk* adının əlaqəsindən bəhs etmir. Dastanın Oğuznamə variantında isə *buzuk* adını yayın parçalanaraq paylanması ilə əlaqələndirilir: "Siz üç böyük qardaş qızıl yay tapıb gətirdiniz və qıraraq öz aranızda bölüşdürdünüz. [Ona görə də] *Buzuk* adlanacaqsınız. Sizin gələcək nəsliniz Qiyamət Gününə qədər *Buzuk* adlanacaq" (Kononov 1958: 49). Rəşidəddin Oğuzanməsi deyilən mətndə də sözügedən ad oxşar şəkildə izah olunur (Şerbak 1959: 48). Problemin epik izahı məsələnin mahiyyətini aydınlaşdırmır. Sadəcə olaraq, burada sağ boyların, sol boylardan üstünlüyünü göstərmək üçün, irəlidə göstərəcəyimiz kimi, yayın hakim, oxun isə tabeçilik simvolikasından istifadə olunur. "Oğuz kağan" dastanı bu hadisəni dilə gətirərək deyir: "Ey kiçik qardaşlar, ox qoy sizin olsun. Yay oxu atdı. Siz oxa bənzər olacaqsınız" (Sümer 1980: 61). Dastanın Oğuznamə versiyasının Əbülqazi mətnində bu münasibətlə deyilir: "Tapıb gətirdiyiniz yay və ox insanlardan deyil, Allahdan idi. Bizdən öncəki insanlar yayı hökmdar, oxu elçi sayıblar. Bu ona görədir ki, yay oxu hansı tərəfə istiqamətləndirsə, ox ora da gedir" (Kononov 1958: 49).

Məsələyə tarixi baxımdan yanaşdıqda görürük ki, dövlətin iki hərbi-inzibati bölgəyə ayrılması türk dövlətçilik sisteminin əsas atributlarından biri olmuşdur. Hunlardan başlayaraq Göytürk, Uyğur, Qaraxanlı və s. dövlətlərdə məhz belə olmuşdur. Hərbi-inzibati bölgənin xaqanın da qərar tutduğu şərq tərəfi hakim, yabğunun qərar tutduğu qərb tərəfi isə ondan asılı idi. Bununla yanaşı, siyasi hakimiyyətin xaqan ailəsindən olan varisləri dövlətin şərqində yerləşən

bölgələrin hakimi olurdular. Bununla yanaşı, siyasi hakimiyyətin təmsilçisi xaqan idi və yay da siyasi hakimiyyətin təmsilçisi olan xaqana məxsus idi. Sülalə mənsubu olan bölgə hakimlərinə hakimiyyət haqqı xaqan tərəfindən verilirdi və bu haqq simvolik olaraq onlara paylanan oxlarla ifadə olunurdu. 635-ci ildə Qərbi Göytürk xaqanı Işbara Tolis xanşad gücünü itirərək *dulu* və *nuşibi* tayfalarına söykənmək məcburiyyəti qarşısında qalır və beş *dulu* və beş də *nuşibi* tayfasına özünüidarə haqqı tanıyır. Bu münasibətlə onların başçılarının hər birinə ox bağışlayır və bununla da onları sülalə mənsubları ilə eyniləşdirir (Qumilyov 1993: 213).

Buradan görünür ki, dövlətin həm şərq, həm də qərb qanadına mənsub bölgə hakimlərinin idarə haqqı ox ilə simvollaşdırılır. Bununla belə, Oğuz dövləti imperiya deyil, boyların konfederasiyasından ibarət bir dövlət idi və burada hər bir boyun özünüidarə haqqı vardı və bu baxımdan hər bir boy bir oxla özünüidarə haqqına sahib olmalı idi. Bununla yanaşı, Çin qaynaqlarının türklərin oxlara görə bir sıra zümrələrə ayrılması haqqında verdiyi məlumat da nəzərə alınsa (26, 306), onda əsas boylara verilən ox fərqlənməli idi. Bu baxımdan Oğuz haqqında dastanda boyların *boz ok*, *üç ok* şəklində təsnifi tamamilə təbiidir. Ancaq Oğuz haqqında dastan siyasi hakimiyyətin sağ qoldan olan boya/boylara çatdığını vurğulamaq üçün *Boz ok* adını yayla pərdələyir. Yəni “parçalanmış” (yay) şəklinə salır.

*Boz* və onun variantı olan bur-pur kökünün törəmələri olan sözlər mübarək (sakral) anlam daşıyan varlıq və məfhumları ifadə edir. L.Potapovun bu məsələ ilə bağlı araşdırması mövcuddur (Potapov 1935: 134-151). Bununla belə, mövzunun geniş araşdırmaya ehtiyacı olduğunu qeyd etmək

lazımdır. Hər halda *boz* sözü *ok* sözünün önündə işlənməklə etnosiyasi sistemin bu özəyinin üstün mövqeyini göstərir.

Hərbi-inzibati sistemin sol qanadının adı olan üç ok barədə elm aləmində heç bir fikir yoxdur. Araşdırıcılar məsələnin Oğuznamə yozumu ilə kifayətlənir: Oğuzxan üç oxu üç qardaş arasında payladı. Vəssalam! Məsələnin epik yozumu ilə kifayətlənmək olardı. Ancaq tarixi qaynaqlarda bəzi faktlarla qarşılaşarkən istər-istəməz dayanmalı olursan. Məsələn, səlcuqluların başçısı Arslan yabğu Sultan Mahmud Qəznəvi ilə görüşərkən sadağında üç ox olmuşdur (Köymen 1989: 85-86). Qəznəli tarixçi Beyxaninin verdiyi məlumata görə, Dandanakan savaşından sonra hələ yabğu mövqeyində olan Toğrul bəy Nişapur şəhərinə girib Sultan Məsudun taxtında oturarkən qolunda gərilmiş bir yay, kəmərində üç ox olmuşdur. Məsələyə diqqət yetirən F.Sümer üç oxun mütləq şəkildə yabğuluq simvolu olduğunu bildirir (Sümer 1952: 68, 86). Qarşıya qoyduğumuz problem də elə bundan ibarətdir. Görəsən, hansı səbəbdən üç ox yabğuluq əlaməti sayılmışdır? Bu, bir təsadüfdür, yoxsa arxaik şüurda bəlli bir anlamı olmuşdur? Bu məsələnin izahı türk dövlətçilik simvolikasının qaynaqları haqqında müəyyən bir təsəvvür yarada bilər.

Yay-ox türk mifoloji inanışlarının mərkəzi personajlarından biri olan Umayın əsas atributu və ya simvolu sayılır (Dırenkova 1928: 134-139; Butanaev 1984: 93-105). O, hamilə qadınların və yeni doğulan uşaqların hamisidir. Uşaq ruhu onun əlindədir və bu ruhu/ruhları Umay Tasxıl dağında saxlayır. Bu üzdən ağacdan düzəldilmiş kiçik yay-ox xakas və altaylıların inanclarında Umayın təmsilçisi kimi uşağın beşiyinin üzərinə asılır və bu yay-oxun uşağı qoruyacağına

inanılır. Xakaslarda yaya bərkidilən oxun üç ucluğu olurdu (Butanaev 1984: 103). Bununla bərabər, *uşaq yoldaşı* basdırılarkən oğlan uşağının "yoldaşının" yanına üç ox və ya yay-ox, qız uşağınınkına isə qayçı, iy, muncuq qoyurlar (Dırenkova 1928: 139; Butanaev 1984: 103). Fikrimizcə, burada üç ox, yay-ox (və ya üç ucluğu olan ox) eyni funksiya yerinə yetirir və irəlidə görəcəyimiz kimi, semantikasına görə də adekvat anlam daşıyır. İ.L.Kızlasov yay-oxun semantikasından bəhs edərkən yayı qadın, oxu isə kişi başlanğıcı təmsil etdiyini bildirir. Məsələyə belə münasibət Y.S.Xudyakovun haqlı tənqidinə məruz qalmışdır (Xudyakov 2004: 102-111). Məsələyə başqa şəkildə yanaşan müəllif yay-oxun qədim və orta əsrlərdə özünü göstərən simvolik xüsusiyyətlərindən bəhs edir.

Məsələyə keçməzdən öncə Umayın türk mifologiyasında tutduğu yer barədə bəzi qeydlər etmək istərdik. Umay qədim türklərin mifoloji inanışlarında İlahi Ana, İlk Ana və ya Ulu Ana şəklində ifadə edə biləcəyimiz tanrının inanclarda (və folklorda) özünü göstərən təzahür şəkillərindən biridir. Qadın kimi təsəvvür olunan bu ilahənin adı hələ qədim türk yazılı abidələrində çəkilir və uşaq ruhunun yiyəsi və boylu qadınların qoruyucusu kimi bu günə qədər bəzi türk xalqlarının (xakas, altaylı, qırğız, özbək və s.) inanclarında yaşamaqdadır. Dünyanın bir çox xalqlarında olduğu kimi qədim türklərdə də İlk Ana çoxfunksiyalı olmuşdur. İlk Ana dediyimiz tanrıdan qoparaq differensiallaşmış və bu zaman qopduğu bütövün, əsas etibarilə, uşaq ruhunun yiyəsi və uyğun olaraq boylu qadınların qoruyucusu funksiyasını mənimsəmişdir. Bununla yanaşı, Umay bu funksiyanı daşıyan yeganə tanrı deyil. Türk xalqlarının inanclarında paralel

funksiya daşıyan başqa mifoloji personajlar da mövcuddur və onlar da eyni funksiyanı Umayın mənimsədiyi qaynaqdan götürmüşlər. Bununla yanaşı, ortada İlk Ananın Umayda olmayan atributlarını və ya mifoloji funksiyasını daşıyan çoxsaylı personajlar mövcuddur.

Artıq deyildiyi kimi, yay-ox türk inanclarında bir çox mənalarda yozulur. Ancaq biz bu yazıda mücərrəd yozumlara meydan vermək fikrində deyilik. Umay türk xalqlarının inanclarında doğum və ya törəmə ilahəsidir. Yay-ox isə Umayın simvolu olduğu üçün onun doğum aktını simvolizə etdiyini asanlıqla söyləmək mümkündür. Bu fikir sadəcə məntiqə əsaslanmır və ortada onu təsdiq edəcək bir sıra faktlar mövcuddur.

Əcdadlarımızın qədim yurd yerlərindən biri olan Monqolustanda – Ulan-Batırdan 700 km şimalda yerləşən Çullut çayının orta axarlarında qayaüstü rəsmlər (petroqlif) mövcuddur. E.A.Novqorodova bu qayaüstü rəsmlərin eradan əvvəl III minillikdən o tərəfə getmədiyini söyləyir (Novqorodova 1989: 90). Qayaüstü rəsmlər Çullut çayının gözdənuzaq yerlərindədir. Bunu nəzərə alan E.A.Novqorodova buranın qədim mərasim məkanı olduğunu söyləyir. Sözügedən petroqliflər, antropomorf, eləcə də zoomorf cizgilərə malik antropomorf təsvirlərdən ibarətdir. Qarşıya qoyduğumuz məqsədə uyğun olaraq biz diqqətimizi qadın təsvirləri üzərində cəmləmək istərdik.



**Şəkil №1**



**Şəkil №2.**

E.A.Novqorodova qadın təsvirlərindən bəhs edərkən yazır ki, onlar düzbucaqlı formada olub geniş açılmış, dizdən qatlanmış ayaqları ilə doğan qadını təqlid edən bədən hissələrinə bölünür. Əgər təsvirin ayaqları göstərilirsə, onda bu ayaqlar üç barmaqdan ibarətdir, qolları göstərilirsə, onda onlar yuxarıya qalxır və əllər üç barmaqlı olur. Ardınca müəllif bu təsvirləri aşağıdakı şəkildə qruplaşdırır:

“Başında buynuz və ya ardıcabənzər simvollar, ehtimal ki, buynuzu ifadə edən təsvirlər.

Başları rombşəkilli üçkünc papaqlı təsvirlər.

Bəzilərində iki nöqtə ilə döşləri göstərilir. Təsvirlərin ən çoxu bu qrupa aiddir.

Yumrubaşlı təsvirlər. Bu qrup öncəki qrupa yaxınlaşır və onlar arasında bir çox hallarda fərq qoymaq olmur.

Başsız təsvirlər: düşünmək olar ki, onların başları olub. Ancaq silinərək itib” (Novqorodova 1989: 96-98).

Qeyd edək ki, petroqliflər içərisində qadın təsvirlərinə bənzəyən kişi təsvirləri də mövcuddur. Ancaq qadın təsvirlərindən fərqli olaraq kişilər yandan təsvir olunur. Onların yuxarıya qalxmış üç barmaqlı əlləri var. Bir ayağı yuxarıya qalxmış və dizdən qatlanmış vəziyyətdə göstərilir. Ən nəhayət, cinsiyyət işarəsi verilir (Novqorodova 1989: 101).

E.A.Novqorodova göstərir ki, burada canlı insan yox, tanrı təsvir olunur. Müəllifə görə, doğan qadın təsvirləri simvolikdir və onlar İlk Ana dediyimiz tanrını ifadə edir (Novqorodova 1989: 95, 99, 101 və s.). İlk Ana və ya Ulu Ana olan bu qadın doğum və törəmə kultunu təmsil edir. Müəllif onun şaman ola biləcəyinə də yer qoyur (Novqorodova 1989: 101). Araşdırıcı doğan qadın təsvirinin çoxpilləli şəkillərinə diqqət yetirir və burada bir neçə nəsil qadın əcdad ideyasının verildiyini göstərir.



**Şəkil №3.**

Ardıca bənzər təsvirləri də müəllif bu ideyanın ifadəsi sayır. Müəllifin interperetasiyasından belə məlum olur ki, burada qadın əcdadlar silsiləsi və "dünya ağacı" izomorf şəkildə verilir (Novqorodova 1989: 108). Bəzi araşdırıcıların qabırğaya bənzətdiyi çoxpilləli piramida doğan qadın təsvirlərində də əks olunur. Maraqlıdır ki, onlara bənzər təsvirləri müəllif şaman kaftanında və davulunda da tapır (Novqorodova 1989: 108). Müəllifin sözügedən pektoqriflərin semantikası ilə bağlı fikirləri həqiqəti əks etdirir. Ancaq fikrimizcə, bu petroqlifin semantikası ilə bağlı bir məsələ müəllifin nəzərindən yayınmışdır. Söhbət həndəsi fiqurlar şəklində verilən doğan qadın təsvirinin əllərinin və ayaqlarının üç barmaqlı olmasına onun verdiyi izahdan gedir. Müəllifin də qeyd etdiyi kimi, təsvirin əllərindəki üç barmaq ruhun simvolu olaraq quşu ifadə edir (Novqorodova 1989: 109-110). Məsələ bundadır ki, bu təsvirlərin bir çoxunda doğan qadının ayaqları da üç barmaqlıdır və üç çıxıntı, müəllifin də qeyd etdiyi kimi, papağında da var. Müəllif sonuncunun buynuz olduğunu güman edir (Novqorodova 1989: 101) və qeyd etmək lazımdır ki, araşdırıcı burada yanılmayıb.

Üçbuynuzlu qadın təsvirləri və heykəlləri dünyanın bir çox bölgələrində aşkarlanmışdır və tipoloji xarakter daşıyır. Ancaq tarixən türklərin yaşadığı bölgələrdə (konkret olaraq Jetisuda) tapılmış daş heykəllərdəki üçbuynuz papaqlı təsvirlərin Soqd üslubuna bənzər şəkildə verildiyini nəzərə alan S.M.Axinjanov bu üslubun Soqd məktəbindən mənimsənildiyni düşünsə də, mərasim simvolikası daşıyan üçbuynuzlu papağın türklər arasında da yarana biləcəyini söyləyir. Müəllif bu fikri təsdiq edəcək çoxsaylı faktlar sadalayır və bu təsvirlərin tarixi baxımdan tunc dövrünə gedib çıxdığını,

yəni Çullut vadisindəki təsvirlərlə yaşıd olduğunu dilə gətirir (Axinjanov 1978). Üçbuynuzlu ilahənin türklər arasında mövcudluğunu təsdiq edən başqa faktlar da mövcuddur.



**Şəkil 4.**

N.P.Dırenkovanın yazıya aldığı merkit boyunun çarqa tirəsinin əcdadı olan Tudraş haqqında rəvayətdə deyilir: "Tudraş ov zamanı yolu azdı və içində bir qarı oturan yurda gəldi. Qarı onu yedirdib yola saldı və dedi ki, o, gələn il qonur atın doğacağı səmənd dayı ona qurban gətirsə, onun boyunun dövləti artacaq. Ovçu şərtə əməl elədi. O vaxtdan merkitlərin dövləti artdı, sayı çoxaldı. Bu qarı *Üç Mustu Bay Onı*, yəni üç buynuzlu *Bay Onı* adlanır və merkitlər üç ildən bir ona səmənd at qurban verirlər" (Dırenkova 1926: 247-248).

Q.V.Dlujnevskaya bu adın *Bay Onı* hissəsinin *bay änä*, sonuncunun isə Umay adının variantı olan *may-änä* adı olduğunu düşünür (Dlujnevskaya 1974: 230-237). Müəllifin məsələyə bu şəkildə yanaşması bir çox alimləri, o cümlədən bu

sahənin tanınmış mütəxəssisi olan L.P.Potapovun haqlı tənqidinə məruz qalmışdır (Potapov 1991: 294-297) Məsələ bundadır ki, *bay änä* təkcə Umayın yox, bütün yaxşı qadın tanrıların ümumi adıdır və bu söz həm də *cəm* şəklində işlənir. Bununla yanaşı, *may änä* adlı *bay änä* adını deyil, *umay* adının ifadə şəkillərindən biridir (Potapov 1991: 295-296). Maraqlıdır ki, L.P.Potapov bu personajın əfsanəvi olduğunu və merkitlərin belə bir tanrıya qurban vermədiklərini söyləyir (Potapov 1991: 296). Əlbəttə, L.P.Potapovun Q.V.Dlujnevskaya ilə mübahisəsinin səbəbi tamamilə başqadır və biz burada bu məsələni geniş şəkildə açıqlamağa ehtiyac duymuruq. Bizi burada maraqlandıran ilahənin *üçbuynuzlu* olmasıdır. N.Dırenkovanın verdiyi mətndə söhbət hər hansı bir etnoqrafik faktdan yox, nə vaxtsa mövcud olmuş inanc haqqında rəvayətdən gedir. Buna baxmayaraq, boyun varlanmasına və nəslinin çoxalmasına səbəb olan ilahənin *Onı* olması və onun *üç buynuzlu* olması faktı inkarolunmazdır. Qeyd edək ki, kök etibarilə Ulu Anadan törəyən və müstəqil mifoloji personaj olaraq yaşayan onlarla belə personajların inanc dövriyyəsindən çıxaraq unudulmasına heç bir şübhə ola bilməz. Ancaq başqalarından fərqli olaraq *Bay Onı* xoşbəxtlikdən əfsanənin yaddaşında ilişib qalmışdır. Maraqlıdır ki, *üçbuynuzlu* qadın personaj haqqında A.V.Anoxin də məlumat verir. Müəllif göstərir ki, *şamanlar mərasimdə* alaçığın altı payasının, uşaqların, heyvanların və quşların qoruyucusu *Üç Mustu Kara Kayanın* adını çəkirlər (Anoxin 1924: 130).

*Üçbuynuzlu* totem personaj şaman inanclarında da özünü göstərir. A.V.Anoxin Altay şamanının davulunda *pura* adı ilə verilən qoçun üçbuynuzlu təsvir olunduğunu göstərir. Müəllif qeyd edir ki, şaman davulunda həmişə üçbuynuzlu

qoç təsvirinin sayı üçdür, yəni üç pura təsviri verilir (Anoxin 1924: 61). L.P.Potapov üç buynuzun işarəviliyini başa düşə bilmir. Ona görə də o təsvirin buynuzu şivli olan maral ola biləcəyini söyləyir (Potapov 1935: 136). Ancaq Altay şamanı ruhlara müraciət edən zaman açıq-aydın şəkildə *üç buynuzlu qara bura*nın adını çəkir (Dırenkova 2012: 210). Maraqlıdır ki, qırğızların buqu tayfası özlərinin qadın əcdadlarına buynuzlu baybiçe (müyüzdüy baybiçe) və ya buynuzlu ana (müyüzdük ene) deyirlər. Bu barədə olan əfsanədən məlum olur ki, o maralların və ya ceyranların yiyəsidir və o yeri gələndə marala çevrilir (Abramzon 1971: 281-284).

Yuxarıdakı qeydlərə əsaslanıb söyləmək olar ki, üç-buynuzlu qadın personaj türk inanclar aləminə yad deyil. Araşdırıcılar üçbuynuz papaqlı qadın təsvirlərinin doğum, törəmə, balalama, yaxud da artıb çoxalma kultu ilə bağlı olduğunu söyləsələr də, onun üç buynuzla işarə olunması və bu işarənin semantikasının üzərindən sükutla keçirlər. Fikrimizcə, sözügedən işarənin semantikasını Çullut çayı vadilərindəki petroqliflərdə verilən Ulu Ana təsvirinə söykənərək anlamaq mümkündür.

Artıq deyildiyi kimi, qayaüstü rəsmlərdə doğan qadın doğum aktının gerçəkləşməsi şəklinə uyğun olaraq ayaqları aralanmış və dizləri yarıdan bükülmüş vəziyyətdə təsvir olunur. Ortada əksər hallarda dizdən bükülmüş ayaqlara paralel olaraq dölün dünyaya gəlişi işarəsi verilir. İki ayaq və bir dölü ifadə edən bu işarə, ümumiyyətlə, doğum və ya törəmə simvoluna çevrilir və doğum və törəmə kultu ilə bağlı mifoloji personajların ifadəsinə və ya atributuna çevrilir. Düşünmək olar ki, doğan qadının əllərinin yuxarıya qalxmış şəkildə verilməsi yuxarı ətrafın iki ayaq və bir döldən ibarət olan

aşağı ətrafa bənzədilməsindən başqa bir şey deyil. Nəzərə alsaq ki, burada gerçək insan yox, doğum və törəmə kultunu ifadə edən ilahə və bu müstəvidə kosmoloji sxem verilir, onda bu yozum qəribə görünməz. Doğan qadının əllərinin və ayaqlarının üçbarmaqlı olması ilahənin əllərinin və ayaqlarının törəmə işarəsi ilə verilməsi kimi izah olunur. Eyni hadisə onun başındakı üç buynuza da aiddir. Buradan ilahələrin üçbuynuzlu papaqla təsvir olunmasının mifoloji semantikası ortaya çıxmış olur. Bəlli olur ki, bu hadisə doğum və törəmə işarəsinin üç buynuz şəklində ifadəsidir. Sadəcə olaraq burada antromorf personaj yerini tutduğu totem personajın atributunu daşıyır. İstər Çullut, istər başqa bölgələrdə Dünya Ağacı, əsas etibarilə, bu prinsiplə təsvir olunur. Yəni düz xətt üzərində "ardıcabənzər" şəkildə verilir.



**Şəkil №5.**

E.A.Novqorodovanın qeyd etdiyi kimi, "ardıcabənzər təsvir yer aləmini göy aləmi ilə birləşdirən "həyat ağacını" qadın, həmçinin qadın əcdadlarla əlaqəni simvollaşdıra bilər" (Novqorodova 1989: 108).

Demək lazımdır ki, müxtəlif cür verilən üçdişli və semantik baxımdan eyni ideyanı ifadə edən haça şəkilli işarələr uğur, xeyir-bərəkət simvolu kimi türk boylarının tam-

ğalarında, dekorativ sənət örnəklərində, geyim naxışlarında, xalçalarda və s. geniş şəkildə işlənir.

Qeyd edək ki, Çullut çayı vadisindəki doğan qadın təsviri həm də yay-oxa bənzər şəkildə verilir. 3 №-li şəkildə bu aydın şəkildə görünür. Burada dünya ağacı, qadın əcdadlar silsiləsi (silsilə arası iki nöqtə bütün təsvirlərdə qadın cinsini göstərir) ardıcıl düzülən yay-oxa bənzədilir.

Yay-oxun mifoloji inanışlarda, şamançılıqda geniş yer tutması elmə bəllidir. N.N.Yerafeeva davuldan öncə Altay şamanının yay-oxla mərasim aparması kimi elmə məlum olan faktı xatırladaraq Altay şamanının davulunun üzərində verilən kosmoloji sxemin yay-oxla ifadəsinə diqqət yetirir (şəkil №6) və təsvirindəki kosmoloji sxemin simvolikasından bəhs edir (Luk 1998: 75-77). Davulun üzərindəki yay-ox təsvirinin Çullut petroqliflərindəki doğan qadın və ya qadınlara bənzədiyini nəzərə alsaq, bizim Çullut petroqliflərini yay-oxa bənzətməkdə yanılmadığımıza əmin olmaq olar.

Məsələnin detallarına varmadan onu qeyd etmək istərdik ki, doğum aktı ilə yay-oxun piktoqrafik bənzərliyi qədim insanın şüurunda yay-oxun kosmoloji anlamı ilə doğum və törəmə simvoluna çevrilməsinə səbəb olmuşdur. Ona görə də Çullut petroqlifində dünya ağacı, qadın əcdadlar silsiləsi yay-ox şəklində verilir. Yay-oxun doğum və uşaq hamisi Umayın simvolu olması qədim təsəvvürün bu günə qədər yaşadığını göstərir.



**Şəkil №6.**

Umay haqqında inanışlardan bəhs edərkən üç oxun yay-oxu əvəz etməsindən bəhs olunurdu. Məlum oldu ki, onların hər ikisi oxşar semantika daşıyır. Bununla yanaşı, bu iki simvola türk dövlətçilik sisteminin təbiətinə uyğun şəkildə məna verilir. Dövlətin tipindən asılı olaraq yay xaqanı (və ya Oğuznamədə olduğu kimi, siyasi hakimiyyətə haqqı çatan sağ boyları), ox isə siyasi hakimiyyətin paylanmasını ifadə edir və bölgə bəylərinə və ya xanlarına verilir. Xaqana məxsus olan yay və paylanan oxlar bir yerdə dövlət təşkilatlarını ifadə edir.

Bəlli olduğu kimi, dövlətin sol hərbi-inzibati idarəetmə bölgəsi mərkəzi hakimiyyətdən asılı vəziyyətdə idi. Bu bölgə də, adətən, xaqanın qardaşına çatırdı. Qardaşlar və ya yaxın qohumlar qurulmuş yeni dövlətdə siyasi hakimiyyəti bu

şəkildə bölüşdürürdülər. Bununla yanaşı, sol hərbi-inzibati bölgəyə sahib olan qardaşın və onun törəmələrinin mərkəzi hakimiyyətin başına keçmək haqqı yox idi və bu haqq yalnız xaqan soyundan gələnlərə verilirdi. Bununla yanaşı, sol hərbi-inzibati bölgə gücünə görə heç də sağ bölgədən geri qalmırdı və bura türk dövlət sisteminin ən zəif həlqəsi idi. Təsadüfi deyil ki, türk dövlətlərində parçalanma və ya dağılma öncə bu nöqtədə baş verirdi. Ona görə bölgə bəylərinə və xanlarına bir ox verildiyi halda, bir tərəfdən asılılıq, başqa tərəfdən yay-ox simvoluna bərabər olan üç ox verilir və hər iki simvol mifoloji təsəvvürlə bağlı ənənəvi düşüncədən götürülür. Onların hər ikisi kosmoloji nizama uyğun olaraq bir xalqın yaranışını, yəni dövlət olaraq doğuluşunu ifadə edir.

Siyasi təsisat doğum simvolları ilə ifadəsi qəribə görünməməlidir. İş ondandır ki, Orxan aidələrində dövlətin yıxılması xalqın ölümü kimi dəyərləndirilir (Toğan 1982: 121). V.V.Bartold buna təəccüb etsə də, onu yozmağa cəhd edərək yazır: "Əslində siyasi çöküş bir yox olmadır: kişilər öldürülür, qadınlar və qızlar əsir olunur, kağan və imperator artıq mövcud deyildir; imperatorluq baxımından artıq həyat bitmişdir" (Ru 1999: 84). Beləliklə, siyasi çöküş ölüm kimi dəyərləndirilirsə, onda yaranmış siyasi təsisatın doğum işarəsi ilə ifadəsi tamamilə təbiidir. Deməli, ənənəvi təsəvvürdə mövcud olan kosmoloji anlamı ilə doğum və törəmə simvolu siyasi-təsisatın yaranması ilə yeni məna qazanır və siyasi baxımdan doğulmanın və siyasi mövcudiyyətin simvoluna çevrilir. Bununla yanaşı, siyasi təsisatın ilahi nizamla yaranmasını ifadə edir.

**Qaynaqlar**

Abramzon 1971 – Абрамзон С.М. Киргизы и их этногенетические и историко-культурные связи. Ленинград: Наука, 1971, с.281-284

Axinjanov 1978 – Ахинжанов С.М. Об этнической принадлежности каменных изваяний в “трёхрогих” головных уборах из Семиречья // Археологические памятники Казакстана. Алма-Ата, 1978, с.65-79.

Aqacanov 1991 – Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. Москва: Наука, 1991

Anoxin 1924 – Анохин А.В. Материалы по шаманству у алтайцев, собранные во время путешествия по Алтаю 1910-1912 гг. поручению Русского комитета для изучения Средней и Восточной Азии. СМАЕ, 1924, Т. IX, вып.2.

Butunaev 1984 – Бутанаев Б.Я. Культ богини Умай у хакасов // Этнография народов Сибири. Новосибирск, 1984, с.93-105

Dırenkova 1928 – Дыренкова Н.П. Умай в култье турецких племен / Культура и писменность Востока. Кн. III, Баку, 1928, с. 134-139

Dırenkova 1926 – Дыренкова Н.П. Род классификационная система родства и брачные нормы у алтайцев и телеут // Материалы по свадбе и семейно-родовому строю народов СССР, вып. I, Ленинград., 1926, с.247-248

Dırenkova 2012 – Дыренкова Н.П. Тюрки Саяно-Алтая. Статьи и этнографические материалы. СПб.: МАЕ РАН, 2012

Dlujnevskaya 1978 – Длужневская Г.В. Ёщё раз о «Кудыркинском Валуне» (К вопросы об иконогрофии Умай у древных тюрков) // Тюркологический сборник, 1974, Москва, 1978, с.230-237

Xudyakov 2004 – Худяков Ю.С. О символике стрел древних и средневековых кочевников Центральной Азии Этнографическое обозрение. № 1, 2004, с. 102-111.

Ru 1999 – Jean Paul Roux. Altay Türklərində Ölüm. İstanbul: Kabalci Yayınevi, 1999

Klyaştornıy 1987 – Кляшторный С.Г. Надпись уйгурского Бегю-кагана в Северо-Западной Монголии // Центральная Азия: новые памятники письменности и искусства. Сборник статей. Москва: Наука, 1987, с.19-37.

Kononov 1958 – Кононов А.Н. Родословная туркмен. Сочинение Абу-л-Гази хана Хивинского. Москва - Ленинград: Издательство АН СССР, 1958.

Köymen 1989 – Köymen M. Büyük Selçuklu İmparatorluğu Tarihi. C. I. Ankara: Türk Tarih Kurumu Basımevi, 1989.

Qumilyov 1993 – Гумилев Л.Н. Древные тюрки. Москва, 1993.

Luk 1998 – Лук // Мифы народов мира. Т.2, Москва: Олимп, 1998, с.75-77.

Novqorodova 1989 – Новгородова Э.А. Древняя Монголия (некоторые проблемы хронологии в этнокультурной истории). Москва: Наука, 1989.

Potapov 1991 – Потапов Л.П. Алтайский шаманизм. Ленинград: Наука, 1991.

Potapov 1935 – Потапов Л.П. Следы тотемических представлений у алтайцев // Советская этнография, 1935, № 4-5, с.134-151.

Rəşidəddin 1987 – Рашид-ад-Дин Ф. Огуз-наме. Баку: Элм, 1987

Sümer 1952 – Sümer F. Dede Korkut Kitabına Dair Bazı Mülahazalar // Türk Folkloru Araştırmaları, 1952, sayı 30, s.467-472

Sümer 1980 – Sümer F. Oğuzlar (Türkmenler). İstanbul: Ana Yayınları, 1980.

Şerbak 1959 – Щербак А.М. Огуз-Наме, Мухаббат-Наме. Москва: Издательство Восточной Литературы, 1959.

Toğan 1982 – Togan Z.V. Oğuz Destanı. Rəşideddin Oğuznamesi, tercüme ve tahlili. İstambul: Enderun Kitabevi, 1982.

Tonyukuk 1993 – Tonyukuk (qərb sətir 3) / Ə.Rəcəbov, Y.Məmmədov. Orxon-Yenisey abidələri. Bakı: Yazıçı, 1993.

Turan 1945 – Turan O. Əski Türklerde okun bir sembol olarak kullanılması \\ Türk Tarih Kurumu. Belleten. C.IX. sayı 35, 1945.

# TÜRK DÖVLƏTÇİLİK ƏNƏNƏSİNDƏ ƏJDAHA VƏ ASLAN (BARS) SİMVOLLARI VƏ ONLARIN DİNİ-MİFOLOJİ KÖKLƏRİ

**Elçin Abbasov**
elcinabbasov@yandex.ru

## THE SYMBOLS OF DRAGON AND LİON IN TURKIC STATEHOOD TRADITION AND THEIR RELIGIOUS-MYTHOLOGICAL ROOTS

SUMMARY

The dragon and lion take a special place in the symbol of state, authority and military of Scythians, Huns, ancient Turk and Mongolians in Central Asia. The dragon and lion emblem are found in the drawings dealing with the political and military themes on the numerous material culture samples belonging to the ancient period and Middle Ages discovering in China, Mongolia, Central Asia, Iran, Ural, Balkans. In this article the meaning in Turkish statehood and military traditions of those symbols is analyzed dealing with the folklore and mythological outlook of Turks.

## СИМВОЛЫ ДРАКОНА И ЛЬВА В ГОСУДАРСТВЕННОЙ ТРАДИЦИИ ТЮРКОВ И ИХ РЕЛИГИОЗНО-МИФОЛОГИЧЕСКИЕ КОРНИ

РЕЗЮМЕ

Дракон и лев занимают особое место в государственной, военной, иерархической символике скифов, гуннов, древних тюрок и монголов в Центральной Азии. Эмблема дракона и льва встречается на рисунках по по-

литической и военной тематике на многочисленных образцах материальной культуры, относящихся к древнему и раннему периоду средневековья в Китае, Монголии, Центральной Азии, Иране, Урале, Балканах. В этой статье анализируется значение этих символов в тюркской государственной и в военных традициях в контексте фольклора и мифологического мировоззрения тюрков.

## Əjdaha simvolu

Skif, hun, qədim türk və monqol-mancurların dövlət, hakimiyyət və hərb simvolikasında geniş yer alan simvollardan biri əjdahadır. Çində, Monqolustanda, Orta Asiyada, Uralda, Balkanlarda aşkarlanmış antik dövr və orta əsrlərə aid olan çoxsaylı maddi mədəniyyət nümunələri üzərində, siyasi və hərbi tematika ilə bağlı təsvirlərdə əjdaha embleminə rastlanmaq mümkündür. O.Sovetova və A.Muxareva-nın təbirincə desək, əjdaha qorxu təcəssümü kimi hərbçilərin uzun müddət populyar emblemi olmuşdu [Sovetova – Muxareva 2005: 98-99].

Hələ qədim yunan tarixçisi Flavi Arrian yazırdı ki, skiflərin hərbi işarəsi müəyyən uzunluqda dirəklərə taxılmış əjdahalardır. Bu əjdahaları rəngbərəng parçalardan tikirlər, özü də çalışırlar ki, başından quyruğunadək mümkün qədər qorxunc bir ilana oxşasın. Atlar bir yerdə duranda yalnız aşağı sallanan rəngbərəng parcalar görürsən. Amma elə ki, atlar hərəkətə gəlir, onların içinə hava dolur və onlar, həqiqətən də, dediyimiz heyvana oxşayır. Bununla yanaşı, bayraqlara dolan hava təzyiqlə onun ortasından keçdikdə vıyıltı da salır [Arrian 2010: 167-168]. Əjdahayabənzər və ya əjda-

ha təsvir edilmiş bayraqlara sonralar turk və monqollarda geniş rast gəlinir. Orta əsrlərə aid Rodzivil salnamələrindəki təsvirlərdə xəzər və qıpçaq döyüşçülərin əllərində əjdahaya-bənzər bayraqlar tutduqlarını görə bilirik.





Çində monqol imperiyası dövründə əjdaha ali hakimiyyət simvolu kimi dövlət atributlarında yer alan əsas təsvir idi. “Men-da bey-lu”da hələ Çingiz xanın şimal varvarlarının əjdaha başları ilə bəzədilmiş taxtında oturduğu barədə məlumat verilir [Men-da bey-lu 1975: 76]. Müxtəlif rəngli əjdaha təsvirləri Min və mancur Tsin imperiyasında dövlət bayraqlarında təsvir edilirdi. Səlcuk sultanının önündə addımlayan bayraqdarların əlində tutduğu ştandartlarda qara fonda əjdaha, şir və ya ikibaşlı qartal təsvir olunurdu.

Avropa və rus mənbələrinə görə, əjdaha Kazan çarlığının (1552-1708) gerbində əks olunmuşdu. Buxara xanlarından II Ubaydulla xanın 1707-ci ildə Bəlxə yürüşü zamanı “Böyük buncuk” (tuğ) və “əjdaha kimi bayraq” açdığı haqqında məlumata malikik [Hafizi-Tanış 1989: 209].



**At yalına bağlanan əjdaha təsvirli bəzək əşyası.**
**Avropa hunları, V əsr.**



**Kazan xanlığının bayrağı.**



**Kazan çarlığının gerbi.**

 

**Səlcuqlulara aid oymalarda qrifon və əjdaha təsvirləri (XI-XIII əsrlər).**

Bilirik ki, qədim Çində imperator əjdahanın ipostaslarından biri sayılırdı. Əjdaha imperator ailəsinin simvolu idi. Elmi qənaətə görə, əvvəlcə Çində əjdaha ilə bağlı təsəvvürlər su və yağış tanrısı ilə əlaqəli olmuşdur. Çin mifologiyasında əjdaha məhsuldarlıq və bərəkəti təcəssüm etdirən bir obraz idi.

Ehtimal etmək olar ki, əjdaha hunlarda da səma tanrısının ipostası olmuş və onların mifologiyasında mühüm yer tutmuşdu. Nain-Uladakı hun xaqan kurqanlaranda ipək parçalar, xalılar, bəzək əşyaları və s. üzərində çoxsaylı əjdaha təsvirləri mövcuddur. Bəzilərinə görə bu tikmələr Çinə aiddir. Amma bu, hunlarda əjdaha obrazı ilə bağlı təsəvvürlərin olmadığı demək deyildir.

Əjdahanı qədim türklər lu, yılan, barac, naqa/nek, böke/büke, yelbuka və s. adlandırırdılar. Hətta bəzi araşdırmaçılara görə kai/qayı və buran türk-monqol tayfalarının adı da "əjdaha" demək idi.



**İpək parça üzərində əjdaha təsviri.**
**Nain-Uladakı hun xaqan kurqanı.**



**XIII əsrə aid sarayın çardağı üstündə əjdaha təsviri. Tuva.**



**Hun məzarından tapılmış sümük əşya üzərində əjdaha təsviri. Buryatiya.**

Türk xalqları mifologiyasında göy və yer əjdahaları fərqləndirilir. Bundan başqa əjdaha bir, üç, yeddi, səkkiz başlı göstərilə bilər. Əksər Uzaq Şərq xalqlarında, eləcə də

qədim türklərdə əjdaha xeyirxah qüvvələrin təmsilçisi idi. Görünür hunların, oğuz və qıpçaqların təsəvvüründə əjdaha yalnız “günahkarları” və düşmənləri cəzalandıran bir mifoloji varlıq olmuşdur. Rəşidəddin “Oğuznamə”sində deyilir: “O zamanlar Div qayası adlı yüksək bir dağın ətəyində əjdaha vardı. Bu dağın ətəyində Əndək alı çox geniş bir düzənlikdə üç dənə böyük ağac vardı. Hər ağac bir çeşmənin ayağında bitmişdi və hər ağacın altında iki mavi əjdaha vardı. Əgər birinin günahı olardısa, onu yaralayıb, əjdahanın yanına göndərərdilər. Əgər doğrudan günahı vardısa, əjdaha onu bir anda yeyirdi. Yox, əgər günahsız və təmiz idisə, onda yaralı vücudu sağalardı. Yaxşı və ya pis adam olmaları oradaca aydınlaşardı” [Rəşidəddin 1999: 51]. Bu hal insanın günahkar olub-olmadığını yoxlamaq üçün su hövzələrinə – çaya, gölə və s. atılması kimi yayğın adəti yada salır.

Amur hövzəsində hələ daş dövrünə aid qaya təsvirlərində ilan-əjdaha motivləri xeyli yer alır. Günəşlə əlaqəli bu obraz od-ocaq, törəyiş, xeyir-bərəkət simvolu sayılırmış. Hələ indi də nanaylarda gəlin paltarı pulcuqla örtülür ki, bu da qadın ipostaslı əjdaha ilə bağlı mifiloji görüşlərin qalıntısıdır. Hanay-samagirlərdə müqəddəs sayılan dağ var idi ki, mifik əjdaha Mudurla assosiasiya olunurdu.

Bizcə hətta Minusinsk çökəkliyində Okunev mədəniyyətindən qalan daş heykəllərdə də əjdaha təsvir olunub. Bir çox alimlər Okunev heykəllərində mərkəzi obrazın, başındakı buynuzvarı çıxıntı və ya lentlərə görə “öküz” tanrını əks etdirdiyi qənaətindədirlər. Bu fikir aparıcı olsa da, həmin obrazın cücərən torpağı simgələdiyini də maraqlı fərziyyələr sırasında saymaq olar [Martınov 1983: 19-33]. Lakin təəssüf ki, hər iki fərziyyədə Minusinsk cökəkliyinin daş abidə-

lərinin nəyi ifadə etdiyi yerli – Cənubi Sibir və Altay xalqlarının inam və mifologiyasından kənarda axtarılır: ya qədim Cin, ya da qədim Hund-Avropa mifləri ilə əlaqəsinə yer ayrılır.

Daha inandırıcı fərziyyə təsvirlərdəki obrazların şamanları əks etdirə biləcəyi ilə bağlıdır. Amma nəzərə almaq lazımdır ki, şamanlar özləri geyim və bütün atributları ilə birlikdə mifik obrazları və ya ruhları təcəssüm etdirdilər. Bu halda biz eyni mifik obrazın iki (heykəl və şaman geyimi) təsvir kodundan danışa bilərik.



**Okunev mədəniyyətinə aid stellalarda təbiətin anası. Minusinsk.**



**Okunev mədəniyyətinə aid stellalarda təbiətin anası. Minusinsk.**



**Çay daşı üzərində kosmosun əjdaha-som balığı formasında təsviri. Minusinsk.**

Sibir xalqlarının (nqanasanlar, ketlər, şorlar, dolqanlar) mifologiyasına baxsaq, görərik ki, onlar odu antromorf – qarı obrazında təsəvvür edir, onu "Od ana" adlandırır, gündüz və gecənin, bundan başqa, təbiət stixiyalarının və təzahürlərinin anası hesab edirdilər [Xlobıstina 1987: 34]. Alov onun saçları sayılırdı. Od ana Yerdən doğulmuş hesab olunurdu, amma özü törəyişin əsası idi. Həmin obraz ümumtürk mifologiyasında Umay ana adı ilə tanınır. Od stixiyası ilə sıx bağlantısı olması ilə yanaşı, görünür ki, Umay ana su stixiyası ilə də bağlı idi. Bunun tarixi kökləri yazın gəlişi ilə Tayqanı, Sibir meşələri və dağlarını örtən qalın qarların əriməsi və nəhəng çayların suyunun çoxalması, daşması ilə bağlı ola bilərdi. Burada dünya daşqınının bir qarının təndirindən qaynaq alması kimi Azəbaycan miflərini xatırlamaq yerinə düşər. Yenə "Göycək Fatma" Azərbaycan nağılında Fatma xanımın (Fatma/Fatimə Azərbaycan folklorunda Umay ananın islamdansonrakı transformudur) təndirdə aşkar edildiyini görürük. Azərbaycanın Masallı rayonunda yerləşən İstisu (Xanım Fatimeyi-Zəhra) sanatoriyasında isti suyun qaynağındakı yer "Fatma ananın təndiri" adlanır.

Cəlal Bəydili Azərbaycan folklorundakı Qarı nənə obrazından danışarkən onun mənşəyinin Ulu Ana obrazına dayandığını Qarı nənənin su stixiyası ilə bağlantısına dair çoxsaylı folklor mətnlərinin mövcudluğunda isbat edildiyini yazmışdır [Bəydili 2007: 85].

Türklərdə və Sibir xalqlarında od, ocaq həyatın, yaşamın simvolu idi. Odun, ocağın sönməsi həyatın sonu, ölüm mənası kəsb edirdi. Odun dilini yalnız xüsusi adamlar – kahinlər bilirdi. Hesab etmək olar ki, bu kahinlər – şamanlar əvvəllər yalnız qadınlar olmuşlar. Qədim türk və monqol-

larda qadın şamanların "Utaqan" (alovçu) adlanması bunun bir izi ola bilər.

Rus tətqiqatçısı Mariya Xlobıstina Sibir xalqlarının inamlarında saçına od dəymiş qadının "Od tərəfindən istənildiyini" və bu səbəbdən tundrada tənha buraxlıb, bu şəkildə Od ilahəsinə qurban edildiyinin ifadə olunduğuna diqqət çəkib [Xlobıstina 1987: 36]. "Göycək Fatma" Azərbaycan nağılında Göycək Fatma da arxetipdə Təbiət anasına – Umaya/Fatma nənəyə/Qarıya verilmiş qurban sayıla bilər. Fatma nənə onu yaxşı əməllərinə, mənəvi təmizliyinə görə mükafatlandırıb geri göndərir, əvəzində ögey bacını qurban kimi qəbul edir. Ögey bacının qara suda cimməsi – qara rəngə boyanması, alnına qırmızı çəkməsi, saçlarını ağ rəngə boyaması ölümünün işarəsidir. Burada Taştık mədəniyyəti dövrü qəbirlərindəki ölü qadınları təsvir edən maskalarda alına qırmızı xətlər, dairələr və ya spiralvari naxışlar çəkilməsini yada salaq. Taştık-Tesin ölü maskaları və bütlərində yalnız üç rəngdən istifadə olunub: ağ, qırmızı və qara (göyümtül-qara). Kişi ölü maskalar da qırmızı və qara rəngdə boyanıblar. Sözügedən nağılın dünya xalqlarında (cirkin qız və ya şər atılmış qız kimi) minə yaxın variant və versiyası olsa da, meşəyə (məhz ölmək üçün!) tənha buraxılma epizodunun nağılın qərb versiyalarında olmaması, onun şərqə məxsus element olduğunu göstərir. Bir detalı da qeyd edək ki, Göyçək Fatmanın təndirdə gizlədilməsi yenə onun odla əlaqəsi və ya od anaya qurbanlıq olduğunun digər bir təzahür faktı sayıla bilər.

Göyçək Fatma nağılındakı "meşədə azdırmaq" epizodunun həmin nağılın Amerika hindularına aid variantda mövcudluğu təəccüb döğurmamalıdır. Genologiya elminin

inkişafı artıq Amerika hinduları ilə Altay əhalisinin təxminən 15-20 min il əvvəllərə dayanan genetik qohumluğunu sübut etməkdədir.

Əjdaha qədim Uzaq Şərq xalqlarının mifologiyasında təbiətin gücünü simvolizə edirdi və özündə çoxsaylı heyvanların elementlərini birləşdirən zəhmli və yırtıcı nəhəng kimi təvəvvür olunurdu. Çin mənbəsinə görə, onun gözləri dövşan gözünə, qulağı inək qulağına, pulcuqlarla örtülü bədəni və ya boynu ilana, əlləri pələng pəncəsinə, dırnaqları qartal caynağına və s. bənzəyirdi. Ağzından uzun bığları çıxırdı (som balığına bənzədilirdi?) ki, bəzən bu bığlar dovşan bığlarına da bənzədilirdi.

Beləliklə, biz hesab edə bilərik ki, Okunev heykəlləri qədim sibirlilərin həyat və kosmos haqqında təsəvvürlərini və mifoloji inamlarını əks etdirirdi və bu abidələrdə təsvir olunan mərkəzi obraz bütün Həyatın və Təbiətin anası sayılan, od, su və havanı özündə birləşdirən Ulu Ana – Əjdaha Ana idi. Bu təsvirlərdə mərkəzi fiqurun başı ətrafındakı "lentlərin" də böyük qismi alovun dillərini (od püskürmək) ifadə edir. Bununla yanaşı, biz, okunevlilərin Od ananı yarı antropomorf-yarı zoomorf təsəvvür edə biləcəyini də istisna etmirik.

Okunev heykəllərində Od ananın cizgilərinin getdikcə daha çox əjdahayabənzər forma almasında, ola bilsin, qədim Cində və ya hansısa digər yaxın ərazidəki mədəniyyətin təsiri olmuşdur. Lakin burada əjdaha obrazının yerli – Sibir mənşəli olmasını da iddia etmək olar, çünki bu, əjdahanın proobrazı kimi qəbul edilərsə, onun tarixi heç də Çindəki təsvirlərdən gənc deyildir.

Əslində biz kosmik və ya təbiət obyektlərini təmsil edən obrazların təsvirində tədricən "əjdaha" elemenlərinin artmasını digər mifik obrazın – səma qurdunun (və ya qaplanın) təsvirində də izləyə bilərik. Mərkəzi Asiyanın daha sonrakı mədəniyyətlərində – skif və hun dövründə əjdaha motivlərinin sənətdə daha aparıcı yer tutduğunu görürük. Bunlar da həmin mərhələdə əjdaha ilə bağlı təsəvvürlərin daha aydın cizgilər almasını təsdiqləyir.

Təsvirdəki mərkəzi fiqur Od ana, ətrafındakı solyar və astral işarələr övladlarıdır: başı üzərindəki sima Günəş, özündən aşagıdakı sima Ay, ətrafındakı çıxıntılı dairələr – ulduzlardır. Qurd və ya demon onun övladlarını təqib edir. Görürük ki, türklərin əcdadları azı tunc dövründən Ay, Günəş, planetlər və ulduzlar haqqında müəyyən biliklərə malik idilər. Yeri və göyü, odu və suyu özündə birləşdirən əjdaha obrazının meydana çıxması insanabənzər və yaxud heyvana, quşabənzər ilahilərdən, ruhlardan daha mürəkkəb dini dünyagörüşə inkişafın da göstəricisi idi.

Dünyanın üçlü strukturu türk xalqlarının xalçaçılıq sənətində özünü qoruya bilib. Daim yeni elementlərlə zənginləşməsinə baxmayaraq, türk xalçaları türklərin həyat və kosmos haqqında ilkin təsəvvürlərini daşlaşmış modellərdə günümüzədək gətirib çıxara bilib. Altay dastanlarının birində qəhrəman Kan-Sulutayın daş yastığa baş qoyub ağzından od püskürən səkkiz başlı əjdahanın otuz döşündən süd əmdiyinə diqqət çəkən Cəlal Bəydili yazır ki, "bu baxımdan əjdaha obrazı mifoloji Ulu ana kompleksinin bir çox cizgilərini daşıyır. Azərbaycan tərəkəmələrində xalça motivlərində rast gəlinən bu obraz hətta evin qoruyucusu olaraq düşünülmüş-

dür. Kül-tigin kitabəsi üzərində diqqəti çəkən ən mühüm bir motiv isə qurd başlı əjdaha motividir [Bəydili 2003: 124].

## Aslan (bars) simvolu

Mesopotamiyada və ona yaxın ərazilərdəki qədim mədəniyyətlərdə (Şumerdə, Akkadda (onların xələfləri olan Babilistanda, Assuriyada), hurrilərdə, hettlərdə, Urartuda və b. şir hakimiyyət və güç rəmzi kimi tanrılarla yanaşı əks edilirdi. Azərbaycanda da Manna dövrünə (e.ə. IX – e.ə. VII əsrlər) aid arxeoloji tapıntılar (bunlar çar məzarlarından aşkar edilib) üzərində də şedu (Şumer-Akkad dönəmindən bilinən, insan başlı, qanadlı aslan və ya öküz), qanadlı aslan və qrifon təsvirləri vardır.

Aslan e.ə. IX – e.ə. VIII əsrlərdə mövcud olmuş Yəhudi dövlətində şah nəslinin simvolu idi. İsa Məsih də yəhudi şahlarının nəslindən hesab edildiyindən onun da xristianlıqda bir aslan simvolu vardı.

Oxşar təsəvvürləri buddizmdə də görürük: “Aslan, buddizm mifologiyasında bəzən tanrını, bəzən hökmdarın özünü və ya onun oturduğu taxtı simgələyir. Budda, “Sakyanın aslanı” olarak anılır və vücudunun duruşu aslana, danışığı insanları xəbərdar edən aslan kükrəməsinə bənzədilir. Budda – “Sakyanın aslanı”, İsa – “Yahuda soyunun aslanı”, İmam Əli də “Allahın aslanı (Əsədullah)” olaraq adlandırılmışdır [Ersoy 2012: 4].

Qədim Yaxın Şərqdə aslan Günəşin simgəsi kimi astral simvolikada da yer tutmuşdu.

Qədim Yaxın Şərqdə bir çox tanrılar və ilahələr (Günəş tanrısı, Qələbə tanrısı və b. şirin üzərində dayanmış təsvir

olunurdular. Əhəmənilər Yaxın Şərqdə hakim olduqda bu dini ikonoqrafiya ənənələri iranlılara da sirayət etmişdi. Bəzən Məzdanın simvollarından biri kimi verilirdi.

Bununla yanaşı, demək lazımdır ki, tədqiqatlarda Əhəmənilər, eləcə də Ərşaqilər və Sasanilər imperiyasında şir obrazının heraldikada yeri çox şişirdilmişdir.

Aslan və ya barsla bağlı oxşar mifoloji təsəvvürlər türk xalqlarında da vardı. "Manas" eposunda bars Manasın totemi kimi görünür. "Kitabi-Dədə Qorqud" dastanlarında "Kağan aslan" xan soyunun simvoludur. Altayda aşkarlanmış bir Türküt xaqan kurqanının ortasındakı 22 metrlik dəhlizin divarında da nəhəng mifik bars təsvir olunub [Abbasov 2016: 248]. Səlcuqlu və Qızıl Orda pulları üzərində doğan Günəş fonunda addımlayan aslan təsvirləri geniş yer alıb. Amma bu pullar üzərindəki təsvirlər çox güman ki, astroloji məna kəsb edirdi. Bununla belə, hesab olunur ki, astrologiyaya aid kitablarda rastlanan və Günəşi Şir bürcündə göstərən təsvir məhz XII əsrdən (Səlcuqlu dönəmindən) artıq sultan hakimiyyətinin bir simgəsi kimi məna daşımağa başlayır. Təxminən, 1140-cı ildə, Sultan Səncər ibn Məlikşahın hakimiyyəti dövründə yazılmış "Məcməl-ət-təvarix vəlqisəs"də türklərin nəsil-nəcabəti ilə bağlı hissədə deyilir ki, Yafəsin yeddi oğlundan biri olan "Türk bütün məşriqi gəzdi, nəhayət, xoşuna gələn bir yer tapdı. O yerin adı Səkukdur... Yaxınlıqdakı dağın döşü bol otlu olub, içməli suları vardı. Türk Allaha şükr edib orada yerləşdi... Ağac və otlardan evlər tikməyi əmr etdi... Belə oxumuşam ki, Xudavəndin əmri ilə Türk oranı özünə məskən seçəndə onun tale saatı (bürcü) Əsəd oldu..." [Məcməul-ət-təvarix 2005: 182].



**Səlcuqlu, Qızıl Orda, Böyük Moğol, Qarabağ xanlığı pulları.**




**Tatarıstanın dövlət gerbi.**




**Xakasiyanın dövlət  gerbi.**

Hazırda Rusiya Federasiyasının türk respublikaların-dan – Xakasiyanın və Tatarıstanın gerbində mərkəzdə qanadlı ağ bars təsvir edilib.

Qədim Türk xaqanlarının bəzilərinin Arslan, Dunay Bolqar xanlarının Barıs ləğəbi daşıdığını bilirik. KDQ qəhrəmanlarından birinin döyüşə yollanmaq istərkən dediyi "Aslan adım saxlardım sənin [uğrunda döyüş] üçün" ifadəsinə [KDQ 2000: 67] əsaslanıb söyləyə bilərik ki, qədim türklərdə qəhrəmanların, sərkərdələrin mifik dünyagörüşlə bağlı savaşçı adı – "heyvan adı" olmuşdur.

Bəzi alimlərə görə, ən azından Səlcuqlular dönəmindən oğuzlarda aslan Günəşlə identifikasiya edilmişdir.

Mirəli Seyidovun araşdırmasında Qağan aslanın (və ya Ağ qayanın qaplanının) Günəşlə əlaqəli obraz olmasına işarə olunur: "Bir daha boya [KDQ-də "Basatın Təpəgözü öldürdüyü boy" – E.A.] müraciət edək. "Dədə Qorqud" boylarında Basat mifoloji aləmlə sıx bağlı obrazdır. Onun mifik (Qaba ağac, Qağan aslan) və real ata-anası (Aruz qoca) vardır. Yüksək silkə mənsub olan igid, Təpəgözə özünün adi adam olmadığını bildirmək üçün oturub-durduğu yerin Günortac olduğu ilə öyünür… Başqa sözlə, xaqanın oturduğu yerdəndir və Günəşlə bağlıdır [Seyidov 1990: 421]. Əsərinin başqa yerində alim yenə „Qağan aslan Günəşdir" deyə yazmışdır [Seyidov 1990: 372].

Böyük Moğollar və Səfəvilər sülaləsi dövründə "şiri-xurşid" şahlığın – dövlətin simvolu kimi pulların, bayraqların və tikililərin üzərində daha yaygın şəkildə görsənməyə başlayır. Yayğın fikrə görə, "şiri-xurşid" qədim İran dövlətçiliyinin simgəsi idi və arilərin mifologiyasından qaynaq-

lanırdı (şir qədim iranlıların ikonoqrafiyasında Mitranın (Günəş allahı) simvolu sayılır).




**Səfəvi elçisi Məhəmməd Rza bəy Parisə daxil olur.**
**1715-ci il qravürü.**



**Baburilərin (Böyük Moğollar) aslan və Günəş təsvirli bayraqları.**

Səfəvilər Yaxın Şərqin qədim mədəniyyətlərində hakimiyyət, güc və qələbə simvolu kimi keçən, orta əsrlərdə qonşularından Xarəzmin və Şirvanşahların embleminə çevrilən aslan obrazına yeni məna verdilər və doğan günəş fonunda əlində sivri qılıc tutmuş aslanı öz imperiyalarının gerbinə çevirdilər.

Qeyd etmək lazımdır ki, Qızılbaşların ilk dövrdə bayraqlarında təkcə Günəş təsvir olunurdu, şir təsviri oraya çox sonralar əlavə edilmişdir. "Şah İsmayıl Səfəvi hələ hakimiyyətə keçməmişdən qabaq Ağqoyunlu dövlət quruluşunun əsasında yeni dövlət aparatının özülünü yaratmışdı. Əbdi bəy Şirazinin "Təkmilətil-əxbar", Sədrəddin Soltan İbrahim Əl-Əminlinin "Futuhati-şah" əsərində 1500-cü ildə Salman bəy Zülqədərin xəzinədar, Piri bəy Əfşarın təvaçı, Xəlil bəy Əfşarın möhürçü, Sarı Şeyxin fərraşxana darğası, Hüseyn bəy Əfşarın süfrəçibaşı, Xadim bəyin xəlifət əl-xülafa və Əmir Zəkəriyyənin Təbrizin divan vəziri təyin olunduğu göstərilmişdir. Hətta ortasında günəş şəkli çəkilmiş və uclarında Qurandan ayələr yazılmış dövlət bayrağı da təsis olunmuşdu" [Bayramov 1988: 106].

"Şiri-xurşid" sonralar İrana hakim olan şah sülalələri – Əfşarlar, Qacarlar, Pəhləvilər dönəmində də dövlət gerbi kimi saxlanmışdı.

Artıq qeyd etdiyimiz kimi, doğan günəş fonunda aslan təsviri təxminən Səfəvilərlə eyni vaxtda yaranan Böyük Moğol imperiyasının da dövlət bayrağında vardı. Böyük Moğol imperatopları miniatürlərdə şirlə yanaşı addımlayan və ya şir üzərində dayanmış təsvir olunurdular. Böyük Moğol imperiyasının şir və günəş təsvirli yaşıl bayrağı ilə yanaşı üzərində digər təsvirlər olan bayraqları olmasını da miniatürlərdə gör-

mək olur. Şah Cahanın 1638-ci ildə Qəndaharı Səfəvilərdən almasını təsvir edən bir miniatürdə Moğol hökmdarının başı üstündə nizəyə taxılı üçkünc ağ bayrağın üzərində doğan Günəş və onun bütün bayraq boyu ətrafa səpələnən şüaları təsvir edilib. Bunlarla yanaşı, miniatürlərə baxsaq, nisbətən sonrakı dövr təsvirlərdə imperator qəfiləsini qırmızı bayraqların müşayiətində hərəkət etdiyini də vurğulamaq olar.



**Səmərqənd. Şirdor mədrəsəsi üzərində Günəş aslanı.**



**İrəvan xanlığının bayrağı.**



**Şəki xanlığının gerbi.**

Səfəvilərin böyük inzibati-ərazi vahidlərinin bəylərbəyliklərin rəhbərləri – xanlar (bəzən "sultan" titulu da daşıyırdılar) da bəylərbəyi (ərəbcədən olan "əmir əl-ümara" terminini əvəz edirdi: onlar həm də əyalətin silahlı qüvvələrinin baş komandanı sayılırdılar və 2-3 minlik qoşun saxlayırdılar) təyin olunduqda şahdan dövlət idarəciliyi simvolu kimi xüsusi qızıl kəmər, zərli çalma, xalat, bayraq və təbil alırdılar [Bayramov 1988: 109]. "Təzkirət əl Muluk" əsərinə əsasən Səfəvilər dövlətinin 13 bəylərbəyliyi olmuşdur ki, onların sırasında Şirvan, Qarabağ (Gəncə), Çuxursəd, Azərbaycan (Cənubi Azərbaycan), Qəzvin də vardı. Sonralar Azərbaycanda yaranan xanlıqlarının dövlət gerbləri də (bu xanların bəzisi elə Səfəvi nəslindən idilər) "şiri-xurşid"in müxtəlif variantlarından ibarət idi.

Bununla yanaşı, aslanın Səfəvilərin dövlət simvolikasında qalıcı yer tutmasında onun şiə ikonoqrafiyasında Əlinin obrazı olması da əsaslı rol oynamışdır. Türk alimi E.Ersoy yazır: "Anadolu mədəniyyətində "aslan" deyildiyində ağla ilk gələn şeylərdən biri "Heydər-i Kərrar Əsəd Əli"

kəlməsidir. Bu ifadə İmam Əlinin bir vəsfini anladır. Heydər-i Kərrar, "dönə-dönə saldıran aslan" anlamına gəlir. Bir aslan dönə-dönə saldırdığında hərəkətləri geometrik olaraq dairəyə uyğun gəlir və aslan dairələr çızaraq hücum etmiş olur. Dairənin simvolik olaraq bütünlüyə, tamlıq anlamına, geştalta işarə etməsindən çıxış edərək deyə bilərik ki, Heydər-i Kərrar bir anlamıyla öz içindəki bütünlüyünə, yəni özünə – Junqun deyişiylə, "öz məninə" qovuşmuş olan və bundan ötrü də bütün hərəkətləri bu bütünə görə olan, olğunlaşmış olan, Anadolu deyişiylə "kemale ermiş olan" insandır" [Ersoy 2012: 4].

Azərbaycan folklorunda, xüsusən mənşəyi Səfəvi ocaqlarından qaynaqlanan aşıq yaradıcılığında İmam Əlinin simvolu kimi aslanın aktiv yer aldığı hamıya bəllidir:

Aslan olub, merac yolunda yatan,
Əbu Cəhlin daşın havaya atan,
Xurma lifəsilə barmağın çatan,
Ağ devi zindana salan, ya Əli!

Ələsgərə nişan verən almanı,
İslam edən Qəmbər ilə Salmanı,
Musaya öyrədən Turda kəlməni,
Cəbrayıla ustad olan, ya Əli!
[Aşıq Ələsgər 2004: 80-81].

Yenə Aşıq Ələsgərin başqa bir şeirində İslam peyğəmbərinin merac yolunda aslan cildində olan Həzrət Əli ilə qarşılaşması təsvir olunur:

Həbibullah mindi İrəfrəf atın,
Xaliqi-ləmyəzəl verdi baratın,
Bizə vacib olan sövmü salatın,
Üç hissəsin qoydu, birisin gətdi.

Əşrəfi-məxluqat, aləm sərvəri
Oxudu təşəhhüd, qayıtdı geri.
Huri, qılman, mələk, neçə min pəri...
Əmr eylədi Haqq göyləri bəzətdi.

Bağışlandı ümmətlərin günahı,
Şadü xürrəm oldu islam pənahı.
Gəldi bir arslan, tutdu irahı,
Mustafa görəndə  xatəmin atdı.

Yetişdi hücrəyə əzizü əzim,
Şahi-Mərdan dedi: “Meracın qədim!”
Göstərdi almanı, etdi təbəssüm,
Buyurdu: “Hər işin sirri-qüdrətdi”.
[Aşıq Ələsgər 2004: 25].

Yaz gün bərabərliyi – Novruz belə “Əlinin taxta çıxdığı” gün sayılır ki, burada Əlinin Günəş kultu ilə əlaqəsini görmək olar. Beləliklə, söyləmək olar ki, Səfəvilər artıq Yaxın Şərqin qədim mədəniyyətlərində hakimiyyət, güc və qələbə simvolu kimi keçən, o dörvdə isə qonşu dövlətlərdən Xarəzmin, Böyük Moğolların, Şirvanşahların embleminə çevrilən aslan obrazına yeni məna vermiş – onu İmam Əlinin simvolu kimi bayraqlarında əks etdirmiş, eləcə də öz impe-

riyalarının gerbinə çevirmişdilər. Bu zaman artıq ənənədə hazır və yayğın motiv və modeldən istifadə etmişdilər.



**Aslan və günəş şiə ikonoqrafiyasında İmam Əlini təmsil edir.**



**Şir formalı kalliqrafiya bütünlüklə Həzrət Əlini vəsf edir. (İran, XVIII əsr)**

Lakin “şiri-xurşid” sonralar öz ilkin mənasını itirib, tam bir monarxiya və despotizm simvoluna çevrildiyi üçün İranda İslam inqilabından sonra dövlət gerbi kimi ləğv edilmişdir.

Heraldikada şir təsvirlərinin tarixindən danışarkən onun Şirvanşahların gerbində yer alması tarixinə də toxunmaq istərdik. İlkin qənaət budur ki, Şirvanşahların Bakının qala divarları üzərində də görünən gerbi orta əsrlərdə ölkənin adının “şirlər diyarı”, Şirvanşah sözünün isə “şirlər şahı” kimi yayğın yozumundan vüsət almışdır. Bunu qismən X əsr tarixçisi Həmzə İsfahaninin, əsasən, Balazuri (IX əsr) və Məsudiyə (X əsr) əsaslanaraq yazdığı tarixi əsərdə verdiyi məlumat da təsdiqləyir. O, yazırdı ki, Kəsra (Ənuşirvan) Dərdənd səddini çəkdirdikdən sonra öz sərkərdələrinin hərəsini bir yerə hakim təyin etdi. Şah hər sərkərdəyə üstündə heyvan təsviri olan xüsusi paltar bağışladı. Bu şəkillərə görə də onların sülaləsinin adı yaranmışdır. İsfahani Şirvanşah adını da belə izah edirdi [Aşurbəyli 1983: 36].



Lakin, mümkündür ki, şir simvolu daha əvvəllər yerli dövlətçilik ənənəsində varmış. Buna Albaniya Mehranilər sülaləsinin hakimiyyəti dövrünə aid edilən və at belində hökmdarı təsvir edən heykəlcik-şamdanın pedestalında qarşı-qarşıya pəncələşən iki şir təsvirinin olması da əsas verir. İki hami şir heykəli Dərbəndin qədim qala divarları önündə indi də qalmaqdadır. Şirvanda özlərini qədim İran hökmdar sülalələrinə bağlayan, bu səbəbdən qədim İran şahlarının adlarını daşımaqdan qürur duyan ərəb mənşəli Kəsranilər sülaləsi hakimiyyətə gəldikdən sonra buğa başı üzərində üz-üzə dayanmış "iki qoruyucu şir" paytaxt Bakının qala divarlarına da həkk olunmuşdur.

## Qaynaqlar


Abbasov 2016 – E.Abbasov. Qədim türklərin dəfn mərasimləri xalq inamları kontekstində / Folklor və dövlətçilik düşüncəsi, I kitab. Bakı: Elm və təhsil, 2016, s. 233-268.

Aşıq Ələsgər 2004 – Aşıq Ələsgər. Əsərləri. Bakı, Şərq-Qərb, 2004.

Aşurbəyli 1983 – С.Ашурбейли. Государство Ширваншахов (VI-XVI вв.). Б.: Элм, 1983.

Bayramov 1988 – Z.H.Bayramov. Səfəvilər dövləti sistemində Azərbaycanda yerli və şəhər idarəçiliyinin qaynaqlarda öyrənilməsi təcrübəsindən / Azərbaycan üzrə qaynaqların öyrənilməsi təcrübəsindən. Bakı: Azərbaycan Dövlət Universiteti, 1988, s.106-116.

Bəydili 2003 – C.Bəydili. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003.

Bəydili 2007 – C.Bəydili. Türk mifoloji obrazlar sistemi: struktur və funksiya. Bakı: Mütərcim, 2007.

Ersoy 2012 – Elif Ersoy. "Aslan Sembolü Üzerine" / Düşünüyorum (Anadolu Aydınlanma Vakfı Sosyal ve Kültürel Bülteni), Sayı 28, Eylül 2012.

Flavi Arrian 2010 – С.М.Перевалов. Тактические трактаты Флавия Арриана: Тактическое искусство. Диспозиция против алан / Древнейшие источники по истории Восточной Европы. М.: Памятники исторической мысли, 2010.

Hafizi Tanış 1989 – Хафиз-и Таныш ибн Мир Мухаммад Бухари. Шараф-нама-йи шахи (Книга шахской славы) // Факсимиле рук. Д.88. Пер. с перс., введ., прим. и указ. М.А.Салахетдиновой, ч.2. М., 1989.

Xlobıstina 1987 – М.Д.Хлобыстина. Говорящие камни. Сибирские мифы в археологии. Новосибирск: Наука, 1987.

KDQ 2000 – "Kitabi-Dədə Qorqud" ensiklopediyası, I kitab. Bakı: Yeni Nəşrlər Evi, 2000.

Martınov 1983 – А.И.Мартынов. Растительная символика на изваяниях окуневской культуре // Археология Южной Сибири. Вып. 12. Кемерово: КГУ, 1983, с.19-33.

Men-da bey-lu 1975 – Мэн-да бэй-лу ("Полное описание монголо-татар") / Пер. с кит., введ., комм. и прилож. Н.Ц.Мункуева. М., 1975.

Məcməul-ət-təvarix 2005 – M.Hacıyev. Orta əsrlərin maraqlı bir mənbəyi haqqında. Türklərin nəsil-nəcabəti haqqında // Azərbaycan jur., N: 10, 2005, s.182-184.

Rays 2004 – Т.Т.Райс. Сельджуки. Кочевники – завоеватели Малой Азии / Пер. с англ. О.И. Миловой. М.: ЗАО Центрполиграф, 2004.

Rəşidəddin 1999 – F.Rəşidəddin. Oğuznamə. Bakı: Azərnəşr, 1999.

Seyidov 1990 – M.Seyidov. Yaz bayramı. Bakı: Gənclik, 1990.

Sovetova – Muxareva 2005 – О.С.Советова, А.Н.Мухарева. Об использовании знамён в военном деле средневековых кочевников (по изобразительным источникам) // Археология Южной Сибири. Вып. 23 [Сб. к 60-летию В.В.Боброва], Кемерово: 2005, с. 92-105.

# FOLKLORDA “PADŞAH OYUNU” VƏ ONUN ARXAİK KÖKLƏRİ

**İlkin Rüstəmzadə**
ilkinrustamzade@mail.ru

## “PADSHAH OYUNU” (“GAME OF KING”) AND ITS ARCHAIC ROOTS

**SUMMARY**

In the article was described “Padshah oyunu” (Game of the king) on the basis of material collected from areas of the Republic of Azerbaijan – Lachin, Gubadli, Jabrail, Beylagan and Ordubad and investigated ritualny roots of this game. Author notes that, the “Padshah oyunu” is so deeply rooted in this culture with the expanding of folklore collecting it’s possible to find traces of this ceremony in other regions.

The “Padshah oyunu” explained in the context of the carnival culture in the article. According to the author, “Padshah oyunu” is symbolize the death and resurrection of real king. The killing of the false king and enthronement the true king his perceived as re-birth and renewal, thus, it is believed that would be more powerful the new ruler, longer continue its reign. But after the arrival of Islam the ceremony concluded with the name of Imam Ali, is characterized as the day of his coming to power. This resulted serious changes in the context of the game. Since then, this game have become the manifestation of people's dream for a just ruler.

***Key words:*** Padshah oyunu (game of king), the false king, Novruz, carnival culture, ceremony, death and resurrection.

## “ПАДИШАХ ОЮНУ” (“ИГРА В ЦАРЯ”) И ЕЕ АРХАИЧНЫЕ КОРНИ


### РЕЗЮМЕ

В статье на основе фольклорных материалов, собранных в Лачинском, Губадлинском, Джебраилском, Бейляганском и Ордубадском районах Азербайджанской республики дано описание игры обряда “Падишах оюну” (“Игра в царя”), исследованы ее исторические корни. Автор статьи отмечает, что “Падшах оюну” запустила глубокие корни в азербайджанском культурном пространстве, по мере расширения ареала собирания фольклорных материалов в различных регионах республики становиться неизбежным встретить ее следы, ее различные формы и вариации дажее в самих отдаленных регионах.

В статье “Падшах оюну” истолковывается в контексте карнавальной культуры. По мнению автора игра “Падишах оюну” символизируют смерть и воскрещение настоящего правителя. Только, здесь в роли настоящего правителя выступаеть не сам падишах и ее заместитель, то есть “близнец”. Убийство ложного падишаха и повторное восшествие настоящего падишаха на престол здесь воспринимается как его новое рождение, обновление и вследствии это появлялось убеждение в том, что новый правитель будет могущественным, сильным и его власть будет долговечность. Но после распространения мусульманской религи этот обряд быль привязан с именем Хазрата Али. Торжественное празднование дня восществия на престол окозала серьезное изменение в со-

держании игры. С того времени эта игра превратилась в проявления мечто народа о справедливом правителе.

***Ключевые слова:*** Падишах оюну (игра в царя), ложный царь, Новруз, карнавальная культура, церемония, смерт и воскресения.

## Giriş

Xalqın bayram mədəniyyəti cəmiyyətdə gedən sosial-iqtisadi dəyişikliklərlə əlaqədar zaman keçdikcə özünün bir çox komponentlərini itirmişdir. Bu proses bu gün də davam edir, xüsusən də Qarabağın işğalı, insanların doğma torpaqlarından didərgin düşməsi və Azərbaycanın dörd bir tərəfinə dağılması bunu daha da sürətləndirmişdir. Öz kəndlərində, isti ocaqlarında olduğu zaman insanların böyük həvəslə icra etdiyi bir çox mərasimlər, oynadığı oyunlar, köçkünlükdən sonra, demək olar ki, yerinə yetirilmir, oynanılmır. Məhz bu səbəbdən "Moza-moza", "Mətəyə salma", "Qığ-mərə", "Qaçmatop" kimi bir çox xalq oyunları haqqında təsəvvürlər bu gün yalnız yaşlı insanların hafizəsində yaşayır, uzun müddət oynanılmadığından həmin oyunlar barədə verilən məlumatlar natamamlığı, oyunun bütün komponentlərini əhatə etməməsi ilə narahatlıq doğurur. Ən acınacaqlısı odur ki, proses bu sürətlə davam edərsə, bir müddətdən sonra xalq öz bayram mədəniyyətinin, xalq oyunlarının böyük bir hissəsini itirmiş olacaqdır.

Bildiyimiz kimi, milli bayramlar hər bir xalqın milli kimliyini formalaşdıran, onu dünyada tanıdan əsas ünsürlərdən biridir. Səbəbsiz deyil ki, bir çox xalqlar dünyada məhz milli bayramları ilə tanınır, gündəmə gəlirlər. Bayram-

ları bu qədər önəmli edən əsas səbəb milləti bütünləşdirməsi, varlı-kasıb, böyük-kiçik fərqi qoymadan toplumun bütün üzvlərini bir araya gətirməsidir. Azərbaycanda belə bayramlardan biri Novruz bayramı və onun komponentlərindən biri olan "Padşah oyunu"dur. Sovet dövründə digər mərasimlər kimi "Padşah oyunu" da öyrənilməmiş, tədqiqatçılar Azərbaycanda belə bir adətin varlığından uzun müddət xəbərsiz olmuşlar. Əli Sultanlı Azərbaycan dramaturgiyasının şifahi qaynaqlarından bəhs edərkən Novruz bayramında keçirilən bir çox oyunlardan danışır, amma "Padşah oyunu" haqqında məlumat vermir (Sultanlı 1964). Mirəli Seyidov "Yaz bayramı" əsərində "Padşah oyunu"na dair C.Frezerdən nümunələr gətirir, M.F.Axundovun "Aldanmış kəvakib" əsərinin də həmin mifik görüş əsasında qurulduğunu bildirir. Lakin araşdırıcının "ehtimal etmək olar ki, bu mifik görüş nə vaxtsa türk xalqlarında varmış" fikri onun da belə bir adətin varlığından xəbərsiz olduğunu göstərir (Seyidov 1990: 39). Müstəqillik qazandıqdan sonra maddi-mənəvi sərvətlərimizin öyrənilməsinə marağın artması tədqiqatçıların diqqətini "Padşah oyunu"na yönəltmişdir. Bunun nəticəsi olaraq, Ordubaddakı "Xan bəzəmə" adəti əsasında "Padşah oyunu"nun təsviri meydana çıxır (Şamil 2009: 117). Əli Şamil tərəfindən verilmiş həmin təsviri oyun haqqında ətraflı təsəvvür yaradan ilk sistemli təsvir saymaq olar. Ondan sonrakı dövrdə mərasim haqqında verilən məlumatlar həmin təsvirdən irəli getmir.

Son iki-üç ilə qədər "Padşah oyunu" ilə bağlı əldə olan məlumatlar yuxarıda qeyd etdiyimiz mənbələrlə məhdudlaşırdı. Yalnız son illər Folklor İnstitutunun təşəbbüsü ilə Qarabağ folklorunun toplanmasına marağın artması və bununla əlaqədar bölgə sakinləri ilə görüşlərin intensivləşməsi

həmin adətə dair maraqlı nümunələrin qeydə alınması ilə də xarakterik olmuşdur. 2013-cü ildə Qarabağ folklor örnəklərini toplamaq məqsədilə Taxtakörpü qəsəbəsinə ezam olunduğumuz zaman Laçın rayon sakinləri arasında belə bir adətin izlərinə rast gəldik. Daha sonra Qubadlı sakinlərindən də belə bir adəti qeydə almaq bizə nəsib oldu. Ən nəhayət, 2014-cü ildə Beyləqan rayonunun Günəşli kəndində (bu kəndin əhalisi keçən əsrin ortalarında Cəbrayılın Sirik kəndindən Beyləqana gələn ailələrdən ibarətdir) həmin adətin birbaşa iştirakçısı olduq və onu videolentə köçürə bildik. Son toplamalar nəticəsində əldə edilən materiallar bizə həm bu oyunun yayılma coğrafiyasını müəyyən etməyə, həm də onun daha ətraflı təsvirini verməyə imkan verir.

**Padşah oyunu**

"Padşah seçmə" (Laçın), "Padşah oyunu" (Cəbrayıl), "Şah bəzəmə" (Qubadlı) və yaxud "Xan bəzəmə" (Ordubad) adı ilə tanınan bu oyuna Azərbaycanın bir çox bölgələrində rast gəlmək mümkündür. Həmin mərasim bəzi rayonlarda (Qubadlı, Laçın) ilaxır çərşənbədə, Cəbrayılın Sirik kəndində martın 21-22-si, Ordubad rayonunda isə yeddiləvin günü (martın 21-i) keçirilərdi. Qubadlı rayonunun Dəmirçilər kənd sakini Əyyub Bədəlovun dediyinə görə, bu mərasim o qədər təmtəraqlı olardı ki, rayon mərkəzindən, qonşu kəndlərdən adamlar həmin oyunu izləmək üçün Dəmirçilər kəndinə gələrdilər.

İslamın gəlişindən sonra "Padşah oyunu" arxaik məzmununu itirmiş, yeni məna qazanmışdır. Xalqa görə, Novruz bayramı Həzrət Əlinin taxta çıxdığı gündür, hətta həmin fikrin təbliğ olunduğu dini nağıllar da mövcuddur. Həmin

nağılların birində deyilir ki, iki əmioğlu bir qıza aşiq olur. Onlardan biri həmin qızla evlənir və toy axşamı gəlinin yanına gedəndə evin qapısı önündə xəncərlə vurulub öldürülür. Oğlunun qatilinin tapılması üçün ata onun meyidini Məkkə şəhərinə göndərir. Abubəkirdən, Yeziddən oğlanın qatilini soruşurlar, onlardan müsbət cavab ala bilmədikdə Həzrət Əliyə müraciət edirlər. Həzrət Əli oğlanı öldürənin əmisi oğlu olduğunu söyləyir, amma onun sözünə inanmırlar. Həzrət Əlinin əmri ilə oğlan öldürülən zaman qapının üstündə olan göyərçinlər, cinayətdə işlədilən xəncər şahidlik edir. Ona yenə inanmadıqda Həzrət Əli yeddi rükət namaz qılıb Allahdan oğlana can verməsini istəyir. Oğlan dirilir, ayağa duraraq onu öldürənin əmisi oğlu olduğunu söyləyir. Nağılda deyildiyinə görə, Əliyə iyirmi dörd il taxta çıxmaq qadağan olunmuşdu. Həmin gün qeyd olunan müddət tamam olur və Əli qırmızı geyinərək taxta çıxır. Ondan sonra camaat bayram edir və dirilən adamın şərəfinə həmin günü Novruz adlandırırlar (Qarabağ 2012b: 221).

Xalq arasında mövcud olan təsəvvürə görə, həmin tarixdən etibarən bu gün böyük təmtəraqla keçirilir. Ona görə də bütün qadağalara baxmayaraq, xalq həmin adətə sadiq qalmış, hətta gizli də olsa, Əlinin taxta çıxdığı günü keçirməyə çalışmışdır. Əslən Cəbrayıl rayonunun Sirik kəndindən olan, hazırda Beyləqan rayonunun Günəşli kəndində məskunlaşan İdris İbayevin dediyinə görə, sovet dövründə kənddə bu bayramı keçirən adamları siyahıya alırdılar. O zaman Əli Çələbi onlara ürək-dirək verərək deyərdi ki, "qorxmayın, bayramı keçirin. Bayramda sizin hansınızı tutsalar, deyin, toy eləyirəm, bir kişinin də qızını alın". İnformatorun dediyinə görə, bir il Sovet sədri onları bayram keçirməyə qoymur. Əli

Çələbinin tapşırığı ilə camaat bir ağsaqqalı sovet sədrinin yanına göndərib ondan kənddən çıxmasını tələb edir, əks təqdirdə kəndin cavanlarının onu öldürəcəkləri ilə hədələyir. Cəbrayılın Xojamsaxlı kəndindən olan soveti sədri həmin təhdidlərdən sonra kənddən çıxır. Həmin gün – 1941-ci il martın 21-də kənd sakinləri kolxozun pəyəsini bəzəyir və klubda tədbirləri olduğunu söyləyib bu adla bir erməni aşığını da kəndə gəlməyə razı salırlar. Aşıq gəlib tövləni görəndə əvvəl buranın klub olmasına şübhə edir, amma camaat onu dilə tutub içəri girməyə razı salır. Aşıq içərinin muzey kimi bəzəndiyini görüb təəccüb edir. Söyləyicinin dediyinə görə, o gün kənddə elə bir bayram keçirilir ki, "dünya tarixində bəlkə elə bayram keçirilməyib".

Əli Şamilin yazdığına görə, bütün yasaqlara baxmayaraq, sovet dövründə Ordubadda da bu bayram böyük təmtəraqla qeyd olunar və Naxçıvanın hər yerindən həmin mərasimi izləməyə gələrdilər (Şamil 2009: 127).

Bəzi yerlərdə həmin adətin keçirilməsi üçün qabaqcadan müəyyən qədər vəsait də yığılır. Qubadlı rayonunun Dəmirçilər kənd sakini Əyyub Bədəlovun dediyinə görə, iyirmi, iyirmi iki nəfər pul yığıb heyvan alardı. Həmin heyvanın ətindən yemək bişirilər və camaata verilərdi. Beyləqanın Günəşli kəndində isə 2014-cü ildə həmin mərasimi keçirmək üçün hər evdən on manat pul yığılmış və həmin vəsait çalğıçıların pulunun ödənilməsinə, onların yeməyinə, mağarın qurulmasına və s. xərclənmişdi.

Bəzi yerlərdə padşah olacaq şəxs səsvermə ilə müəyyən edilir. Laçın rayonunun Sadınlar kənd sakini Pəsi Quliyevin dediyinə görə, səsə qoyardılar, kim daha çox səs toplasa, onu padşah seçərdilər. Ordubad rayonunda da padşah

səsvermə ilə müəyyən edilirdi. "Azərbaycan folkloru antologiyası"nın I cildində deyilir ki, yeddiləvin günü sübh tezdən hamı böyük meydana yığışır. Şənlik başlanır. Cəngi çalınır, zorxana qurulur. Pəhlivanlar güləşib qurtarandan sonra zorxana yığışdırılır. Meydana kosa çıxır... Bundan sonra ağsaqqallardan biri meydana yığılanlara üz tutub deyir: "Camaat, bu gün bir xan seçməliyik. Xan gərək qaşqabaqlı, sözü ötkəm adam olsun. Ona bir vəzir, bir vəkil, bir də cəllad seçib verin". Camaat yerbəyerdən deyərdi ki, xanımız Başmaqçı Mərdan olsun" (AFA 1994: 18). Bəzi yerlərdə padşah olacaq şəxsin görkəminə fikir verərdilər, kim hündürboylu, yaraşıqlı idisə, onu padşah seçərdilər. Dəmirçilər kəndində isə padşah, onun əyan-əşrəfi yaşlı, sayılıb seçilən adamlar arasından seçilərdi. Əyyub Bədəlovun dediyinə görə, 2009-cu ildə Sumqayıt şəhər stadionunda bu mərasimi keçirən zaman məktəb direktoru Yadigar müəllim şah seçilmiş, kəndin icra nümayəndəsi Şahbaz müəllim də onun vəziri olmuşdu. İdris İbayevin dediyinə görə, Sirikdə İsgəndər oğlu Məhəmməd adlı qolu şikəst, yoxsul bir kişi olub. Hər il Novruz bayramına iki gün qalmış Əli Çələbi onu gətirib başını qırxdırar, onu təmiz çimizdirtdirər, alt paltarından tutmuş üst paltarına qədər təzələyərdi. Əli Çələbiyə deyərdilər ki, bu kənddə padşah qoymağa bir şəxsiyyətli adam tapmırsan? Cavabı belə olardı ki, ömrü boyu üstünə su dəyməyən bir adamı çimizdirib, təmiz paltar geyindirməyin Allah yanında savabı böyükdür. Onu geyindirib padşah qoyardılar, ona vəzir-vəkil seçilərdi. Elə adamı vəzir seçərdilər ki, onun baməzəliyi olsun, camaatı danışdıra bilsin, məclisi şənləndirməyi bacarsın.

Pəsi Quliyevin dediyinə görə, axır çərşənbədə hər məhlənin öz padşahı seçilərdi. Qızlarla oğlanların məclisi ayrı

olardı. Qızlar oğlanları öz məclislərinə buraxmazdılar, amma bəzən hansısa bir oğlan qadın paltarı geyinərək qızların məclisinə gələrdi. İnformatorun dediyinə görə, onun oğlanları axır çərşənbədə qadın paltarı geyinər, üzlərini yaşmaqla örtüb qızların məclisinə gedərdilər. Eynilə qızlar da oğlan paltarı geyinib oğlanların məclisinə gələrdilər.

Xan bir qayda olaraq kişilərdən olur, yalnız müstəsna hallarda qadınlar da xan seçilə bilirdi. Əli Şamilin yazdığına görə, 1946-1970-ci illərdə Ordubad rayonunun Tivi kəndində keçirilən mərasimlərdə xan dəyirmançı Kəblə Qədimin xanımı Mircahan olmuşdu. Onun da ilk icraatı taxta əyləşən kimi ərini döydürmək və cərimələtmək olarmış (Şamil 2009: 126). Elə adamlar vardı ki, onlar uzun illər dalbadal xan seçilirdi. Beyləqan rayonunun Günəşli kəndində İdris İbayev keçən əsrin sonlarından bu vəzifəni icra etmiş, yalnız 2014-cü ildə öz taxtını başqasına vermişdir. Əli Şamilin yazdığına görə, 1970-1980-ci illərdə Ordubadda keçirilən şəbədələrdə həmişə Vəli adlı kişi xan bəzənərdi. Elə buna görə də şəhərdə əksəriyyət onu Vəli xan kimi çağırırdı. Bəzən də bu vəzifə nəsildən-nəsilə ötürülürmüş. Məsələn, Ordubadın Tivi kəndində Mircahan arvaddan sonra onun oğlu xan seçilmişdi.

Günəşli kənd sakini İdris İbayevin dediyinə görə, şah olan şəxs bir sutka dinməməli, danışmamalıdır. Gülən kimi onu taxtdan düşürər, soyundurub dar ağacından "asardılar". Ordubad rayonunda da ən məşhur məzhəkəçilər, gülüş ustaları xanı güldürmək üçün dəridən-qabıqdan çıxardılar. Xan gülsün deyə bəzən meydanda qadın, qız olmasına baxmayaraq, xanla açıq-saçıq zarafatlar da edərdilər. Xan bütün bu məzhəkələrin qabağında özünü saxlaya bilməyib gülərsə, meydana toplaşan tamaşaçılar onu geyimli-keçimli suya basar, onu "xanlıq"dan salar-

dılar. Taxtdan salınmış şəxs isə bir daha xan seçilə bilməzdi. Əli Şamilin yazdığına görə, XX yüzillikdə Ordubadda gülən xanlar haqqında xatirələr hələ də insanların yaddaşında yaşayır.

Mərasim üçün xüsusi bir mağar qurulardı. Şahı mağara yaxın qonşu bir evdə bəzəyərdilər. Məclis başlayanda "Vağzalı" çalınar, şah vəzir-vəkilin, fərraşların əhatəsində məclisə daxil olardı. Bütün məclis əhli ayağa qalxar, əl çalar və deyərdi: "Şah oynasa, ucuzluq olar". Şah da əlini götürüb "Şah gəldi" havasına ağıryana oynayardı. Oynayandan sonra çıxıb taxtında oturar və səlahiyyətlərinin icrasına başlayardı. Məclis qurtaranda da aradan elə çıxardı ki, kimsə ona bir söz deməsin.

Laçın rayonunda padşah seçmə mərasiminin əsas iştirakçıları cavanlar idi və onlar padşahı öz tay-tuşları arasından seçərdilər. Padşah qəlbidə oturar, ondan bir az aşağıda vəzir, lap aşağıda buyruqçuları durardı. Padşahın bir tərəfində xəbər aparıb gətirənlər, o biri tərəfində isə xəzinədar oturardı. Padşah əyninə arxalıq, üstündən çuxa geyinər, başına da papaq qoyardı. Padşahın geyimi kənddən-kəndə fərqlənir. Məsələn, Sadınlar kəndində padşahın əyninə qırmızı xələt geyindirər, başına da kardondan düzəldilmiş bəzəkli papaq qoyardılar. Qızların məclisində isə padşah seçilən qızın başına yaylıq atılardı. Qubadlı şəhər sakini Münəvvər Həşimovanın dediyinə görə, axır çərşənbədə şah bəzəyərdilər. Şahın başına qəşəng papaq qoyardılar, əyninə ona layiq paltar geyindirərdilər. Şahın özü kimi onun atı da bəzənərdi. Atın belinə kənarları qotazlarla bəzədilmiş qırmızı çul salardılar, şah onun üstündə oturardı. Ordubad rayonunda isə padşah seçilən şəxs meydanın yuxarı başında qurulmuş taxtda oturar, vəzir, vəkil də taxtın sağında, solunda əyləşərdi. Yaraqlı-yasaqlı fərraşlar şahın

hüzurunda əmrə müntəzir dayanardılar. Cəllad qırmızı libas geyinər, əlində balta meydanın aşağı başında gözləyərdi.



**Xan əyan-əşrəfi ilə birlikdə. Ordubad rayonu.**

Ordubad rayonunda mərasim xalat geyinmiş, başına tac qoymuş xanın ata mindirilib əyanların və musiqiçilərin müşayiətində gəzintiyə çıxması ilə başlayır. Oyun barədə verilən təsvirdə deyilir ki, yol boyu "Var olsun xanımız!", "Xanımız mərhəmətli xandır!" və s. sədaları yüksəlir. Xan, əyanlar və onları müşayiət edənlər kəndin və ya şəhərin ətrafındakı bağlı-bağçalı, çayır-çəmənli yerlərdə gəzdikdən sonra geri dönürlər. Evlərin qarşısında və küçələrdə yenə də xanı və onun vəzir-vəkilini alqışlarla, mahnı və musiqi ilə qarşılayırlar. Gəzintiyə gedəndə və geri dönəndə xan heç yerdə dayanmır. Ona şikayət etmək, arzu və istəklərini bildirmək istəyənlərin xana yaxınlaşmasına izin verilmir. Fərraşlar, əyanlar, vəzir, vəkil xana "şikayət etmək" istəyənə məsləhət görərlər ki, "sarayda qəbula gəlsinlər". Müstəsna

hallarda, yəni yaşlı adamları, xəstələri gördükdə xan atı saxlayar, onların şikayətini dinləyərdi. Gəzintidən qayıdan xan baş meydanda qurulmuş taxtda əyləşirdi.

Xan taxtda əyləşdikdən sonra musiqi sədaları yüksəlir. Alqış sədaları altında öncə yallı gedən dəstələr meydana çıxır. İki yallı dəstəsi bir-birindən çevik olmağa, daha yaxşı oynamağa çalışır. Yorulub sıranı pozanları və oynamağı dayandıranları fitə basmaqla, hay-küylə yola salırlar. Sonra güləşçilər ortaya çıxırlar, musiqi sədaları altında güləşirlər. Güləşdə gənclərlə yanaşı yaşlılar, qocalar da fəal iştirak edirlər. Yallı yarışından fərqli olaraq, güləşdə məğlub tərəfi fitə basmazlar. Yenəni də, yeniləni də alqışlarla qarşılayırlar. Axırda ən yaxşı güləşçi də, qalib yallı dəstəsi də xanın adından mükafatlandırılır. Bu mükafatlar, eləcə də imkansız ailələrə edilən yardımlar, kimsəsiz qocalara, şikəstlərə, xəstələrə verilən paralar xanın cərimələdiyi imkanlı adamlardan alınan pullar hesabına ödənilirdi (Şamil 2009: 123).



**“Xan bəzəmə” oyunu. Ordubad rayonu.**

Həmin gecə padşah müəyyən əmrlər verər, başındakı adamlar onun əmrini icra edərdilər. Padşahın sözü hər kəs üçün qanun idi və kimsə ona etiraz etməzdi. Kim paşdahın sözünə baxmırdısa və ya onun əmrinə tabe olmurdusa, onu tutub padşahın hüzuruna aparar, onun qarşısında dizi üstə oturdardılar. Günahı onun üzünə deyilər və o, cəzalandırılardı. Əyyub Bədəlovun dediyinə görə, bu mərasimi rayonda keçirəndə birinci katib Şahsuvar Yəhyayevi şahın hüzuruna gətizdirmişdilər. Sadınlar kənd sakininin dediyinə görə, başqa məhlənin adamı torba sallamaq üçün onların ərazisinə gəldikdə onu tutub padşahın hüzuruna aparardılar. Padşah da ondan soruşardı ki, sən kimdən icazə alıb mənim mahalıma gəlmisən? O da müxtəlif bəhanələr gətirərdi: ya deyərdi "təsadüfən burdan keçirdim", ya digər səbəblər gətirərdi. Padşah onu cərimələyər, verilən cəriməni də vəzir-vəkil dəftərə qeyd edərdi.

Məclisdə, əsasən, müəyyən adamlara kəsilən cərimələrdən pul yığılırdı. Bundan əlavə, padşah kimisə asılmaqla cəzalandırdıqda həmin şəxsin yaxın adamı pul ödəyib onu azad edə bilirdi. Həmin pullar xəzinədarda yığılır və həmin vəsait xeyirxah işlərə sərf olunurdu. Məsələn, Əyyub Bədəlovun dediyinə görə, həmin mərasimdən yığılan vəsait hesabına onlar bir dəfə məscidin darava deyilən hissəsini təmir eləmiş, növbəti il yığılan vəsait hesabına yetim-yesirə əl tutmuşlar. Günəşli kənd sakini İdris İbayevin dediyinə görə, 2013-cü ildə həmin mərasimdən yığılan pul ilə kəndə artezian üçün motor alınmışdı.

Əyyub Bədəlovun dediyinə görə, bir dəfə Qubadlıda "Padşah tikmə" mərasimini keçirəndə kəndin müxtəlif yerlərinə yazıb vurmuşdular ki, şahın əmrinə əsasən, gecə saat birə qədər heç kim yatmamalıdı. Kim yatsa, şah tərəfindən cəzalandırılacaq. Gecə saat on ikini keçdikdən sonra padşah

evləri gəzər, onun əmrini poza biləcəyi ehtimal olunan adamların qapısını döyərdi. Söyləyicinin dediyinə görə, bir dəfə padşah camaatın onun əmrinə tabe olub-olmadığını yoxlamaq üçün Misir müəllimin evinə gəlir. Stolda mürgüləyən Misir müəllim padşahın adamlarını görən kimi deyir: "Köpək uşağı, gəlin çıxın da, yata bilmirəm qorxumdan". Padşah oradan çıxıb İbrahim həkimgilin evinə gəlir. İbrahim həkimin arvadı bunları görəndə deyir: "İbrahim dayınız sizin tapşırığa əməl eləməyib yatıbdı". Padşahın adamları İbrahim kişini yorğanqarışıq yatağından götürüb meydana aparırlar. Qubadlı rayonunun Qaracallı kəndində də qabaqcadan yazıb hər yerə vurardılar ki, saat 1 tamamda şah gəzintiyə çıxacaq, kimin nə şikayəti var, eləyə bilər. Saat bir tamamda şah bəzənərdi, atın üstündə gəzintiyə çıxardı, şikayətlərə baxardı.

Qubadlı rayonunda şahın verdiyi maraqlı cəzalardan biri zopu getmək idi. Şahın cəzalandırdığı adamlar qara zurnanın sədaları altında zopu gedərdi. Bir nəfər düşər qabağa, əlində tut çubuğu tutardı. Qıraqda da on dənə, iyirmi dənə ehtiyat çubuq saxlayardılar. Cavanlardan on beş, iyirmi nəfər zopu çəkənin başına yığılardı. Dəstəni çəkən oynayar, zopubaşı qəfildən cibindən bir şey çıxardardı. Kim həmin əşyadan tapıb çıxardardısa, canını qurtarardı, yoxsa zopubaşı əlindəki çubuqla onları vurardı. Yaxud, yer qazıb ora su tökərdilər, dəstə üzvləri o suyu dilləri ilə yalamalıydılar. Kim yalamasaydı, zopubaşı çubuqnan elə vurardı ki, həmin şəxsin başı çalaya girərdi.

Padşahın vəzifəsi kimisə cəzalandırmaq, kiməsə cərimə kəsməklə məhdudlaşmır, o həm də ədalətli qərarlar verir. Məsələn, Günəşli kəndində keçirilən mərasimdə bəzi kənd sakinləri avtobus sürücüsünün gediş haqqlarını qaldırmasından, Qubadlı rayonunda keçirilən mərasimdə adamlar pensi-

yanı vaxtlı-vaxtında ala bilməmələrindən şikayətlənirlər. Hər iki halda padşah camaatın şikayətinə ədalətlə baxır və onların xeyrinə qərar qəbul edir. Məsələn, Qubadlı rayonunda keçirilən mərasim zamanı padşah Sosial müdafiə şöbəsinin rəhbərini çağırıb pensiyaların ödənilməməsinin səbəbini soruşmuş, bayrama qədər camaatın pensiyasının ödənilməsini tapşırmışdı. Əli Şamilin yazdığına görə, Ordubad rayonunda keçirilən mərasim zamanı xan 10-15 nəfərə qonaqlıq verməyi, xörəklər bişirib imkansız ailələrə paylamağı buyurardı. Bişirilən xörəyin dadına da öncə xan və ya vəziri baxar, sonra onu paylamağa icazə verərdi.

Padşahın məclisinə gələn gəlinlər xonça bəzəyib gətirərdilər. Həmin nemətlər oturanlara, xüsusən də, kənardan gələn qonaqlara paylanardı. Onları paylamaq üçün əynində xüsusi geyimləri olan üç-dörd nəfər təyin olunardı. Ordubad rayonunda isə xanın ziyarətinə gələnlərin əllərinə gülab suyu tökülər və onlar şirniyyata qonaq edilərdilər. Bunun müqabilində isə hər kəs imkanı daxilində şirniyyat qabına pul qoyardı.

Bəzi yerlərdə məclisin daha maraqlı keçməsi üçün kəndin cavanları padşaha qarşı müxalifət yaradar, saxta topla, tüfənglə silahlanıb şahı devirməyə gələrdilər. Müxalifətin padşaha qarşı hazırladığı plan qabaqcadan heç kimə məlum olmur. Günəşli kənd sakini Baqi Həsənovun dediyinə görə, 2013-cü ildə özünü müxalifət adlandıran dəstə altı-yeddi maşınla məclisi basmışdır. Dəstə üzvlərinin əllərində yalançı tüfəngləri, çiyinlərində qrantamyot əvəzinə peç turbası varmış. Əyinlərinə qəribə paltar geyinmiş, tanınmamaları üçün üzlərinə kömür sürtmüşlər. Vəzir də onları Zimbabvedən gəlmiş adamlar kimi təqdim etmişdi. Müxalif üzvlər məclisdə qarışıqlıq salmağa, padşahın başından papağı qaçırmağa, pad-

şahın adına gəlmiş xonçaları dağıtmağa çalışırdılar. Fərraşlar da ayıq olardılar və onları bu niyyətlərini gerçəkləşdirməyə imkan verməzdilər. Padşahın papağının qaçırılması ehtimalı daha çox idi, ona görə fərraşların böyüyü əlində şallaq həmişə padşahın yanında durar, buna cəhd edən şəxsləri tutub dar ağacından asardı. Baqi Həsənovun dediyinə görə, məclisə bir az şuxluq qatmaq üçün bəzən özləri şərait yaradırdılar ki, beş-on xonça dağıdılsın, camaat həmin nemətlərdən dadsın.

Beyləqan rayonunun Günəşli kəndində keçirilən "Padşah oyunu"nda on iki fərraş padşahı qoruyurdu, bir nəfər də onların başçısı idi. Fərraşların seçilməsi üçün qolunda qırmızı sarğı vardı, başçılarının isə çiynindən aşırılaraq sinəsinin ortasına qırmızı şal bağlanmışdı.

Həm Beyləqanda, həm Qubadlıda təşkil olunmuş mərasimlərdə padşah məclisin axırında səssiz-səmirsiz meydanı tərk edir və bununla mərasim qurtarırdı. Ordubad rayonunda xanın hakimiyyəti yeddi gün çəkər, onun üç günü daha qələbəlik olardı. Sonuncu gün xanı taxtdansalma mərasimi olardı. "Gələn bayrama bağrıbütöv çıxaq!", "Düşmənlərimiz zəlil olsun!", "Cənabi Əmir köməyiniz olsun!" və b. dualar söylənər, sonra isə bir ağsaqqal xanın gördüyü işlərdən danışar, fəaliyyətini qiymətləndirər, ona uzun ömür və can sağlığı arzulayardı. Şən musiqi sədaları və atəşfəşanlıqla meydana toplaşanlar dağılışardılar.

Verilən təsvirdən göründüyü kimi, "Padşah oyunu" bu mədəniyyət içərisində o qədər kök atıb yayılmışdır ki, toplama fəaliyyətini genişləndirdikcə bu mərasimin izlərinə digər bölgələrdə də rast gələcəyimiz şübhəsizdir. Təəssüflər olsun ki, əvvəlki illərlə müqayisədə son illər "Padşah oyunu" çox şeyi itirib. Əvvəllər bu mərasim daha geniş bir ərazidə qeyd olunurdusa, son vaxtlar onun əhatə dairəsi daralmağa başla-

mışdır. Köçkünlükdən sonra Laçın rayonunda, demək olar ki, bu adət keçirilmir. Ordubad şəhərində vaxtilə hər məhəllənin öz xanı olardısa, son 50 ildə yalnız bir yerdə – şəhərin "Sərşəhər" adlanan meydanında "Xan bəzəmə" şəbədəsi keçirilir. Mərasimin keçirildiyi günlərin sayında da azalma müşahidə olunur. Əvvəllər "Padşah oyunu" bir neçə gün qeyd olunurdusa, indi yalnız bir gün keçilir. İdris İbayevin dediyinə görə, "Padşah oyunu" Sirik kəndində martın iyirmi biri saat dörddən sonra başlayar, iyirmi ikisi gecəyə qədər davam eləyərdi. Onda daha təmtəraqlı keçirilər, insanlar səhərə qədər oturub oyuna tamaşa eləyərdi. Hətta kəndə kənardan gətirilən aşıqlar da insanlarda bu oyuna marağı, həvəsi görüb təəccüb edərdilər. İdris İbayevin dediyinə görə, bir dəfə məclisə dəvət olunmuş zurnaçının iki gün dalbadal zurna çalmaqdan dodaqları o qədər şişir ki, axırda zurnaçı bezib deyir: "Bilsəydim gedib bazarda semiçka satardım, bu kəndə gəlməzdim. İnsafınız olsun, insan bir belə oynayar?" Camaat da ona belə cavab vermişdi ki, bu, Əli bayramıdı, belə gündə heç adam yorularmı? İndiki dövrdə iki gün dalbadal belə bir məclisi təşkil etmək həddindən artıq baha başa gəldiyi üçün mərasim bir gün keçirilir, əvvəlki illərdəki kimi səhərə qədər deyil, gecə saat on ikiyə qədər davam edir. Əvvəllər hamı qırmızı paltar geyinib məclisə gələr, hətta padşah da başdan-ayağa qırmızı geyinərdi. Padşah olacaq şəxs bir gün qabaqcadan çimər, qüsullanaraq taxta çıxar və mərasimin icra olunduğu müddətdə ac qalar, danışmaz və gülməzdi. Günəşli kəndində iştirakçısı olduğumuz mərasimdə bu tələblərə, demək olar ki, əməl olunmurdu, padşah kostyumda taxta çıxmışdı (digərlərindən yalnız sinəsinə bağladığı qırmızı şala və papağına taxdığı quş tükünə görə seçilirdi), mərasim boyu həm danışır, həm də gülürdü.

**Beyləqanda "Padşah oyunu".** Beyləqan rayonunda folklor ezamiyyəsində olduğumuz zaman rayonun Günəşli kəndində keçirilən "Padşah oyunu" mərasimini videolentə almaq bizə nəsib oldu. Əslində Günəşli kəndində belə bir adətin varlığını təsadüf nəticəsində öyrəndik. Rayonun Birinci Aşıqlı kəndində olduğumuz zaman kənd cavanlarından biri Günəşli kəndində şahidi olduğu "qəribə" adətdən – həmin kəndin sakinlərinin Novruz bayramında padşah seçmələrindən, padşahın adamları dar ağacından asdırmasından və s. danışırdı. Onun dediyinə görə, o gündən sonra Novruz bayramı gəldikdə o tərəfə getməməyə çalışır və bizə də məsləhət gördü ki, həmin kəndə getməyək, gedəsi olsaq, bizi də asacaqlar. Biz həmin adətin iziylə səhərisi gün yolumuzu Günəşli kəndindən saldıq və camaatın həmin mərasimə hazırlaşdığının şahidi olduq.



**Padşahın meydana gətirilməsi. Beyləqan r., Günəşli kəndi.**

Günəşli kəndi üzümçülük sovxozunda işləmək üçün keçən əsrin 50-ci illərində Cəbrayıl rayonunun Sirik kəndindən gəlmiş ailələrdən təşkil olunub. Vaxtilə otuz-qırx ailədən ibarət olan kənd indi 200-dən artıq təsərrüfatı olan bir kəndə çevrilib. Aşağıda verilən təsvir 2014-cü il martın 21-də həmin kənddə keçirilən mərasimin videoyazısı əsasında verilmişdir.

Padşah, onun əyan-əşrəfi qabaqcadan müəyyən edilmiş bir evdə bəzədilir. Padşah və vəzir-vəkilin başına önünə quş lələyi bərkidilmiş buxara papaq qoyulur. Padşahın papağına bərkidilmiş quş lələyi digərlərindən rənginə görə seçilir. Hər üçünün sinəsinə çarpaz qırmızı şal bağlanır. Vəzirin əlində tüfəng, vəkilin əlində isə qalxan rolu oynayan dördayaq və xançal olur. Onları qoruyan fərraşların müşayiəti altında evdən çıxaraq qabaqcadan hazırlanmış maşına minirlər. Padşah meydana banı (kuzası) açıq maşında gətirilir. Maşının banında ortada padşah, sağında və solunda vəzir-vəkil durur. Padşahı on iki fərraş qoruyur. Onlardan ikisi maşının banında arxadan padşahı mühafizə edir, bir neçəsi maşının böyrü ilə hərəkət etməklə onu ətrafdan mühafizə edir. Qalan fərraşlar isə maşının qabağı ilə hərəkət edərək camaatı yoldan təmizləyir, maşının önünü açmağa çalışır. Maşının banındakı fərraşlardan biri əlində Azərbaycan bayrağı tutmuşdu, digər fərraşların isə əlində ya qamçı, ya da kəmər vardı. Gəlin karvanında olduğu kimi padşahın maşını öndə, digər maşınlar isə onun arxasında siqnal verə-verə padşahı meydanda qurulmuş çadıra gətirirlər. Qarşı tərəfdən gələn sürücülər öz maşınlarını kənara çəkərək padşahın maşınına yol verirdilər. Yolboyu camaat padşahı alqışlayır, padşah isə onun seyrinə çıxmış camaatı əli ilə salamlayırdı.



**Padşah mağarın önündə**

Mağar geniş bir ərazidə qurulmuşdu. Başda padşah üçün stol-stul, sağında Çələbi nəslinin nümayəndəsi üçün kreslo qoyulmuş, solunda isə çalğıçılar üçün yer düzəldilmişdi. Mağarın bir tərəfində qadınlar, digər tərəfində isə kişilər üçün oturmağa yer təşkil edilmişdi. Meydanın ortasında dar ağacı qurulmuşdu. Padşah "Şah gəldi" havasının müşayiəti altında mağara daxil olur. Daha sonra şən hava çalınır və padşah, vəzir-vəkil fərraşların əhatəsində bir qədər oynadıqdan sonra keçib öz yerlərində otururlar.

Vəzir padşahın gəlişinin möhtəşəm olduğunu vurğulayaraq onun küsülüləri barışdırmaq, oynamayanları oynatmaq, haqq-ədaləti bərpa etmək üçün burada olduğunu bildirir və məclisi açmaq üçün sözü Arif Çələbiyə verir. Həzrət Əlinin taxta çıxdığı günün əsrlərdən bəri bayram edildiyini vurğulayan Arif Çələbi bu gün də həmin ənənəyə sadiq qalındığını bildirərək bu bayramın hamı üçün uğurlu olmasını diləyir və məclisi açıq elan edir.



**Padşahın cəzalandırdığı adam dar ağacına götürülür.**

Kəndin qız-gəlinləri padşah üçün xüsusi olaraq şax bəzəyir, xonçalar gətirirlər. Şaxın mağara gətirilməsi daha təmtəraqlı qeyq olunur. Şaxı gətirən qadın əlində şax bir qədər oynadıqdan sonra onu aparıb padşahın qarşısına qoyur, ardınca digər qadınlar gətirdikləri xonçaları padşahın oturduğu

stolun üstünə qoyurlar. Həmin xonçadakı nemətlər məclisin sonunda camaata paylanır.

Padşah məclis boyu danışmır, onun əvəzindən əmrləri vəzir verir, qolu qırmızı sarıqlı fərraşlar da həmin əmrləri yerinə yetirirlər. Padşahın ilk icraatı onun mühafizəsini yaxşı təşkil etmədiyi, karvanın önünün kəsilməsinə şərait yaratdığı üçün fərraşların başçısını asdırmaq olur. Digər fərraşlar həmin adamı qollarına alaraq dar ağacından asırlar. Təbii ki, burada gerçək asılmaqdan söhbət getmir, insana xətər yetirilməsin deyə, onu ya sinəsindən, ya da ayağından asırlar. Padşah başqa kəndlərdən gəlmiş qonaqları casusluqda günahlandırır, amma Arif Çələbi qabaqcadan tapşırdığı üçün onları asdırmır, cəriməkləməklə kifayətlənirdi. Daha sonra padşah ona gətirilən xonçanı dağıtdığı üçün kənd cavanlarından birinin dar ağacından asılmasını əmr edir. Asılmağa məhkum edilmiş şəxsin yaxın adamı cəriməni ödədikdən sonra padşah onu azad edir.

Kənddə bəzi adamların hüzrü düşdüyü üçün məclisdə iştirak etmirdilər. Padşahın ilk icraatlarından biri də onları yasdan çıxarmaq üçün həmin adamları evlərindən gətirtdirərək məclisdə oynatmaq olur. Mərasimin maraqlı hadisələrindən biri məclisin ortasında yaşanır. Padşahın mühafizəsini təşkil edən fərraşlardan biri oğurlanır və onu ağ mələfəyə bükülmüş halda maşının arxasında gətirib meydana buraxırlar. Həmin adamın sinəsinin üstünə də yazıb yapışdırırlar ki, biz belə padşah tanımırıq. Padşahın tələbi ilə onun adamını oğurlamağa cəsarət etmiş şəxsləri tutub dar ağacından asırlar.

Kənd camaatının təsəvvüründə martın 21-22-si Əli bayramı olduğu üçün heç kəs həmin günlərə toy salmazdı. Həmin günə toy salmaq Əlinin bayramına şərik çıxmaq kimi

düşünüldüyünə görə toyu olan da məclisi başqa tarixə keçirərdi. Qonşu kənddə həmin gün toy olduğunu öyrənən padşah bəyi onun hüzuruna gətirmələrini tələb edir. Bəyi sağdışı, soldışı ilə birlikdə padşahın hüzuruna gətirirlər. Padşah ondan bu adəti pozduğuna görə izahat tələb edir. Bəyin verdiyi izahatdan razı qalan padşah onu bağışlayır, ona xeyir-dua verir. Bəy də sağdışı, soldışı ilə bir az oynadıqdan sonra məclisi tərk edir.

Günəşli kəndində "Padşah oyunu" səhər tezdən başlayıb gecə saat on ikiyə qədər davam etmiş, yalnız iki dəfə – günorta yeməyində və axşam naxır gələn vaxt məclisə fasilə verilmişdi. Fasilədən sonra məclisdə əvvəlki qələbəliyin olmayacağını düşünsək də, belə olmadı. Əksinə, kənd sakinləri bu bayrama o qədər bağlı idilər ki, hər dəfə mərasimə əvvəlkindən çox insanın qatıldığını gördükdə təəccübümüzü gizlədə bilmədik. Mərasimin sonunda isə padşah fərraşların əhatəsində meydanı səssiz-səmirsiz tərk edir.

## Folklor mətnlərində "Padşah oyunu"

"Padşah oyunu"ndan biz ancaq etnoqrafik hadisə kimi söhbət açdıq, bizə bəlli olan mətnlər əsasında onun günümüzə gəlib çatmış şəklinin təsvirini verdik. Hər bir etnoqrafik hadisənin folklorda mütləq bir əksi olduğunu nəzərə alsaq, onda "Padşah oyunu"nun izləri ilə folklor mətnlərində rastlaşmağımız qaçılmazdır. Folklor mətnlərində yalançı padşahlar özlərini əsl padşahlara bənzədirlər; onlar kimi geyinir, taxtda oturur, insanların şikayətinə baxır, mübahisəli məsələləri həll edir, hədiyyə qəbul edirlər və s. "Padşah oyunu"na, əsasən, İskəndər, Nadir şahın adıyla bağlı süjetlərdə rast gə-

linir. Təbii ki, folklordakı "Padşah oyunu"nu etnoqrafik faktın tam əksi saymaq olmaz. Başqa sözlə, "Padşah oyunu" etnoqrafiyada inisiasiya mərasiminin tərkib hissəsi kimi çıxış edir, ilin müəyyən vaxtında – qışın bitib yazın gəldiyi, köhnə ilin qurtarıb yeni ilin başladığı dövrdə keçirilir. Folklor mətnlərində isə o, sadəcə, uşaqların oynadığı bir oyun kimi qələmə verilir, onun oynanıldığı vaxt konkret göstərilmir. Bərdə rayonundan qeydə alınmış mətndə deyilir ki, İskəndər şahlığa çıxmazdan əvvəl naxıra gedirdi. Hər dəfə də ayağını dizə qədər palçığa batırar, çobanlar hərəsi çomağın bir ucundan tutar, o da çıxıb onun üstündə oturar və gəlib-gedəndən töycü yığardı. Mətndə qeyd olunur ki, bir dəfə Həccə gedən bir nəfər qazıya bir küp qızıl verir ki, burada olmadığı müddətdə qızıldan az-az onun ailəsinə xərcləməyə versin. Qazı qızılları mənimsəyir, onları həmin şəxsin ailəsinə verdiyini sübut etmək üçün yalançı şahid tutur. İskəndər şahidlərdən küpün ölçüsünü soruşduqda hərəsi bir ölçü deyir. Bunun sayəsində qazının yalanını üzə çıxarır və qızılları sahibinə qaytarır (Qarabağ 2012a: 81).

Ağdaş rayonundan qeydə alınmış başqa bir mətndə isə deyilir ki, Nadir hələ şah olmamışdan qabaq bir dəstə uşağı başına yığıb "Padşah oyunu" oynayırdı. Bir nəfərin satmağa alma apardığını görüb yanındakı fərraşlardan həmin adamı onun hüzuruna gətirmələrini tələb edir. Həmin kişi Nadirə bir bağlama alma hədiyyə edir. Fərraşlar onu yola salanda alma satan getmək istəmir və padşahdan verdiyi hədiyyənin qarşılığını tələb edir. Fərraşlar bunun bir oyun olduğunu söyləsələr də, alma satan onlarla razılaşmır. Onun tələbi ilə Nadir bir kağıza şah olarsa, onu özünə vəzir götürəcəyini yazır və altına imzasını atıb alma satana verir. Doğrudan da,

aradan xeyli müddət keçəndən sonra Nadir şah seçilir və həmin şəxsi özünə vəzir götürür (AFA 2006: 151).

Yalancı padşahlar o qədər geniş səlahiyyətə malik olurlar ki, hətta həqiqi padşahları öz hüzurlarına gətirməyə, onların fərraşını döydürməyə belə cəsarət edirlər. Belə bir təsəvvürə beş cildlik nağıllar toplusunun I cildində çap olunmuş "Keçəlin divanı" nağılında rast gəlirik. Nağılda deyilir ki, qırx keçəl öz aralarından birini padşah tikmiş, digərlərinin isə hərəsinə gündəlik donluq kəsmişdilər. Keçəllər palçıqdan səki qayırmışdılar. Padşah səkidə ayağını ayağının üstünə aşıraraq oturur və əmrlər verir, digər keçəllər isə onun əmrlərini yerinə yetirirdi (AN 2005: 303). Bu nağıl bir qədər yuxarıda təsvirini verdiyimiz İskəndər haqqında rəvayətlə eyni süjet əsasında qurulmuşdur. Burada da böyük qardaş kiçik qardaşın göndərdiyi ləli mənimsəyir və yalançı şahid tutaraq ləli qardaşının ailəsinə çatdırdığını iddia edir. Böyük qardaşın tutduğu şahidlərə inanan Şah Abbas fərraşlardan böhtan atdığı üçün kiçik qardaşı onun hüzuruna gətirmələrini tələb edir. Fərraşlar kiçik qardaşı aparmağa gələndə yalançı padşah onları qovub deyir: "Vurun bunları, məyər mənnən başqa bırda paççah var?" Daha sonra nağılda deyilir ki, yalançı padşah keçəllərdən ikisini Şah Abbası onun hüzuruna gətirməyə göndərir: "*...Şah Abbas baxdı gördü iki adam girdi içəri. – "Abbas kimdi? Paççah onu çağırır". Şah Abbas ürəyində dedi: "Sən öl, məsələ var". Vəzirə dedi: "Vəzir Allahverdi xan, dur, gedək görək bu nə deyir". Yolda dedi: "Vəzir Allahverdi xan, əyər mən gedəndə durdu ayağa, boynunu vurduracağam. Bunda bir kəramət var".*

*Yavaş-yavaş gəldilər keçəlin qulluğuna. Baxdılar gördülər heç bı keçəl başın yuxarı qalxızmır. Keçdilər qaba-*

*ğında durdular, gördülər heç genə başın yuxarı qalxızmadı. Bir havırdan sonra başın qalxızdı dedi: “Abbas sənsən?” Dedi: “Bəli”. Dedi: “O sövdəyəri neynirsən çağırıp?” Dedi: “Bəs belə-belə. Yalan danışıp, ona görə çağırtdırırdım”*

Yalançı padşah şahidlərdən ayrı-ayrılıqda ləlin böyüklüyünü, rəngini soruşur. Ləli görməyən şahidlər hərəsi bir ölçü deyir, müxtəlif rəng söyləyirlər, bunun sayəsində onların yalanı üzə çıxır və ləl sahibinə qaytarılır (AN 2005: 312).

“Padşah oyunu”nun digər variantlarına SMOMPK məcmuəsinin XIII və XXI buraxılışlarında çap olumuş “Padşah çoban” nağıllarında (TR 920*) rast gəlinir (SMOMPK 1892: 78; SMOMPK 1896: 96). Azərbaycan ərazisində yaşayan ermənilərdən qeydə alınmış həmin nağıllarda yalançı padşah ədalətli bir hökmdar kimi qələmə verilir. Digər variantlardan fərqli olaraq bu nağıllar əsl padşahın öz taxt-tacını yalançı padşaha təhvil verməsi ilə tamamlanır.

“Padşah oyunu”nun müxtəlif janrlı mətnlərdə özünə yer tapması, ən əsası, həmin mətnlərin fərqli-fərqli bölgələrdən yazıya alınması bu təsəvvürün vaxtilə Azərbaycanda geniş yayıldığını göstərir. O zaman belə bir sual yaranır: bu qədər geniş yayılmış bir oyunun müasir dövrə gəlib çıxmamasını nə ilə izah etmək olar? Günümüzə gəlib çatan həmin oyunun daha primitiv və sadələşmiş şəkli adlandıra biləcəyimiz “Xan-vəzir” oyunudur, amma etiraf etməliyik ki, bu oyun da folklor mətnlərində təsvir edilən “Padşah oyunu”-nun tam oxşarı deyildir. Həmin oyunun tarixi təşəkkülünə dair məlumatların yoxluğu onun hansı səbəbdən bu gün məişətdən çıxdığını izah etməyə imkan vermir. Ona görə bu sualı cavablandırmaqda çətinlik çəkirik.

## Digər xalqlarda "Padşah oyunu"na bənzər oyunlar

C.Frezerin yazdığına görə, fevral ayında Kamboca kralı üç günlüyə taxtdan əl çəkir, bu müddət ərzində o, dövlət işləri ilə məşğul olmur, möhürə əl vurmur, hətta vergi belə yığmır. Onun səlahiyyətlərini müvəqqəti olaraq Kral Fevral yerinə yetirir. Bu vəzifə kral xanədanına uzaq qohum olan bir şəxsə verilir və əsl kral titulu kimi atadan oğula, böyük qardaşdan kiçiyə ötürülür. Münəccimlərin təyin etdiyi uğurlu gün gələndə müvəqqəti kral əyan-əşrəfin müşayiəti ilə şəhərdə gəzintiyə çıxır. Saray filinin üstündə kəcavəsində oturan kralı milli geyimli əsgərlərdən ibarət eskort müşayiət edir. Qızıl tac yerinə onun başına ucu şiş qalpaq qoyulur, kral hakimiyyətinə aid nişanələri də almaz qaşlı qızıldan deyil, adi ağacdan düzəldilmiş olur. Müvəqqəti kral əsl krala lazımi ehtiram göstərib üç günlüyə hakimiyyəti ondan təhvil alır. Sonra müvəqqəti kral məiyyətinin müşayiəti ilə sarayı və paytaxtın küçələrini gəzib dolaşır. Hakimiyyətinin üçüncü günündə o, çəltik dərzlərini fillərə tapdalatdırır, bol məhsul olsun deyə, hərə həmin düyüdən bir az götürür (Frezer 2001: 379).

Siamda isə müvəqqəti kralın üç günlük idarəçiliyi qəməri təqviminin altıncı ayının altıncı günü (yəni aprelin sonunda) başlayır, əsl kral isə bu zaman sarayda dustaq edilir. Keçici kral dükan və bazarlarda daha çox mal müsadirə etmək üçün çoxsaylı qulbeçələrini hər tərəfə göndərir. Hətta bu günlər ərzində limana gələn gəmilər müvəqqəti kralın nəfinə müsadirə olunur və fidyə ödədikdən sonra azad edilir (Frezer 2001: 380).

Bəzi xalqlarda isə müvəqqəti hökmdar ya yarışla, ya da keçirilən hərrac nəticəsində müəyyən edilir. C.Frezer yazır

ki, hər yeni ilin başlanğıcında Səmərqənd hakimi, onunla birlikdə şəhərin bütün sakinləri yaxınlıqdakı meşəyə gedib yeddi gün at üstündə ox atmaq yarışı keçirərdilər. Bayramın son günündə hədəf bir qızıl sikkə olurdu, onu vuran atlı Səmərqəndi bir günlüyə idarə etmək hüququ qazanırdı (Frezer 2001: 382).

Mərakeşdəki müsəlman tələbələr isə hərrac keçirər, ən çox pul verən şəxsi bir neçə həftəliyə Katiblər Sultanı təyin edərdilər. Bu vəzifəni icra edən şəxs həm də mühüm imtiyazlar əldə edirdi: o, vergilərdən azad edilir, əsl sultana birbaşa xahişlə müraciət etmək hüququ qazanır. Hansısa bir dustağı azad etməyi təvəqqe etdikdə onun xahişi nadir hallarda təmin edilməzdi. Katiblər Sultanının vəkilləri tacirlərə və ev sahiblərinə qarşı gülməli ittihamlar irəli sürür və bu ittihamlara görə onları cərimələyirdi. Müvəqqəti sultan sözün əsl mənasında cah-cəlal içərisində yaşayırdı. Cərimələr, sovqatlar, könüllü ianələr və gen-bol ənamlar hesabına kef məclisləri, şənliklər düzəldirdi. Yalançı sultan ilk yeddi günü mədrəsədə qalır, sonra bir dəstə tələbə və sakinlərlə birgə şəhərdən kənarda çay sahilində düşərgə salır. Şəhər kənarında qaldığı yeddinci gün əsl sultan Katiblər Sultanını ziyarət edir və Katiblər Sultanının xahişi ilə onun səlahiyyət müddətini daha bir həftə uzadır. Üç həftə sürən bu hakimiyyət dövrü yalançı sultanın şəhərə qayıdıb hakimiyyəti əsl sultana təhvil verməsi ilə tamamlanırdı (Frezer 2001: 382).

Mərakeşdə bu adət yazda, aprel ayında keçirilirdisə, Misirdə qibti təqvimi ilə günəş ilinin birinci günü (10 sentyabrda) keçirilirdi. Həmin gün hökümət üç günlüyə buraxılır və hər şəhər öz hakimini seçirdi. Bu müvəqqəti hakim başına təlxək qalpağı qoyur, əyninə gülməli xalat geyinib əlinə

sultanlıq əsası alır və katib libası geymiş adamların, cəlladların müşayiəti ilə şəhər hakiminin evinə yollanırdı. Qanuni hakim müddəiyə özünü devirməyə izn verirdi və o, taxta oturub divan qururdu. Bu divanın hökm və qərarlarına həm hakimin özü, həm də məmurlar tabe olmalı idi. Üçgünlük hökmranlıqdan sonra onu edama məhkum edirdilər. Əslində, onun özü deyil, içinə salındığı ağac qəfəs yandırılır, o özü isə oradan sağ-salamat çıxırdı (Frezer 2001: 382).

Bəzi ölkələrdə bu adət əsl hökmdarı onu gözləyən təhlükələrdən qorumaq məqsədi ilə keçirilirdi. Şahın bu cür epizodik əvəzlənməsi hallarına İran tarixində tez-tez rast gəlinir. C.Frezerin yazdığına görə, 1591-ci ildə münəccimlər Böyük Şah Abbası onu gözləyən ciddi təhlükədən xəbərdar edirlər. Təhlükəni adlatmaq üçün şah, Yusif adlı şəxsin xeyrinə taxtdan əl çəkir. C.Frezerin İran mənbələrinə istinadən yazdığına görə, bu şəxs üç gün ərzində nəinki şah adlanmış, həm də qeyri-məhdud hakimiyyətə malik olmuşdur. Bu müddət keçdikdən sonra həmin şəxs edam olunmuş, Şah Abbas taxta çıxaraq uzun sürən şan-şövkətli bir şahlıq dövrü sürmüşdür (Frezer 2001: 386). Xatırlatmaq yerinə düşər ki, M.F.Axundovun “Aldanmış kəvakib” əsərinin mövzusu həmin hadisədən götürülmüşdür.

Yalançı hökmdar haqqında təsəvvürlər “heç bir xalqda və dövlətdə Rusiya tarixindəki qədər rol oynamamışdır”. K.V.Çistovun sözləri ilə desək, XVII əsrin başlanğıcından XIX əsrin ortalarına qədər Rusiya tarixində elə bir dövr tapmaq çətindir ki, orada yalançı hökmdar meydana çıxmasın (Çistov 1967: 29). Hətta bu oyun ölkədə o qədər vüsət almışdır ki, heç bir siyasi məsuliyyəti olmayan yalançı hökmdarlardan qurtulmaq üçün onun keçirilməsi XVII əsrdə qada-

ğan olunmuş, bu oyunun iştirakçıları isə ciddi təqib edilmişlər. Bütün təqiblərə baxmayaraq, bu mərasim yaşamış və folklorda da öz izlərini saxlamışdır. Belə oyunlardan biri maslenitsa həftəsində keçirilir. 1666-cı ildə böyük pəhrizin ilk həftəsi Nikita Borisoviç Puşkin Moskvaya yazdığı ərizədə öz kəndlilərinin əməli haqqında xəbər verir. Məlumatda kəndlilərin öz aralarından kimisə başçı seçdikləri, onu rəhbər adlandırdıqları vurğulanırdı. Seçilən başçının başına qıf qoyulduğu, kəndlilərin onu xərəkdə kənd içində gəzdirdikləri qeyd olunurdu. Silah əvəzinə əllərində yarılmış ağac parçası tutduqları, bayraq əvəzinə ağaca dəsmal bağladıqları, bu görkəmləri ilə camaatda təşviş yaratdıqları deyilirdi (Uspenski 1994: 84).

Hakimiyyətdə olduğu illərdə İvan Qroznı bir neçə dəfə başqalarının xeyrinə hakimiyyətdən çəkilmişdir: 1564-cü ildə opriçninanın təsisi ilə, 1575-ci ildə isə Simon Bekbulatovu hökmdar qoymaqla əlaqədar. Hər iki halda öz rütbələrini və dövlət atributlarını təhvil verməsinə, paytaxtı tərk etməsinə baxmayaraq, yenə də çarlığında qalmışdır. 1567-ci ildə İvan Qroznı boyar İvan Petroviç Federova (o, xəyanət etməkdə şübəhli bilinirdi) öz paltarını geyindirir, hökmdarlığın atributlarını verərək onu taxtında oturdur. Özü isə onun qabağında təzim edir və hökmdara aid bütün hörməti göstərdikdən sonra onu öz əliylə öldürür. Bu oyun arxaik məzmunundan bir qədər uzaqlaşmış, ilk baxışdan taxt-taca iddia edən şəxsi aradan götürmək, qisasçılıq kimi görünür, amma B.A.Uspenskinin fikrincə, bu hadisə maskarad oyununun bir parçasıdır (Uspenski 1994: 85). 1575-ci ildə İvan Qroznı bütün rütbələrini, hökmdarlıq atributlarını Simon Bekbulatova verir, özü İvan Moskovski adını götürür və sadə boyar kimi

şəhərdən kənarda məskunlaşır. B.A.Uspenskinin yazdığına görə, Simon Bekbulatovun şərəfinə tacqoyma mərasimi də təşkil olunmuşdur.

M.B.Rudenkonun yazdığına görə, İranın şimal-qərbində yaşayan müsəlman-kürdlərdən ibarət mukri tayfası Novruz bayramında yalançı əmir seçər, onun bütün sərəncamlarını sözsüz yerinə yetirərdilər. Müvəqqəti əmirin cəza vermək, cərimə tətbiq etmək və hədiyyə almaq kimi səlahiyyətləri vardır. Bu oyunun dəyişməz aktyorlarından biri də təlxək idi: təlxək əmirin yanında dayanar və öz hərəkətləri ilə camaatı əyləndirərdi. Əmirin gülməyə ixtiyarı yox idi. Əgər əmir tab gətirə bilməyib gülərsə, o özü gülüş hədəfinə çevrilir və onu biabırçı şəkildə qovardılar. Oyunun müddəti əmirin və auditoriyanın marağından asılı idi. Oyun bəzən 20-25 günə qədər uzanardı. Elə ki ətrafın marağı tədricən azalır, əmir bütün iştirakçıların dağılmasını əmr edir. Tək qalan əmir hakimiyyəti həqiqi əmirə verir və qaçıb adi paltar geyinir. Oyun bununla tamamlanardı (Rudenko 1974: 120).

### “Padşah oyunu” karnaval mədəniyyəti hadisəsi kimi

Fikrimizcə, “Padşah oyunu” karnaval mədəniyyətinin bir parçasıdır və məsələyə bu kontekstdən yanaşılması həmin mədəniyyət hadisəsinin mahiyyətini açmağa kömək edəcəyi qənaətindəyik. M.M.Baxtinə görə, karnaval mərasimi gülüş üzərində qurulur və rəsmi tədbirlərə, dini mərasimlərə parodiya olaraq meydana çıxır. Tərkibində oyun element-ərinin olması karnaval oyunlarını meydan tamaşalarına yaxınlaşdırsa da, o sırf incəsənət hadisəsi deyil. Karnaval tamaşalarında səhnə yoxdur, o, aktyor və tamaşaçı bölgü-

sünü sevmir. Burada real həyatın özü oynanılır. İnsanlar təkcə bu həyatı oynamaqla kifayətlənmir, eyni zamanda onu yaşayırlar, özləri bu həyatın bir parçasına çevrilirlər. Ona görə də M.M.Baxtin karnaval tamaşalarını həyatla incəsənət arasında duran bir mədəniyyət hadisəsi kimi səciyyələndirir (Baxtin 1965: 10).

M.M.Baxtinin karnaval mədəniyyətinə şamil etdiyi bu əlamətlərə eynilə “Padşah oyunu”nda da rast gəlirik. “Padşah oyunu” da gülüş üzərində qurulur (səbəbsiz deyil ki, vəzir olacaq şəxsdə ilk növbədə gözəl danışıq qabiliyyəti, camaatı güldürmək, əyləndirmək bacarığı axtarılır) və əsl padşahın bir parodiyasıdır. Karnaval mədəniyyətində olduğu kimi, “Padşah oyunu”nun da öz qayda-qanunları var, kimsə özünü onun fövqündə tuta bilməz. Hətta ailəsinə itki üz verənlər, yasda olanlar belə padşah tələb etdiyi təqdirdə gəlib bayramda iştirak edir və oynayırlar. Onlar çox gözəl başa düşürlər ki, padşahın verdiyi əmrlərə hər kəs tabe olmalı, həmin əmrləri yerinə yetirməlidir. Əks təqdirdə əmrə tabe olmayanlara güzəşt edilmir və onlar cəzalandırılırlar. Bu səbəbdən böyük-kiçik, cavan-qoca hər kəs bu qaydalara əməl edir, bununla özləri də bu oyunun bir parçasına çevrilirlər.

Karnaval mədəniyyəti ierarxik münasibətləri, xüsusi norma və qadağaları qəbul etmir. Karnaval müddətində insanlar arasında adi həyatda mümkün olmayan ideal bir əlaqə yaranır. Muxtar Kazımoğlu-İmanovun “Xalq gülüşünün poetikası” monoqrafiyasında ifadə etdiyi kimi, gündəlik həyatda özünü göstərən rəsmiyyətçilik və ağır davranma halları bayram şənliyində aradan götürülür, sevinc, nəşə, sərbəstlik, azadlıq şənliyin ruhuna hakim kəsilir. Əsl bayram ab-havası məhz bu daxili sərbəstlik və azadlıq sayəsində yaranır (Ka-

zımoğlu 2006: 240). Bunun nəticəsidir ki, real həyatda ciddi narazılıq doğuracaq bir çox hərəkətlər, davranışlar burada gülüşlə qarşılanır, normal qəbul olunur. Ordubad rayonunda kişilərin padşahı güldürmək üçün qadınlardan çəkinmədən açıq-saçıq zarafatlar etməsini ancaq bununla izah etmək olar. Yaxud Günəşli kənd sakinlərinin dediyinə görə, bir dəfə padşah yaşlı bir qadının soyundurulmasını əmr edir. Qadın hazırcavablığı sayəsində – "biabır oldum, əynimdə tumanım yoxdur" deməklə bu cəzadan canını qurtara bilir. Ətrafda yad insanlar olduğu halda qadının çəkinmədən əynində tumanı olmadığını dilinə alması karnaval üçün xarakterik sərbəstlikdən xəbər verir.

Qədim dövrdə "Padşah oyunu", bir qayda olaraq, müvəqqəti padşahın öldürülməsi ilə tamamlanırdı. Sonrakı dövrlər bu adət bir qədər yumşaldılmış və simvolik ölüm ilə əvəzlənmişdir. Babillərdə də əvvəl müvəqqəti hökmdarın özü öldürülürdüsə, sonralar onun salındığı taxta qəfəs yandırılır, özü isə qəfəsin içindən sağ çıxarılırdı. Azərbaycanda isə bu motiv padşahın taxtdan endirilib suya basılması və yaxud onun soyundurulub simvolik dardan asılması şəklini almışdır. Forma müxtəlifliyinə baxmayaraq, əslində bu motivlər eyni mənanı ifadə edir və yalançı padşahın rüsvayçı sonluğu onun simvolik ölümü anlamına gəlir. Amma mərasimin arxaik məzmunundan uzaqlaşması həmin adətin tədricən silinməsinə səbəb olmuşdur. Bunun nəticəsidir ki, mərasimin son illər qeydə alınmış variantlarının heç birində bu adətə rast gəlinmir, yalnız mərasim şahidlərinin verdiyi məlumatlarda vaxtilə hansısa padşahı suya basmaları haqqında xatirələr mövcuddur. Əslində mərasimin bütün məğzi, mənası həmin detalda saxlanılır və oyun, bir qayda olaraq, yalançı

padşahın suya basılması ilə tamamlanmalıdır. Bu təsəvvür İranda yaşayan kürdlərdə qalmaqdadır. Onlardan qeydə alınmış təsəvvürə görə, padşah gülməkdən özünü nə qədər saxlayardısa, mərasim də bir o qədər davam edərdi. Sual olunur: padşahın öldürülməsi və ya suya basılması nə üçün bu qədər önəm kəsb edir? Bu sualın cavabı əslində mərasimin mahiyyətində gizlənib.

Xalq mərasim tamaşaları M.M.Baxtinin də ifadə etdiyi kimi cəmiyyətdə, təbiətdə və insan həyatındakı keçid dövrlərlə əlaqədardır. Yenidən doğulma, yeniləşmə, dəyişiklik bu tip mərasimlərin əsas məğzini təşkil edir (Baxtin 1965: 14). “Padşah oyunu” da qışdan yaza keçid dövründə, könhə ilin tamamlanması, yeni ilin başlanması ərəfəsində keçirildiyindən digər inisiasiya mərasimləri ilə eyni mənanı daşıyır. Azərbaycan folklorunda gülüşün arxaik köklərini araşdıran Muxtar Kazımoğlu-İmanov da “Padşah oyunu”nu əsl hökmdarın müvəqqəti ölüm mərhələsindən keçib dəyişməsi kimi səciyyələndirir. Onun fikrincə, əsl və yalançı padşah qarşılaşmasında başlıca məqsəd əsl hökmdarı şərdən, yamandan qorumaq və onun həyatverici qüdrətini artırmaqdır (Kazımoğlu 2006: 92). Deməli, “Padşah oyunu” əsl hökmdarın ölüb yenidən doğulmasını simvolizə edir. Sadəcə olaraq, burada əsl hökmdar rolunda padşahın özü deyil, onun “əkiz tayı” çıxış edir. Yalançı padşahın öldürülməsi və əsl padşahın təkrar taxta çıxması onun yenidən doğulması, yeniləşməsi kimi qavranılır, bununla da yeni hökmdarın daha qüdrətli olacağına, onun hakimiyyətinin daha uzun sürəcəyinə inanılır. Tarixi mənbələrdə Yusif Sərracdan sonra Şah Abbasın hakimiyyətinin daha üzün sürməsinin xüsusi olaraq vurğulanması əslində həmin yeniləşmənin doğurduğu nəticədir.

Mərasimə dair daha qədim təsvirlərdə müvəqqəti padşah cəmiyyətə heç bir faydası olmayan insanlardan seçilirdi (cinayətkarlardan, Yusif Sərrac kimi başqa dinin nümayəndələrindən və s.). Hakimiyyətdə olduğu müddətdə o, səlahiyyətlərindən öz mənfəəti üçün istifadə edir: saxlatdırdığı gəmiləri fidyə qarşılığında azad edir, şəxsi maraqları üçün camaatdan vergi yığdırır və s. Müvəqqəti hökmdarların bu cür fəaliyyəti folklor mətnlərində də özünə geniş yer tapmışdır. “Pirqulunun şahlığı” (TR 995*) nağılında deyilir ki, məzuniyyətə çıxan padşah öz yerinə yeyib-içən, əhli-kef birini təyin edir. Müvəqqəti padşah hakimiyyətdə olduğu müddətdə bir qadına bir kisə qızıl verir, qəssabın boynunu vurdurtdurur. Etdiyi hərəkətlərin səbəbini soruşduqda məlum olur ki, qəssabın boynunu onunla ədavəti olduğu üçün vurdurtdurub. Qızıl verdiyi qadın isə onun öz arvadıdır, gələcək həyatlarını təmin etmək üçün ona bir kisə qızıl verib (Qarabağ 2013: 275). Deməli, mərasimin daha qədim şəklində müvəqqəti hökmdarlar sahib olduğu səlahiyyətlərdən öz maraqlı üçün istifadə edirdilər. İslamın gəlişindən sonra “Padşah oyunu”nun Həzrət Əlinin adı ilə bağlanması və onun taxta çıxdığı gün kimi səciyyələndirilməsi oyunun məzmununda ciddi dəyişikliklərə səbəb olmuşdur. Bu tarixdən etibarən həmin gün taxta çıxarılacaq adamda yüksək mənəvi keyfiyyətlər axtarılmağa başlanmışdır: həmin adam həm mənən, həm də cismən təmiz olmalı, həmin gün qüsullanaraq taxta çıxmalı, ədalətli hökmdar kimi davranmalıdır. Bu kimi dəyişikliklər nəticəsində mərasim ilkin məzmunundan uzaqlaşaraq, xalqın ədalətli hökmdar arzusunun təcəlləsinə çevrilmişdir.

## Qaynaqlar

AFA 1994 – Azərbaycan fokloru antologiyası (Naxçıvan folkloru), I c. / Tərtib edənlər: T.Fərzəliyev, M.Qasımlı. Bakı: Sabah, 1994.

AFA 2006 – Azərbaycan folklor antologiyası (Ağdaş folkloru), XVI c., / Toplayıb tərtib edən: İ.Rüstəmzadə. Bakı: Nurlan, 2006.

AN 2005 – Azərbaycan nağılları / Tərtib edən: H.Zeynallı. 5 cilddə, I c., Bakı: Şərq-Qərb, 2005.

Baxtin 1965 – М.М.Бахтин. Творчество Франсуа Рабле и народная культура средневековья и Ренессанса. М.: Художественная литература, 1965.

Çistov 1967 – К.В.Чистов. Русские народные социально-утопические легенды XVII-XIX вв.: Моногр. М.: Наука, 1967.

Frezer 2001 – Дж.Дж.Фрэзер. Золотая ветвь. Исследование магии и религии. В 2 т. Том 1. / Пер. с англ. М.Рыклина. М: ТЕРРА-Книжный клуб, 2001.

Kazımoğlu 2006 – M.Kazımoğlu. Xalq gülüşünün poetikası. Bakı: Elm, 2006.

Qarabağ 2012a – Qarabağ: folklor da bir tarixdir, II kitab / Tərtib edən: İ.Rüstəmzadə. Bakı: Elm və təhsil, 2012.

Qarabağ 2012b – Qarabağ: folklor da bir tarixdir, III kitab / Tərtib edən: İ.Rüstəmzadə. Bakı: Elm və təhsil, 2012.

Qarabağ 2013 – Qarabağ: folklor da bir tarixdir, IV kitab / Toplayanlar: İ.Rüstəmzadə, S.Bağdadova. Tərtib edən: İ.Rüstəmzadə. Bakı: Elm və təhsil, 2013.

Nizamülmülk 1987 – Nizamülmülk Əbu Əli Həsən ibn Əli Xacə. Siyasətnamə. Farscadan tərcümə, əsər və müəllif haqqında qeydlər R.Sultanovundur. Bakı: Elm, 1987.

Rudenko 1974 – М.Б.Руденко. Новогодние обрядовые праздневства у курдов / Фольклор и этнография. Обряды и обрядовый фольклор. Л.: Наука, 1974, с.118-124.

Seyidov 1990 – M.Seyidov. Yaz bayramı. Bakı: Gənclik, 1990.

SMOMPK 1892 – Сборник материалов для описания местностей и племён Кавказа, вып. XIII, Тифлис, 1892.

SMOMPK 1896 – Сборник материалов для описания местностей и племён Кавказа, вып. XXI, Тифлис, 1896.

Sultanlı 1964 – Ə.Sultanlı. Azərbaycan dramaturgiyasının inkişaf tarixindən, Bakı: ADN, 1964.

Şamil 2009 – Ə.Şamil. Novruz bayramında "Xan bəzəmə" və oradakı arxaik ünsürlər / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, Bakı: Nurlan, XXXI cild, 2009, səh.117-128

TR – Azərbaycan nağıllarının süjet göstəricisi (Aarne-Tompson sistemi əsasında). Bakı: Elm və təhsil, 2013.

Uspenskiy 1994 – Б.А.Успенский Царь и самозванец: самозванчество в России как культурно-исторический феномен / Успенский Б.А. Избранные труды. Т.1. Семиотика истории. Семиотика культуры. М., 1994, с.75-109

# SARAY ŞATIRLARI VƏ ŞATIR OYUNU

**Bilal Alarlı (Hüseynov)**
bilalalarli58@mail.ru

## PALACE SHATIRS AND THE PLAY OF SHATIR

SUMMARY

The plays remainded from shatirs differ from one another according to their subject, purpose and structure. One of these plays is connected with the imitating of the baking process. But the other play of shatir is organized in the form of running – testing competitions for the purpose of to determine fast and mobile persons. This play is completed with the solemn ceremony in which the winner is given the nickname – shatir.

The play of shatir which has existed among people serving people's health forms physical qualities such as quickness, courage, tolerance. In the middle centuries as shatirlig (shatirism) was a state important profession, their competitions were organized in high-level. Gradually losing its state important function the play of shatir has lived among people for a long time and it has been organized for the purpose of determining the fast, mobile and bearing persons.

The signs of shatirlig traditions still live in today's sport competitions. It is possible to apply some elements of modern sport competitions.

***Key words:*** *Folk plays, shatirs, shatir's running-sport game, shatir nickname.*

## ДВОРЦОВЫЕ ШАТЫРЫ И ШАТЫРСКИЕ ИГРЫ


РЕЗЮМЕ

Шатырские игры, оставшиеся в памяти народа, отличаются по теме, цели и структуры. Одна из этих игр связана с подражением процесса хлебопечения. Другая игра организуется в форме беговых испытательных состязаний с целью определения быстрых и ловких людей. Игра-состязение завершается вручением победителям имени клички шатыр в торжественной обстановке.

Игры шатыр, существовавшиеся в народе, служа здоровью, формировали у людей физические качества, как ловкость, храбрость и выносливость. В средневековье игры шатыров организовались на высоком уровне, потому что профессия шатыра считалась государственно важной. Со временем, даже после потери функции государственной важности, эта игра долгое время существовала в народе, организовалась с целью определения быстрых, ловких и выносливых людей.

В спортивных соревнованиях наших дней все еще живут следы традиций этих игр. Некоторые элементы этих игр можно применить в современных спортивных соревнованиях.



***Ключевые слова:*** *Народные игры, шатыры, шатырские беговые-испытательные игры, назавание шатыр.*


### Şatır anlayışı

Azərbaycanda Şatır termini ilə bağlı çoxlu sayda toponim mövcuddur. Zəngilanda olan Şatariz oykoniminin *şat (köç, düşərgə, çadır) və riz (yol)* komponentlərindən əmələ

gəldiyi bildirilir. Şatariz – *köç yolu* kimi mənalandırılır. Masallıdakı Şatıroba kəndi isə *"çörəkçilər obası"* kimi izah olunur. Bərdəlilər də Şatır sözünü *"çörəkbişirən, çörəkçi"* kimi yozurlar. Cəlilabadda Şatırçay, Şatırdağ və Şatırlı adlı yer-yurd adları vardır ki, yerli əhali bu adların qədim türkdilli şatar/şatır tayfası ilə bağlı olduğunu güman edir (ATEL 2007: 209). Şatır *çevik, zirək, cəld* mənasını da verir. Bu sözü ustad, zəbərdəst, fərraş, piyada kimi də şərh edirlər (Dadaşzadə 1985: 175).

Belə güman olunur ki, Cəlilabad rayonundakı eyni adlı kənd qədim türk mənşəli *şatar-şatır tayfasına* mənsub ailələrin indiki ərazidə məskunlaşması nəticəsində yaranmışdır və həmin tayfanın adı ilə adlandırılmışdır. Belə ki, bu yaşayış məntəqəsinin tarixi qədimlərə gedib çıxır. Kənd ərazisindən xeyli maddi mədəniyyət abidələrinin tapılması onun tarixinin qədim olduğunu sübut edir (Alarlı 2014: 35). Şatırlı haqqında olan mülahizələr həmişə mabahisə doğurmuşdur. Şatırlı toponimi haqqında fikir söyləmiş Ələsgər Məmmədov, Elçin Aslanov, Minəxanım Təkləli (Nuriyeva), Elşad Əmənov, Mahmudağa Qasımov, Məmməd Dadaşzadə və başqalarının arqumentləri mövcud elmi dəlillərə söykənir. Məsələn, Elşad Əmənov şatırların etnik soy olmadığını yazır və bildirir ki, hazırda Azərbaycan ərazisində Şatırlı və Şatıroba adları ilə mövcud olan kəndlərin arasında heç bir qohumluq əlaqəsi yoxdur. Yüngül çadırlardan istifadə edən Şatırlar yerlərini tez-tez dəyişirmişlər. Tarixçinin qənaətinə görə, şatır sözü qədim türk sözüdür və xüsusi keyfiyyətlərə malik şəxslərə verilən tituldur (Əmənov 2013, dekabr).

Bərdə rayonundakı Şatırlı toponimi ilə bağlı rəvayətdə deyilir ki, bu kəndi Şatır ləqəbi ilə tanınan şəxs və onun öv-

ladları salmışlar. Şatır sözü "çörəkbişirən" və "çörəkçi" kimi yozulur. Rəvayətə görə, Şatırın dizinin kündəsi (oynaq sümüyü) olmadığından ona bu ləqəb verilmişdir. Şatırın qəbri el arasında "Şatır ocağı" kimi tanınır. "Şatır ocağı" yerli əhalinin tez-tez ziyarət ediyi məkandır və bu pirin kəraməti müxtəlif inanclarla bağlıdır (ATEL 2007: 209).

Bakı dialektində şatır *çörəkyapan* mənasında işlənir. Qərbi azərbaycanlılar çörəkbişirmə sənətini şatırrıx adlandırırlar. Azərbaycan ədəbi dilində şatır işi, çörəkçilik peşəsi *şatırlıq* sayılır. Cənub bölgəsində aşılanmış göndən hazırlanan çarığa *şatırı*, Salyanda isə yorulub əldən düşən adama *şatırı çıxmış* deyirlər (ADİL 2006: 458).

Toponimin sözaçımlarından biri *çadır* sözü ilə bağlıdır. Bu sözü Azərbaycanın şimal-qərbində məskunlaşmış qıpçaq tayfalarının dilində işlənən "şatarla" əlaqəli şəkildə izah etməyə çalışan araşdırıcılar onun ikinci-üçüncü yüzilliklərdən üzü buyana dilimizdə işləndiyini bildirirlər. Azərbaycanın Qazax və Gəncəbasar bölgələrində şatar-şatır tayfası özündən sonra xeyli yer-yurd adı qoymuşdur. Bu yerlər *"şatır obaları"* adlanır. Türkiyədə *də şatır mahalları* mövcuddur: "Şatırlar mahallesi Osmanlı Devleti zamanında 1800 yılların başında hayvancılıkla uğraşan göçebe türkmenler tarafından kurulmuştur. Mahallenin ismi ilk zamanlar çadırlar olarak bilinirken daha sonraki dönemde güler yüzlü insanlarıyla bilinen mahallenin ismi şatırlar adını almıştır" (Vikipedi 2016, yanvar). Salyan rayonundakı Şatırovka yaşayış məntəqəsi rus dilindəki şatrov-şatrovıy sözüylə bağlansa da, onun kökündə türk mənşəli şatır sözü dayanır. Şatırovka çadıraoxşar, çadır şəkilli evlər mənasını verir. Bu ad Şatırovkadakı ilk evlərin çadır şəklində tikilməsi ilə bağlı yaranmışdır

(ADİL 2006: 209). Minəxanım Təkləli (Nuriyeva) "Rus dilində türk sözləri" kitabında (2001) Şatrov rus soyadının türkün şatır sözü ilə bağlı olduğunu yazır. Azərbaycan dilindəki çadır sözü rus dilinə şater şəklində keçmişdir və tikili, müvəqqəti ev, hökmdarın başı üzərində tutulan çadır mənalarında işlənir. Şahın, xanın oturduğu çadır get-gedə qərargah, hərbi düşərgə mənasını alır. Tədricən şatır, şater və şator *hərbi səfər çadırı* mənalarını da verir. Minəxanım Təkləli şatır sözünün rus dilindəki digər mənalarına da diqqət çəkir: şatrovıy xram – çadırvari məbəd, şatrovıe krışi – çadırvari örtüklər, Kremlevckiy şatrovıy kolokol – Kremlin çadırı zəngi və sair (Təkləli-Nuriyeva 2001: 166-167).

Qoz ağacından *çadıra* da şatır deyiblər. Şatır sözü öz sirrini el söyləmələrində də qorunub saxlayır. Tarixçi Elşad Əmənov topladığı folklor nümunəsi əsasında Şatır sözünün mənasını açmağa çalışır. El arasında şatır dəvə, şatır keçi, şatır adam ifadələri hələ də işlənməkdədir. Buradan aydın olur ki, Şatır sözü müəyyən fiziki keyfiyyət (əsasən, cəld, çevik, sürətli) mənasında işlədilir. Folklor nümunələrində də belədir:

İynə-iynə, ucu düymə,
Bəl-bəllicə, bəlli keçi
Qoz ağaci, qotur keçi,
Şam ağacı, Şatır keçi,
Əsmər tikən əmrqulu,
Vur nağara – çıx qırağa
(Əmənov 2013, dekabr).

*Bu misralar şatırların istifadə etdikləri çadırın bütün detallarını bir-bir göstərir. Çadırların üç ədəd yerə dayaq*

*olan yan ağaclarının ucu iynə kimi iti, yuxarı hissəsi isə iynənin arxası kimi deşik olur. Çadırı xaricdən örtmək üçün sürüdə bəslənmiş daha yaşlı və "dələduz" keçilərin dərisindən istifadə olunur. "Qoz ağacı" və "şam ağacı" ifadələri onu göstərir ki, çadırın yan ucları daha yüngül ağac materiallarından hazırlanır. "Qotur keçi" ifadəsi keçinin qotur xəstəliyinə tutulduğunu göstərmir. Burada keçinin kol-kos arasında hara gəldi sürtüldüyü və qəzilinin seyrək olduğu göstərilir. Çadırın örtük hissəsi əsmər tikiş formasında olur. Son iki misraya görə, əmrə müntəzir olan qul (işi görən şəxs) çadırı elə hazırlayır ki, içərisindən örtüyə əl vuranda o nağara kimi möhkəm olsun (Əmənov 2013, dekabr).*

Aran-yaylaq (yarımköçəri) həyat tərzi keçirən maldarlar qurduqları çadır yaşayış yerlərinin üstünü keçə ilə örtürdülər. Keçə, əsasən, qoyunçuluqla məşğul olan tayfaların arasında hazırlanır. Keçə yerə də döşənir. Qarabağ tərəfdə keçənin bir növü *nəmət* adlanır, nəmətdən döşənəcək kimi istifadə olunur. Toxucu nəğmələrində keçə xalı və kilim qədər dəyərlidir:

Gəvəni bükmə,
Gəvəni bükmə,
Hey, hey, hey.
Kilim, gəvə yükdədi,
Gözlərim gədikdədi.
Dönüb geri baxsana,
Sevdiyim yar dikdədi
(Alarlı 2013: 24).

Qoyunun yunu daraqdan keçiriləndən sonra *daraqaltı* adlanan qırım-qırtıq toplanır, sərilib tapdanır, keçə halına

salınır. Keçə bəzən keçi yunundan hazırlanır. Keçəni ayaqlayıb döyərək hazırlayanlar iş prosesinin ritminə uyğun şəkildə nəğmə oxuyurlar:

> Bükmə, bükmə, qoy dursun,
> Keçəçi təpik vursun.
> Həllac baxıb qudursun,
> Toppuzu göydə vursun (Alarlı 2013: 24).

Keçə örtük kimi baş-başa verilmiş ağacların üzərinə çəkilir və bütün ailə onun içərisində yaşayırdı. Bəzən köç arabasının üzərinə çəkilən keçə onu yaşayış yerinə çevirirdi. Bir çox hallarda bu məqsədlə iki-üç köç arabasını birləşdirirdilər. Üzəri keçə ilə örtülmüş arabaların döşəməsindən üst yatacaq, döşəmənin altından isə alt yatacaq kimi istifadə olunurdu. Bu yaşayış məskəni şatır (çadır) adlanır. Türk dillərinin çoxunda çadır sözü şatır şəklində işlənir. Çadır (çatır) sözünü *çatmaq məsdəri ilə* bağlayanlar da var. Çatır ağac dirəklərinin uclarını baş-başa çatmaq kimi yozulur. Baş-başa çatılmış ağaclar dəri və keçə ilə örtülür və nəticədə, çadır ev tikilir. Şatırın çadırla əvəzlənməsini Azərbaycan dilindəki ç-ş və d-t səsdəyişməsi halı ilə bağlayırlar. Çatmaq məsdəri çoxmənalı söz kimi yük çatmaq, ocaq çatmaq feli birləşmələri də yaradır. Çadır sözü sonralar *şatır* şəklinə düşmüşdür (Qasımov 2014: 353).

Şatırlını etnos və etnotoponim kimi nəzərdən keçirənlər bu fikirdədirlər ki, eyni adlı kəndlər qədim türk Şatar-Şatır tayfası tərəfindən salınmışdır. Şatır tayfasına mənsub ailələr məskunlaşdıqları yerlərə öz adlarını vermişlər və beləliklə, Şatırlı etnotoponimləri yaranmışdır. Masallıdakı Şa-

tırobanın Türkoba adlanan ərazi inzibati bölgüsünə daxil olması onun eyniadlı türk tayfası ilə bağlı olduğunu göstərir. Cəlilabaddakı Şatırlı oronim və hidronimləri (dağ və çay adları) öz adlarını buradakı Şatırlı etnosundan almışdır. Şatırlı kəndi qədim türk yaşayış məskənidir. Kənd iki hissəyə ayrılır. Birinci hissə Böyük Şatırlı, ikinci hissə Kiçik Şatırlı adlanır. Mahmudağa Qasımov yazır ki, Şatırlının qədim tarixə malik olmasını buradakı beş yerdə qədim, iki yerdə çağdaş qəbiristanlığın varlığı da sübut edir. Qədim qəbirlərin üzərindəki daşlarda günəş, günbəz, ox, gül şəkilləri və müxtəlif naxışlar çəkilmişdir (Qasımov 2014: 354).

Şatırlıdan tapılan tarixi abidələri, numizmatika nümunələrini, təsərrüfat, məişət və döyüş alətlərini araşdıran Elşad Əmənov sübut etmişdir ki, bu yaşayış məntəqəsinin tarixi təsəvvür etdiyimizdən də qədimdir. Kənddə üç köhnə su dəyirmanı olub. İranın sərhədində yerləşən bu kəndin əhalisi iqtisadi və ticarət əlaqələrini Ərdəbillə aparmışdır. Buna görə də, Şatırlı bölgədə mədəni cəhətdən inkişaf etmiş yaşayış məntəqəsi olmuşdur (Alarlı 2014: 38). M.Qasımovun məlumatına görə, kəndin ərazisində tarixi əhəmiyyətli (Narınqala, Xırman yeri, Daşlı Güney, Yamaclar, Darı yeri, Çəltiklik, Ballı yurd, Yusub körpüsü və sair) yer-yurd adları vardır. Burada həmçinin şəxs adları ilə bağlı kolatlar (kolkosları qırılıb təmizlənən ərazilər), ətəklər (rocalar), bağlar, bulaqlar, hətta lığlıqlar (ləclər) mövcuddur. Şatırlıda çoxlu nəsil yaşayır ki, bunlar da müxtəlif qollara ayrılır (Qasımov 2014: 359-364).

Araşdırıcılar Şatırlı etnosunu hun-türk tayfalarından biri sayırlar. Etimoloji təhlil zamanı məlum oldu ki, Şatırlı sözünün bütün yozumları türk mənşəlidir.

Hər hansı bir toponimin sözaçımının çalarlı olması təbii haldır. Şatırlı sözü ilə bağlı nəzərdən keçirdiyimiz mənbələr əsasında bu sözün ifadə etdiyi məna çalarlarını aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür: a) Çörəkçi, ocaqçı; b) köç, düşərgə, çadır, oba, mahal; c) dəvə; ç) şən, şux, məzhəkəçi; d) çevik, zirək, cəld; e) Şatır (şəxs adı) və -lı isim düzəldən şəkilçi; ə) Şatırlı (tayfa adı); f) ustad, piyada, qasid (poçtalyon), fərraş; g) qaçış ustası, yarış qalibi, mühafizəçi. Elşad Əmənov şatır sözünün məna çalarlarını bir qədər də zənginləşdirir: 1) Şatır yarışlarının keçirildiyi yer; 2) Sürətlə hərəkət edən; 3) Qədim və orta yüzilliklərdə saraylarda cangüdən vəzifəsini icra edən; 4) Xanın cilovdarı (Əmənov 2013, dekabr).

E.Əmənovun fikrinə görə, Şatır şəxs deyil, bu söz məşğuliyyət sahəsi, peşə kimi başa düşülməlidir. Onun çağdaş Azərbaycan dilində "cövhərçi" mənası da var. Cövhərçi cövhərin (rənglərin) hazırlanması və alqı-satqısı ilə məşğul olan şəxsdir (Əmənov 2013, dekabr).

### Şatırlar və "Şatır" oyunu

El arasında şatırlardan yadigar qalan oyunlar mövzusuna, məqsədinə və strukturuna görə fərqlənir. Bu oyunlardan biri çörəkbişirmə prosesini yamsılama ilə bağlıdır. Digər şatır oyunu isə cəld və çevik adamları müəyyən etmək məqsədi ilə qaçış-sınaq yarışları şəklində təşkil olunur. Bu oyun-yarış qaliblərə təntənəli şəkildə şatır ləqəbi verməklə tamamlanır.

Çörəkbişirmə prosesini yamsılama ilə bağlı şatır oyununu təlxəklər və məzhəkəçilər icra edirlər. Elçin Aslanov

xalq tamaşaları sırasında *şatır oyunundan* da söhbət açır və bu oyunun məzəli pantomim tamaşa olduğunu bildirir. El içində geniş yayılmış şatır oyunu tamaşasının digər adı *laloyunudur* və onun baş qəhrəmanı təlxək şatırdır. Bu tamaşada şatır (şatir şəkli də var) *məzhəkəçi* anlamında işlənir. E. Aslanovun yazdığına görə, bu söz həm də *"şən"və "şux"* mənasındadır: "Tamaşada bir oyunçu çörəkçi – "şatırı", o biri – "təndiri" təsvir edirdi. Çörəkçi təndir ətrafında rəqs edib oxuyur, sonra təndirdə "çörək yapmağa" başlayırdı. O, təndiri təsvir edən oyunçunun qarnına, sinəsi və qoltuğu altına guya, çörək yapıb çıxarır, bu da gülüş doğururdu" (Aslanov 1984: 258).



**Şatır**

Şatır oyununun xalq tamaşasını xatırladan səsli variantı da olmuşdur. Öz struktural keyfiyyətlərinə görə fərqlənən belə səhnəciklərdə *təndirbaşılar* oxunur. Təndirbaşı təndir

qalanarkən, təndirə çörək yapılarkən oxunan nəğmələrə deyilir. Bu təndirbaşılar xüsusi musiqi sədaları altında oxunmuşdur:

Xəmirim, hallı xəmirim,
Çörəyi ballı xəmirim.
Gedərəm yallı xəmirim,
Kündəni yağa tutaram,
Şəkərə, bala qataram.

Yaxud:

Təndir üstü od olar,
Kündəsində dad olar.
Xəmirim tata gedər,
Tiyə salar, yad olar.
Çəhrayı şallı gəlin,
Yanağı xallı gəlin.
Çörəyi can dərmanı,
Kündəsi ballı gəlin.

Yaxud da:

Əllərim xəmirlidi,
Təndirim hənirlidi.
Külfələri havalı,
Tüstüsü də davalı (AFA 2008: 110).

Çörəkxanada çörək bişirənlərin şatır adlanması ilə bağlı şərhlərdən biri kürəyə xəmir atanların və oradan çörəkləri çıxardanların cəldliyi ilə bağlıdır: “Bu peşə özü də dözüm-

lülük, istiyə müqavimətli olmaq, cəldlik və nəhayət, ustalıq tələb edir". Bu xüsusiyyətlərinə görə də onlara şatır deyilir" (Dadaşzadə 1985: 175).

Çörəkbişirmə prosesini yamsılama ilə bağlı şatır oyunu əyləncə xarakterli komik xalq oyunudur. Cəld və çevik adamları müəyyən etmək məqsədi ilə qaçış-sınaq yarışları şəklində təşkil olunan şatır oyunu isə idman-təlim xarakterlidir. Şatırlıq orta yüzilliklərin idman növü kimi məşhur idi, təkcə qaçışla məhdudlaşmır, həm də peşəkar bir iş sahibi yetişdirirdi. Şatırlar müxtəlif işləri yerinə yetirir, qasid, gözətçi, cangüdən, xidmətçi, oyunbaz, gözətçi, fəxri qarovul və sair bu kimi vəzifələri icra edirdilər. Şatırlar nəinki fiziki cəhətdən, hətta zehni cəhətdən fərqlənməli idilər. Xüsusən, toplama və çıxma əməllərini şifahi şəkildə daha yaxşı bilirdilər. Hun hökmdarlarının xüsusi dəstələri olurdu ki, onlar nəinki yüksək fiziki hazırlıqları ilə, eyni zamanda hərb işini də başqalarından min qat artıq bilirdilər (Əmənov 2013).

Şatırlar haqqında ətraflı araşdırma aparan Məmməd Dadaşzadə də bu peşəni idman növü ilə məhdudlaşdırmır: "Çünki müasir dövrdə qaçış idman növündən məqsəd dözümlü, cəld, məharətli, bir sözlə, sağlam insan tərbiyə etməkdirsə və bu işdən yalnız insanın sağlamlığı güdülürsə, haqqında danışdığımız dövrlərdə şatırların hazırlanması tamamilə başqa məqsəd daşımışdır. Lakin bununla belə şatırlığın təlimi bu işə rəğbət göstərəni, onu öyrənəni dözümlü, mərd, cəld və sağlam edirdi. İşin xüsusiyyəti belə idi ki, onun öhdəsindən yalnız sağlam adam gələ bilərdi" (Dadaşzadə 1985: 175).

Tarixdə şatırlıq peşəsinədək bu işi əvəz edə bilən bir neçə peşə mövcud olmuşdur. Hindistanda şatır sənətini yaşadanlar *davələr* adlanırdılar (Dadaşzadə 1985, 178). Azərbay-

canda qədim dövrlərdə atla hərəkət edən hörmətli şəxsləri mehtərlər müşayiət edərdilər. Sonralar bu ənənəni nədimlər və qulamlar davam etdirdilər. Əbu Əli Həsən İbn Əli Xacə Nizamülmülk “Siyasətnamə” əsərində şatırlıq təlimlərinə uyğun gələn qulam tərbiyəsindən söhbət açır. Qulamlar bir il müddətinə böyük məsafəni heç bir minikdən istifadə etmədən piyada getməliydilər (Nizamülmülk 1985: 99-110). Orta yüzilliklərdə şatırlıq dövlət əhəmiyyətli bir peşə olduğundan onların yarışı yüksək səviyyədə təşkil olunurdu. Şatırlar qısa şalvarda yortma yerişli yarışlarda iştirak edir, hakimin təyin etdiyi yerdə onun yolunu gözləyən adamdan nişanə üçün bir ox alıb qayıdırdılar. Səfəvilər dövründə şatırların vəzifə səlahiyyətləri çoxalır: “Bu dövrdə keçmiş dövrlərdən fərqli olaraq varlı süvari şəxsləri müşayiət edənlər mehtər deyil, şatır adı ilə tanınırdılar. Həm də onlar süvarinin sağ və sol tərəfində deyil, atın qabağında qaça-qaça hərəkət edirdilər. Bundan başqa, süvarini müşayiət edən iki nəfər deyil, bir neçə adam olur. Səfəvilər dövründə şatırların saxlanılması varlılar üçün bir şöhrət əlaməti olduğundan hər bir zadəgan və varlı şatırların sayını artırmağa çalışmışdır. Buna görə də şatırlar dəstəsi bu dövrdə xeyli artmışdı” (Dadaşzadə 1985: 177). İdman oyunu və əyləncə növü kimi şatırlıq dövlət maraqlarına xidmət etdiyindən sarayda şatırlıq təşkilatı yaradılmışdı və bu təşkilata şatırbaşı rəhbərlik edirdi: “Şatırların vəzifəsi xidmət etdikləri süvarinin qabağınca qaçaraq yol açmaq və onun varlı və şöhrətli bir adam olmasını nümayiş etdirməklə bərabər, həm də sahibkara qonaq gəldikdə pişvaza çıxmaq, onu evdən xeyli aralı qarşılamaqdır. Bu zaman şatırlardan bir neçəsi qonağın sağ və sol tərəfində gedir, ikisi isə atın cilovundan tuturdu və yortma qonağı evə gətirirdilər.

Bunlardan başqa, şatırların əsas vəzifəsi qasidlik idi" (Dadaşzadə 1985: 178).



**Şatırların qonaqları qarşılama mərasimi**

Qasid şatırlar kurqanların yanında qurulmuş çadırlarda olur, məktubu, xəbəri, əşyanı bir-birinə ötürə-ötürə ünvanına çatdırırdılar. Tehranla Peterburqu birləşdirən "Götürgə" yolu üstündəki Ölütəpə, Üçtəpə, Uzuntəpə, Qoşatəpə, Həməşərətəpə, Göytəpə, Qalatəpə, Şərəfətəpə, Digahtəpə, Qumbaşıtəpə kimi Muğan kurqanları ətrafında çadır quran piyada qasidlər – şatırlar kəsmə yolla gedib lazım olan məntəqəyə vaxtından tez çatırdılar. Bu sürətli yeriş şatırları idman oyunları zamanı yüksək nəticələr göstərməyə sövq edirdi, əks təqdirdə, onlar işin öhdəsindən vaxtında və lazımınca gələ bilməzdilər. Şatır oyununda təlimlə bağlı aşağıdakı tələblər yerinə yetirilməliydi:

*– Yolu sürətlə yerimə;*

*– Sürətlə qaçma;*

*– Uzaq məsafəni tez qət etmə;*

*– Xüsusi idman (yoxlama) oyununda şatırlıq adını alma və sair.*

Yarış rəqibsiz, tək qaçmaqla və kollektiv qaçışda bir-birini ötməklə icra olunurdu. Rəqib olmayan yarışlar müəyyən şərtləri vaxtında yerinə yetirməkdən ibarət idi. Yalnız bu zaman oyun iştirakçısına şatırlıq ləqəbi verilirdi.

Cəlilabad rayonundakı Şatırlı kəndi təbii relyefinə görə amfiteatrı xatırladır və kəndin mərkəzindəki yastança oyunların və yarışların keçirildiyi meydan olub. Əslən bu kənddən olan Elşad Əmənov bildirir ki, Şatırlı *sürətlə hərəkət edən adamların yarış keçirildiyi yer* deməkdir. Bu sözdə müəyyən həqiqət var.



**Cəlilabad rayonu, Şatırlı amfiteatrı**

Eldə, obada müxtəlif yarışların keçirilməsi adəti “Dədə Qorqud” dastanlarından da məlumdur. Dastanda oğuzlar öz

uşaqlarına, yeniyetmələrə və gənclərə adları xüsusi idman yarışlarının nəticələrinə görə qoyurlar: “Advermə motivi dastan ənənəsində qəhrəmanın epik bioqrafiyasını tamamlayan magik xeyir-duadır. Bundan sonra motivlər süjet xəttində hadisələrin qəhrəmanlıq fonunda getməsini təmin edir” (DQK 2004: 11). Adqoyma mərasimləri oğuz türklərinə məxsus adət və mərasimlərdən biridir: “Ol zamanda bir oğlan baş kəsməsə, qan dökməsə, ad qomazlardı” (KDQ 2004: 53). Dastan qəhrəmanı ad aldıqdan sonra cəmiyyətdə semiotik dəyər qazanır. “Şatırlar yarışların son mərhələsində 72 km. məsafəni birnəfəsə qaçmalı idilər. Bu mərhələyə qədər isə uzununa, hündürlüyə tullanmaq, ox atmaq, qılınc oynatmaq və sair yarışlar keçirilirdi. Bu yarışların içərisində ən maraqlısı qaçan ata çatıb onu minmək idi” (Əmənov 2013, dekabr).

Şərq ölkələrində, xüsusən, İranda və Hindistanda şatırların fəaliyyətini ətraflı şəkildə tədqiq edən M.Dadaşzadə bir maraqlı fakta da diqqət çəkir. Belə ki, şatır tərbiyə edib yetişdirmək işinə hələ uşaqlıqdan, 6 və 7 yaşlarından başlanırdı: “İlk dəfə yolu yeyin yerimə qaydaları öyrədilirdi. Birinci ildən sürətlə qaçmaq işinə keçilir və ilin axırına qədər 4 km məsafəni birnəfəsə qaçmaq öyrədilirdi. Şatırlıq təliminə başlayan gənc 18 yaşına qədər hər il əvvəlki ilə nisbətən qaçış sürətini artırır, daha çox məsafə qət edirdi. Nəhayət, şatırlığa tamam yiyələndikdən sonra idmançı şatırlıq adını almaq üçün xüsusi, həm də çox çətin yoxlamadan keçməli idi” (Dadaşzadə 1985: 180). Yoxlamanı şatır başçısı və şatırlar keçirir və şatır adını da qalibə onlar verirdilər.



**Süvari şatırlar**

Azərbaycanda da şatırlar birdən-birə yarışlara cəlb olunmurdular. Onlar 4-5 yaşlarından əyləncəli idman oyunlarında iştirak edir, 10-15 il müddətinə şatır kimi yetişdirilirdi. Belə oyunlara aşağıdakılar daxil idi: "Ciling ağac", "Tel bir", "Sürmə ağac", "Göz bağlama" və sair. Bu oyunlar elə qurulurdu ki, iştirakçılar qətiyyən yorulmurdular. Son nəticədə, fiziki və əqli cəhətdən daha güclü olanlar qələbə çalırdılar. Bütün oyunlar könüllülük prinsipləri əsasında təşkil olunurdu... Oyunların şərtləri qabaqcadan müəyyənləşdirilirdi ki, heç kəsin bu qaydaları pozmağa cürəti çatmasın. Qaydaları pozan və ya üzrlü səbəb olmadan oyunu tərk edənlər "lokkudu!" sözü ilə məzəmmət olunurdu (Əmənov 2013).

Şatır oyunu ümumxalq şənliyi şəklində böyük bir meydanda təşkil olunurdu: "Meydanın ortasında böyük bir taxt qurulur və onun üstünə meyvə və şirniyyat düzülürdü. Məc-

lisi rəqqasə qadınlar və xanəndələr daha şən edirdilər. Məclis qurulduqdan sonra şatırlıq ləqəbi qazanmaq istəyən şəxs qısa bir şalvarda ortaya çıxırdı" (Dadaşzadə 1985: 181). Bundan sonra qaçış nöqtəsi müəyyən edilir, iştirakçılar müəyyən edilmiş məsafəni qət etmək üçün meydanda 12 dəfə dövrə vururdular. Hər dövrədə ona bir ox verilirdi. Oyunun sonu təntənə ilə başa çatır, iştirakçılar və tamaşaçılar oynayıb-oxuyurdular. Şatırların geyimləri müxtəlif dövrlərdə müxtəlif cür olmuşdur. Məsələn, Səfəvilərin hakimiyyəti dövründə "şatırlar silindrəoxşar, lakin kənarları bir qədər dərin, enli dəri papaq qoyurmuşlar. Bu cür papaq onun üzünü günəşdən qoruyurdu. Papağın sol tərəfinə rəngli bəzəkli lələk sancırdılar" (Dadaşzadə 1985: 182). Şatırların geyimləri elə olurdu ki, onlar hərəkət edərkən ağırlıq və maneə hiss etməsinlər. Yüngül ayaqqabı geyir, şalvarlarının balaqlarını ağ parça ilə bağlayırdılar. Şatırların geyimlərini maraqlı edən cəhətlərdən biri qurşaqlarına bağladıqları zınqrovdur. Zınqrovun vəzifəsi qasidlik zamanı mənzil başında növbəti şatırı vaxtında xəbərdar etmək, məlumatı, məktubu, yaxud əşyanı ona çatdırmaq, bir sözlə, xidməti işi cəld yerinə yetirmək üçün idi. Bundan başqa, şatırların əlində əsaya bənzər bir çomaq da olurdu (Dadaşzadə 1985: 178). Sonralar bu geyimə lələklə yanaşı saçaqlar da əlavə olunmuş, XIX yüzillikdə hətta şatırın papağını çalmalar əvəz etmişdir.

Tədricən dövlət əhəmiyyətli funksiyasını itirən şatır oyunu el arasında uzun müddət yaşamış, cəld, çevik və dözümlü adamları müəyyən etmək məqsədi ilə təşkil olunmuşdur. Yardımlı rayonunda bir-birindən aralı yerləşən yaşayış məntəqələrinə xəbərləri aparıb-gətirmək üçün sürətlə qaçan uşaqlar yetişdirilirdi. Gənclər isə toy-düyündə oğlan evindən

qız evinədək piyada gedir, bu zaman cəld və çevik gənclər mükafatlandırılırdılar. Tarixçi Elşad Əmənov yaşadığı Şatırlı kəndində şatır oyunlarını əvəz edən qaçış yarışlarının bu gün də təşkil olunduğunu, bunun xüsusən uşaqlar və yeniyetmələr arasında maraqla qarşılandığını bildirir (Alarlı 2014: 32-38). Şatırlıq funksiyası maldar tayfalar arasında daha təkmil şəkildə qorunub saxlanmışdır. Belə ki, çoxlu mal-qarası olan adamlar arandan yaylağa, yaylaqdan arana köç edərkən, bir növ, mühafizəçi rolunu oynayan xüsusi gənclərin müşayiətindən faydalanırdılar. "Atı çəpış kimi boynuna götürən bu gənclər xüsusi təlimlə hazırlanan ağac döyüşçüləri" idilər, "el-obanı təhlükələrdən qoruyur", atkeçməz dərələrdə, əlçatmaz yamaclarda el köçünü itkisiz mənzil başına çatdırırdılar. Onlar cəld yeriməklə yanaşı, yalın əllərlə döyüşməyi öyrənir, çomaq (ağac) çalmağın növlərini mənimsəyirdilər (Alarlı 2014: 113).

## Nəticə

Araşdırma göstərdi ki, Azərbaycan xalqının şatır adlı indiyədək ətraflı şəkildə öyrənilməmiş bir-birindən fərqli iki oyunu mövcuddur. Bunlardan biri çörəkbişirmə prosesini yamsılama ilə bağlı şatır oyunu əyləncə xarakterli komik xalq oyunudur. Digəri cəld və çevik adamları müəyyən etmək məqsədi ilə qaçış-sınaq yarışları şəklində təşkil olunan idman-təlim xarakterli oyundur. El arasında mövcud olmuş şatır oyunu sağlamlığa xidmət etməklə insanlarda cəldlik, cəsurluq, dözümlülük kimi fiziki keyfiyyətlər formalaşdırmışdır. Çağdaş idman yarışlarında şatırlıq ənənələrinin izləri hələ də yaşayır. El arasında kortəbii şəkildə icra olu-

nan, bəzən də əyləncə məqsədilə təşkil olunan şatır oyununun bərpa olunmasına, idman yarışları siyahısına salınmasına ehtiyac var. Orta yüzilliklərə məxsus şatır oyununun bəzi elementlərini çağdaş idman yarışlarına tətbiq etmək mümkündür.

**Qaynaqlar:**


Alarlı 2013 – B.Alarlı. Qarabağın düzü var. Qudyalçayın sahillərində. Cəlilabad: Sözün işığı, 2013

Alarlı 2014 – B.Alarlı. Daş kitabələr sorağında, yaxud Şatırlıya bayram səfəri. Sözün işığı jurnalı, noyabr sayı (10), 32-38

Alarlı 2014 a – B.Alarlı. Viləş çayı boyunca. Cəlilabad: Sözün işığı, 2014

Aslanov 1984 – E.Aslanov. El-oba oyunu, xalq tamaşası. Xalq oyun-tamaşa mədəniyyətimizdə deyim və adların izahlı söz kitabı. Bakı: İşıq, 1984

ADDL 2007 – Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: Şərq-Qərb, 2007

ADİL 2006 – Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə, dördüncü cild. Bakı: Şərq-Qərb, 2006

AFA 2008 – Azərbaycan folkloru antologiyası, XVII kitab. Muğan folkloru (alarların arasından toplanmış folklor nümunələri). Toplayanı B. Hüseynov. Bakı: Nurlan, 2008

ATEL 2007 – Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə, ikinci cild. Bakı: Şərq-Qərb, 2007

Dadaşzadə 1985 – M. Dadaşzadə. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti. Bakı: Elm, 1985

DQK 2004 – Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər, 2004

Əmənov 2013 – E.Əmənov. Şatırlı // https://web.facebook.com/ Qazan-Köşkü, Qazan Köşkü. 23 - 29 dekabr 2013-cü il (daxil olunan tarix: 20.01.2016)

Qasımov 2014 – M.S.Qasımov. Cəlilabadın tarixi, etnonim və toponimləri. Bakı: Qanun, 2014

KDQ 2004 – Kitabi–Dədə Qorqud. Əsl və sadələş-irilmiş mətnlər. Bakı: Öndər, 2004

Məmmədov 1987 – ƏşMəmmədov. Şatırlı etnonimi haqqında // Elm və həyat, 1987, N: 5

Nizamülmülk 1989 – Nizamülmülk. Siyasətnamə. 2-ci nəşri. Bakı: Elm, 1989

Şatırlar. VİKİPEDİ Özgür Ansiklopedi //https://tr.wikipedia.org/wiki/ Şatırlar_ Saruhanlı (Daxil olunan tarix: 12.01.2016)

Təkləli-Nuriyeva 2001 – M. Təkləli-Nuriyeva. Rus dilində türk sözləri. Bakı: Elm, 2001

# AZƏRBAYCAN, İRAQ VƏ İRAN TÜRKLƏRİNİN TƏBİƏTLƏ BAĞLI XALQ OYUNLARI, MEYDAN TAMAŞALARI

**Aynur Cəlilova**
celilova1976@mail.ru

## AZERBAIJAN, IRAQ AND IRAN TURKS FOLK GAMES, SQUARE PERFORMANCES DEALING WITH THE NATURE

SUMMARY

Folk games and square performances are considered the basics of the national theatre. There are different samples related to the folk games in the folklore materials obtained from Azerbaijani regions. The folk games, square performances with the same motives in the folklore of Turks who live in Azerbaijan and other countries draw our attention. In particular, in relation to the coming of spring very interesting folk games, ceremonies have been held in all regions of Azerbaijan, West Azerbaijan province of Iran, Kirkuk province of Iraq and Darband. The ceremonies of “Kosa-kosa”, “Khan bezeme”, “Jan gulum” concerning Novruz holiday, the ceremonies of “Khidir Nabi” performed in the last month of winter before Novruz are the ancient types of folk games which spread in Azerbaijan. Alongside with the folk games, the square performances were displayed. The zurkhanas were held, the pehlevans (wrestlers) wrestled, rope-dancers, magicians made tricks, Kosa and Kechal juggled, played a trick and told funny stories in the squares. During these performances, the songs reflecting the mood of people are sung. There were cock fighting, dog fighting, ram fighting, goat

fighting, snake-charmer in the square performances that they attracted more spectators and were watched until the end. A number of games are held among children during the spring season. The children's games related to season have been involved in the study as a part of the games.

***Key words:*** Folk games, square, performance, ceremony, nature, song, combat, joke.

## НАРОДНЫЕ ИГРЫ И ПЛОЩАДНЫЕ ПРЕДСТАВЛЕНИЯ АЗАРБАЙДЖАНСКИХ, ИРАНСКИХ И ИРАКСКИХ ТЮРКОВ, СВЯЗАННЫЕ С ПРИРОДОЙ

РЕЗЮМЕ

Народные игры и площадные представления заложили основу нашего национального театра. В фольклорных материалах, собранных из Азербайджанских регионов, имеются отличающиеся друг от друга образцы, связанные с народными играми. В фольклоре тюрков, живущих в Азербайджане и других странах, привлекают к себе внимание народные игры, площадные представления с одинаковыми мотивами. В особенности, с приходом весны во всех регионах Азербайджана, в Западном Азербайджанском регионе Ирана, в Керкюкском регионе Ирака, в Дербенте проводились очень интересные народные игры, обряды. Обряды «Кёса-кёса», «Хан беземе», «Джан гюлюм», которые проводились во время праздника Новруз, а также обряд «Хыдыр Наби», который проводился в последний месяц зимы, перед праздником Новруз, являются распространенными древними видами народных игр в Азербайджане.

Наряду с народными играми, по праздникам показывали и площадные представления. На площади проводились зорхана борьба спортсменов, также канатходцы, волшебники, трюкачи исполняли свои номера, Кёса и Кечал шутили, играли, прикалывались. Во время этих представлений исполнялись песни, отражающие настроение народа. На площадных представлениях были петушиные, собачьи, бараньи, козлиные бои, также имелись заклинатели змей, дрессировщики медведей, что привлекало больше внимания зрителей, и все с интересом смотрели эти представления до конца.

В весенний сезон между детьми так же проводится ряд игр. В связи с сезоном детские игры были включены в исследование как одна из частей народных игр.

***Ключевые слова:*** народные игры, площадь, представление, обряд, природа, песня, бой, шутка.

Xalq oyunları və meydan tamaşaları türklərin həyatında əhəmiyyətli rola malik olan hadisələrdən hesab olunur. Çox geniş ərazilərdə məskunlaşan türklər öz yaşayışında oyun və mərasimlərə böyük yer vermiş, nəğmələr, şeirlər qoşmuş, tamaşalar göstərmişlər. Oyun və mərasimlərin çoxu təbiətlə, əsasən yazla bağlı olmuşdur. Yazın gəlməsilə təbiətdə oyanma, canlanma başlayır. İnsan da canlı təbiətin bir hissəsi olduğuna görə onun da ruhunda, cismində oyanış başlayır. Canlı həyatın başlanğıcı su ilə bağlıdır. Yazın gəlişi yağışların başlaması, günəşin torpağı qızdırması ilə başlayır. Təbiət yenidən dirilir, ölüm doğumla əvəzlənir. Bu əvəzlənməni bir çox xalqlar, o cümlədən azərbaycanlılar yeni il (Novruz) adlandırmışlar. Yeni ilin başlaması ilə Şimali

Azərbaycanın bütün bölgələrində, Güney Azərbaycanda, Kərkükdə, Dərbənddə əhali arasında bir sıra xalq oyunları, meydan tamaşaları göstərilir. Toplanmış materiallar göstərir ki, bu oyun və tamaşalar bir-birindən az fərqlənsə də, hərəsinin öz orijinallığı, öz gözəlliyi vardır.

Azərbaycanın müxtəlif bölgələrindən toplanmış folklor materiallarında və bizim canlı şahidi olduğumuz bayramlarda müxtəlif oyun və tamaşaların geniş yayıldığını və maraqla izləndiyini görürük. Xalq arasında elə oyunlar və mərasimlər var ki, onlara demək olar ki, bütün bölgələrdə rast gəlinir. Məsələn, Novruz şənliklərində Kosa-Keçəl məzhəkəsi, yumurta döyüşdürmə, tonqaldan atlanma və s. Və yaxud da Yağışyağdırma və Günçıxarma ilə əlaqəli oyun-tamaşalar. Belə mərasimlərdən olan "Qodu-qodu" adlı xalq oyunu yazda icra edilir. Bu mərasim həm yağış üçün, həm də günəş çıxması üçün keçirilən xalq oyunudur. Dərbənd, Kərkük, Şəki, Qarabağ, Zəngəzur bölgələrində keçirilən bu oyun-mərasim gün çıxarmaq məqsədi daşıyır. Oyun zamanı taxta çömçəni və ya qaşığı, bəzən isə ağacdan düzəlmə müqəvvanı gəlin kimi bəzəyib qapı-qapı gəzdirirlər və mahnı oxuyurlar. Bəzi örnəklərə baxaq:

Qodu-qodu gəzəllər,
Qoduya salam verəllər
Vermiyənin oğlu olsun,
Verənin qızı olsun.
Qolu çatma olsun,
Suya düşüb boğulub ölsün

(Şəki folkloru 2014: II, 252)

* * *

Qodu-qodu gördüyün varmı?
Qoduya pay verdiyin varmı?
Qodu gedənnən bəri,
Gün üzü gördüyün varmı?
(AFA 2002: XII, 90)

Cənubi Azərbaycan folklorunda eyni mərasimin yağış yağdırmaq üçün keçirildiyini müşahidə edirik. Burada "Çömçəxatun" mərasimi belə təsvir olunur: "... bir-iki nəfər libasını dəyişərək bir uzun taxta qaşıq və ya çömçə ilə gəlib evlərin qabağında oxuyaraq pay yığır (GAF 2015: V, 346). Bu bölgə üçün xarakterik olan "Çömçə balıq" oyunu mərasimi yağış yağdırmaq üçün uşaqlar tərəfindən oynanılır. Bu mərasimdə uşaqlar uzun ağacın başına rəngli parçalar dolayıb çömçə balıq düzəldirlər.

Çömçə balıq nə istər?
Allahdan yağış istər –

nəğməsini oxuya-oxuya evləri, məhəllələri gəzirlər. Ev sahibləri "çömçə balığın" başına su tökürlər və uşaqlara şirni, meyvə və s. pay verirlər. Bu mərasimin sonu Allaha dua edib yağış istəməklə bitir (GAF 2014: II, 16). İranın Yekanat və Xorasan vilayətlərində də quraqlıq olduğu üçün burada yaşayan türklər arasında yaz başlayanda "Çömçəxatun" mərasimləri keçirilirdi. Burada da uzun taxta qaşıq və ya çömçə götürüb mahnı oxuya-oxuya pay yığırlar. Bu bölgədə oxunan "Dodu", "Yada daşı", "Kos-kosan" adlanan nəğmələr türk xalq şeirinin ən əski nümunələrindən sayıla bilər:

Ada, ada, ada, gəl,
Yada, yada, yada gəl.
Yadam gəldi baş oldu,
Üstü-başım yaş oldu.
Ada, ada, ada hey,
Yada, yada, yada hey!

* * *

Dodu-dodunu gördünmü?
Doduya salam verdinmi?...

* * *

Kosan kosan nə istər?
Tanrıdan yağış istər...
(GAF 2015: IV, 353-354)

Burada adı çəkilən "yada daşı" Azərbaycanın Quba Şabran bölgəsinin "qodu-qodu" mərasimləri zamanı oxunan "qodu daşı"nın başqa bir variantıdır. Lakin burada Qodu günəş tanrısı yerində çıxış edir və yağışın kəsilməsi istəyini ifadə edir:

Qodu daşı,
Odu daşı,
Qodu kəssin yağışı.
(Quba-Şabran folkloru 2013: I, 13)

Kosa türk mifologiyasında yağışı, suyu təmsil edir. Novruz bayramında bayramım əsas iştirakçıları Kosa və Keçəl, biri yağışı, biri isə günəşi təmsil edir. Yazın gəlişi də bu

iki təbiət ünsüründən asılıdır. Kosa və Keçəlin qışla heç bir əlaqəsi yoxdur. Novruz bayramında meydan tamaşalarının əsas aktyorlarından biri Kosadır. Kosaya qoşulan nəğmələrdə Kosanın həyat verən, artımlı, həmişəcavan olması təsvir olunur:

Ay Kosa-kosa gəlmisən,
Lap vaxtında meydana sən.
Almayınca payını
Çəkilmə bir yana sən.
Beş yumurta payındı,
Əskiyini almayasan...
Mənim Kosam cannıdı,
Qolları mərcannıdı,
Kosama əl vurmayın,
Kosam ikicannıdı.
Qələm oynar qaşında,
Yüz əlli beş yaşında,
Gör nə cavandı Kosam...
(AFA 1994: VII, 21)

Və yaxud:

Gün düşdü, ha düşdü,
Göydən piyala düşdü
Bizim ağa qızının
Keçələ gözü düşdü...
(AFA 2002: VII, 37)

– xalq şeiri nümunəsində keçəlin günəşi təmsil etməyi göz önündədir. Azərbaycanın bir sıra bölgələrində (Qarabağ, Naxçıvan, Dərbənd) keçəlin gün çıxarması ilə bağlı müxtəlif inamlar vardır. İnama görə yağış çox yağanda 7 və ya 40 keçəlin adını sayıb ipə düyün vursan, yağış kəsər. Keçmişdə yazda xalq arasında uzun sürən yağışlardan sonra "Yeddi keçəl düyünü" adlı mərasim keçirilir ki, bu da gün çıxarmaq məqsədilə düzəldilmiş xalq oyun mərasimlərindən idi (Novruz ensiklopediyası 2008: 198).

Diqqət edilirsə isti bölgələrin hamısında yağışyağdırma mərasimləri qeyd olunur. Baxmayaraq ki, müxtəlif bayraqlar altında, müxtəlif ərazilərdə yaşayırlar, adət-ənənələr geniş arealda yaşadılır və bu türk xalqlarını birləşdirən başlıca amildir. Kərkük türkləri arasında Azərbaycanda, Güney Azərbaycanda olduğu kimi yağış yağdırma mərasimləri olurdu ki, adına "Çəmçələ qız" və "Kosa gəldi" deyirdilər. Kərkük türklər yaşayan isti bölgələrdən olduğundan burada yağış təbiətin, insanların çox ehtiyacı olan təbiətin vacib nemətlərindən sayılır. Yaz ağzı Kərkükdə, Mosulda və b. yerlərdə yağış olmaması az qala faciə yaradırdı. Kərkükün yağışçağırma mərasimində bütün əhali iştirak edirdi. 3 gün oruc tutandan sonra hər yeri, bazarı da bağlayardılar. Qurban kəsib "yağmur aşı" bişirərdilər. Kasıb-kusuba, yoldan keçənə paylayardılar. Çaya daş atardılar. Yağış daşına inam əksər türk xalqlarında vardır. Yuxarıda deyilən "yada daşı", "qodu daşı" ifadəsi bu inamdan irəli gəlir. Folklorşünas alim Q. Paşayev yağış daşının başqa türk xalqlarında da olduğunu qeyd edir (Paşayev 1992: 37-38). Bundan başqa ağaca paltar geyindirib "çəmçələ qız" (çömçə qız) düzəldərdilər. Kərkük-

lülər bu mərasimə dini simvollar da qatıb xalq oyununu daha da zənginləşdirmişlər:

Çəmçələ qızım aş istər,
Allahdan yağış istər.
Açın anbar ağzını,
Verin yağış payını.
Hey, Çəmçələ, çəmçələ,
Çəmçələm yağış istər,
Hüseyni yağlamağa,
Beşigi bağlamağa
Verənə allah versin,
Vermiyənə də versin.
Oğlu kürəkən dursun
Qızı həlhələ versin...
Çəmçələm yağış istər,
Dam divarı yaş istər
(Paşayev 1992: 36).

Kosa da qapıları gəzib pay yığardı, nəğmə oxuyardı, Kosanın yığdığı payları fəqir-füqəraya, kasıblara verərdilər.

Dərbənddə yağış yağmayanda "Quldil" və "Güdül" oyun mərasimi keçirilirdi. Bu oyunda qız yox, oğlan uşağını "quldil edib", (yağış ilahəsi) nəğmə oxuya-oxuya gəzdirib pay yığardılar (AFA 2006: IV, 42). Dərbənd türklərində əkin, biçin vaxtı külək olmayanda "Yeli çağırmaq" oyun-mərasimi keçirilirdi ki, bu da xalqın təbiətlə bağlı daha bir mərasimi hesab oluna bilər. Bu mərasimi ağsaqqallar həyata keçirirdi. Onlar şana götürüb, sovuruq ata-ata Heydər-Yel babaya nəğmə oxuyardılar:

Heydər, Heydər əsə gəl,
Xırmanları basa gəl.
Oğul-uşaq qırıldı,
Dayanma, dur yasa gəl
(Dərbənd folkloru 2014: IV, 12).

Eyni motivli yeləsdirmə mərasiminə İraq türkmənlərinin folklorunda da rast gəlinir. Aralarında minlərlə kilometr məsafə olmasına baxmayaraq eyni mərasim, hətta eyni nəğmə türk xalqlarının həyat məişətində özünə yer tutmuşdur (Paşayev 1992: 34).

Naxçıvan bölgəsi xalq oyun və mərasimləri baxımından zəngin bölgələrdən biridir. Burada iqlim dəyişkəndir, yaz yağışlı, yay çox isti, qışı sərt soyuq olar. Yazda uzun sürən yağışlardan sonra xalq ağac budağını gəlin kimi bəzəyib, boynuna muncuq salıb uşağa verirdilər. Burada oxunan nəğmələr başqa bölgələrlə oxşarlıq təşkil edir:

Godu-godu gördüyünüz varmı?
Goduya salam verdiyiniz varmı?
Godu gedəndən bəri,
Gün üzü gördüyünüz varmı?
Godunu atdan düşürün,
Goduya süddü aş bişirin,
Godu sabah gün çıxartmasa,
Vırın atdan düşürün (AFA 1994: 18).

Naxçıvanda "Yağ, yağışım", "Çömçəxatın" mərasimləri də olurdu ki, bunlar yağış yağdırmaq məqsədilə keçirilirdi. Burada Cənub folklorunda olduğu kimi uşaqlar quzu donuna

girib uzun taxta çömçəni bəzəyib qapıları gəzdirib pay yığardılar və nəğmələr oxuyardılar:

Əlincənin buludu,
Yetimlərin umudu,
Tanrı bir yağış yetir,
Demilərim qurudu, məə

Çömçəxatın duz istər,
Çiçək dolu düz istər,
Havaları buludlu,
Bol yağışlı yaz istər, məə.
(AFA 1994: 24) və s.

Naxçıvanda təmtəraqlı bayramlardan biri Novruz şənlikləri idi. Bayram ərəfəsində meydan tamaşaları qurulardı. Zorxanalar təşkil olunar, pəhləvanlar meydanda küştü tutardılar, güclərini sınayardılar. Meydan tamaşalarında heç şübhəsiz Kosa və Keçəl iştirak edirdi. Onlar məzəli hərəkətləri ilə xalqı güldürərdilər. Ağsaqqalların dediyinə görə bayram günlərində meydan tamaşaları şövqlə keçirilirdi. Belə ki, meydanda xoruz, qoç, it döyüşdürərdilər. Kəndirbazlar əlində heç bir taxta və ya ağac tutmadan kəndirin üstündə tryuklar göstərərdilər, bundan başqa gözbağlayıcılar, ilanoynadanlar, ayıoynadanlar olardı ki, əsl xalq aktyorları idilər – onları ancaq bayram günlərində görmək olardı. Amma bayram olmayan günlərdə də meydan tamaşaları olardı ki, bunlardan məşhurları tamaşaçısı bol olan it və xoruz döyüşü tamaşaları idi. Naxçıvanda hər həftə it döyüşdürərdilər. Xüsusi olaraq bu işlə məşğul olan zorba it saxlayanlar vardı ki, it boğuş-

durub pul qazanardılar. İstedadlı xalq rəssamı Əzim Əzimzadənin rəsm əsərlərində xalq oyun və tamaşalarından bəzi səhnələr əksini tapmışdır. “Xoruz döyüşü”, “İt döyüşü”, “Od bayramı”, “Kosa-kosa” tabloları rəssamın xalq oyunlarına həsr olunmuş maraqlı rəsmlərindəndir. Bundan başqa orta əsr miniatürlərində də bayramda keçirilən atüstü oyunlar – “Çövkan”, “Piyalə və ox” rəsmləri təsvir olunmuşdur.

“Xanbəzəmə” meydan tamaşası Novruz bayramında xalqın sevimli meydan tamaşalarından biri kimi naxçıvanlıların yaddaşında yaşayır. Burada Kosanın və təlxəyin iştirakı ilə “xan” seçilir. Sonra xana vəzir, vəkil, fərraş, cəllad seçilir. Xan da, onun komandası da xalq arasından seçilir. Xan istədiyi əmri verir, istədiyini “asır”, istədiyini mükafatlandırır. Hər kəs öz əməlinə görə xandan “ənam” alır. Kosa və təlxək hoqqabazlıq edib xanı güldürməyə çalışırlar. Sonda xanı taxtdan salıb suya basırlar (AFA 1994: 21). Bu xalq oyunu şübhəsiz ki, demokratik prinsiplərlə idarə olunan dövlət quruluşunun teatral formasıdır. Xanın, yaxud da padşahın xalq içindən seçilməsi, onun verdiyi qərarlar, günahkarın cəzalandırılması, xanın özünün sonda devrilməsi əski xalq hakimiyyətinin rituallaşmış formasıdır.

Azərbaycanda keçirilən qədim oyun mərasimlərdən biri də “Xıdır Nəbi”dir. Bu oyun-mərasim digər türk xalqlarında “Xıdırellez” (Xıdır İlyas) adıyla tanınmaqdadır. Anadolu, Kosova, Makedoniya, Suriya, İran türkləri arasında qeyd olunan bu mərasim islamdan əvvəlki xalq mərasimlərindən hesab olunur. “Xıdır Nəbi” dən fərqli olaraq “Xıdırellez” 5 mayda qeyd olunur. İnama görə yay fəslinin başlaması ilə ilin Xıdır günləri başlayır (Ocak 1990: 141). Azərbaycanlılar arasında isə Xıdır qışın gəlməsinin göstəricisi olub:

Xıdır girdi,
Qış girdi,
Xıdır çıxdı,
Qış çıxdı
(Novruz ensiklopediyası 2008: 110).

Yaz gəlməmişdən qışın sonuncu ayında, fevralın 12-də Zəngəzur, Naxçıvan, Şəki bölgələrində və İranın türklər yaşayan bölgəsində, qızılbaşlar, Əhli-həqq təriqəti üzvləri arasında “Xıdır Nəbi” mərasimləri keçirilir. Bu mərasim sufiliklə bağlı olan xalq mərasimlərindən olduğuna görə Əhlihəqçilər arasında da qeyd olunur. Sufilər Xızırı peyğəmbər yox, vəli, pir kimi qəbul edirlər və Xızırın əbədi yaşamağına xüsusi olaraq inanırlar. Şiə sufiləri Mehdi sahib-əz zamanı necə qəbul edirlərsə, Xızırı da eyni inamla qəbul edirlər. Əhli-həqq şiə sufi təriqəti olduğundan təriqətin yayıldığı bütün ərazilərdə “Xıdır” mərasimləri qeyd olunur. Güney Azərbaycan, Naxçıvan bölgələrinin bu mərasimi bugünə qədər yaşatmasının səbəbi budur. “Xıdır Nəbi”nin adı suyla, bərəkətlə bağlıdır və bu bayramda evlərə, bağlara, ruzi, bərəkət gələcəyinə xüsusi inam vardır. Azərbaycan ərazisindən toplanmış folklor materiallarında Xıdır Nəbi və ya Xıdır İlyasla bağlı bir çox inamların yer aldığını görərik. Bayramda uşaqlar “Xıdır Nəbi” nəğmələri oxuya-oxuya evlərdən pay yığırlar:

Çatma, çatmıya,
Çatma yerə batmıya.
Hər kəs Xıdıra ləyaxlı pay verməsə,
Muradına çatmıya (AFA 2005: XII, 92)

* * *

Xıdıra Xıdır deyəllər,
Xıdırın payın verəllər.

* * *

Xıdırı Xıdır İlyas
Özünü yetir İlyas

* * *

Xıdır Nəbi, Xıdır İlyas
Bitdi çiçək, oldu yaz,
Mən Xıdırın quluyam,
Boz atının çuluyam (Ocak 1990: 164) və s.

İranda keçirilən Xıdır Nəbi bayramlarında bayram axşamı Xıdırın evlərə girib Quran oxuyacağına, namaz qılıb saqqalına xına yaxacağına və yeməklərə toxunacağına inanılır. İraqın Bağdad şəhərində Xıdır Nəbi mərasimləri fərqli keçirilir. Burada deşilmiş taxta lövhələrə şam yerləşdirib şamı yandırıb çaya buraxırlar (Ocak, 1990: 164). Azərbaycanda da təxminən oxşar mərasim keçirilir. Burada alma çubuğunu qırıb uclarına pambıq dolayıb yağa batırırlar. Sonra həmin çubuqları qovutun (narın üyüdülmüş buğda) üstündə şam kimi yandırırdılar. İnama görə Xıdır gecə gəlib qovuta toxunacaqdı və o evdə bərəkət, bolluq olacaqdı (Novruz ensiklopediyası 2008: 101-102). Xıdır Nəbi mərasimləri özündə həm təsəvvüfü, həm şamanizmi, həm də zərdüştlüyü birləşdirən qədim xalq mərasimlərindən biridir.

Mövsümlə bağlı bir sıra oyun-tamaşalar da vardır ki, onları qısaca xatırlatmaq yerinə düşər, məsələn, "Kövsəc"

adlı oyun-tamaşa qışa 1 ay qalmış keçirilir. Bu oyunda qarğa qışı təmsil edir (Novruz ensiklopediyası 2008: 10). Maraqlı oyunlardan biri də "Belbaz" oyun tamaşasıdır. Bu oyun tamaşa da boz ayın ilk günlərində göstərilir. Oyunda aktyor torpaqda iş görən, əkinə hazırlaşan əkinçini canlandıraraq oyun çıxarır, beli atıb-tutur, rəqs edir (Novruz ensiklopediyası 2008: 45). Boz ayda oynanılan daha bir xalq oyun tamaşası "Cüt-kotan" adlanır. Bu tamaşa xırmanda keçirilir. Novruz ensiklopediyasında geniş təsvir olunmuş bu xalq oyunlarında aktyorlar yazda əkin-biçin, şumlama, suvarma işlərini canlandırırlar. Xalq bu oyun tamaşalarla torpağa bağlı olduğunu, yazda görəcəyi işləri qabaqcadan planlaşdırdığını diqqətə çatdırmaq istəmişdir.

Xalq oyunlarının çoxu Novruz bayramında, ilaxır çərşənbələrində göstərilir. Məsələn, "Kilimarası" (Ər-arvad) oyun məzhəkəsi, "Dəvə oyunu", "Maral oyunu", "Təkəçi mərasimi", "Salaməlik say bəylər" bayramın sevimli meydan tamaşalarındandır. Tamaşaların hərəsinin öz süjet xətti var. "Kilimarası" və "Dəvə oyunu" məzhəkəli komediyadır, "Təkəçi mərasimi" və "Salaməlik say bəylər" çobanın və təkələrin, təkəoynadanların, yalançı pəhləvanların iştirakı ilə düzəldilmiş meydan tamaşalarıdır (Novruz ensiklopediyası 2008).

Təbiətin dəyişməsi ilə əlaqədar olaraq uşaqların oynadığı bir sıra oyunlar var ki, onları da qeyd eləmək yerinə düşər. Məsələn, Güney Azərbaycan uşaq folkloruna aid olan yaz vaxtı oynanan "Bəy-gizir", "Təkəoynatma", "Yumurta döyüşdürmə" oyunlarını misal göstərmək olar. "Bəy-gizir" oyunu "Xanbəzəmə" və "Padşah oyunu" oyunlarının oxşar bir variantıdır desək, yanılmarıq. Burada cavanlar (böyük uşaqlar) öz aralarında bəy seçirlər. Bəy də özünə gizir və

məmurlar seçir. Sonra onlara əmrlər verir. Ya birini tutub cəzalandırır, ya birini mükafatlandırır və s. Bu oyunun da mahiyyəti, dəyəri istər uşaq olsun, istərsə böyük, insanın doğuluşdan ədalətli demokratik dövlət quruluşuna can atmasının, onu yaşatması istəyindən irəli gəlməsidir. Adətən Novruz bayramında oynanılan "Yumurta döyüşdürmə" istənilən yaşda uşaqlar arasında qırmızı boyanmış yumurtaları bir-birinə vuraraq oynanılır. Udan tərəf uduzandan – yumurtası çatlayan rəqibdən ya yumurta, ya toyuq, ya nə isə əvvəlcədən mərcləşdikləri bir şeyi alır. Güneydə bayram ərəfəsində keçirilən "Təkəoynatma" oyunu xüsusi ilə geniş yayılmışdır. Burada uşaqlar ağacdan təkə (erkək keçi) düzəldib onu əlvan parçalarla və aynalarla bəzəyib, qarnının altına qazan qapağı keçirib qapı-qapı gəzdirib "novruzdama" oxuyurdular və pay alırdılar. Təkəyə qoşulan nəğmələrin məzmunu məzəlidir:

Təkəm-təkəm atdama,
Qol-qıçıvu qatdama.
Sabahkı bayram gəlir,
Gedib çöldə otlama.

Ay mənim ala təkəm,
Başıma bəla təkəm.
Binamaz arvadların
Sırfasın yala təkəm.

Təkəm gedib Mərəndə,
Tamaşadı gələndə
Kül təkəmin başına
Qəynənəsi öləndə

(GAF 2014: II, 328) və s.

Xatırlatmaq yerinə düşər ki, “Salaməlik say bəylər” oyun-tamaşasının bir hissəsi olan “Təkəçi mərasimi” ilə Güney Azərbaycanda keçirilən “təkəoynatma” oyunu tamamilə eynidir. “Salaməlik say bəylər” oyun-tamaşası aktyorları və süjet xətti olan milli sayaçı xalq oyunudur. Burada çoban, çobanınköməkçiləri, yalançı pəhləvan, bənək, qoyunlar, təkələr, təkəoynadanlar və s. aktyorlar iştirak edir (Novruz ensiklopediyası 2008: 162).

Mövsümlə əlaqəli xalq oyunlarından danışarkən uşaqlar arasında keçirilən milli oyunları xüsusilə qeyd etməliyik. Bu oyunların çoxu Novruzda yazın gəlişi ilə keçirilir. “Qaravəlli”, “Artırma”, “Beşdaş”, “Çömçəbaşı bəzəmə”, “Başqoruma”, “Dəsmalaldı”, “Dirədöymə”, “Gözbağlıca”, “Hofbana-hofban”, “Mərəköçdü”, “Mozu-mozu”, “Təkləmə”, “Turnavurdu” və s. (Novruz ensiklopediyası, 2008). Bəzi oyunlar var ki, onun oynanması hansısa bir bitkidən və ya məhsuldan asılı olur: Məsələn, “Sarı gülün sapı” adlı oyun Güneydə sarı çiçəklər açanda uşaqlar arasında oynanılır. Oyun predmeti sarı çiçəkdir (GAF 2015: IV, 37).

Və yaxud da “Misqala kəsmək” oyunu qarpız yetişəndə, “Girdəkan” oyunu qoz yetişəndə oynanılan oyunlardır (GAF 2015: IV, 39). Oyun predmeti adı çəkilən meyvələrdir. Maraqlı oyunlardan biri də “Südlü-sümük” oyunudur. Oyunun oynanma vaxtı gecə yarısıdır. Oyunun məğzi gecə vaxtı ay işığında uzağa atılmış sümüyü tapıb əvvəlcədən qazılmış çalaya atmaqdır. Oyunda iki komanda iştirak edir və komandalardan biri o birinə mane olmağa çalışır (GAF 2015: V, 33).

Xalq oyunları sırasına Şərqdə geniş yayılmış atüstü oyunlar da daxildir. İslam ölkələrində geniş yayılmış bu oyunlar Azərbaycanda da vaxtilə populyar oyunlar hesab

olunurdu. Dastan və nağıllarda eləcə də digər folklor örnəklərində atüstü oyunların geniş yayıldığı, əcdadlarımızın sevimli məşğuliyyətlərindən olduğu görünməkdədir. Bu oyunlar da əsasən, yazda, bayram ərəfəsində keçirilirdi. Məşhur atüstü oyunlardan Cıdır oyunları, "Çövkan", Piyalə və ox", "Yaylıqqaçırtdı" oyunlarını misal göstərmək olar.

## Nəticə

Təbiətin müəyyən vaxtları ilə əlaqədar olaraq xalq təbiət qüvvələrini ilahiləşdirərək oyunlar, məzhəkələr vasitəsilə təbiətə təsir göstərməyə çalışmışdır. Xalq teatrı meydan tamaşaları ilə başlamışdır. Xalq teatrı insanın təbiətlə təmasından yaranmışdır. Təbiətin oyanışı yazla başladığından xalq oyun və mərasimlərinin də əksəriyyəti yazla bağlıdır. İran, İraq və Azərbaycanın türkmənşəli xalqlarının, eləcə də Dərbənd türklərinin dil, mədəniyyət və folklorunun təxminən eyni olması bu xalqların eyni ağacın yarpaqları olmasından irəli gəlir. Vaxtilə eyni mədəniyyətin daşıyıcıları olan türklər indi dünyanın müxtəlif hissələrində müxtəlif millətlərin əhatəsində yaşasalar da, öz keçmiş ənənələrini yaşatmaqla öz varlıqlarını sürdürməkdə davam edirlər.

## Qaynaqlar:

AFA 1994 – Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. Bakı: Sabah, 1994

AFA 2002 – Azərbaycan folkloru antologiyası. VII kitab. Qaraqoyunlu folkloru. Bakı: Səda, 2002

AFA 2005 – Azərbaycan folkloru antologiyası. XII kitab. Zəngəzur folkloru Bakı, Səda, 2005

AFA 2006 – Azərbaycan folkloru antologiyası. XIV kitab. Dərbənd folkloru Bakı, Səda, 2006

Dərbənd folkloru 2014 – Dərbənd folkloru örnəkləri. I kitab. Bakı: Elm və təhsil, 2014

GAF 2014 – Güney Azərbaycan folkloru. II kitab. Bakı: Elm və təhsil, 2014

GAF 2015 IV – Güney Azərbaycan folkloru. IV kitab. Bakı: Elm və təhsil, 2015

GAF 2015 V – Güney Azərbaycan folkloru. V kitab. Bakı: Elm və təhsil, 2015

Quba-Şabran folkloru 2013 – Quba-Şabran foklor örnəkləri. I kitab. Bakı: Elm və təhsil, 2013

Novruz ensiklopediyası 2008 – Novruz bayramı ensiklopediyası. Bakı: Şərq-Qərb, 2008

Ocak 1990 – A.Y.Ocak. İslam-türk inançlarında Hızır, yahut Hızır-İlyas kültü. Ankara, 1990

Paşayev 1992 – Q.Paşayev. İraq-türkman folkloru. Bakı: Yazıçı, 1992

Şəki folkloru 2014 – Şəki folkloru örnəkləri. II kitab. Bakı: Nurlan, 2014

# KİTABIN İÇİNDƏKİLƏR

**Ramazan Qafarlı.** Qədim türk mifoloji-folklor irsinin araşdırılmasında və təbliğində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin rolu ....... 3

**Ağaverdi Xəlil.** Heydər Əliyev siyasi kursu və folklorda yaşayan dəyərlərimiz ............................. 31

**Seyfəddin Rzasoy.** Müstəqillik dövrü Azərbaycan folklorşünaslığı: nəzəri-metodoloji axtarışlar və tədqiqat istiqamətləri ................................................. 39

**Almaz Həsənqızı.** Azərbaycan mühacirət folklorşünaslığı çağdaş elmi-nəzəri fikir kontekstində ........................................................... 47

**Mətanət Abbasova.** Müstəqillik dövrü Azərbaycan folklorşünaslığında Cənubi Azərbaycan folkloru məsələləri................................. 62

**Nizami Muradoğlu.** Çağdaş şeirimizdə istiqlal düşüncəsi və onun folklor qaynaqları ......................... 73

**Sevda Kərimova.** Folklorla bağlı qanunvericilik....... 118

**Əfzələddin Əsgər.** Oğuznamədə “üçox” və onun arxaik semantikası...................................................... 132

**Elçin Abbasov.** Türk dövlətçilik ənənəsində əjdaha və aslan (bars) simvolları və onların dini-mifoloji kökləri ................................................. 153

**İlkin Rüstəmzadə.** Folklorda “Padşah oyunu” və onun arxaik kökləri.................................................... 182

**Bilal Alarlı (Hüseynov).** Saray şatırları və şatır oyunu............................................................... 219

**Aynur Cəlilova.** Azərbaycan, İraq və İran türklərinin təbiətlə bağlı xalq oyunları, meydan tamaşaları.......... 240

**Folklor və dövlətçilik düşüncəsi.**
**II kitab.**
Bakı, Elm və təhsil, 2017

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığdı:
**Ləman Qafarova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 70/100 1/16
Mətbəə kağızı: №1
Həcmi: 260 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış,
"Elm və təhsil" NPM-də hazır deopozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.